# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## OTUZ SƏKKİZİNCİ KİTAB

## SENTYABR 2009 - NOYABR 2009

AZƏRNƏŞR
BAKI - 2017

# İLHAM
# ƏLİYEV

ÇIXIŞLAR * NİTQLƏR

BƏYANATLAR * MÜSAHİBƏLƏR

MƏKTUBLAR * MƏRUZƏLƏR

MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI - 2017

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2017, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Moldovaya, İordaniyaya, İsveçrəyə, Belorusa və Bolqarıstana səfərləri, həmçinin Qazaxıstan, Türkiyə və Qırğızıstan prezidentlərinin ölkəmizə səfərləri zamanı bu ölkələrin dövlət və hökumət başçıları ilə ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafına dair görüş və danışıqlarından, bağlanan müqavilələrdən bəhs olunur. Azərbaycan prezidenti bütün görüş və danışıqlarda Ermənistanın işğalçılıq siyasətini önə çəkmiş, regionun inkişafına əngəl olan Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normaları çərçivəsində həllinə dəstək olmağa çağırmışdır.

Dövlət başçısının bölgələrə səfərləri, regionların sosial-iqtisadi inkişaf proqramının həyata keçirilməsi, ölkənin sosial, iqtisadi, kənd təsərrüfatı və mədəni cəhətdən inkişafına həsr olunmuş nitqlərinə və səfər etdiyi bölgələrdə bir sıra orta məktəblərin, zavodların, sənaye müəssisələrinin açılışında iştirakına dair müzakirələri və ictimaiyyətin nümayəndələri ilə görüşlərinə dair materiallara da yer verilmişdir.

Bu cilddə, həmçinin Azərbaycan prezidentinin ölkəmizə gəlmiş mədəniyyət xadimləri, bir sıra beynəlxalq təşkilatların nümayəndələri ilə görüşləri, kütləvi informasiya vasitələrinə verdiyi müsahibələri dərc olunmuşdur.

**ISBN 978-9952-8100-7-3**

**Ə $\frac{0801000000}{M – 651(07) – 2017}$** **BBK - 32**

© Azərnəşr, 2017

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2017, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Moldovaya, İordaniyaya, İsveçrəyə, Belorusa və Bolqarıstana səfərləri, həmçinin Qazaxıstan, Türkiyə və Qırğızıstan prezidentlərinin ölkəmizə səfərləri zamanı bu ölkələrin dövlət və hökumət başçıları ilə ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafına dair görüş və danışıqlarından, bağlanan müqavilələrdən bəhs olunur. Azərbaycan prezidenti bütün görüş və danışıqlarda Ermənistanın işğalçılıq siyasətini önə çəkmiş, regionun inkişafına əngəl olan Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normaları çərçivəsində həllinə dəstək olmağa çağırmışdır.

Dövlət başçısının bölgələrə səfərləri, regionların sosial-iqtisadi inkişaf proqramının həyata keçirilməsi, ölkənin sosial, iqtisadi, kənd təsərrüfatı və mədəni cəhətdən inkişafına həsr olunmuş nitqlərinə və səfər etdiyi bölgələrdə bir sıra orta məktəblərin, zavodların, sənaye müəssisələrinin açılışında iştirakına dair müzakirələri və ictimaiyyətin nümayəndələri ilə görüşlərinə dair materiallara da yer verilmişdir.

Bu cilddə, həmçinin Azərbaycan prezidentinin ölkəmizə gəlmiş mədəniyyət xadimləri, bir sıra beynəlxalq təşkilatların nümayəndələri ilə görüşlərinə dair materiallar, kütləvi informasiya vasitələrinə verdiyi müsahibələri dərc olunmuşdur.

**ISBN 978-9952-8100-7-3**

Ə **0801000000** / **M – 651(07) – 2017**

**BBK - 32**

© Azərnəşr, 2017

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL KANSLERİ ZATİ-ALİLƏRİ XANIM ANGELA MERKELƏ**

Hörmətli xanım Federal Kansler!

Ölkənizdə keçirilmiş parlament seçkilərində başçılıq etdiyiniz partiyanın inamlı qələbəsi münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Almaniya dövlətlərarası münasibətləri, dostluq əlaqələrimiz, bir çox sahələrdə qarşılıqlı maraq doğuran əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da müvəffəqiyyətlə davam edəcək və möhkəmlənəcəkdir.

Sizə cansağlığı, xoşbəxtlik, dost Almaniya xalqının rifahı naminə fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 sentyabr 2009-cu il*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*30 sentyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 30-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin müxtəlif istiqamətləri, o cümlədən energetika sahəsində əməkdaşlıq, regional və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdı.*

## ÇEXİYA BAŞ NAZİRİNİN MÜAVİNİ, MÜDAFİƏ NAZİRİ MARTİN BARTAKIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 oktyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 1-də Çexiyanın Baş nazirinin müavini, Müdafiə naziri Martin Bartakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan–Çexiya ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev Çexiyadan mütəmadi olaraq müxtəlif səviyyəli nümayəndə heyətlərinin ölkəmizə səfərlərini əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi. Dövlətimizin başçısı bu il Çexiyaya səfərini xatırlatdı və ölkələrimiz arasında intensiv dialoqun aparılmasının əhəmiyyətini qeyd etdi. Azərbaycan prezidenti əmin olduğunu bildirdi ki, Çexiyanın Baş nazirinin müavini, Müdafiə nazirinin ölkəmizə bu səfəri də Azərbaycan ilə Çexiya arasında münasibətlərin daha da möhkəmlənməsi işinə xidmət edəcəkdir.*

*Ölkələrimiz arasında əlaqələrin daha sıx xarakter aldığını müsbət hal kimi qiymətləndirən Martin Bartak qeyd etdi ki, biz bu regionda Azərbaycana çox sabit bir ölkə kimi baxırıq. Qonaq ölkəsinin Azərbaycan ilə münasibətlərə böyük önəm verdiyini vurğuladı və ümid etdiyini bildirdi ki, digər sahələrdə olduğu kimi, hərbi sahədə də əməkdaşlığımız daha da genişlənəcəkdir.*

## DÜNYA BANKININ AVROPA VƏ MƏRKƏZİ ASİYA REGİONU ÜZRƏ DAVAMLI İNKİŞAF SEKTORUNUN DİREKTORU PİTER TOMSONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 oktyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 1-də Dünya Bankının Avropa və Mərkəzi Asiya Regionu üzrə Davamlı İnkişaf Sektorunun direktoru Piter Tomsonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Dünya Bankı arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

**İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA**

Hörmətli cənab Prezident!

Sumatra adasında baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni son dərəcə sarsıtdı.

Bu ağır anlarda dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün İndoneziya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 oktyabr 2009-cu il*

## QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*2 oktyabr 2009-cu il*

*Oktyabrın 2-də Azərbaycan Respublikasına rəsmi səfərə gələn Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev Qazaxıstan prezidenti Nursultan Nazarbayevi qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Qazaxıstan prezidentinə raport verdi.*

*Qazaxıstanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Qazaxıstan prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Nursultan Nazarbayevə, Qazaxıstan nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*2 oktyabr 2009-cu il*

*Oktyabrın 2-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin təkbətək görüşü olmuşdur.*

*Görüşdə dövlət başçıları ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin inkişafından məmnunluq ifadə etdilər. Yüksək səviyyədə həyata keçirilən qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulandı və bu səfərin də əlaqələrin daha da genişlənməsinə töhfə verəcəyi bildirildi.*

*Qazaxıstan prezidenti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xidmətlərindən danışarkən dedi ki, Heydər Əliyev Azərbaycanı sabit inkişaf yoluna çıxardı. Siz isə yeni və müasir Azərbaycan yaratdınız.*

*Nursultan Nazarbayev Bakı şəhərində gedən sürətli yeniləşməyə toxunaraq bildirdi ki, indi Azərbaycan paytaxtı ənənələri və müasirliyi özündə birləşdirən Avropa şəhərinə çevrilmişdir.*

*Dövlət başçıları ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi apardılar.*

## AZƏRBAYCAN VƏ QAZAXISTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*2 oktyabr 2009-cu il*

*Oktyabrın 2-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Qazaxıstan prezidenti Nursultan Nazarbayevin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.*

**İlham Əliyev:** Hörmətli Nursultan Abişeviç!

Hörmətli qonaqlar!

Bir daha Azərbaycana xoş gəlmisiniz! Sizi görməyə çox şadam. Əminəm ki, səfər uğurlu olacaq və onun nəticələri münasibətlərimizin gələcək inkişafına çox müsbət təsir göstərəcəkdir. Bizim aramızda çox möhkəm tarixi əlaqələr vardır. Ölkələrimiz beynəlxalq aləmdə uğurlu qarşılıqlı fəaliyyət göstərir. İkitərəfli münasibətlər çox uğurla inkişaf edir. Əminəm ki, ölkəmizə səfəriniz, qəbul edəcəyimiz qərarlar və imzalayacağımız sənədlər münasibətlərimizin inkişafı, regional əməkdaşlığın möhkəmlənməsi, nəzərdə tutduqlarımızın hamısının uğurla həyata keçirilməsi üçün çox böyük praktiki əhəmiyyət kəsb edəcəkdir. Səfəriniz müddətində hər iki ölkənin nümayəndə heyətlərinin üzvləri də qəbul edilmiş qərarların həyata keçirilməsi, hər bir istiqamətdə konkret addımların atılması üçün fəal işləyəcəklər.

**Nursultan Nazarbayev:** İlham Heydər oğlu, dəvət üçün, daimi ənənəvi qonaqpərvərlik, bizə qardaş münasibəti üçün çox sağ olun.

Həqiqətən, biz buraya nazirliklərin və idarələrin rəhbərlərindən ibarət böyük nümayəndə heyəti ilə gəlmişik ki, ilk

növbədə, ölkələrimizin böhrana qarşı iş sahəsində təcrübə mübadiləsi aparaq, həll edilməmiş məsələləri həll edək. Biz zəruri əməkdaşlıq sahələrini Sizinlə ətraflı müzakirə etdik, hökumətlərarası komissiya da işlədi. İndicə mənə məruzə etdilər ki, artıq həll edilməmiş, razılaşdırılmamış heç bir məsələ qalmamışdır. Qazaxıstan–Azərbaycan münasibətləri yüksək səviyyədədir. Sizinlə görüşlərimizin dinamikası buna dəlalət edir. Bu ənənənin əsası hələ Sizin atanız, mənim dostum və böyük qardaşım Heydər Əliyev tərəfindən qoyulmuşdur. Bizim aramızda heç bir anlaşılmazlıq, həll edilməmiş məsələ, siyasi problem olmamışdır. Sizin uğurlarınıza sevinirik, şadıq ki, Azərbaycan bu regionun şəksiz liderinə çevrilmişdir və hətta bu şəraitdə də nümunə göstərir. Dörd il Bakıda olmamışam, bu gün Bakı tamamilə başqa, müasir və gözəl şəhərdir. Mən təzə paytaxt tikmiş bir adam kimi, bunun nə demək olduğunu bilirəm. Möhtəşəm iş görülmüşdür. Hətta təyyarədən baxanda Bakının sənaye görkəmi tamam başqadır. Sovet dövründə mən burada tez-tez olurdum, köhnə şəhərin vəziyyəti yadımdadır. Bu gün xüsusən mərkəzin bu cür olması bizi sevindirir və mən Sizi təbrik edirəm. Hər halda, paytaxt ölkənin güzgüsüdür, ona baxıb hər şey barədə mühakimə yürüdürlər və regionlar da özlərini necə aparmağı ondan öyrənirlər.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Prezident sarayı*

*2 oktyabr 2009-cu il*

*Oktyabrın 2-də geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Qazaxıstan prezidenti Nursultan Nazarbayevin iştirakı ilə Azərbaycan–Qazaxıstan sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Sumqayıt şəhəri (Azərbaycan Respublikası) və Aktau şəhəri (Qazaxıstan Respublikası) arasında qardaşlaşmış şəhər münasibətlərinin yaradılması haqqında Birgə Bəyannamə»ni Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Vaqif Əliyev və Aktau şəhərinin akimi Salimgerey Bakbergenov imzaladılar.*

*«Qazaxıstanın karbohidrogen yataqlarının işlənməsi zamanı Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin neft-qaz infrastrukturunun obyektlərinin birgə istifadəsi haqqında Memorandum»u, «Transxəzər layihəsi üzrə texniki-iqtisadi əsaslandırmanın işlənib hazırlanması ilə əlaqədar birgə fəaliyyət haqqında Müqavilə»ni, «Kazmunayqaz» Milli Şirkəti Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında Bakı–Qara dəniz neft kəməri üzrə əməkdaşlığa dair Niyyət Memorandumu»nu ARDNŞ-in prezidenti Rövnəq Abdullayev və Kazmunayqaz Milli Şirkəti Səhmdar Cəmiyyətinin sədri Kairgeldi Kabıldin imzaladılar.*

*«Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Qazaxıstan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Saziş»i və «Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Kənd Təsərrüfatı*

*naziri İsmət Abasov və Qazaxıstanın Kənd Təsərrüfatı naziri Akılbek Kurişbayev imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında 1992–1993-cü illər ərzində müxbir hesabları üzrə hesablaşmalara keçidə kimi və ondan sonra ticarət-iqtisadi münasibətlər nəticəsində yaranmış borcun ödənilməsi haqqında Saziş»i Azərbaycanın Maliyyə naziri Samir Şərifov və Qazaxıstanın Maliyyə naziri Bolat Jamişev imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında vətəndaşların qarşılıqlı vizasız gediş-gəlişi haqqında Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Qazaxıstanın Dövlət katibi Kanat Saudabayev imzaladılar.*

## AZƏRBAYCAN VƏ QAZAXISTAN PREZİDENTLƏRİNİN MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLARI

*Prezident sarayı*

*2 oktyabr 2009-cu il*

*Oktyabrın 2-də sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan və Qazaxıstan prezidentləri mətbuat üçün bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli Nursultan Abişeviç!

Hörmətli qonaqlar!

Mən Sizi Azərbaycanda ürəkdən salamlayıram. Sizi yenidən görməyimə çox şadam və sevinirəm ki, bu gün aparılmış danışıqlar çox yaxşı nəticələr verir. Biz gündəliyi diqqətlə nəzərdən keçirdik, siyasi münasibətlərimiz çox yüksək səviyyədədir. İqtisadi böhrana və əmtəə dövriyyəsinin səviyyəsinin müəyyən qədər azalmasına baxmayaraq, əvvəlki illərin təcrübəsi göstərir ki, iqtisadi əlaqələr dinamik inkişaf etmişdir və əminəm ki, bu müvəqqəti azalma yaxın vaxtlarda aradan qaldırılacaqdır. Bu gün imzalanmış sənədlərdə öz əksini tapmış layihələr, ilk növbədə energetika sahəsində layihələr nəzərə alınmaqla, əminəm ki, ölkələrimiz arasında qarşılıqlı ticarətin səviyyəsi yaxın vaxtlarda əhəmiyyətli dərəcədə artacaqdır.

Energetika sahəsində biz müttəfiqlərik, Xəzərdə qonşuyuq və bu sahədə münasibətlərin inkişaf etdirilməsi üçün gözəl potensial imkanlar vardır. Bu gün imzalanmış sənədlər

böyük yolun başlanğıcıdır. Qazaxıstan nefti bizim ölkəmizin ərazisindən müxtəlif yollarla – həm dəmir yolu, həm də Bakı–Tbilisi–Ceyhan boru kəməri vasitəsilə dünya bazarlarına nəql edilir. Gələcəkdə yeni boru kəmərlərinin, Azərbaycanın digər nəqliyyat imkanlarının işə salınması ölkələrimiz arasında daha artıq inteqrasiyaya gətirib çıxaracaqdır. Göründüyü kimi, nəqliyyat sahəsində yaxşı perspektivlər vardır. Əminəm ki, Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi başa çatandan sonra bizim Qazaxıstandakı dostlarımız da bu dəmir yolundan istifadə etmək imkanına malik olacaqlar.

Kənd təsərrüfatında münasibətlərin inkişaf etdirilməsinin konkret yollarını da müəyyən etdik. Əmtəə dövriyyəsinin artırılması böyük əhəmiyyətə, potensiala malikdir.

Nursultan Abişeviç, ölkələrimiz arasında ikitərəfli münasibətlərin möhkəmlənməsi, Xəzərdə, Qafqaz regionunda səmərəli əməkdaşlıq üçün əlverişli mühitin yaradılması, təhlükəsizlik tədbirlərinin və qarşılıqlı etimadın möhkəmlənməsi sahəsində səylərinizə görə Sizə çox minnətdaram. Dəvətimizi qəbul etdiyinizə və bu gün səfərə gəldiyinizə görə bir daha təşəkkürümü bildirmək, Sizə və bütün nümayəndə heyətinə uğurlar diləmək istəyirəm.

Biz bu gün və sabah Naxçıvanda işləməliyik. Bu iş bizim ikitərəfli münasibətlərə yaxşı təsir göstərəcəkdir.

## Qazaxıstan prezidenti Nursultan Nazarbayevin bəyanatı

Hörmətli İlham Heydər oğlu!

Hörmətli dostlar!

Azərbaycana, Bakıya səfərə dəvət olunduğumuza görə Sizə ürəkdən minnətdarıq. Biz bunu böyük sevinclə edirik. Qazaxıstanın bir sıra nazirlərindən, müvafiq şirkətlərin rəhbərlərindən ibarət sanballı nümayəndə heyəti səmərəli danışıqlar aparmışdır. Hökumətlərarası komissiyanın birgə iclası keçirilmiş, gündəlikdə nəzərdə tutulan bütün məsələlər üzrə uğurlar əldə edilmiş, sənədlər imzalanmışdır.

Nəticədə biz energetika sahəsində əməkdaşlığı gücləndirmək barədə razılığa gəlmişik. Azərbaycanın neft-qaz infrastrukturundan istifadə edilməsinə, ölkələrimiz arasında nəqliyyat kommunikasiyalarına, neftin emal edilməsi üzrə birgə iş və kadrların hazırlanması sahəsində təcrübə mübadiləsinə, araşdırmalara, gələcək hasilata və nəqletməyə dair sənədlər imzalanmışdır. Bunlar bizim əməkdaşlığımızın əsasıdır.

Kənd təsərrüfatında – həm baytarlıq sahəsində, həm də qarşılıqlı malgöndərmələr üzrə əməkdaşlıq haqqında razılıq əldə etmişik. Qazaxıstan ərzaq taxılı satmaqda, Xəzəryanı regionların faraş tərəvəz və meyvə ilə təchiz olunmasında, hərbi-siyasi əməkdaşlıqda, dənizçi kadrların Azərbaycan məktəblərində təhsil almasında və mədəni-humanitar əlaqələrdə maraqlıdır. Qazaxıstan vətəndaşı olan 100 mindən çox azərbaycanlı bizim ölkədə yaşayır, işləyir, öz həyatlarından razıdırlar. Dünya siyasəti məsələlərində Qazaxıstan və Azərbaycan həmişə vahid mövqedən çıxış edir. Biz Birləşmiş Millətlər Təşkilatının mövqeyinin möhkəmlənməsinə, beynəlxalq qanunvericiliyə riayət edilməsinə tərəfdarıq. Biz terrorizmin, ekstremizmin hər hansı təzahürlərinə qarşı mübarizədə əməkdaşlıq edirik. Biz həmişə mövcud sərhədlərin toxunulmazlığından, dövlətlərin suverenliyindən danışırıq. Ölkələrimiz arasında əmtəə dövriyyəsinin həcmi böhranla əlaqədar bir qədər azalsa da, 670 milyon dollar olmuşdur. Vəziyyəti düzəltməyə imkanımız vardır. Əminəm ki, bu səfər, razılaşmalarımız əməkdaşlığımızı daha yüksək səviyyəyə qaldıracaqdır.

İlham Heydər oğlu, bu əməkdaşlığı daha da möhkəmlətmək üçün mən Sizi özünüz üçün münasib olan istənilən vaxtda ölkəmizə rəsmi səfərə dəvət etmişəm. Görüşlərin yüksək səviyyəsi və dinamikası ölkələrimiz arasında həqiqətən qardaşlıq münasibətlərinin mövcud olmasına zəmanət verir.

## QAZAXISTAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ RƏSMİ NAHAR

*2 oktyabr 2009-cu il*

*Oktyabrın 2-də Azərbaycan prezidenti İlham Əliyevin adından Qazaxıstan prezidenti Nursultan Nazarbayevin şərəfinə rəsmi nahar verilmişdir.*

*Dövlət başçıları naharda çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli Nursultan Abişeviç!

Hörmətli qonaqlar!

Mən Sizi bir daha Azərbaycanda ürəkdən salamlayıram. Sevinirəm ki, bu gün aparılmış danışıqlar çox yaxşı nəticələr verir. Bugünkü yaxın münasibətlərimizin əsası ümummilli lider Heydər Əliyev və Qazaxıstan prezidenti Nursultan Nazarbayev tərəfindən qoyulmuşdur və bu münasibətlər uğurla inkişaf edir İki müstəqil dövlət məhz sizin birgə səyləriniz nəticəsində müstəqilliyin ilkin mərhələsinin bütün çətinliklərini və mürəkkəblikləri aradan qaldıra bilmiş, özünü təmin edən, uğurlu, müasir dövlət kimi inkişaf etmişdir. Əminəm ki, gələcəkdə tarixi baxımdan ölkələrimizin inkişaf yolu fəaliyyətini öz ehtiyatları, öz xalqının istedadı, öz ölkəsinin potensialı əsasında quran müasir müstəqil dövlətlərin tarixi kimi öyrəniləcəkdir. Münasibətlərimizin bugünkü inkişafı keçən əsrin 90-cı illərində görülən işlərin məntiqi davamıdır.

Azərbaycan ilə Qazaxıstan arasındakı strateji tərəfdaşlıq münasibətləri də yüksək səviyyədədir. Əminəm ki, bu gün imzalanan sənədlər ölkələrimiz arasında əlaqələrin inkişa-

fına, regional proseslərə təsir edəcəkdir. Siyasi, iqtisadi və sosial məsələlərin həlli baxımından ölkələrimiz dünyanın ən sabit ölkələri kimi səciyyələndirilir. Bu sabitlik uğurumuzun təminatıdır, xalqın birliyinə, ölkələrimizin qarşısında duran vəzifələrin tam anlaşılmasına əsaslanır.

Əminəm ki, nəzərdə tutduğumuz bütün məsələləri yerinə yetirəcəyik. İndiyədək danışıqlarda razılığa gəldiyimiz bütün məsələlərə əməl etmişik. Ölkələrimiz arasında enerji sahəsində əməkdaşlığın əsası 2006-cı ildən, ilk sənəd imzalandığı vaxtdan qoyulmuşdur. Bu gün biz həmin sahədə münasibətlərimizin tamamilə yeni, keyfiyyətcə yeni səviyyəsinə yüksəlirik. Əminəm ki, bütün digər sahələrdə də bizi uğur müşayiət edəcəkdir.

**Qazaxıstan prezidenti Nursultan Nazarbayevin çıxışı**

Hörmətli İlham Heydər oğlu!

Hörmətli dostlar!

Azərbaycana, Bakıya səfərə dəvət olunduğumuzdan və bizə göstərilən yüksək qonaqpərvərlikdən olduqca məmnunuq.

Cənab Prezident, Sizin dediyiniz kimi, ölkələrimiz arasında əlaqələrin inkişafında Azərbaycanın ümummilli lideri Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Onun gəlişi ilə bugünkü Azərbaycanın təməli qoyuldu. Müharibəni dayandırdı, ərazini bir əldə cəmləşdirdi. Azərbaycanın praktiki olaraq parçalandığı bir vaxtda o, yenilməz iradəsi ilə bu proseslərin qarşısını aldı, nüfuzlu dövlət yaratdı, onu dünyada məşhur etdi. Azərbaycanın təbii ehtiyatlarının dünya bazarlarına çıxarılması da onun xidmətləridir. Çox sevinirəm ki, Azərbaycan xalqının ümummilli liderinin əsasını qoyduğu bu uğurlu siyasət indi prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Mən dörd ildir ki, Azərbaycanda olmamışam və buradakı yenilikləri görürəm. Bakının siması tamamilə dəyişmişdir. Mən Azərbaycanın

iqtisadi göstəricilərindən xəbərdaram, Azərbaycan və qazax xalqları ümumi köklərə malikdirlər, yaxın qonşudurlar. Düşünürəm ki, əlaqələrimizin daha da möhkəmləndirilməsi və genişləndirilməsi üçün hər iki ölkənin böyük potensialı vardır.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ IX ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN NAXÇIVANA SƏFƏRİ

*2 oktyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşündə iştirak etmək üçün oktyabrın 2-də Naxçıvan Muxtar Respublikasına gəlmişdir.*

*Dövlətimizin başçısının şərəfinə Naxçıvan Beynəlxalq Aeroportunda Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov qarşıladı.*

*Milli geyimli qız prezident İlham Əliyevə gül dəstəsi təqdim etdi.*

## QIRĞIZISTAN PREZİDENTİ KURMANBEK BAKİYEV İLƏ GÖRÜŞ

*Naxçıvan*

*2 oktyabr 2009-cu il*

*Oktyabrın 2-də prezident İlham Əliyev Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşündə iştirak etmək üçün Naxçıvan Muxtar Respublikasına gələn Qırğızıstan prezidenti Kurmanbek Bakiyev ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev zirvə görüşünün əhəmiyyətini vurğulayaraq bildirdi ki, Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşü xalqlarımız və ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsinə xidmət edir.*

*Ölkələrimiz arasında ikitərəfli məsələlərə toxunan dövlətimizin başçısı əlaqələrimizin dinamik inkişaf etdiyini, iqtisadi sahədə əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğunu bildirdi. Qeyd etdi ki, Qırğızıstan prezidentinin ölkəmizə bu səfəri ikitərəfli münasibətlərin möhkəmlənməsi baxımından da əhəmiyyətlidir.*

*Qırğızıstan prezidenti Kurmanbek Bakiyev Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşünün əhəmiyyətini qeyd etdi. Bildirdi ki, bu görüş türkdilli ölkələr arasında əlaqələrin genişlənməsinə töhfə verir.*

*Kurmanbek Bakiyev Azərbaycana ilk səfərini Naxçıvana etdiyini vurğuladı və xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinin daim əziz tutulduğunu dedi.*

## TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI NAXÇIVANDA ULU ÖNDƏRİN ABİDƏSİNİ ZİYARƏT ETMİŞLƏR

*2 oktyabr 2009-cu il*

*Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşündə iştirak etmək üçün Naxçıvanda səfərdə olan Azərbaycan prezidenti İlham Əliyev, Türkiyə prezidenti Abdullah Gül, Qazaxıstan prezidenti Nursultan Nazarbayev və Qırğızıstan prezidenti Kurmanbek Bakiyev oktyabrın 2-də türk dünyasının böyük oğlu, ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzindəki abidəsini ziyarət etmişlər.*

*Dövlət başçılarının hər birinin adından abidənin önünə əklil qoyulmuşdur.*

### IX zirvə görüşünün iştirakçıları Naxçıvanda Heydər Əliyevin Muzey-Kompleksində

*Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşündə iştirak etmək üçün Naxçıvana gələn dövlət başçıları oktyabrın 2-də Heydər Əliyev Muzey-Kompleksi ilə tanış olmuşlar.*

*Ali qonaqlara məlumat verildi ki, burada ulu öndərə aid mindən artıq şəxsi əşya saxlanılır. Geniş sahəsi olan muzey ekspozisiya salonu, kitabxana və fonddan ibarətdir.*

*Prezidentlər ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini, xalqımızın tarixinə, mədəniyyətinə, incəsənətinə göstərdiyi diqqət və qayğını əks etdirən fotoşəkillər, habelə onun haqqında yazılmış kitablarla tanış oldular.*

*Türkiyə, Qazaxıstan və Qırğızıstan prezidentləri Heydər Əliyev Muzey-Kompleksinin Xatirə kitabına ürək sözlərini yazdılar.*

## «Əcəmi» seyrəngahı ilə tanışlıq

*Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşündə iştirak etmək üçün oktyabrın 2-də Naxçıvana gələn Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan prezidentləri muxtar respublikanın paytaxtındakı «Əcəmi» seyrəngahı ilə tanış olmuşlar.*

*Dövlət başçıları əvvəlcə burada ulu öndər Heydər Əliyevin büstünü ziyarət etdilər, sonra «Əcəmi» seyrəngahında açıq səma altındakı muzeyin eksponatlarına baxdılar.*

*Prezidentlərə məlumat verildi ki, 2002-ci ildə yaradılmış muzeydə əsasən Naxçıvan Muxtar Respublikasının ayrı-ayrı yaşayış məntəqələrindən tapılan müxtəlif dövrlərə aid, o cümlədən Gəmiqaya arxeoloji ərazisində aşkar edilən maddi-mədəniyyət nümunələri – daşdan düzəldilmiş qoç heykəlləri, daş kitabələr, müxtəlif daş fiqurları, qəbirüstü sənduqələr nümayiş olunur. Muzeydəki 5 min il tarixi olan eksponat qonaqlarda daha çox maraq doğurmuşdur. Bütövlükdə, eksponatlar Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanın tarixinin qədimliyindən xəbər verir.*

*Daha sonra dövlət başçıları Möminəxatın türbəsi ilə tanış oldular.*

*Məlumat verildi ki, Əcəmi Naxçıvaninin dövrümüzə qədər gəlib çatan ən gözəl əsəri olan və Naxçıvan memarlıq məktəbinin bədii memarlıq səviyyəsinin şahidi kimi, Möminəxatın türbəsi Azərbaycanın çoxsaylı qədim abidələrindən biridir. Abidənin üzərindəki kitabədən türbənin 1186-cı ildə Məhəmməd Cahan Pəhləvanın həyat yoldaşı Möminəxatının şərəfinə tikildiyi məlum olur. Monumental, əzəmətli bir tikili olan Möminəxatın türbəsi Naxçıvana gələn səyyah və tacirlərin diqqətini ta qədimdən bəri özünə cəlb etmiş və abidə bir çox əsərlərdə öz əksini tapmışdır. Bürcvari Möminəxatın türbəsi Azərbaycan türbələrinin ən gözəl nümunələrindəndir. Kərpicdən tikilən türbənin memarlıq sxemi olduqca zəngin bir üslubda işlənmişdir.*

## TÜRKDİLLİ XALQLARIN MİLLİ MUSİQİSİNDƏN İBARƏT KONSERT

*Naxçıvan*

*2 oktyabr 2009-cu il*

*Oktyabrın 2- də Naxçıvandakı Heydər Əliyev sarayında Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşünün iştirakçılarının şərəfinə konsert proqramı təşkil edilmişdir.*

*Salona toplaşanlar Azərbaycan prezidenti İlham Əliyevi, Türkiyə prezidenti Abdullah Gülü, Qazaxıstan prezidenti Nursultan Nazarbayevi, Qırğızıstan prezidenti Kurmanbek Bakiyevi hərarətlə qarşılamışlar.*

*Konsertdə Naxçıvanın incəsənət ustaları türkdilli xalqların milli musiqisi və rəqslərini ifa etmişlər.*

## TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ IX ZİRVƏ GÖRÜŞÜ

*Naxçıvan*

*3 oktyabr 2009-cu il*

*Oktyabrın 3-də Azərbaycan Respublikasının Naxçıvan şəhərində Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşü keçirilmişdir.*

*İlk zirvə görüşü 1992-ci ildə Ankarada, sonrakı toplantılar 1994-cü ildə İstanbulda, 1995-ci ildə Bişkekdə, 1996-cı ildə Daşkənddə, 1998-ci ildə Astanada, 2000-ci ildə Bakıda, 2001-ci ildə İstanbulda və 2006-cı ildə Antalyada keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev zirvə görüşünün keçirildiyi «Duzdağ» mehmanxanasının konfrans salonunun qarşısında Türkiyə prezidenti Abdullah Gülü, Qazaxıstan prezidenti Nursultan Nazarbayevi, Qırğızıstan prezidenti Kurmanbek Bakiyevi və Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Xıdır Saparliyevi böyük hörmət və ehtiramla qarşıladı.*

*Zirvə görüşündə prezidentlər çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli prezidentlər!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Azərbaycanın qədim torpağı Naxçıvana xoş gəlmisiniz! Bugünkü zirvə görüşümüz çox gözəl və əlamətdar hadisədir. Əminəm ki, görüşün nəticələri gözəl olacaq, çox səmərəli işləyəcəyik və

qəbul ediləcək qərarlar birliyimizi daha da gücləndirəcəkdir. Mən çox şadam ki, dəvətimi qəbul edib bu gün bura gəlmisiniz, bu gün Naxçıvandasınız. Naxçıvan qədim tarixə və mədəniyyətə malikdir. Naxçıvanın tarixi abidələri Azərbaycan xalqının böyük istedadının nümunələridir. Dünən biz Naxçıvanla bir daha tanış olduq. Çox şadam ki, mənim hörmətli qonaqlarım da bu fürsəti əldə etdilər və dünən axşam gözəl konserti bərabər dinlədik. Əslində o konsert birliyimizin təntənəsi, dostluq, qardaşlıq konserti idi. Əminəm ki, birliyimiz bundan sonra daha da güclənəcəkdir, çünki buna bütün imkanlar vardır. Ölkələrimiz arasında əlaqələr ikitərəfli formatda çox yüksək səviyyədədir, çox güclü siyasi dialoq aparılır. Biz beynəlxalq təşkilatlarda əməkdaşlıq edirik. BMT-də, İslam Konfransı Təşkilatında, ATƏT-də və digər təşkilatların toplantılarında ölkələrimiz bir-birinə həmişə dəstək verir və bu belə də olmalıdır. Çünki bizi müştərək tarixi-mədəni köklər birləşdirir. Dünən bütün türkdilli ölkələrin istedadını və incəsənətini təmsil edən konsertdə səslənən mahnılar bir daha onu göstərir ki, bizim xalqlarımız bir-birinə nə qədər yaxındır.

Biz çox istəyirik ki, aramızda olan iqtisadi əlaqələr sürətlə inkişaf etsin. Bunu etmək üçün yaxşı imkanlarımız var. Bizim iqtisadiyyatlarımız bir-birini tamamlayır, bir-biri ilə rəqabət aparmır, bu da çox önəmlidir. Gələcək illərdə iqtisadi sahədə yeni layihələrin həyata keçirilməsi bizi daha da yaxınlaşdıracaq. Ölkələrimiz arasında ticarət dövriyyəsi artmalıdır. Hələ ki, ticarət dövriyyəsinin səviyyəsi bizi qane edə bilməz.

Humanitar sahədə də çox gözəl perspektivlər vardır. Mədəniyyətlərimiz bir-birinə çox bağlı olduğuna görə humanitar sahədə əməkdaşlıq daha da sürətlə inkişaf etməlidir. Bu sahədə TÜRKSOY təşkilatının fəaliyyətini mən yüksək qiymətləndirirəm. Gələcək illərdə TÜRKSOY-un fəaliyyətini biz daha da gücləndirməliyik. Biz təklif edirik ki, TÜRKSOY Fondu yaradılsın. Fondun maliyyə təminatı

təşkil edilsin və bu fond bütün türk dövlətlərində və bütün türk diyarlarında tarixi abidələrin bərpası, mədəniyyətlərarası əlaqələrin inkişafı ilə məşğul olsun. Bir sözlə, fond praktiki cəhətdən səmərəli işlərlə xalqlarımızı daha da sıx birləşdirsin. Dünyada türkdilli xalqlar çoxdur və türkdilli xalqlar arasında dostluq, qardaşlıq ölkələrimizi də gücləndirəcəkdir.

Ölkələrimizin təşəbbüsü ilə başlanan və uğurla icra edilən böyük layihələr artıq öz səmərəsini verir. Bu gün neft-qaz sahəsində yaranmış əməkdaşlıq dostluğumuzun nümunəsidir, regional əməkdaşlığın uğurlu nəticəsidir. Neft-qaz sahəsində Azərbaycan ilə Türkiyə, Azərbaycan ilə Türkmənistan, Azərbaycan ilə Qazaxıstan çox səmərəli əməkdaşlıq edir. Bu əməkdaşlığın praktiki nəticələri vardır. Xəzər dənizinin neft-qaz ehtiyatlarının dünya və Avropa bazarlarına çıxarılması üçün böyük investisiyalar qoyulmuş, neft kəmərləri inşa edilmişdir və bu proses davam edir.

Vaxtilə əfsanə hesab olunan Bakı–Tbilisi–Ceyhan neft kəməri üç ildir ki, fəaliyyətdədir və bütün bölgəyə fayda gətirir. Bu kəmərin əsasında Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin tikintisi də böyük uğurumuzdur. Bu gün Azərbaycanın neft-qaz resursları dünya və Avropa bazarlarına etibarlı yollarla nəql edilir. Dünən Bakıda Qazaxıstan ilə Azərbaycan arasında çox önəmli sazişlər bağlanmışdır. Bu sazişlər gələcəkdə Qazaxıstanın neft-qaz resurslarının şaxələndirmə yolu ilə Azərbaycan ərazisindən dünya bazarlarına çıxarılmasına gözəl şərait yaradır. Biz hamımız istəyirik ki, iqtisadiyyatlarımız inkişaf etsin, çoxşaxəli olsun. Neft-qaz sahəsində şaxələndirmə prosesləri həm istehsalçılar, həm tranzit ölkələr, həm də istehlakçılar üçün çox böyük əhəmiyyət daşıyır.

Nəqliyyat sahəsində konkret layihələr üzərində işləyirik. Həm Xəzər dənizində əməkdaşlıq davam edir, həm də Bakı–Tbilisi–Qars dəmir yolunun inşası uğurla gedir. Bu dəmir yolu çəkiləndən sonra Avropa ilə Asiya arasında çox əhə-

miyyətli və yeni yol açılacaqdır. Əlbəttə ki, bunlar böyük yatırımlar, investisiyalar və böyük siyasi iradə tələb edən layihələrdir. Bizim həm investisiya imkanlarımız, həm də siyasi iradəmiz vardır. Ümid edirəm ki, bu konkret layihələr bizi daha da birləşdirəcək, ölkələrimizə əlavə maliyyə resursları gətirəcək və beləliklə, bölgədə sülhün, sabitliyin, təhlükəsizliyin təmin edilməsi üçün də gözəl imkanlar yaradacaqdır. Biz bunu istəyirik, buna çalışırıq.

Baxmayaraq ki, ərazi bütövlüyü pozulub, Azərbaycanın son illərdəki uğurlu inkişafı, həmçinin regional əməkdaşlığın dərinləşməsinə yönəldilib. Azərbaycan torpaqlarının 20 faizi işğal altındadır. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra olunmur. O qətnamələrdə erməni qoşunlarının Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılması nəzərdə tutulurdu. Digər beynəlxalq təşkilatlar buna bənzər qərarlar qəbul etmişlər. Əfsuslar olsun ki, Ermənistan tərəfi bu vaxta qədər beynəlxalq normalara məhəl qoymur. Bu işğal nəticəsində və etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq Azərbaycan vətəndaşı öz doğma torpağından didərgin salınıb. Amma buna baxmayaraq, iqtisadiyyatımız uğurla inkişaf edir. 2004–2008-ci illərdə ölkə iqtisadiyyatı 2,6 dəfə artmışdır. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı uzun illərdir ki, danışıqlar aparılır. Əfsuslar olsun ki, heç bir nəticə hasil olmamışdır. Düzdür, danışıqlar prosesində müsbət dinamika müşahidə olunur, deyə bilərəm ki, danışıqlar artıq sonuncu mərhələsindədir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Azərbaycanın prinsipial və dəyişməz mövqeyi bundan ibarətdir.

Xalqların isə öz müqəddəratlarını təyinetmə prinsipləri ölkələrin ərazi bütövlüyü çərçivəsində uğurla həll oluna bilər və bundan kənarda heç bir başqa variant müzakirə oluna bilməz. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsi nəinki Azərbaycan üçün, bütövlükdə region üçün böyük

problemdir, regional əməkdaşlığı əngəlləyən ən başlıca amildir. Regionun çox böyük imkanları vardır. Regional əməkdaşlıq genişlənə bilər, yollar, kommunikasiyalar açılar, bölgədə yerləşən bütün ölkələr qarşılıqlı maraqlar əsasında əməkdaşlıq edə bilər.

Ancaq torpaqlarımız işğal altında qaldığı dövrdə Ermənistan ilə Azərbaycan arasında heç bir əməkdaşlıq mümkün deyildir. Azərbaycan gələcəkdə də öz coğrafi, iqtisadi, siyasi və başqa imkanlarından istifadə edərək Dağlıq Qarabağ münaqişəsinin tezliklə həll olunmasına çalışacaqdır.

Əziz dostlar, bu yaxınlarda birliyimizi daha da möhkəmləndirən önəmli hadisə baş vermişdir. Bakıda Türkdilli Ölkələrin Parlament Assambleyasının birinci toplantısı keçirilmişdir. Bu da o deməkdir ki, bizim qanunvericilik orqanlarımız da bir-biri ilə daha sıx əlaqədə olacaqlar. Düzdür, ölkələrimizi təmsil edən deputatlar bu vaxta qədər də bir-biri ilə sıx əlaqədə olmuşlar, müxtəlif beynəlxalq qurumlar çərçivəsində əməkdaşlıq etmişlər. Ancaq Türkdilli Ölkələrin Parlament Assambleyasının yaradılması tam başqa bir hadisədir. Bu onu göstərir ki, türkdilli ölkələr arasında əlaqələr geniş formatda daha da sürətlə inkişaf edir. Əgər gələcəkdə bütün siyasi məsələlərdə, beynəlxalq təşkilatlarda, beynəlxalq müstəvidə biz bir-birimizə öz dəstəyimizi verməyə davam etsək, iqtisadi sahədə əməkdaşlığımızı konkret layihələrlə zənginləşdirsək, humanitar və mədəniyyət sahəsində TÜRKSOY vasitəsilə, konkret layihələrlə bu birliyi daha da gücləndirsək, xalqlarımız bundan hər mənada böyük fayda götürəcəklər.

İstəyirik ki, türkdilli xalqlar, ölkələr arasında birlik daha da güclənsin. Bu həm bizim tariximiz, mədəniyyətimiz, soykökümüz, həm də bu günün reallıqlarıdır.

Bilirsiniz ki, beynəlxalq müstəvidə öz mövqeyini müdafiə etmək o qədər də asan olmur. Amma biz birlikdə olsaq, müəyyən məsələlərdə vahid mövqedən çıxış etsək, beynəlxalq mövqelərimiz daha da güclü olacaqdır. Çünki türkdilli

ölkələrdə bütün imkanlar vardır – təbii sərvətlər, neft-qaz yataqları, əlverişli coğrafi vəziyyət, güclü iqtisadiyyat, insanların istedadı, mövcud olan yeni infrastruktur. Əgər bu imkanları bir yerə toplasaq və bir yerdə cəmləşdirsək, türkdilli ölkələr dünya miqyasında böyük gücə çevriləcəkdir. Bunu gücə çevirmək üçün səmərəli işləməliyik. Bu bizim əlimizdədir, bizim iradəmizdən asılıdır. Mən çox şadam ki, aramızda olan birlik son illər ərzində daha da güclənir. Bizim bir yerdə olmağımız, qədim Azərbaycan torpağı olan Naxçıvanda yığışmağımız, ikitərəfli formatda aparılan danışıqlar, bugünkü zirvə görüşü və zirvə görüşünün nəticəsi olaraq imzalanacaq vacib sənədlər birliyimizi daha da gücləndirəcəkdir. Bu bizim arzumuzdur.

Bir daha Sizə mənim dəvətimi qəbul edərək Naxçıvana gəldiyinizə görə təşəkkürümü bildirmək istəyirəm və bu zirvə görüşünə uğurlar arzulayıram.

**Qazaxıstan prezidenti Nursultan Nazarbayevin çıxışı**

Hörmətli prezidentlər!
Hörmətli qonaqlar!
Xanımlar və cənablar!

Çox hörmətli prezident İlham Heydər oğlu! Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşünün Naxçıvanda keçirilməsinin çox böyük özəlliyi vardır. Dahi şəxsiyyətlər – Mustafa Kamal Atatürk və Heydər Əliyevin türkdilli xalqların birliyi barədə arzuları bizim birlik ideyalarımıza işıq saçır. Qazaxıstan da bu ideyanın reallaşdırılması mövqeyindən çıxış edir. Bu səbəbdən də türk dövlətləri arasında siyasi əlaqələr zamanın tələblərinə uyğun olaraq yeni mərhələyə qədəm qoymalıdır.

Türkdilli xalqların mədəniyyəti böyük bir okeana oxşayır və bu okean hələ ki, tədqiq olunmamışdır. Biz hesab edirik ki, türkdilli dövlətlərin xalqlarının tarixi bundan sonra daha təfərrüatı ilə tədqiq edilməlidir. Bizim ulu babalarımız

Aralıq dənizindən Altaya qədər geniş düzənliklərdə hökmdar olmuşlar və onlar bizə çox böyük dəyərlər qoyub getmişlər. Yurta, yay, ox və s. bu kimi bir çox vacib mədəniyyət dəyərlərini qoyub getmişlər. Bu mədəniyyəti dünya ictimaiyyəti qarşısında tanıtmaq vaxtı gəlib çatmışdır.

Hörmətli qardaşım İlham Əliyevin dediyi kimi, mən də bunu tam dəstəkləyirəm ki, biz TÜRKSOY təşkilatı yanında bir fond yaratmalıyıq. Həmin fond çərçivəsində Türkdilli Akademiyanı da yaratmaq məqsədəuyğun olardı. Akademiya türkdilli xalqların dilinin, mədəniyyətinin araşdırılması və öyrənilməsi ilə məşğul olacaqdır. Bu bizim ümumi vəzifəmizdir. Əgər hər hansı bir türkdilli dövlət öz yardımını göstərəcəksə, hesab edirik ki, bu akademiyanı türkdilli aləmin çox müqəddəs torpağı – Türküstanda yerləşdirmək olardı və yaxud bu akademiya Astanada təsis oluna bilərdi. İndi Xoca Əhməd Yasəvi adına Universitet böyük işləri həyata keçirir. Hesab edirik ki, biz TÜRKSOY çərçivəsində təşəbbüsü öz əlimizə götürüb regional işlərdə daha fəal iştirak etməliyik. Mərkəzi Asiya ilə Avropa arasında çox vacib bir körpü rolunu oynamalıyıq. ATƏT, İqtisadi İnkişaf Təşkilatı, İslam Konfransı Təşkilatı və bir çox digər təşkilatlarla, o cümlədən «Asiyada qarşılıqlı fəaliyyətə və etimad tədbirlərinə dair müşavirə» ilə də sıx əməkdaşlıq etməliyik və bir mövqedən çıxış etməliyik. Həmin təşkilat çərçivəsində sədrliyi gələn ildən etibarən biz qardaş Türkiyə Respublikasına təhvil verəcəyik. Biz bu baxımdan irəli sürülən məsələlər üzrə bütünlüklə öz dəstəyimizi verməyə hazırıq. Tərəfdaşlıq münasibətlərimizi Asiya və Avropa strukturlarında daha da möhkəmləndirməliyik.

Qazaxıstan 2010-cu ildə ATƏT-də və 2011-ci ildə İslam Konfransı Təşkilatında sədrliyi zamanı bir çox yeni təşəbbüslər irəli sürəcək. Türkdilli dövlətlər ilə sıx münasibətlərə əsaslanan birliyimiz üçüncü dövlətlərə qarşı deyil. Biz hədələrə qarşı ümumi mübarizə aparmalıyıq. Bu gün tam aydındır ki, qlobal sabitliyə hədə və təhdidlər mövcuddur.

Qlobal silahsızlaşdırma, kütləvi qırğın silahlarının yayılmaması sahəsində beynəlxalq səviyyədə müəyyən problemlər yaranmışdır. Cənubi Qafqazda sabitlik pozulmuşdur. Qardaş Azərbaycan xalqının əzab-əziyyətlərinə şərik çıxırıq. Hesab edirik ki, Ermənistan ilə Azərbaycan arasındakı münaqişə yalnız dinc yolla həll olunmalıdır. Biz buna öz dəstəyimizi bundan sonra da davam etdirəcəyik.

Hörmətli həmkarlar, xanımlar və cənablar!

Şübhəsiz ki, bu zirvə görüşü çərçivəsində əldə edilmiş razılaşmalar bizim ölkələrdə çox mühüm bir hadisəyə çevriləcək, türkdilli xalqlar üçün vacib nəticə olacaqdır.

**Türkiyə prezidenti Abdullah Gülün çıxışı**

Hörmətli prezidentlər!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Çox hörmətli qardaşım prezident İlham Əliyev! Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə toplantısını Naxçıvanda yüksək səviyyədə təşkil etdiyinizə görə şəxsinizə çox təşəkkür edirəm. «Dünyanın görüntüsü» mənasını verən Naxçıvan Azərbaycan qədər Türkiyə üçün də əziz və doğmadır. Naxçıvan bölgəsindəki Azərbaycan və Türkiyə arasındakı sərhəd xətti məsafəcə kiçik olsa da, siyasi mənada çox böyük əhəmiyyət daşıyır. 10-12 kilometrlik bir sərhəd xəttinin siyasi əhəmiyyəti olduqca böyükdür. Bu sərhədimiz Türkiyənin türk respublikaları ilə coğrafi birliyini də əlaqələndirən rəmzi keçiddir. İkinci tərəfdən, Azərbaycanın digər torpaqlarından ayrı olmasına baxmayaraq, Naxçıvan ilə qonşuluq və qardaşlıq münasibətlərindən əlavə, həm də sıx əlaqələrimiz vardır. Buna görə də şəxsən öz adımdan, mənimlə bərabər olan Türkiyə nümayəndə heyəti adından Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Əliyevə bu zirvə görüşünü Naxçıvanda təşkil etdiyi üçün ən səmimi təşəkkürlərimi bir daha bildirmək istəyirəm.

Dəyərli prezidentlər və hörmətli iştirakçılar!

1992-ci ildə başladığımız türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşlərinin bu günə gəlib çatmasında hamınızın əməyi və siyasi iradəsi müəyyənedici rol oynamışdır. Keçən zamanda dünyamız siyasi, iqtisadi və təhlükəsizlik sahəsində bir sıra qlobal sınaqlarla üz-üzə qalmışdır və indi də qarşı-qarşıyadır. Bu problemlər Avrasiya coğrafiyasına da təsir etmişdir. Qafqazda və Orta Asiyada başda təhlükəsizlik məsələsi olmaqla, müxtəlif təhdidlərə rast gəlindiyi bir zamanda mühüm həmrəylik və məsləhətləşmə platforması olaraq zirvə görüşləri bizə həm qardaş ölkələr arasındakı münasibətləri, həm də qlobal problemləri müzakirə etmək imkanı verir. Qardaş ölkələrimiz arasındakı siyasi, ticari, iqtisadi, mədəni və sosial məsələlər başda olmaqla, bütün sahələrdəki əlaqələrimizin dərinləşməsi, gələcəyə istiqamətlənmiş proqnozlar, təxminlər və müzakirələr zirvə görüşlərinin gündəmində çox mühüm yer tutur.

Qarşımızda qət edilməli xeyli məsafənin olmasına rəğmən hazırda topladıqlarımızı və əldə etdiklərimizi də diqqətdən qaçırmamalıyıq. Bu gün imzalayacağımız Naxçıvan bəyannaməsi ilə türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşlərini təşkilatlandırmaq sahəsində həqiqətən də çox qiymətli və tarixi bir addım atmaqdayıq. Əslində biz bu gün bir yuxunu gerçəkləşdiririk və buna ən çox özünü türk hiss edən bütün insanlar ürəkdən sevinəcəklər.

Türklər çox böyük bir coğrafiyaya yayılmışlar və özlərini türk hiss edən milyonlarla insan vardır. Böyük millətlər içərisində bu gün ayrı-ayrı müstəqil dövlətlərimizin olması böyük xoşbəxtlikdir. Bu müstəqil dövlətlərimizin hər biri çox böyük məsafələr qət etməkdə, müvəffəqiyyətlər əldə etməkdədir və hər birinin də başı çox ucadır. Bu müstəqil dövlətlər arasında qarşılıqlı hörmət və bərabərliyə söykənərək əməkdaşlıq etmək bizim haqqımızdır. Özünü türk hesab edən hər kəs bu həyəcanı hiss edər.

Keçən ilin oktyabrında İstanbulda imzalanan müqavilə ilə qurulan Türkdilli Ölkələrin Parlament Assambleyasının ilk toplantısı ötən həftə Bakıda müvəffəqiyyətlə baş tutdu. Onun katibliyi Bakıda yerləşəcəkdir. Bu qurumun TÜRKSOY ilə bərabər, ölkələrimizdə çox güclü bir təşkilati əməkdaşlığın əsasını təşkil edəcəyinə inanıram. Hörmətli prezident İlham Əliyevin TÜRKSOY mövzusunda fikirlərini də dəstəkləyirik.

Qardaş ölkələrimiz arasındakı əməkdaşlığın siyasi, iqtisadi və mədəni miqyası qədər ictimai miqyası da əhəmiyyətlidir. Xalqlarımız arasındakı əlaqələri gücləndirmək məqsədilə böyük kütlələrə istiqamətlənmiş bəzi tədbirləri də həyata keçirə bilərik. Bu çərçivədə müəyyən edilmiş vaxtlarda Olimpiya oyunlarına bənzər ənənəvi türk idman növlərinin də yer aldığı idman tədbirlərinin təşkil olunmasının müzakirəsini təklif edirəm. İdman gəncləri, yeni nəsilləri bir-birinə qaynadıb-qovuşduran çox böyük bir fəaliyyət sahəsidir. Bu sahədə türk idman növləri də vardır. Olimpiya oyunlarının təşkil olunduğu şəkildə tədbirlər həyata keçirə bilərik.

XXI əsrin müharibələr deyil, sülh, rifah əsri olması üçün hər birimizin üzərinə vəzifələr düşür. Bunun üçün türkdilli dövlətlər arasında iqtisadi işbirliyinə, təcrübə mübadiləsinin aparılmasına, qarşılıqlı investisiyaların həyata keçirilməsinə önəm verməliyik. Hədəflərimiz birliyimizin dünyada sülhə töhfə verməsinə nail olmaqdır.

Ermənistan–Azərbaycan münaqişəsi başda olmaqla, Cənubi Qafqazdakı digər münaqişələrin də bölgə ölkələrinin ərazi bütövlüyü çərçivəsində daimi həll olunmasının vaxtı çatmışdır. Xüsusilə, Azərbaycanın ərazi bütövlüyünə çox əhəmiyyət veririk. Azərbaycanın işğal altındakı torpaqları tezliklə işğaldan azad olunmalıdır. Bunun üçün vaxtın çatdığına inanırıq. Əminik ki, Qarabağ problemi dialoq, müzakirə və diplomatiya yolu ilə həll ediləcək və bu yolla bütün Qafqazda sülh təmin olunacaqdır. Şübhəsiz ki, bu ancaq işğala son qoyulması ilə reallaşa bilər. Türkiyənin

sülh, təhlükəsizlik və sabitlik baxışlarının bölgəmizdə və Avrasiya coğrafiyasında hakim olduğu təqdirdə xroniki problemlərin qısa vaxt ərzində həll olunacağına inanırıq.

Hörmətli prezidentlər, dəyərli iştirakçılar!

Türkiyənin həyata keçirdiyi xarici siyasətin ilham qaynağı türkçülüyün ənənəvi anlayış və dəyərlərinə söykənməkdir. Çünki xarici siyasətimizin ilham aldığı xeyirxahlıq, mehriban qonşuluq, qarşılıqlı hörmət kimi əsas prinsiplər türk dünyasının formalaşdırdığı ortaq dəyərlərin əsasını təşkil edir. Bu prinsipləri yüksək səviyyədə həyata keçirə bilsək, həm türk respublikaları arasında ikitərəfli məsələlərin həllinə, həm də regional əməkdaşlıqda müsbət irəliləyişlərə nail ola biləcəyimizə inanıram. Bütün bu işlərə ölkələrimizdə çox böyük səy göstərən qüdrətli prezidentlər olmuşdur. Onların xatirəsini rəhmətlə anıram.

Bizlərə bu imkanı verdiyi üçün dəyərli dostumuz, hörmətli prezident İlham Əliyevə bir daha təşəkkür edirəm və bu xeyirli hərəkətin bütün türk dünyasına, bütün dünya türklərinə də xeyirli olmasını diləyirəm.

## Qırğızıstan prezidenti Kurmanbek Bakiyevin çıxışı

Hörmətli prezidentlər!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Çox hörmətli prezident İlham Heydər oğlu! Qırğızıstanın türkdilli dövlətlərlə ümumi, tarixi, mədəni və dil birliyinə arxalanan əlaqələri səmimi və etibarlı xarakter daşıyır. Ölkəmiz bütün məsələlərdə qardaşlıq, bərabərhüquqluluq, qarşılıqlı hörmət əsasında fəal iştirak edir. Bu, artıq sayca doqquzuncu sammitdir. Türkdilli ölkələrin dövlət başçılarının, liderlərinin forumu çərçivəsində əməkdaşlığımız üçün bizim artıq böyük təcrübəmiz, potensialımız və imkanlarımız vardır.

Bizim tərəfdaşlığımız hər bir türk dövlətinin maraqlarının və məqsədlərinin uzlaşması sayəsində davam edir. Bu da

bizim uzunmüddətli əməkdaşlığımızın tələblərinə uyğundur. Türkdilli dövlətlərin mənafelərinin yaxınlığı həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə əməkdaşlığa xidmət edir. Bugünkü müzakirələr qloballaşma və dinamik dəyişən presedentlər şəraitində qarşılıqlı və faydalı əməkdaşlığın daha da möhkəmləndirilməsi zərurətini təsdiq edir.

Hörmətli dövlət başçıları və tədbir iştirakçıları!

Hesab edirəm ki, Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması haqqında saziş türkdilli dövlətlərin birləşməsi üçün nadir şansdır. Bu təşkilatın yaradılması həmrəyliyimizi möhkəmləndirəcək və hərtərəfli münasibətlərin inkişafına təkan verəcəkdir. Türk dünyası beynəlxalq siyasətdə böyük rol oynamalıdır.

İqtisadi əlaqələrimiz və əməkdaşlığımız getdikcə inkişaf edir. Biz bu məsələyə diqqətimizi azaltmamalıyıq və ticari-iqtisadi əlaqələrimizin genişləndirilməsi üçün tədbirlər görməliyik. Qırğızıstan Respublikası iri iqtisadi layihələrin, xüsusilə də energetika, nəqliyyat və turizm sahəsində böyük layihələrin yaradılmasında ümumi səylərimizin möhkəmlənməsini təklif edir.

Bundan başqa, mən terrorçuluq, dini ekstremizm və narkotiklərin qanunsuz dövriyyəsi kimi transsərhəd təhdidlərinə qarşı birgə mübarizədə türkdilli dövlətlər arasında əməkdaşlığın rolunu qeyd etmək istərdim. Sizə məlumat vermək istəyirəm ki, 2009-cu ilin sentyabrında Bişkek şəhərində türkdilli dövlətlərin xüsusi xidmət idarələrinin növbəti – XII konfransı keçirilmişdir. Biz bu konfransda terrorçu qruplaşmaların müəyyən olunması və onların məhv edilməsi sahəsində birgə fəaliyyətimizi müzakirə etmişik.

Mən əminəm ki, bu zirvə görüşünün nəticələri sülhün, sabitliyin və regionda təhlükəsizliyin təmin olunmasına öz töhfəsini verəcəkdir.

## Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Xıdır Saparliyevin çıxışı

Hörmətli prezidentlər!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Cənab prezident İlham Əliyev! Qədim Naxçıvanda keçirilən Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşü münasibətilə Türkmənistan prezidentinin salamlarını Sizə və bütün iştirakçılara çatdırmaq istəyirəm.

Dövlət başçılarının yüksək səviyyədə görüşləri, eyni zamanda, iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyaların görüşü, yüzlərlə imzalanmış sənədlər faydalı əməkdaşlığın qurulmasında, artıq mövcud olan qardaşlıq və dostluq münasibətlərinin gücləndirilməsində mühüm əhəmiyyət kəsb edir.

Türkdilli ölkələrin dövlət başçılarının dostluq və mehribanlıq şəraitində keçən bu görüşü türkdilli xalqların sıx münasibətlərinin gələcək inkişafına da töhfə verəcəkdir.

Biz eyni köklərə malikik, eyni taleyimiz vardır. Biz əsrlər boyu formalaşmış dostluq və qardaşlıq ənənələrini bu gün də qoruyub saxlayırıq. Bu qardaşlıq münasibətlərini bundan sonra da daim saxlayacağıq.

Biz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə səmimi minnətdarlığımızı bildiririk ki, Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşünü çox yüksək səviyyədə təşkil etmişdir.

Əminik ki, bu görüş türkdilli xalqların əməkdaşlığının dərinləşməsinə, humanitar və mədəniyyət sahələrində əlaqələrin genişlənməsinə imkan yaradacaqdır.

* * *

*Prezident İlham Əliyev zirvə görüşünə yekun vurdu.*

Əziz dostlar, əziz qardaşlar!

Sizin dəyərli çıxışlarınız çox böyük maraq doğurur. Dünən və bu gün səslənən fikirlər, aparılmış fikir mübadiləsi, şübhəsiz, türkdilli ölkələrin gələcək fəaliyyəti üçün başlıca istiqamətdir. Əminəm ki, növbəti aylarda, illərdə bizim əməkdaşlığımız bütün sahələrdə daha da dərinləşəcəkdir. Bu gün iki vacib sənəd imzalanacaqdır. Türkdilli Ölkələrin Əməkdaşlıq Şurası yaradılacaq və Naxçıvan bəyannaməsi qəbul ediləcəkdir. Bu sənədlər gələcək fəaliyyətimiz üçün əsas gündəliyi təşkil edəcəkdir.

Mənim dəvətimi qəbul edib Naxçıvana gəldiyinizə görə sizə bir daha öz təşəkkürümü bildirmək istəyirəm. Naxçıvanın türk dünyasında xüsusi yeri vardır. Naxçıvan çox böyük tarixə malik olan diyardır. Naxçıvanın strateji əhəmiyyəti, tarixi, mədəniyyəti, tarixi abidələri bizim böyük dəyərimizdir, böyük sərvətimizdir. Azərbaycanın müstəqilliyinin formalaşması, müstəqilliyinin bünövrəsinin qoyulması da məhz Naxçıvanda həyata keçirilmişdir. Sovet İttifaqının zamanında Heydər Əliyevin fəaliyyəti nəticəsində Naxçıvanda görülən işlər Azərbaycanın müstəqilliyi üçün böyük əhəmiyyət daşıyırdı. Azərbaycanın üçrəngli milli bayrağı böyük fasilədən sonra Sovet İttifaqı zamanında ilk dəfə olaraq Naxçıvanda ucaldılmışdır. Ondan sonrakı illərdə Azərbaycanın müstəqil ölkə kimi formalaşmasında ulu öndər Heydər Əliyevin çox böyük xidmətləri olmuşdur. Bu gün Azərbaycan müstəqil ölkə kimi yaşayır, güclənir, qarşıda duran bütün vəzifələri uğurla icra edir.

Naxçıvan Azərbaycanın yeganə bölgəsidir ki, Türkiyə ilə həmsərhəddir. Vaxtilə Azərbaycanın tarixi torpağı, əzəli torpağı Zəngəzur bölgəsini Ermənistana birləşdirməsi, demək olar ki, böyük türk dünyasını coğrafi baxımdan parçaladı.

Yəni türk dünyasının vahid bir ailə, vahid bir qüvvə kimi fəaliyyəti onilliklər ərzində dayandırılmışdır. Ancaq biz bu gün qəbul edilmiş qərarlarla, atılmış addımlarla bu bağlantını daha da gücləndiririk.

Coğrafi baxımdan aramızda Azərbaycanın indi Ermənistanın tərkibində olan qədim diyarı – Zəngəzur bölgəsi yerləşir. Ancaq mənəvi, siyasi baxımdan və iqtisadi layihələrin həyata keçirilməsi nəticəsində türk dünyasının birləşməsi və bir qüvvə kimi fəaliyyət göstərməsi bu gün reallıqdır, həqiqətdir. Bu həqiqəti biz yaradırıq və bizdən asılıdır ki, bu birlik davam etsin, güclənsin və bizim xalqlarımıza yeni imkanlar yaratsın.

Türkiyədən başqa, digər türkdilli ölkələr müstəqil ölkələr kimi gəncdir, müstəqilliyimizin gənclik illərini yaşayırıq. Bu müstəqilliyin formalaşması, güclənməsi hər bir ölkə üçün böyük çətinliklərlə müşayiət olunurdu. Bu çətinlikləri aşmaq, aradan qaldırmaq böyük səylər, böyük siyasi iradə, dünyagörüşü və cəsarət tələb edirdi. Bu gün biz böyük qürur hissi ilə deyə bilərik ki, bütün türkdilli ölkələrdə vəziyyət çox müsbətdir, siyasi vəziyyət sabitdir. Gənc müstəqil ölkələr təsdiq etdilər ki, onlar öz talelərinin sahibləridir, müstəqil ölkələr kimi yaşaya və uğurla inkişaf edə bilərlər. Bu gün bu gözəl formatda bizim əməkdaşlığımızın çox yaxşı perspektivləri vardır. Bu gün imzalanacaq sənədlər gələcək fəaliyyətimiz üçün praktiki əhəmiyyət daşıyır. Bizim səmərəli işimiz gələcəkdə bizi daha da birləşdirəcək, beynəlxalq mövqelərimizi daha da gücləndirəcək və ölkələr qarşısında duran bütün problemlərin uğurlu həlli üçün də yaxşı imkanlar yaradacaqdır. Bu gün biz bu barədə geniş danışdıq, dünən ikitərəfli formatda və birlikdə bu məsələləri müzakirə etdik. Bir daha görürük ki, çox böyük potensial, böyük imkanlar və güclü siyasi iradə vardır.

Beləliklə, bizim toplantımız başa çatır. Növbəti zirvə görüşünün təşkili ilə bağlı əziz dostum Qırğızıstan prezidenti Kurmanbek Saliyeviç Bakiyev təşəbbüs göstərmişdir ki,

görüş gələn ilin avqustunda Qırğızıstanda keçirilsin. Biz də böyük minnətdarlıqla və məmnuniyyət hissi ilə bu təşəbbüsü dəstəkləyirik. Çox vacibdir ki, zirvə görüşləri mütəmadi qaydada keçirilsin. Əminəm ki, hər bir görüş yeni imkanların açılmasına gətirib çıxaracaqdır.

Beləliklə, bizim görüşümüz başa çatır. İndi isə sənədlərin imzalanması mərasiminə başlayırıq.

* * *

*Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan prezidenti İlham Əliyev, Türkiyə prezidenti Abdullah Gül, Qazaxıstan prezidenti Nursultan Nazarbayev, və Qırğızıstan prezidenti Kurmanbek Bakiyev Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişini, daha sonra Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşünün yekunu olaraq Naxçıvan Bəyannaməsini imzaladılar.*

*Bununla da, Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşü başa çatmışdır.*

## «DUZDAĞ» FİZİOTERAPİYA MƏRKƏZİ İLƏ TANIŞLIQ

*Naxçıvan*

*3 oktyabr 2009-cu il*

*Oktyabrın 3-də Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşü başa çatdıqdan sonra görüş iştirakçıları «Duzdağ» Fizioterapiya Mərkəzi ilə tanış olmuşlar.*

*Azərbaycan prezidenti İlham Əliyev qonaqlara məlumat verdi ki, Naxçıvanın rəmzlərindən biri də təbii ehtiyatları 90 milyon ton təşkil edən Duzdağdır. Bu dağ ölkəmizdə təkcə saf və təmiz duzu ilə deyil, həm də şəfaverici xüsusiyyətlərinə görə tanınmışdır. Hələ Nuh–nəbi dövründən burada duz çıxarılır. Şöhrəti dünyaya səs salan İpək yolundan əvvəl Naxçıvan ərazisindən Yaxın Şərq ölkələrinə Duz yolu uzanırdı. Həmin ölkələrə buradan duz daşınırdı. Qədim Naxçıvanın ən möcüzəli yerlərindən biri olan Duzdağın hər qarışında, dağında, daşında tarixin sirli, sehirli izləri gizlənmişdir. Sovet İttifaqı dövründə burada fizioterapiya xəstəxanası fəaliyyət göstərirdi. Sonralar müalicəyə gələnlərin sayı artdıqca bura genişləndirildi. 2006-cı ilin dekabrında müasir standartlar səviyyəsində «Duzdağ» Fizioterapiya Mərkəzinin tikintisinə başlanıldı. Mərkəz yeraltı və yerüstü şöbələrdən ibarətdir. Hazırda bu Mərkəzə bir çox ölkələrdən xəstələr gəlir.*

*Dövlətimizin başçısı ölkəmizin bütün bölgələrində belə mərkəzlərin inşa edildiyini söyləyərək qeyd etdi ki, burada da müalicə və istirahət üçün müasir səviyyədə şərait yaradılmışdır. Təbii müalicə ilə yanaşı, dərman və fizioterapiya müalicəsi, müalicəvi bədən tərbiyəsi də tətbiq edilir. Mərkəzin 324 yerlik beşulduzlu mehmanxanası da vardır.*

*Qonaqlar «Duzdağ» Fizioterapiya Mərkəzi ilə böyük maraqla tanış oldular.*

## TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ IX ZİRVƏ GÖRÜŞÜNÜN İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*Naxçıvan*

*3 oktyabr 2009-cu il*

*Oktyabrın 3-də Azərbaycan prezidenti İlham Əliyevin adından Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşünün iştirakçılarının şərəfinə rəsmi qəbul təşkil edilmişdir.*

*Rəsmi qəbulda Türkiyə prezidenti Abdullah Gül, Qazaxıstan prezidenti Nursultan Nazarbayev, Qırğızıstan prezidenti Kurmanbek Bakiyev iştirak etmişlər.*

## PAKİSTAN SİLAHLI QÜVVƏLƏRİNİN BİRLƏŞMİŞ QƏRARGAHLAR KOMİTƏSİNİN SƏDRİ GENERAL TARİQ MƏCİDİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 oktyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Pakistan Silahlı Qüvvələrinin Birləşmiş Qərargahlar Komitəsinin sədri general Tariq Məcidin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycana ilk dəfə gəldiyini, səfəri zamanı yüksək qonaqpərvərliklə qarşılandığını deyən Tariq Məcid Azərbaycanın gözəl bir ölkə olduğunu, burada qardaşlıq hissləri keçirdiyini dedi.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyini bildirdi, Azərbaycan ilə Pakistanın yaxın tərəfdaş və müttəfiq ölkələr olduğunu vurğuladı. Pakistanın Azərbaycan üçün dost və qardaş ölkə olduğunu deyən prezident İlham Əliyev əlaqələrimizin bundan sonra da bütün istiqamətlərdə, o cümlədən hərbi əməkdaşlıq sahəsində genişlənəcəyinə ümidvar olduğunu qeyd etdi. Dövlətimizin başçısı Pakistan Silahlı Qüvvələrinin Birləşmiş Qərargahlar Komitəsinin sədrinin ölkəmizə səfərinin münasibətlərimizin daha da möhkəmlənməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.*

## ABŞ-ın ENERGETİKA NAZİRİNİN MÜAVİNİ DANİEL PONEMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 oktyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də ABŞ-ın Energetika nazirinin müavini Daniel Ponemanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında energetika sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi, bu əlaqələrimizin gələcəkdə də genişlənəcəyinə əminlik ifadə olundu. ABŞ-ın Energetika nazirinin müavininin ölkəmizə səfərinin bu sahədə əməkdaşlığımızın möhkəmlənməsi baxımından əhəmiyyəti vurğulandı.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 oktyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bratkeni (ABŞ), Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.*

## SLOVAKİYANIN KONSTİTUSİYA MƏHKƏMƏSİNİN SƏDRİ İVETTA MATSEJKOVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 oktyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Slovakiyanın Konstitusiya Məhkəməsinin sədri İvetta Matsejkovanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Slovakiya arasında münasibətlərin bütün istiqamətlərdə genişlənməsinin zəruri olduğunu vurğuladı. Ölkələrimiz arasında əlaqələrin bu gün o qədər də intensiv xarakter daşımadığını qeyd edən prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, Slovakiyanın Konstitusiya Məhkəməsinin sədrinin Azərbaycana səfəri uğurlu nəticələr verəcək və əməkdaşlığımızın daha da inkişafına xidmət edəcəkdir.*

*İvetta Matsejkova Slovakiyanın Konstitusiya Məhkəməsi ilə Azərbaycanın Konstitusiya Məhkəməsi arasında beynəlxalq səviyyədə uğurlu əməkdaşlığın həyata keçirildiyini bildirdi və bu iki qurumun mütəmadi olaraq məhsuldar təcrübə mübadiləsi apardığını dedi. Qonaq ölkəsində Azərbaycanda gedən böyük inkişaf proseslərinin maraqla izləndiyini vurğuladı.*

## BAKIDA «CASPİAN AGRO–2009» KƏND TƏSƏRRÜFATI VƏ ƏRZAQ MƏHSULLARININ İSTEHSALI, EMALI VƏ QABLAŞDIRILMASI BEYNƏLXALQ SƏRGİSİ İLƏ TANIŞLIQ

*6 oktyabr 2009-cu il*

*Oktyabrın 6-da Azərbaycan prezidenti İlham Əliyev Heydər Əliyev adına İdman-Konsert Kompleksində «Caspian Agro–2009» kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı, emalı və qablaşdırılması beynəlxalq sərgisi ilə tanış olmuşdur.*

*İqtisadi İnkişaf və Kənd Təsərrüfatı nazirliklərinin rəsmi dəstəyi, Ticarət və Sənaye Palatasının təşkilatçılığı ilə keçirilən sərgi ilə tanışlıq zamanı məlumat verildi ki, belə bir beynəlxalq tədbirin keçirilməsinin başlıca məqsədi ölkəmizdə istehsal olunan kənd təsərrüfatı və emal sənayesi məhsullarının nümayişi ilə yanaşı, bu sahələrin daha da inkişafı üçün xarici şirkət və sərmayədarların diqqətini cəlb etmək, Azərbaycanda son illər baş verən sürətli inkişaf və tərəqqinin təbliği ilə bərabər, aqrar elmin qabaqcıl nailiyyətlərini və təcrübəsini öyrənməkdir. Sərgi ölkəmizdə kənd təsərrüfatının inkişafının dövlətin prioritet istiqamətlərindən biri olduğunu, Azərbaycanda bu sahədə maksimum nəticələrin qazanılmasına yönələn siyasətin uğurla davam etdirildiyini bir daha göstərir.*

*Prezident İlham Əliyevin təşəbbüsü və tapşırığı ilə keçirilən sərgidə Azərbaycan ilə yanaşı, ABŞ, Almaniya, Türkiyə, İtaliya, Belarus, Suriya, İsrail, Litva, Latviyanın 80-dən artıq şirkəti təmsil olunmuşdur.*

*Dövlətimizin başçısı əvvəlcə kompleksin həyatində Minsk və Gəncə avtomobil zavodlarının, habelə dünyanın nüfuzlu şirkətlərinin kənd təsərrüfatı texnikasına baxdı. Bildirildi ki, Minsk və Gəncə avtomobil zavodları arasında bağlanan*

*müqaviləyə əsasən artıq ölkəmizdə də kənd təsərrüfatı texnikasının istehsalına başlanılmışdır.*

*Prezident İlham Əliyev Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin pavilyonu ilə tanış oldu. Burada ölkəmizdə kənd təsərrüfatının inkişafını əks etdirən sənədlər, cədvəllər, ulu öndər Heydər Əliyevin ölkəmizdə aqrar sahənin, emal sənayesinin inkişafı istiqamətində gördüyü işləri əks etdirən müxtəlif materiallar, habelə fotoşəkillər vardır. Kənd Təsərrüfatı naziri İsmət Abasov ölkəmizdə kənd təsərrüfatı sahəsində əldə edilmiş uğurlar barədə məlumat verdi.*

*Naxçıvan Muxtar Respublikasının pavilyonunda muxtar respublikada istehsal olunan kənd təsərrüfatı və emal sənayesi məhsulları nümayiş olunurdu.*

*Prezident İlham Əliyev Azərbaycan Dövlət Aqrar Universitetinə aid pavilyona baxdı.*

*Şərabçılıq və quşçuluq müəssisələrinin pavilyonları ilə tanışlıq zamanı bildirildi ki, burada yerli şirkətlərlə yanaşı, xarici ölkələrin qabaqcıl müəssisələri də təmsil olunur. Diqqətə çatdırıldı ki, ölkəmizdə quşçuluq fabriklərinin yaradılması və onların ixrac qabiliyyətinin artırılması diqqətdə saxlanılır. Azərbaycanda həm də şərabçılığın inkişafı istiqamətində mühüm nəticələr əldə olunur. Ölkəmizdə üzüm sahələrinin yaradılması və genişləndirilməsi nəticə etibarilə şərabçılığın və şərab istehsal edən yeni modern müəssisələrin yaradılmasına imkan verir. İndi Azərbaycan istehsalı olan şərablar müxtəlif ölkələrə ixrac edilir və onlar dünya bazarında kifayət qədər yüksək reytinq toplaya bilmişdir.*

*Dövlətimizin başçısı «Caspian Agro–2009» beynəlxalq sərgisində iştirak edən xarici ölkələrin pavilyonları ilə də tanış oldu.*

*Litva Ticarət Evinin təşkil etdiyi pavilyonda bu ölkədə istehsal olunan kənd təsərrüfatı və emal sənayesi məhsulları nümayiş olunurdu.*

*Latviya şirkətləri sərgidə müxtəlif qida məhsulları, kənd təsərrüfatı sahəsində istifadə olunan yardımçı vasitələrlə təm-*

*sil olunur. Latviya mütəxəssisləri kənd təsərrüfatı sahəsində Azərbaycan ilə əməkdaşlığa böyük maraq göstərirlər və sərgi bu baxımdan onlar üçün geniş imkanlar açır.*

*Dünyada aqrar ölkə kimi tanınan İsrail də «Caspian Agro–2009» sərgisinin əsas iştirakçılarından biridir. İsraildə istehsal olunan kənd təsərrüfatı məhsullarının və texnikasının bu sərgidə nümayiş etdirilməsi beynəlxalq təcrübə mübadiləsinin aparılması və ikitərəfli əlaqələrin qurulması baxımından mühüm imkanlar yaradır.*

*Dövlətimizin başçısı Suriya Ərəb Respublikasında istehsal edilən kənd təsərrüfatı məhsullarının sərgisi ilə də tanış oldu. Bildirildi ki, yerləşdiyi regionda Suriya əsas aqrar ölkələrdən biri kimi tanınır.*

*Prezident İlham Əliyev «Caspian Agro–2009» beynəlxalq sərgisində böyük heyətlə təmsil olunan Belarusun milli pavilyonuna baxdı. Burada dövlətimizin başçısını milli geyimli belaruslu qız duz-çörəklə qarşıladı.*

*Belarusun Kənd Təsərrüfatı və Ərzaq nazirinin birinci müavini Nadejda Katkovets və bu ölkənin Sənaye nazirinin birinci müavini İvan Demidoviç Belarus milli pavilyonunda nümayiş olunan məhsullar haqqında ətraflı məlumat verdilər.*

*Prezident İlham Əliyev «Meliorasiya və Su Təsərrüfatı» ASC-nin ölkəmizin meliorasiya və irriqasiya sisteminin müasirləşdirilməsini əks etdirən ekspozisiyası ilə tanış oldu. Qeyd edildi ki, hazırda respublikada onlarla beynəlxalq səviyyəli hidrotexniki qurğunun inşası davam etdirilir.*

*Dövlətimizin başçısı sərgidə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, yerli və xarici şirkətlərin pavilyonları ilə də tanış oldu.*

## PAYTAXTIN FİLARMONİYA BAĞINDA APARILMIŞ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*7 oktyabr 2009-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 7-də paytaxtın Filarmoniya bağında aparılmış əsaslı təmir və yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva bağı gəzdilər.*

*Məlumat verildi ki, 1830-cu ildə İçərişəhərin qala divarına bitişik ərazidə salınan və uzun müddət qədim Bakının yeganə istirahət məkanı olan Filarmoniya bağının maraqlı tarixi vardır. XIX əsrin əvvəllərində Bakının komendantı İrandan gələn bütün gəmi sahiblərinin qarşısına hərəyə bir çuval qara torpaq gətirmək barədə şərt qoymuşdu. Gətirilən torpağın tökülüb yayıldığı bu ərazidə bitkilərin çeşidi zənginləşdirilir, beləliklə də bağ şəhərin «yaşıl adası»na çevrilir. XIX əsrin 60–70-ci illərində bu bağın ərazisi xeyli genişləndirilmişdir. Ötən əsrin əvvəllərində isə Şəhər Dumasının qərarı ilə bu ərazidə indiki Filarmoniya binasının tikilməsi o vaxtlar Qubernator bağı adlanan istirahət guşəsinin şöhrətini daha da artırmış, əraziyə xüsusi yaraşıq vermişdir. Sahəsi 4,6 hektar olan bu bağ əvvəlcə Qubernator, sonra Mixaylov bağı adlanmışdır. O vaxtlar da bu bağa digərlərindən daha çox diqqət və vəsait ayrılırdı. Çünki bağdakı sıx yaşıllıq Şəhər Dumasının fəxri idi.*

*Bağ salınandan sonra ilk dəfə burada abadlıq işləri ötən əsrin 70-ci illərində aparılmışdı. Bağ bir çox dövrlərdə baxımsızlıqdan ziyan çəkmişdir.*

*Lakin prezident İlham Əliyevin diqqət və qayğısı bağın tarixi şöhrətini qaytarmağa imkan vermişdir. 2007-ci ilin ma-*

*yında əraziyə gələn dövlətimizin başçısı burada abadlıq və yenidənqurma işlərinin aparılması ilə bağlı tapşırıqlarını vermişdi. Prezident İlham Əliyev mütəmadi olaraq əraziyə gələrək işlərin gedişi ilə maraqlanmış, yenidənqurma prosesinin orijinal üslubun saxlanılması şərtilə həyata keçirilməsinin vacibliyini bildirmişdi.*

*Aparılmış yenidənqurma işləri nəticəsində Filarmoniya bağı Bakının digər parkları kimi, paytaxt sakinlərinin maraqlı istirahət yerinə çevrilmişdir.*

*Bağdakı fəvvarə, pavilyon və köşklər yenidən qurulmuş, XIX əsr paytaxt memarlığının Qərb meyillərinin Şərq üslubu ilə uzlaşdırılması bağın dizaynına xüsusi yaraşıq vermişdir. Yenidənqurma prosesində Bakının tarixi, onun keçmişi ilə sıx bağlı olan bağın bədii tərtibatı xüsusi diqqətdə saxlanılmışdır. Yenidənqurma zamanı burada nadir ağac növləri – palıd, sidr və göyrüş ağacları əkilmiş, yeni suvarma sistemi quraşdırılmışdır.*

*Bağda yeni planlaşdırma işlərinin aparılması və bu prosesə xarici mütəxəssislərin də cəlb olunması, ilk növbədə, burada görülən işin keyfiyyətindən xəbər verir. Fransanın «İnter Art» şirkətinin məxsusi olaraq layihələndirdiyi bağda orijinal formada tikilən fəvvarə Bakıda ilk dəfə məhz burada yerləşdirilmişdir. Fəvvarə və onun arxasındakı memarlıq tikilisi həm dizaynına, həm də koloritinə görə, Bakının nostalji hissləri doğuran elementlərinin bir yerdə cəmləşdiyi məkan kimi diqqəti çəkir. Bağda yeni ağaclar əkilmiş, ərazi müxtəlif bitkilərlə zənginləşdirilmiş, gözəl landşaft kompozisiyaları yaradılmışdır. Bakıda ilk dəfə olaraq bu bağda klassik musiqi səsləndiriləcəkdir.*

*Bağla tanışlıqdan sonra prezident İlham Əliyev burada yenidənqurma işlərinə cəlb olunmuş Fransanın «İnter Art» şirkətinin nümayəndələri ilə görüşmüş, işləri yüksək səviyyədə yerinə yetirən mütəxəssislərə uğurlar arzulamışdır.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOLDOVA RESPUBLİKASINA SƏFƏRİ

*8 oktyabr 2009-cu il*

*Oktyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Kişinyova yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Oktyabrın 8-də Azərbaycan prezidenti İlham Əliyev Moldovanın paytaxtı Kişinyova gəlmişdir.*

*MDB üzvü olan ölkələrin dövlət bayraqları ilə bəzədilmiş Kişinyov hava limanında Azərbaycan prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü. Azərbaycan dövlətinin başçısını Moldovanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri, MDB İcraiyyə Komitəsinin rəsmi şəxsləri qarşıladılar.*

*Milli geyimli oğlan və qızlar dövlətimizin başçısına duz-çörək təqdim etdilər.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ SERJ SARKİSYANIN GÖRÜŞÜ

*Kişinyov*

*8 oktyabr 2009-cu il*

*Oktyabrın 8-də Kişinyovda Azərbaycan prezidenti İlham Əliyevin və Ermənistan prezidenti Serj Sarkisyanın görüşü olmuşdur.*

*Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarovun, Ermənistanın Xarici İşlər naziri Edvard Nalbandyanın və ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bratke (ABŞ), Bernar Fasye (Fransa), Yuri Merzlyakov (Rusiya) və ATƏT-in hazırkı sədrinin şəxsi nümayəndəsi Anji Kasprşikin iştirak etdikləri görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.*

## AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ

*Kişinyov*

*9 oktyabr 2009-cu il*

*Oktyabrın 9-da Kişinyovda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın görüşü olmuşdur.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN GÖRÜŞÜ

*Kişinyov*

*9 oktyabr 2009-cu il*

*Oktyabrın 9-da Kişinyovda Azərbaycan prezidenti İlham Əliyevin və Ukrayna prezidenti Viktor Yuşşenkonun görüşü olmuşdur.*

*Dövlət başçıları ikitərəfli münasibətlərin müxtəlif sahələri ilə bağlı fikir mübadiləsi aparmışlar.*

## MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASI

*Kişinyov*

*9 oktyabr 2009-cu il*

*Oktyabrın 9-da Azərbaycan prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının Kişinyovda keçirilən iclasında iştirak etmişdir.*

*Prezident İlham Əliyev və digər dövlət başçıları MDB Dövlət Başçıları Şurasının iclasının keçirildiyi Respublika sarayına gəldilər.*

*Moldova parlamentinin sədri, prezidentin vəzifəsini icra edən Mixay Qimpu və digər yüksək vəzifəli şəxslər prezident İlham Əliyevi sarayın önündə ehtiramla qarşıladılar.*

*Sonra MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası keçirildi.*

*İclasda dünya maliyyə böhranının nəticələrinin aradan qaldırılması, təhlükəsizliyin təmin olunması, habelə MDB qurumlarının fəaliyyətinin optimallaşdırılması qaydalarına dair Birlik dövlətlərinin əməkdaşlığının fəallaşdırılması ilə əlaqədar sənəd layihələri müzakirə edildi. Daha sonra MDB çərçivəsində çoxsahəli əməkdaşlığın, o cümlədən iqtisadiyyat, enerji, miqrasiya məsələlərində işbirliyinin genişləndirilməsinə dair qəbul olunan qərarların səmərəliliyinin artırılması ilə bağlı təkliflər ətrafında fikir mübadiləsi aparıldı.*

*Şuranın geniş tərkibdə iclası oldu. Müzakirələrdən sonra iclasın yekun sənədləri imzalandı.*

*Daha sonra mətbuat konfransı keçirildi. Bildirildi ki, MDB-də sədrlik gələn ilin yanvarında Rusiya Federasiyasına keçəcəkdir. MDB Dövlət Başçıları Şurasının növbəti iclası isə 2010-cu ilin dekabrında Moskvada keçiriləcəkdir.*

## Səfər başa çatdı

*Oktyabrın 9-da MDB Dövlət Başçıları Şurasının iclasında iştirak edən Azərbaycan prezidenti İlham Əliyevin Moldovaya səfəri başa çatmışdır.*

* * *

*Dövlətimizin başçısı həmin gün axşam Bakıya qayıtmışdır.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## AZƏRBAYCAN TELEVİZİYASINA MÜSAHİBƏ

*9 oktyabr 2009-cu il*

*Kişinyovda MDB Dövlət Başçıları Şurasının iclasında iştirak edən prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə vermişdir.*

**S u a l: Cənab Prezident, Ermənistan prezidenti ilə növbəti görüşünüz oldu. Naxçıvanda türkdilli ölkələrin dövlət başçılarının sammitində qeyd etdiniz ki, hazırda danışıqlar son mərhələsindədir. Bu baxımdan bugünkü görüşün nəticələri barədə nə deyə bilərsiniz?**

**İ l h a m Ə l i y e v:** Bildiyiniz kimi, danışıqlar uzun illərdir ki, aparılır. Əfsuslar olsun ki, hələ heç bir nəticə yoxdur. Mən qeyd etmişdim ki, artıq danışıqlar son mərhələsindədir və bu mərhələdə həlledici qərarlar qəbul edilməlidir. Bizim mövqeyimiz dəyişməz olaraq qalır. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Erməni silahlı qüvvələri bizim işğal olunmuş bütün torpaqlardan çıxarılmalıdır. Məcburi köçkün soydaşlarımız öz doğma torpaqlarına qayıtmalıdırlar. Bizim mövqeyimiz beynəlxalq hüquq normalarına əsaslanır. Bildiyiniz kimi, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi qəbul edilibdir. Digər beynəlxalq təşkilatların qərarları və qətnamələri vardır. Bir sözlə, beynəlxalq hüquq baxımından bizim mövqeyimiz çox güclüdür.

Danışıqlara gəldikdə, deyə bilərəm ki, müsbət dinamika vardır. Əgər bu olmasaydı, indiyə qədər bu danışıqlar aparılmazdı. Danışıqlara bizim sadiq qalmağımızın əsas səbəbi ondan ibarətdir ki, danışıqlar prosesində çətin də olsa, irəliləyiş vardır. Son 5-6 il ərzində çox vacib məsələlər razı-

laşdırılıb. İlk növbədə Ermənistan qüvvələri Dağlıq Qarabağın ətrafında yerləşən bütün işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır. Deyə bilərəm ki, bu, danışıqlar prosesində böyük irəliləyişdir, 4-5 il əvvəl 4 rayonun, ondan sonra 5 rayonun boşaldılmasından söhbət gedirdi. Ancaq bu gün artıq deyə bilərəm ki, bunlar razılaşdırılıbdır.

Danışıqların xüsusiyyəti ondan ibarətdir ki, detallar müəyyənləşməyənə qədər heç nə razılaşdırılmır. Bu o deməkdir ki, biz bütün məsələləri həll etməliyik. Yalnız o halda böyük sülh müqaviləsinə yaxınlaşa bilərik. Azərbaycanın ərazi bütövlüyü tam şəkildə bərpa olunmalıdır və Dağlıq Qarabağda yaşayan ermənilər və Dağlıq Qarabağa qayıdacaq azərbaycanlılar gələcəkdə yüksək muxtariyyət şəraitində yaşamalıdırlar. Bu da dünyanın ən müsbət təcrübəsini özündə ehtiva edən bir yanaşmadır, məsələ ancaq bu yolla öz həllini tapa bilər.

Kişinyov danışıqlarına dünyada və bölgədə çox böyük maraq var idi. Hamıya bəllidir ki, danışıqlar son mərhələsindədir və xüsusilə ermənilər konstruktiv mövqe tutarlarsa bu, danışıqlarda müsbət nəticəyə gətirib çıxara bilər. Biz bütün proseslərdə öz mövqeyimizi müdafiə etmişik. Əfsuslar olsun ki, Kişinyov görüşü nəticəsiz qaldı, tərəflər müzakirə edilən əsas məsələlərdə razılığa gələ bilməyiblər. Bunun da səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyidir. Biz başqa tərəfin narahatlığını başa düşməyə çalışırıq. Başa düşürük ki, bu gün Dağlıq Qarabağda yaşayan əhali təhlükəsizlik təminatını almalıdır. Amma Dağlıq Qarabağa, Şuşaya qayıdacaq azərbaycanlılar da təhlükəsizlik təminatı almalıdırlar. Yəni bu proses paralel şəkildə aparılmalıdır və bölgədə yaşayan bütün insanların təhlükəsizliyi eyni dərəcədə təmin olunmalıdır. Bizim prinsipial mövqeyimiz, danışıqlarda nümayiş etdirilən yanaşmamız beynəlxalq hüquqa əsaslanır. Ümid edirəm ki, Ermənistan tərəfi, nəhayət, konstruktivlik nümayiş etdirərək, çox vacib addımlar ata-

caq, işğal edilmiş torpaqlardan öz qoşunlarını çıxaracaq və beləliklə, bölgədə sülh təmin olunacaq.

Dağlıq Qarabağ münaqişəsi həll edilməmiş bölgədə heç bir müsbət meyil gözlənilmir. Kimsə fikirləşir ki, bölgədəki mövcud problemlərin bəzilərini asanlıqla həll etmək olar, mən buna şübhə ilə yanaşıram. Çünki bölgənin əsas problemi Dağlıq Qarabağ münaqişəsidir. İlk növbədə bu münaqişə öz həllini tapmalıdır. Bundan sonra bütün başqa məsələlər də öz həllini tapa bilər.

**S u a l: Cənab Prezident, oktyabrın 10-da Türkiyə ilə Ermənistan arasında münasibətlərin nizamlanmasını nəzərdə tutan protokolların imzalanması planlaşdırılır və məlumdur ki, Dağlıq Qarabağ məsələsi bu protokollarda öz əksini tapmayıb. Bununla bağlı Azərbaycanın mövqeyi necədir?**

**İ l h a m Ə l i y e v:** Azərbaycan öz mövqeyini dəfələrlə bəyan edib. Bu məsələ hələ aprel ayında gündəliyə salınanda Azərbaycan öz mövqeyini bildirmişdi. Mən də öz çıxışlarımda bu məsələyə toxunmuşdum. Xarici İşlər Nazirliyi rəsmi bəyanatla çıxış etmişdir. Mövqeyimiz ondan ibarətdir ki, biz başqa ölkələr arasında yaranan, yaxud da ki, yarana biləcək münasibətlərə müdaxilə etmirik. Bunu yolverilməz sayırıq. Öz daxili işlərimizə də kiminsə qarışmasına imkan vermirik. Azərbaycan heç vaxt başqa ölkələrin nə daxili işlərinə, nə də ölkələr arasında münasibətlərə qarışıb. Bu, birinci məsələdir.

Heç kəs üçün sirr deyil ki, Türkiyə–Ermənistan sərhədinin bağlanmasının başlıca və tək səbəbi Kəlbəcər rayonunun işğal altına düşməsi olmuşdur. Yəni məhz buna görə Türkiyə–Ermənistan sərhədi bağlandı və bu günə qədər belə vəziyyətdə qalır. Təbii ki, səbəb aradan qaldırılandan sonra sərhəd açıla bilər. Bu bizim mövqeyimizdir. Türkiyə rəhbərləri də bu məsələ ilə əlaqədar dəfələrlə öz mövqelərini bildirmişlər. Ümid edirəm ki, bu mövqe üstünlük təşkil edəcək və protokollarda, onların praktiki icrasında bu amil nəzərə alınacaqdır.

Siz qeyd etdiniz və bizdə olan məlumata görə bu protokollarda Dağlıq Qarabağ məsələsinin həlli nəzərdə tutulmur. Ancaq Türkiyə rəhbərləri rəsmi bəyanatlarda və şəxsi görüşlər əsnasında dəfələrlə bizə bildirmişlər ki, Dağlıq Qarabağ məsələsi həll olunmayana qədər Türkiyə–Ermənistan protokolları məclis tərəfindən təsdiqlənməyəcək və beləliklə, sərhədlər açılmayacaqdır. Bunu Türkiyənin prezidenti və Baş naziri, Türkiyə parlamentinin sədri, Türkiyənin Xarici İşlər naziri demişdir və biz buna inanırıq. İnanırıq ki, belə də olacaqdır. Belə olan halda bölgəyə sülh gələ bilər. Belə olan halda bölgədəki bütün ölkələr bu vəziyyətdən uğurla istifadə edib öz aralarında bütün məsələləri həll edə bilərlər. Ancaq bu halda bölgədə genişmiqyaslı əməkdaşlıq yarana bilər.

Bəzən belə fikirlər də səslənir ki, Türkiyə–Ermənistan münasibətlərinin normallaşması, sərhədlərin açılması gələcəkdə Dağlıq Qarabağ münaqişəsinin həllinə kömək göstərə bilər. Mən bu fikirləri bölüşmürəm. Hesab edirəm ki, Türkiyə–Ermənistan münasibətləri Dağlıq Qarabağ məsələsinin həllindən əvvəl tənzimlənərsə, o zaman Ermənistanın mövqeyi danışıqlar prosesində daha da sərtləşə bilər. Ermənistan bunu bir növ öz siyasi və diplomatik uğuru kimi təqdim etməyə çalışacaq və çox güman ki, danışıqlarda daha da sərt və qəbulolunmaz mövqe tutacaqdır. Bunu deməyə kifayət qədər əsas vardır. Danışıqlar prosesi və danışıqlar prosesində müxtəlif mərhələlərdə yaşanan hadisələr bunu deməyə əsas verir.

Mən tam əminəm ki, iki proses – Dağlıq Qarabağ münaqişəsinin həlli və Türkiyə–Ermənistan sərhədlərinin açılması prosesləri paralel şəkildə getməlidir. Bu proseslər arasında rəsmi də olmasa, qeyri-rəsmi bağlantı vardır. Bu bağlantı saxlanılmalıdır və iki məsələ paralel şəkildə eyni anda həll olunmalıdır. Əks-təqdirdə bölgədə status-kvo mənfi tərəfə dəyişə bilər. Bizim torpaqlarımız uzun illərdir ki, işğal altındadır. Biz buna nə vaxta qədər dözəcəyik?! Ancaq

status-kvo əgər mənfi tərəfə dəyişərsə, bölgədə xoşagəlməz proseslərin başlanmasına gətirib çıxara bilər. Ümid edirik ki, Dağlıq Qarabağ məsələsini biz danışıqlar yolu ilə həll edə bilərik. Əgər bu ümidlər tükənsəydi, biz bir dəqiqə də danışıqlarda iştirak etməzdik. Ancaq bölgədə gedən proseslər və böyük dövlətlərin bu məsələyə qoşulması Dağlıq Qarabağ münaqişəsinin həllinə öz müsbət təsirini göstərməlidir. Mən inanıram ki, belə də olacaqdır.

Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq münasibətləri çox yüksək səviyyədədir və bir daha demək istəyirəm ki, mən verilən sözlərə inanıram. Türkiyə rəhbərləri tərəfindən verilən açıqlamalara inanıram və əminəm ki, Dağlıq Qarabağ məsələsi həll olunmayana qədər Türkiyə–Ermənistan sərhədləri açılmayacaqdır.

**S u a l: Cənab Prezident, Ermənistan prezidenti bu yaxınlarda xarici ölkələrə səfər edərkən erməni diasporunun təhqir və təzyiqləri ilə üzləşib. Sizcə bunun səbəbi nədədir?**

**İ l h a m Ə l i y e v:** Bir daha qeyd etmək istəyirəm ki, biz bu bölgədə yaşayırıq, bölgənin bütün problemlərini yaxşı bilirik. Həm tarixini, həm bugünkü reallıqlarını bilirik və əlbəttə ki, bizim üçün nəyisə proqnozlaşdırmaq, təxmin etmək daha asandır, nəinki bölgədə yaşamayan siyasətçilər üçün. Dediyiniz kimi, Ermənistan prezidenti xarici səfərdə böyük təzyiqlərlə üzləşmişdir. Sözün düzü, bu səfərin mənasını biz axıra qədər anlamırıq. Uzun müddətdir ki, Türkiyə ilə Ermənistan arasında protokolların imzalanması günü təyin edilmişdir. Bu tarix Türkiyə və Ermənistan tərəfindən razılaşdırılmışdır. Madam ki, tarix bəlli, protokolların mətni bəlli və onların dəyişməsinə heç bir imkan yox, sadəcə olaraq, bu görüş formal xarakter daşıyırdı. Baxın, bu normallaşma prosesi nəyə gətirib çıxarır.

Ermənistanda, demək olar ki, siyasi böhran yaşanır, koalisiya dağıldı, diaspor ilə əlaqələr sarsıldı. İlk dəfə olaraq Ermənistan prezidentini öz soydaşları xaricdə belə qarşılayırlar. Bu, əlbəttə ki, Azərbaycan cəmiyyətində də birmə-

nalı qarşılanmır. Azərbaycan cəmiyyətinin mütləq əksəriyyəti o fikirdədir ki, ancaq Dağlıq Qarabağ məsələsinin həlli ilə bərabər, Türkiyə–Ermənistan sərhədləri açılmalıdır. Türkiyədə də bu məsələ geniş diskussiyalara gətirib çıxarıb və bu diskussiyalar bəzi hallarda çox gərgin keçir. Hələ ortada heç nə yoxdur, ancaq görün nə qədər mənfi fəsadlar yaşanır. Ermənistanda bu məsələyə böyük etiraz vardır. Azərbaycanın da ictimai fikri bizim üçün bəllidir. Türkiyənin özündə bu məsələ birmənalı qarşılanmır. İmzalanacaq protokolların məclis tərəfindən təsdiqi də qeyri-müəyyəndir. Ona görə bölgədə hər bir addım ölçülüb-biçilməlidir, çox böyük təhlillər aparılmalıdır, reallıqlar əsasında proqnozlar verilməlidir. Biz elə etməliyik ki, bölgənin problemləri həll olunsun. Ancaq bəzi hallarda görürük ki, bölgədə yaşanan problemlər daha da dərinləşir. İlk dəfə fevral ayında Ermənistan mətbuatında Türkiyə–Ermənistan münasibətlərinin normallaşması ilə əlaqədar dərc edilən məqalələr bir məqsədi güdürdü: Türkiyə–Azərbaycan münasibətlərinə xələl gətirilsin. Ancaq bu gün Türkiyə–Ermənistan prosesinin davamı artıq Ermənistanda çox ciddi fəsadlara gətirib çıxarıb. Dediyim kimi, daxili vəziyyət gərginləşib, Ermənistan–diaspor münasibətləri pozulub.

**S u a l: Cənab Prezident, məlumdur ki, Ermənistan işğalçı siyasətinə görə təcrid olunmuş vəziyyətdədir və əgər Ermənistan–Türkiyə sərhədləri açılarsa, Sizcə bu, Ermənistanda iqtisadi canlanmaya gətirib çıxara bilərmi?**

**İ l h a m Ə l i y e v:** Ermənistan iqtisadiyyatı böhrandan əvvəl də çətin vəziyyətdə idi. Orada iqtisadi perspektivlər də o qədər ürəkaçan deyildir. Həm bazarın məhdud olması, yerli istehsalın o qədər də inkişaf etməməsi və həm də investisiya baxımından Ermənistan o qədər də cəlbedici ölkə deyildir. Coğrafi vəziyyət, xüsusilə Azərbaycan və Türkiyə sərhədlərinin bağlı olması, əlbəttə ki, çox böyük iqtisadi çətinliklər yaratmışdır. Böhranlı vəziyyətdə isə bu özünü daha da qabarıq şəkildə büruzə verir. Rəsmi statistikaya

görə, bu il Ermənistan iqtisadiyyatı təxminən 20 faiz aşağı düşübdür. O qədər də yaxşı vəziyyətdə olmayan iqtisadiyyatı canlandırmaq çox çətin olacaqdır.

Türkiyə–Ermənistan sərhədlərinin açılması daha çox mənəvi xarakter daşıyır. Amma, əlbəttə, iqtisadiyyatın fəallaşmasına da gətirib çıxara bilər. Belə deyərdim ki, bu elə bil ki, oksigen maskasıdır. Oksigen maskası ilə nəfəs almaq olar, yaşamaq mümkün deyildir.

**S u a l: Cənab Prezident, bu sualımız mövzuya aid olmasa da, böyük maraq doğurur. Sualımız Türkiyə ilə Azərbaycan arasında qaz sahəsində əməkdaşlıqla bağlıdır. Bildiyiniz kimi, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan may ayında Bakıda səfərdə olarkən qeyd etmişdi ki, hazırda mövcud qaz qiymətləri ədalətli deyildir. Bu qiymətlərin ədalətli olması üçün hansı işlər görülüb?**

**İ l h a m Ə l i y e v:** Siz düzgün deyirsiniz. Hörmətli cənab Baş nazir Bakıda olarkən belə də dedi ki, qiymətlər ədalətli deyil və biz çalışırıq ki, bu qiymətləri normal səviyyəyə gətirək. Bizim istəyimiz və danışıqlarda tutduğumuz mövqe beynəlxalq təcrübəyə əsaslanır. Bölgədə, yaxud da ki, dünyada başqa ölkələr arasında bu alqı-satqı məsələləri necə həll olunursa, bizim aramızda da eyni qaydada öz həllini tapmalıdır. Əfsuslar olsun ki, hələ bir nəticə yoxdur. Qaz alqı-satqısı və qaz tranziti ilə bağlı danışıqlarda üç əsas məsələ vardır. Birinci məsələ qiymətdir, hansı ki, ədalətli olmalıdır. Biz bunu gözləyirik ki, ədalətli qiymət haqqında razılaşma tezliklə öz həllini tapacaqdır. İkinci məsələ gələcəkdə Türkiyəyə veriləcək qazın miqdarıdır. Bildiyiniz kimi, bu il Türkiyəyə təqribən 7 milyard kubmetr Azərbaycan qazı ixrac edilib. Hələ ki, ədalətli olmayan qiymətlə.

«Şahdəniz» layihəsinin ikinci fazasından çıxarılacaq qazın, Dövlət Neft Şirkəti tərəfindən digər yataqlardan çıxarılan və çıxarılacaq qazın hansı hissəsi Türkiyə bazarına çatdırılacaqdır? Biz bunu da müəyyən etməliyik. Neft sahəsində buna nail ola bilmişik. Neftimiz müxtəlif yollarla dünya və

Avropa bazarlarına çıxarılır. Qaz sahəsində də mövcud olan bütün qaz kəmərlərimizdən istifadə etməliyik. Əlbəttə, Türkiyə bazarı bizim üçün çox maraqlıdır.

Rusiya ilə Azərbaycan arasında qaz sahəsində əməkdaşlıq başlanır və əminəm ki, gələcəkdə uğurlu əməkdaşlıq ola bilər. İran tərəfindən verilən təkliflər əsasında da danışıqlar aparılır. Azərbaycan qazının Türkiyə ərazisindən Avropa İttifaqı bazarına çıxarılması üçün də səylər göstərilir – həm Azərbaycan, həm Avropa ölkələri tərəfindən. Avropa İttifaqına üzv olan ölkələrlə ikitərəfli əsasda çox ciddi danışıqlar aparılır. Yunanıstan, İtaliya, Rumıniya, Bolqarıstan, Macarıstan və digər ölkələrlə danışıqlar aparılır. Azərbaycanda kifayət qədər qaz resursları vardır. Minimum təsdiq edilmiş qaz resurslarımız 2 trilyon kubmetr səviyyəsindədir. Amma real miqdar ondan ən azı 2 dəfə çoxdur.

Qazı ixrac etmək üçün gərək çox böyük investisiyalar qoyulsun. «Şahdəniz» layihəsinin ikinci fazasına nəzərdə tutulmuş investisiyaların həcmi təxminən 20 milyard dollar səviyyəsindədir. Bu investisiyaları qoymaq üçün biz və bizim tərəfdaşlarımız, konsorsiumun üzvləri bilməliyik ki, bu qazı hara satacağıq. Tarif şərtləri necə olacaq, qiymət necə olacaq, biz bunu hansı miqdarda satacağıq.

Üçüncü məsələ isə – yəni birinci qiymət, ikinci miqdar, üçüncü tarif haqlarıdır. Qiymət kimi, tarif haqları da ədalətli olmalıdır və bölgədə mövcud olan bütün başqa tarif haqları ilə uzlaşmalıdır. Bax, bu üç məsələdə əfsuslar olsun ki, biz hələ Türkiyə tərəfi ilə danışıqlarda bir nəticəyə gələ bilməmişik. Mən bir daha demək istəyirəm ki, biz danışıqları xoş niyyətlə aparırıq. Ancaq bununla bərabər, danışıqlarda müzakirə edilən məsələlər beynəlxalq təcrübəyə uyğun şəkildə öz həllini tapmalıdır. Belə olan halda Azərbaycan qazı Türkiyəyə daha da böyük həcmdə ixrac ediləcəkdir.

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA**

Hörmətli cənab Prezident!

Nobel sülh mükafatı ilə təltif edilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Bu ali mükafat Yer üzündə sülhün, sabitliyin və əmin-amanlığın bərqərar olması, münaqişələrin danışıqlar, dialoq yolu ilə aradan qaldırılması istiqamətindəki fəaliyyətinizə verilən layiqli qiymətdir. Bu gün dünya miqyasında baş verən proseslərdəki müsbət dəyişikliklər, beynəlxalq siyasətdə yaranmış yeni ab-hava Sizin adınızla bağlıdır.

Bu xoş dəqiqələrdə Sizə, cənab Prezident, möhkəm can-sağlığı, xoşbəxtlik, dost Amerika xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 oktyabr 2009-cu il*

**BEYNƏLXALQ OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ CƏNAB JAK ROQQA**

Hörmətli cənab Roqq!

Beynəlxalq Olimpiya Komitəsinin Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Bu məsul vəzifəyə seçkilərdə inamlı qələbəniz beynəlxalq idman ictimaiyyəti arasında böyük nüfuzunuzun parlaq təsdiqi, olimpiya hərəkatının inkişafı yolunda xidmətlərinizə verilən yüksək qiymətdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, olimpiya ideallarının təntənəsi naminə fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 oktyabr 2009-cu il*

## İSLAM KONFRANSI TƏŞKİLATINA ÜZV-DÖVLƏTLƏRİN MƏDƏNİYYƏT NAZİRLƏRİNİN VI KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi – İslam Konfransı Təşkilatına üzv-dövlətlərin mədəniyyət nazirlərinin VI konfransının iştirakçılarını səmimiyyətlə salamlayır, konfransın işinə uğurlar, hamınıza cansağlığı, ölkələrinizə əmin-amanlıq arzulayıram.

2009-cu il üçün Bakının islam mədəniyyətinin paytaxtı elan edilməsi müxtəlif sivilizasiyaların qovşağında yerləşən ölkəmizin zəngin tarixinə və mədəniyyətinə verilən yüksək qiymətdir. Ölkəmizdə hökm sürən tolerantlıq mühitini böyük tarixi nailiyyət kimi dəyərləndirir, mədəniyyətlər arasında dialoqun qurulması prosesinə daim diqqət yetiririk.

Azərbaycan özünün maddi və qeyri-maddi mədəni irsinin qorunması və təbliğinə dair beynəlxalq miqyaslı bir çox layihələri həyata keçirir. Lakin iyirmi ildən artıq davam edən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində erməni silahlı birləşmələri tərəfindən işğala məruz qalmış torpaqlarımızdakı islam mədəniyyətinə aid bütün nümunələr, dini məbədlər, məscidlər və abidələr dağıdılmışdır. Məruz qaldığımız təcavüzlə bağlı daim İslam Konfransı Təşkilatına üzv- dövlətlər tərəfindən haqlı mövqeyimizin dəstəklənməsi ölkəmizdə həmişə təqdirlə qarşılanmışdır.

İnanıram ki, konfransda islam dünyası mədəniyyətinin aktual məsələlərinə dair ətraflı müzakirələr aparılacaq, ölkələrimiz və xalqlarımız arasında qarşılıqlı mədəni əməkdaşlığın yeni inkişaf yolları müəyyən ediləcəkdir.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 oktyabr 2009-cu il*

## AVROPA ƏDALƏTLİ OYUNLAR HƏRƏKATININ XV KONQRESİNİN İŞTİRAKÇILARINA

Hörmətli konqres iştirakçıları!

Sizi – Avropa Ədalətli Oyunlar Hərəkatının XV konqresinin iştirakçılarını səmimi-qəlbdən salamlayır, hər birinizə uğurlar və cansağlığı arzulayıram.

Yarandığı vaxtdan etibarən öz prinsiplərinə sadiq qalaraq idmanda ədalətsizliyə, zorakılığa, dini və irqi ayrı-seçkiliyə, yarış qaydalarının pozulması hallarına qarşı mübarizə aparan hərəkatınızın nəcib məqsədləri Azərbaycanda layiqincə qiymətləndirilir. İdmanda ədalətli mübarizə ruhunun, yüksək mədəni davranış qaydalarının aşılanmasını, ədalətin hər zaman qorunmasını və ardıcıl həyata keçirilməsini bütün idmançılarımız təqdirəlayiq hesab edirlər.

Konqresiniz mədəniyyətlərarası dialoq, sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma, ədalət və tolerantlığın bərqərar olması ilə bağlı dövrümüzün aktual problemlərinə həsr edilmişdir. Əminəm ki, bu istiqamətdə ətraflı müzakirələr aparacaqsınız və qəbul etdiyiniz qərarlar qarşılıqlı işgüzar əlaqələrin inkişafına təkan verəcək, beynəlxalq idman təşkilatlarını Avropa Ədalətli Oyunlar Hərəkatı ətrafında daha sıx birləşdirəcəkdir.

Ümidvaram ki, konqresinizin Bakıda təşkili, möhtəşəm idman tədbirlərinin keçirilməsində böyük təcrübəyə malik paytaxtımızla tanışlıq və Olimpiya oyunlarında, dünya və Avropa çempionatlarında uğurla çıxış edən idmançılarımızla görüşləriniz sizdə xoş təəssürat yaradacaqdır.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 oktyabr 2009-cu il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İORDANİYAYA RƏSMİ SƏFƏRİ

*12 oktyabr 2009-cu il*

*Oktyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İordaniya Haşimilər Krallığına rəsmi səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Oktyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İordaniya Haşimilər Krallığına rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və İordaniyanın dövlət bayraqları ilə bəzədilmiş Əmmanın Kraliça Alia Beynəlxalq Hava Limanında prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı İordaniyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

*Mehriban xanıma gül dəstəsi təqdim edildi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Əmman*

*12 oktyabr 2009-cu il*

*Oktyabrın 12-də İordaniyaya rəsmi səfərə gəlmiş Azərbaycan prezidenti İlham Əliyevin Əmmanın əl-Hummar sarayında rəsmi qarşılanma mərasimi olmuşdur.*

*İordaniyanın və Azərbaycanın dövlət bayraqlarının dalğalandığı meydanda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*İordaniya krali II Abdullah və kraliça Raniyə Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı sarayın önündə qarşıladılar.*

*İordaniyanın dövlət və hökumət nümayəndələri prezident İlham Əliyevə, Azərbaycanın nümayəndə heyətinin üzvləri Kral II Abdullaha təqdim olundu.*

*Hərbi orkestrin ifasında Azərbaycanın və İordaniyanın dövlət himnləri səsləndirildi.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidenti İlham Əliyevə raport verdi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İORDANİYA KRALI II ABDULLAHIN GÖRÜŞÜ

*Əmman*

*12 oktyabr 2009-cu il*

*Oktyabrın 12-də əl-Hummar sarayında Azərbaycan prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın İordaniya kralı II Abdullah və xanımı Raniyə ilə birgə görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı.*

*Dövlət başçıları yüksək səviyyəli qarşılıqlı səfərlərin mühüm əhəmiyyətini qeyd etdilər. Prezident İlham Əliyevin İordaniyaya növbəti rəsmi səfərinin əməkdaşlığın möhkəmləndirilməsinə xidmət etdiyi bildirildi.*

*Prezident İlham Əliyev və Kral II Abdullah ölkələrimiz arasında əlaqələrin bundan sonra da genişlənəcəyinə əminliklərini ifadə etdilər.*

## DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Əmman*

*12 oktyabr 2009-cu il*

*Oktyabrın 12-də əl-Hummar sarayında prezident İlham Əliyevin və Kral II Abdullahın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

*Görüşdə Kral II Abdullah Azərbaycan ilə İordaniya arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı.*

*İordaniya dövlətinin başçısı ölkəsinin Azərbaycan ilə əlaqələrinə mühüm əhəmiyyət verdiyini qeyd etdi.*

*Kral II Abdullah Azərbaycan prezidenti İlham Əliyevin İordaniyaya rəsmi səfərinin ölkələrimiz arasında əlaqələrin siyasi, iqtisadi və digər sahələrdə daha da genişlənməsinə təkan verəcəyinə əminliyini ifadə etdi.*

*Prezident İlham Əliyev ölkələrimiz arasında güclü siyasi əlaqələrin ikitərəfli əməkdaşlığı genişləndirməyə hərtərəfli zəmin yaratdığını vurğuladı.*

*Dövlətimizin başçısı İordaniya krali II Abdullahın Azərbaycana rəsmi səfərinin əlaqələrin inkişafında vacib rol oynadığını dedi. Prezident İlham Əliyev İordaniyanın beynəlxalq təşkilatlarda Azərbaycana verdiyi dəstəyi yüksək qiymətləndirdi, səfər zamanı imzalanacaq sənədlərin əlaqələrimizin möhkəmlənməsinə əlavə imkanlar açacağını söylədi.*

*İki ölkənin iqtisadi əməkdaşlığının genişləndirilməsinin vacibliyini qeyd edən prezident İlham Əliyev bu baxımdan hökumətlərarası iqtisadi komissiyasının işinin əhəmiyyətini vurğuladı.*

*Azərbaycan dövlətinin başçısı səfər çərçivəsində həyata keçiriləcək konkret layihələrlə bağlı faydalı müzakirələrin aparılacağına ümidvar olduğunu bildirdi.*

## İORDANİYANIN BAŞ NAZİRİ NADER DƏHƏBİ İLƏ GÖRÜŞ

*Əmman*

*12 oktyabr 2009-cu il*

*Oktyabrın 12-də geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İordaniya Haşimilər Krallığının Baş naziri Nader Dəhəbi ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə əlaqələrin daha da genişləndirilməsi üçün potensial imkanlar barədə fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN PREZİDENTİNİN VƏ XANIMININ ŞƏRƏFİNƏ RƏSMİ NAHAR

*Əmman*

*12 oktyabr 2009-cu il*

*Oktyabrın 12-də Əmmanda İordaniya kralı II Abdullah və kraliça Raniyə tərəfindən Azərbaycan prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə nahar verilmişdir.*

**Səfər başa çatdı**

*Oktyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İordaniya Haşimilər Krallığına rəsmi səfəri başa çatmışdır.*

*Kral əlahəzrət II Abdullah ibn əl-Hüseyn prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Vətənə yola salmaq üçün dövlətimizin başçısına ayrılmış iqamətgaha gəldi.*

*Kral Azərbaycanın dövlət başçısını hava limanına özü maşının sükanı arxasına keçərək müşayiət etdi.*

*Azərbaycanın və İordaniyanın dövlət bayraqları ilə bəzədilmiş Əmmanın Marka Beynəlxalq Hava Limanında prezident İlham Əliyevin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Mehriban xanım Əliyevaya gül dəstəsi təqdim edildi.*

*Prezident İlham Əliyevi və xanımını İordaniya kralı II Abdullah yola saldı.*

* * *

*Dövlətimizin başçısı həmin gün Bakıya qayıtdı.*

*Azərbaycan prezidenti İlham Əliyevi Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## İSLAM KONFRANSI TƏŞKİLATININ ÜZVÜ OLAN DÖVLƏTLƏRİN MƏDƏNİYYƏT NAZİRLƏRİNİN VI KONFRANSININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ*

*Prezident sarayı*

*14 oktyabr 2009-cu il*

*Oktyabrın 14-də Azərbaycan prezidenti İlham Əliyev «Bakı – İslam mədəniyyətinin paytaxtı–2009» mədəniyyət ili çərçivəsində Bakıda keçirilən İslam Konfransı Təşkilatının üzvü olan dövlətlərin mədəniyyət nazirlərinin VI konfransının nümayəndələrini qəbul etmişdir.*

**İlham Əliyev**: Əziz qonaqlar! Hörmətli nazirlər!

Sizi Azərbaycanda ürəkdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

İslam Konfransı Təşkilatına üzv olan ölkələrin mədəniyyət nazirlərinin dünən və bu gün Bakıda keçirilən konfransı çox böyük əhəmiyyətə malik olan bir hadisədir. Əminəm ki, dünən və bu gün aparılan müzakirələr, qəbul edilən qərarlar ölkələrimiz arasında birliyi daha da möhkəmləndirəcək və islam həmrəyliyinin gücləndirilməsi üçün çox önəmli bir addım olacaqdır. Təmsil etdiyiniz ölkələrlə Azərbaycan arasında münasibətlər çox yüksək səviyyədədir. Biz bu münasibətlərin inkişafına öz tərəfimizdən töhfəmizi veririk. Əminəm ki, müsəlman ölkələri arasında olan dost-

---

* İslam Konfransı Təşkilatının üzvü olan dövlətlərin mədəniyyət nazirlərinin VI konfransında İSESKO-nun Baş direktoru Əbdüləziz Bin Osman əl-Tüveycri, Səudiyyə Ərəbistanı Krallığının Mədəniyyət və İnformasiya naziri Əbdüləziz Xoca Mühiddin, Əlcəzairin Mədəniyyət naziri xanım Xalida Toumi və Suriyanın Mədəniyyət naziri Riyad Naassan Ağa çıxış etdilər.

luq, qardaşlıq münasibətləri hər bir ölkənin beynəlxalq mövqelərini də gücləndirir.

Biz İslam Konfransı Təşkilatının xətti ilə Bakıda keçirilən çoxsaylı tədbirlərə böyük önəm veririk və son illər ərzində Bakıda müxtəlif səviyyəli tədbirlər keçirilmişdir. Bu tədbirlərin hər biri bizim aramızda olan birliyi daha da gücləndirmişdir.

Azərbaycan təmsil etdiyiniz ölkələrlə beynəlxalq arenada çox uğurlu əməkdaşlıq edir. Biz bir-birimizi beynəlxalq təşkilatlarda da dəstəkləyirik və bu dəstəyin çox böyük əhəmiyyəti vardır. Keçən il Birləşmiş Millətlər Təşkilatının Baş Məclisində Azərbaycanın təşəbbüsü ilə müzakirə edilən Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyətlə bağlı məsələlərdə biz müsəlman ölkələrindən böyük dəstək aldıq. Bu dəstək bizim marağımızı təmin edən və ədaləti özündə əks etdirən qətnamənin qəbul edilməsində həlledici rol oynamışdır. Bu, dostluğun, qardaşlığın nümunəsidir. Bu bir daha onu göstərir ki, biz birlikdə olanda, bütün məsələlərə vahid ailə kimi yanaşanda və xüsusilə beynəlxalq müstəvidə bir-birimizə dəstək verəndə mövqelərimiz daha da güclənir. Əminəm ki, həm İslam Konfransı Təşkilatı çərçivəsində, həm Birləşmiş Millətlər Təşkilatında və digər beynəlxalq təşkilatlarda biz qarşılıqlı dəstəyi bundan sonra da verəcəyik. Bu dəstək bizi daha da möhkəmləndirəcək və münasibətlərin daha da dərinləşməsinə xidmət edəcəkdir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi uzun illərdir ki, həll olunmamış qalır. Mən bilirəm ki, konfrans zamanı bu məsələ də müzakirə edildi. Çox geniş, ətraflı müzakirələr aparıldı və çox vacib bəyanatlar verildi, qərarlar qəbul edildi. Buna görə mən bütün konfrans iştirakçılarına öz minnətdarlığımı bildirmək istəyirəm.

Uzun illərdir ki, Azərbaycan torpaqları işğal altındadır. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma torpaqlarından didərgin

düşüb. İşğal edilmiş ərazilərimizdə bütün tarixi abidələrimiz dağıdılıbdır.

Azərbaycan xalqının istedadı və zəhməti hesabına yaradılmış bütün infrastruktur yerlə yeksan edilib. Dini abidələrimiz, məscidlərimiz, əcdadlarımızın qəbirləri dağıdılıb. Bu ədalətsizlik 20 ildir ki, davam edir. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmasına dair dörd qətnamə qəbul etmişdir. Əfsuslar olsun ki, Ermənistan bunlara məhəl qoymur və bu qətnamələr icra olunmur.

BMT Baş Məclisində buna oxşar qətnamələr qəbul edilmişdir. İslam Konfransı Təşkilatı, ATƏT, Avropa Şurası, GUAM və digər təşkilatlar Azərbaycanın işğal edilmiş torpaqlarından Ermənistan qoşunlarının çıxarılmasına dair çoxsaylı qətnamələr və qərarlar qəbul etmişlər. Əfsuslar olsun ki, onlara məhəl qoyulmur. Biz bu vəziyyətlə barışa bilmərik. Çünki Azərbaycanın beynəlxalq birlik tərəfindən qəbul edilmiş ərazi bütövlüyü pozulub.

Qeyd etdiyim kimi, bu işğaldan əziyyət çəkən bir milyondan artıq Azərbaycan vətəndaşı bu günə qədər də öz doğma torpaqlarına qayıda bilmir. Bizim mövqeyimiz ondan ibarətdir və beynəlxalq hüquq normaları da bunu təsdiq edir ki, bu məsələ ancaq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. İşğal edilmiş bütün torpaqlardan Ermənistanın işğalçı qüvvələri çıxarılmalıdır. Azərbaycan vətəndaşları öz doğma torpaqlarına qayıtmalıdırlar, ondan sonra bölgədə tammiqyaslı əməkdaşlıq yaranar, bölgədə irəli sürülmüş yeni təşəbbüslər reallaşa bilər. Dağlıq Qarabağ münaqişəsinin həlli bölgədə sülhün təmin edilməsi üçün birinci və başlıca şərtdir. Bu məsələ həll olunmadan bölgədə heç bir başqa məsələ öz həllini tapa bilməz.

Bir daha bu fürsətdən istifadə edib bütün müsəlman ölkələrində yaşayan bacı-qardaşlarımıza bizə daim dəstək

verdiklərinə görə öz dərin minnətdarlığımı bildirmək istəyirəm.

Azərbaycanın çox zəngin tarixi, çox zəngin mədəniyyəti vardır. Biz 18 ildir ki, müstəqil ölkə kimi yaşayırıq. Ancaq müxtəlif dövrlərdə başqa ölkələrin tərkibində yaşamağımıza baxmayaraq, öz mədəni irsimizi, tarixi irsimizi, abidələrimizi qoruyub saxlaya bilmişik. Ana dilimizi, milli və dini adət-ənənələri qoruya bilmişik.

Müstəqilliyimizin ilk illərindən müstəqil ölkə kimi, dünya birliyinə inteqrasiya etməklə bizə dost, qardaş olan müsəlman ölkələri ilə sıx əlaqələr qurduq. Bu əlaqələrin müxtəlif istiqamətləri vardır və bu günlərdə Bakıda keçirilən konfrans bir daha onu vurğulayır.

Azərbaycanda mədəniyyət sahəsində çox böyük işlər görülür. Bütün mədəniyyət ocaqları təmir olunur, bərpa edilir. Yeni muzeylər, teatrlar tikilir, əvvəllər tikilmiş mədəniyyət infrastrukturu yeniləşir, müasirləşir.

Bildiyiniz kimi, Bakı bu il İslam mədəniyyətinin paytaxt şəhəri seçilmişdir. Bu bizim üçün böyük şərəfdir. Bu şərəfli adı çox böyük qürur hissi ilə daşıyırıq. Bununla bərabər, ölkəmizdə müxtəlif beynəlxalq tədbirlər də keçirilir.

Azərbaycan sivilizasiyalararası dialoqun gücləndirilməsinə öz töhfəsini verir. Çünki bizim coğrafi vəziyyətimiz və Avropa təşkilatlarına üzv olmağımız bu unikal imkanları yaradır. Biz çalışacağıq öz səylərimizi bundan sonra da artıraq ki, mədəniyyətlərarası dialoqun gücləndirilməsinə daha da böyük töhfə verək.

Mən bir daha sizi Bakıda ürəkdən salamlayıram. Çox şadam ki, siz ölkəmizə səfər etmisiniz. Xahiş edirəm mənim salamlarımı və ən xoş arzularımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız. Konfransda iştirak etmiş bütün beynəlxalq təşkilatların nümayəndələrini də salamlayıram. Azərbaycanın böyük dostu cənab əl-Tüveycrini xüsusilə salamlayıram. İSESKO ilə Azərbaycan

arasında çox uğurlu əməkdaşlıq aparılır və bu əməkdaşlığın çox gözəl praktiki nəticələri vardır.

Bu günlər həqiqətən bir dostluq günləridir, qardaşlıq günləridir. Təəssüf edirəm ki, konfransın açılışında iştirak edə bilməmişəm və səbəbi də ondan ibarətdir ki, xaricdə rəsmi səfərdə idim. Çox istəyirdim ki, açılışda sizinlə görüşüm. Bizim üçün dost, qardaş ölkə olan İordaniyaya səfər edirdim. Bu bir daha onu göstərir ki, Azərbaycan müstəqil ölkə kimi, islam ölkələri ilə, müsəlman ölkələri ilə münasibətlərin qurulmasında çox fəaldır və bizim xarici siyasətimizin bu istiqaməti deyə bilərəm ki, prioritet xarakter daşıyır. Bizi bir-birimizlə bağlayan ancaq ortaq maraqlar deyildir. Bizi bağlayan müştərək tariximizdir, mədəniyyətimizdir, aramızda olan tarixi bağlardır. Azərbaycan müstəqilliyinin ilk illərindən başlayaraq bu günə qədər öz xarici siyasətində islam həmrəyliyi prinsiplərini həmişə uca tutmuşdur.

Qeyd etdiyim kimi, biz çox zəngin mədəniyyətə malikik. Ancaq 18 ildir müstəqil ölkə kimi yaşayırıq. Biz müxtəlif dövrlərdə başqa ölkələrin tərkibində yaşamışıq. Buna baxmayaraq, öz milli mənliyimizi saxlaya bilmişik, öz tariximizi qoruya bilmişik və bu gün müstəqil ölkə kimi, uğurla inkişaf edirik. Bunun səbəblərindən biri də ondan ibarətdir ki, biz tarixi köklərimizə, dəyərlərimizə, müqəddəs islam dininə həmişə sadiq olmuşuq.

Bildiyiniz kimi, Sovet İttifaqı zamanında, ümumiyyətlə, dinə qadağa qoyulmuşdu. Azərbaycanda məscidlər dağıdılmışdı və Azərbaycan vətəndaşları öz vicdan azadlığını ifadə edə bilmirdilər. Azərbaycanda bir neçə məscid qalmışdı. Onlar da bir tarixi abidə kimi saxlanılmışdı. Müstəqillik dövründə, Azərbaycanın taleyi öz xalqının əlində cəmləşdiyi bir zamanda Azərbaycanda mindən artıq məscid tikilmişdir.

Azərbaycan xalqı indi öz taleyini özü həll edir. Bu bizim üçün tarixi əhəmiyyətdir. Biz bu gün dünya birliyində öz müstəqil siyasətimizi aparırıq. Biz dost, qardaş ölkələrlə

qarşılıqlı surətdə faydalı əlaqələr qururuq və biz görürük beynəlxalq təşkilatlarda kimlər bizi dəstəkləyir. Beynəlxalq təşkilatlarda bizə ən çox dəstək verən ölkələr müsəlman ölkələridir. Biz də öz növbəmizdə, bütün beynəlxalq təşkilatlarda həmişə müsəlman ölkələrinin təşəbbüslərini dəstəkləyirik.

Ölkələr arasında həm iqtisadi, həm də siyasi əlaqələr daha da sürətlə inkişaf etməlidir. Mədəni əlaqələrin inkişafı üçün böyük imkanlar vardır. Biz elə etməliyik ki, islam dünyasında həmrəylik daha da yüksək səviyyəyə qalxsın, biz bütün tədbirlərdə vahid bir ailə kimi çıxış edək.

Mən bayaq qeyd etdim ki, Azərbaycanda nazirlər – xarici işlər, təhsil, turizm nazirləri səviyyəsində çoxsaylı tədbirlər keçirilmişdir. Bu gün isə Bakıda mədəniyyət nazirlərinin konfransı keçirilir. Bir neçə gün əvvəl Bakıda böyük elmi-praktiki konfrans keçirilmişdir. Bir neçə gün ərzində ərəb ədəbiyyatının öyrənilməsi və tədqiqi üçün çox önəmli beynəlxalq konfrans keçirilmişdir. Yəni bu bir daha onu göstərir ki, bizim niyyətimiz nədən ibarətdir.

Mən bugünkü görüşə çox böyük əhəmiyyət verirəm. Sizi ürəkdən salamlayıram və bir daha xahiş edirəm ki, mənim səmimi salamlarımı ölkələrinizin rəhbərlərinə çatdırasınız. Biz istəyirik ki, belə tədbirlər Bakıda tez-tez keçirilsin. Biz çox şadıq ki, Azərbaycanın paytaxtı Bakı şəhəri İslam mədəniyyətinin paytaxtı seçilmişdir. Bu bizim üçün böyük şərəfdir. Bu, islam dünyasının Azərbaycana verdiyi qiymətdir. Biz bundan sonra da çalışacağıq ki, bu həmrəyliyi praktiki işlərimizlə daha da gücləndirək.

Mən bir daha sizə öz təşəkkürümü bildirmək istəyirəm ki, siz Azərbaycana gəlmisiniz, bu konfransda yüksək səviyyədə iştirak edirsiniz. Əminəm ki, Bakıda keçirdiyiniz günlər sizin üçün xoşdur və burada müzakirə olunan məsələlər, aparılan söhbətlər, danışıqlar gələcəkdə bizim birliyimizi daha da gücləndirəcəkdir.

Sağ olun.

## «ŞUŞA» TANKERİNİN İSTİSMARA VERİLMƏSİ MƏRASİMİ

*14 oktyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də «Şuşa» tankerinin istismara verilməsi mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı mərasimdə iştirak etmək üçün Yaxt-kluba gəldi.*

*«Şuşa» tankerinin yan aldığı Yaxt-klubda prezident İlham Əliyevi Dövlət Xəzər Dəniz Gəmiçiliyinin rəisi Aydın Bəşirov qarşıladı. Gəminin kapitanı tankerin istismara tam hazır olması barədə dövlətimizin başçısına raport verdi.*

*Gəminin xidmət və yaşayış sahələri ilə tanış olan prezident İlham Əliyev dənizçilərin iş və həyat şəraiti ilə yaxından maraqlandı. «Şuşa» tankerinin Rusiyanın Nijni Novqorod şəhərindəki «Krasnoye Sormovo» gəmiqayırma zavodunda inşa olunması barədə dövlətimizin başçısına məlumat verildi. Bildirildi ki, tankerdən əsasən Qazaxıstan neftinin Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan boru kəməri ilə ixracı üçün Səngəçal terminalına daşınmasında istifadə olunacaqdır. Eyni vaxtda bir neçə növ neft və neft məhsulları daşımaq üçün nəzərdə tutulan gəmi «Prezident Heydər Əliyev» tankeri ilə eyni layihədəndir və bu tip tankerlər Xəzərdə istismar edilən ən iri gəmilərdən hesab olunur. «Şuşa» tankerinin yükgötürmə qabiliyyəti 13 min tona bərabərdir. Gəminin uzunluğu 150 metr, eni 17,3 metr, suya oturumu isə 7,14 metrdir.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, «Şuşa» tankeri də ən müasir naviqasiya avadanlıqları və cihazları ilə təchiz edilmişdir. Prezident İlham Əliyev gəminin istismara verilməsini bildirən düyməni basdı. Sonra dövlətimizin başçısı gəminin ən yuxarı göyərtəsinə qalxdı, tankerin heyətinə xoş arzularını çatdırdı, müvafiq tövsiyə və tapşırıqlarını verdi.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ABDULLAH GÜLƏ**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Milli bayramınız – Respublika günü münasibətilə Sizə və qardaş Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Xalqlarımızın iradə və məramının ifadəsi olan dostluq və qardaşlığımız bu gün dövlətlərarası münasibətlərimizin ruhunda bilavasitə öz təcəssümünü tapmışdır. Əminəm ki, tarixin sınaqlarından çıxmış bu böyük sərvətimizi qoruyub saxlamaq və gələcək nəsillərə çatdırmaq yolunda səylərimizi bundan sonra da əzmlə davam etdirəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 oktyabr 2009-cu il*

**AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HAYNTS FİŞERƏ**

Hörmətli cənab Federal Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizi və Avstriya xalqını ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Avstriya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Avstriya xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 oktyabr 2009-cu il*

**TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QURBANQULU BERDIMƏHƏMMƏDOVA**

Hörmətli Qurbanqulu Məlikquliyeviç!

Türkmənistanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Türkmənistan dövlətlərarası münasibətlərinin inkişaf etdirilməsi, dostluq və əməkdaşlığımızın möhkəmləndirilməsi yolunda bundan sonra da qarşılıqlı səylərimizi davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Türkmənistan xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 oktyabr 2009-cu il*

**ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VATSLAV KLAUSA**

Hörmətli cənab Prezident!

Çexiya Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu gün dost ölkələrimizin bir çox sahələrdə əməkdaşlığa qarşılıqlı marağı, Avropa strukturlarına inteqrasiya yolunda həyata keçirdiyimiz siyasətin ölkəniz tərəfindən fəal dəstəklənməsi məmnunluq doğurur. Əminəm ki, Azərbaycan–Çexiya münasibətlərinin istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində inkişafı istiqamətində bundan sonra da ardıcıl səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Çexiya xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 oktyabr 2009-cu il*

## HÖVSAN OLİMPİYA İDMAN KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*15 oktyabr 2009-cu il*

*Oktyabrın 15-də Hövsan Olimpiya İdman Kompleksinin açılışı mərasimi keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Mərasim iştirakçıları dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev idmançılarla görüşdü, rəmzi açılışı bildirən lenti kəsdi, Olimpiya İdman Kompleksi ilə tanış oldu.*

*Gənclər və İdman naziri Azad Rəhimov məlumat verdi ki, kompleks «Bakı şəhərinin qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı»na əsasən Gənclər və İdman Nazirliyinin sifarişi ilə «AS Tikinti» MMC tərəfindən inşa olunmuşdur. Tikintisinə 2007-ci ilin yanvarında başlanmış kompleksin inşası üçün Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən 4,5 hektar torpaq sahəsi ayrılmışdır. Layihənin müəllifi gənc memar Vüqar Həsənovdur.*

*Üçmərtəbəli əsas binanın ümumi sahəsi 19 min kvadratmetrdir. Binanın birinci mərtəbəsində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin respublikamızda bədən tərbiyəsinin və idmanın inkişafına göstərdikləri diqqət və qayğını, idmançılarımızın müxtəlif beynəlxalq yarışlarda uğurlarını əks etdirən fotostend quraşdırılmışdır.*

*Dövlətimizin başçısı kompleksin böyük idman zalı ilə tanış oldu. Məlumat verildi ki, idmanın müxtəlif növləri üzrə beynəlxalq səviyyəli yarışların da keçiriləcəyi zalın uzunluğu 48, eni 36 metrdir. Burada yarışları izləyəcək tamaşaçılar üçün 1730 oturacaq quraşdırılmışdır.*

*Prezident İlham Əliyev üzgüçülük hovuzuna baxdı. Uzunluğu 36 metr, eni 24 metr olan hovuzun ətrafında 125 oturacaq vardır.*

*Kiçik idman zalına baxan dövlətimizin başçısına məlumat verildi ki, idmanın güləş, boks və digər döyüş növləri üçün nəzərdə tutulmuş zalda 200 tamaşaçı yeri quraşdırılmışdır. Bunlardan başqa, əsas binada idmançıların soyunub-geyinməsi, şərhçi və məşqçi otaqları və digər xidməti otaqlar vardır. Kompleksdəki oyun zallarında həm mini-futbol, basketbol, voleybol, həm də gimnastika, boks, güləş üzrə beynəlxalq səviyyəli yarışlar keçirmək mümkündür.*

*Binanın ikinci mərtəbəsində məşq zalları, inzibati otaqlar vardır. Üçüncü mərtəbədə isə idmançıların istirahəti üçün otaqlar inşa olunmuşdur.*

*Açıq havada quraşdırılmış idman qurğuları ilə tanış olan prezident İlham Əliyevə məlumat verildi ki, burada 100 tamaşaçı yeri olan oxatma tiri, tennis kortu, mini-futbol, basketbol və voleybol meydançaları vardır. Güllə atıcılığı üzrə qapalı tir də inşa olunmuşdur.*

*Olimpiya İdman Kompleksi qazanxana, transformator yarımstansiyası, su anbarı, artezian quyuları ilə təmin olunmuş, burada mühafizə və yanğınsöndürmə sistemi quraşdırılmışdır. Kompleksin ərazisində 2,4 hektar sahədə abadlıq və yaşıllaşdırma işləri aparılmış, ağaclar və gül kolları əkilmişdir.*

*Bu kompleks Hövsanda idmanın müxtəlif sahələrinin müasir tələblər səviyyəsində inkişaf etdirilməsi üçün lazımi avadanlıqlarla təchiz olunmuşdur.*

*İdmanın oxatma növü üzrə idmançıların çıxışını izlədikdən sonra prezident İlham Əliyev mərasim iştirakçılarını təbrik etdik.*

**İlham Əliyev:** Nə var, nə yox? Necədi işlər? Fərid Mansurov ikiqat dünya çempionu oldu, gərgin mübarizədə çox yaxşı nəticə göstərib. Bizim güləş üzrə komandamız dünya miqyasında birinci yeri tutmuşdur. Həm Avropa, həm də dünya çempionatında. Bu, böyük tarixi nailiyyətdir.

İdmançılarımız bu ilin əvvəlindən beynəlxalq yarışlarda çox yaxşı nəticələr göstərmişlər. Avarçəkmə üzrə dünya çempionatında 3 medal. Güləş üzrə Avropa çempionatında, dünya çempionatında medallar. Cüdo üzrə gənclərdən ibarət komandamız Yerevanda Azərbaycan bayrağını ucaltdı. Bu çox vacibdir, çünki Olimpiya oyunlarından sonra birinci il, adətən, yavaş keçir, bir növ durğunluq yaranır. İdmançılar daha çox istirahəti seçirlər. Amma bizdə tam əksinədir.

**Azad Rəhimov** (*Gənclər və İdman naziri*): Ramil Quliyev atletikada üçüncü yerə çıxmışdır.

**İlham Əliyev**: Bəli, yüngül atletikada. Bu da tarixi nailiyyətdir. Avropada birincidir. Əgər dünya çempionatında Avropa idmançıları arasında birinci olduğunu nəzərə alsaq, birincidir.

İdman hərtərəfli inkişaf edir. Çox şadam ki, idmançılar da yaxşı nəticələr göstərirlər. Belə gözəl komplekslərin tikilməsi gələcəkdə idmanın gücləndirilməsinə xidmət edəcəkdir. Uşaqlar, yeniyetmələr gəlib burada məşq edəcəklər. Hövsan böyük qəsəbədir. Böyük imkanlara malikdir. Ancaq burada idmanla məşğul olmaq üçün şərait yox idi. Həm idmançılar, həm də qəsəbə sakinləri belə gözəl kompleksdən istifadə edəcəklər. Üzgüçülük hovuzunda gərək abonement sistemi, bölmələr təşkil olunsun. Rayon üçün böyük hadisədir. Bizdə indi belə gözəl komplekslər qəsəbələrdə tikilir.

## HÖVSAN QƏSƏBƏSİNDƏ İKİNCİ DÜNYA MÜHARİBƏSİ VETERANLARI, QARABAĞ MÜHARİBƏSİ ƏLİLLƏRİ VƏ ŞƏHİD AİLƏLƏRİ ÜÇÜN TİKİLMİŞ YAŞAYIŞ BİNASININ AÇILIŞI MƏRASİMİ

*15 oktyabr 2006-cı il*

*Oktyabrın 15-də Hövsan qəsəbəsində İkinci dünya müharibəsi veteranları, Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün inşa olunmuş yaşayış binasının açılışı və minik avtomobillərinin təqdim olunması mərasimi keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Mərasim iştirakçıları dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev İkinci dünya müharibəsi veteranlarına, Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə mənzillərin orderlərini təqdim etdi, müharibə veteranlarına və əlillərinə «Tavriya» markalı avtomobillərin açarlarını verdi, onları təbrik etdi.*

**İ l h a m  Ə l i y e v:** Əziz dostlar, sizi bu gözəl binanın istifadəyə verilməsi münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, uzun ömür arzulayıram. Siz Vətən uğrunda əlil olmusunuz, yaxınlarınızı, qohumlarınızı itirmisiniz. Azərbaycan dövləti həmişə sizə öz qayğısını göstərmişdir, bu gün də göstərir. Bu gözəl evin tikilib sizin istifadənizə verilməsi bunun bariz nümunəsidir. Azərbaycanın müxtəlif bölgələrində belə gözəl evlər tikilir. Ancaq ilk dəfədir ki, doqquzmərtəbəli ev tikilib. Əvvəllər daha çox üç-dörd mərtəbəli evlər tikilirdi. Sonra qərara gəldik ki, daha da gözəl,

əzəmətli və rahat ev tikilsin. Azərbaycanın indi imkanları böyüyür, genişlənir, maliyyə vəziyyəti yaxşılaşır. Mən çox arzulayıram ki, siz bu gözəl evdə xoşbəxt yaşayasınız. Bilin ki, Azərbaycan dövləti həmişə sizin arxanızda olacaqdır. Siz böyük qəhrəmanlıq göstərmisiniz, böyük itkilər vermisiniz. Qarabağ uğrunda döyüşlərdə sizin yaxınlarınız sağlamlığını itirmişlər, şəhid olmuşlar. Onların xatirəsi bizim ürəyimizdə həmişə yaşayacaqdır.

Bu gün münaqişə hələ ki, öz həllini tapmayıb, çalışırıq ki, münaqişəni danışıqlar yolu ilə həll edək. Bizim prinsipial mövqeyimiz birmənalıdır: münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır, işğal olunmuş bütün torpaqlardan erməni silahlı qüvvələri çıxarılmalıdır və soydaşlarımız öz doğma torpaqlarına qayıtmalıdırlar. Bundan kənarda heç bir başqa yanaşma qəbul edilmir və Azərbaycan bu münasibətlə öz mövqeyini dəfələrlə bildirmişdir.

Bu gün Azərbaycan Ordusu regionda ən güclü ordudur. Əgər biz keçən əsrin 90-cı illərində belə güclü orduya malik olsaydıq Azərbaycan torpaqları heç vaxt işğal altına düşməzdi. Nə edək ki, o illərdə Azərbaycan rəhbərliyində olmuş insanlar böyük səhvlər buraxaraq Dağlıq Qarabağın işğal altına düşməsinə şərait yaratmışlar. Ancaq ulu öndər Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıdandan sonra vəziyyətdə dönüş yarandı, bəzi torpaqlar geri alındı və atəşkəs yaradıldı. Bu atəşkəs rejimi müddətində Azərbaycan çox böyük uğurlara nail ola bilmişdir. Ölkədə sosial məsələlərin həllinə hər cür şərait yaradılır və bundan sonra da yaradılacaqdır. İqtisadi imkanlarımız olmasaydı, Azərbaycan dövləti belə gözəl binaları tikə bilməzdi. Başqalarından fərqli olaraq biz öz daxili imkanlarımız hesabına yaşayırıq. Belə gözəl binalar hələ çox tikiləcəkdir və buna böyük ehtiyac vardır. Əlimizdən gələni edəcəyik ki, müharibədən əziyyət çəkmiş, sağlamlığını, yaxınlarını itirmiş insanlar daim dövlət tərəfindən qayğı ilə əhatə olunsunlar.

Mən burada veteranları görürəm. Çox şadam ki, veteranlar həmişə olduğu kimi, ön sıralardadırlar. Vətən uğrunda onların fəaliyyəti gənc nəsil üçün də böyük örnəkdir. Gənc nəsil sizdən örnək götürüb vətənpərvər olmalıdır, vətənpərvərlik ruhunda tərbiyə almalıdır.

Bu gün Hövsan qəsəbəsində yeni, gözəl Olimpiya İdman Kompleksinin açılışında iştirak etdim. Çox istəyirəm ki, o kompleksdən səmərəli şəkildə istifadə olunsun, uşaqlar, gənclər, yeniyetmələr orada öz sağlamlıqlarını möhkəmləndirsinlər. Əlbəttə ki, veteranlara həmişə olduğu kimi, hörmətlə yanaşsınlar. Mən sizi bir daha ürəkdən təbrik edirəm və sizə xoşbəxtlik arzulayıram.

* * *

*Prezident İlham Əliyev mərasimdə iştirak edən İkinci dünya və Qarabağ müharibələrinin əlilləri ilə görüşdü, qayğı və problemləri ilə maraqlandı. Müharibə veteranları göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirdilər.*

*Mənzillərlə tanış olan Prezidentə məlumat verildi ki, binanın tikintisinə 2007-ci ildə başlanılmışdır. Binanın yerləşdiyi ümumi ərazi 0,25 hektar, tikintinin ümumi sahəsi isə 1790 kvadratmetrdir. Yaşayış binasının ətrafında abadlıq və yaşıllaşdırma işləri də aparılmışdır. Doqquzmərtəbəli binada 81 mənzil vardır. Bu mənzillərin 72-si iki, 9-u isə üçotaqlıdır.*

*Binada əlillərin sərbəst hərəkəti üçün liftlər və xüsusi qurğular quraşdırılmışdır. Qazanxana, nasosxana, transformator yarımstansiyası inşa olunmuş, mənzillər rabitə, su və qaz xətləri ilə təchiz olunmuşdur.*

*Binadakı mənzillərdə yaradılmış şəraitlə tanış olduqdan sonra prezident İlham Əliyev yeni mənzil və avtomobil sahiblərini bir daha təbrik etdi, onlara cansağlığı, xoşbəxtlik arzuladı.*

## İRAN PREZİDENTİNİN İCRA APARATININ RƏHBƏRİ İSFƏNDİYAR RƏHİM MƏŞAYİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 oktyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də İran İslam Respublikası Prezidentinin İcra Aparatının rəhbəri İsfəndiyar Rəhim Məşayinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı İran İslam Respublikası Prezidentinin İcra Aparatının rəhbəri İsfəndiyar Rəhim Məşayinin Azərbaycana səfərinin münasibətlərimizin hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsinin aparılması baxımından əhəmiyyətini vurğuladı. Azərbaycan ilə İran arasında müxtəlif sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyini qeyd edən prezident İlham Əliyev bu səfərin və səfər zamanı keçirilən görüşlərin əlaqələrimizin daha da möhkəmlənməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.*

*İsfəndiyar Rəhim Məşayi İran prezidenti Mahmud Əhmədinejadın salamlarını dövlətimizin başçısına və Azərbaycan xalqına çatdıraraq, İran prezidentinin məktubunu prezident İlham Əliyevə təqdim etdi.*

*Məktuba görə təşəkkür edən dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, məktubda qeyd olunan vacib məqamlar əməkdaşlığımızı gələcəkdə də gücləndirəcəkdir.*

*Dövlətimizin başçısı İran prezidenti Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran prezidentinə çatdırmağı xahiş etdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RESPUBLİKA NAZİRLƏR KABİNETİNİN 2009-cu İLİN DOQQUZ AYININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA HƏSR OLUNMUŞ GENİŞ İCLASI *NDA ÇIXIŞI

*16 oktyabr 2009-cu il*

– Nazirlər Kabinetinin bugünkü iclasında biz bu ilin doqquz ayının sosial-iqtisadi yekunlarını müzakirə edəcəyik. Deyə bilərəm ki, bu il ərzində Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edib. Bu çox sevindirici haldır. Bilirsiniz ki, dünyada maliyyə və iqtisadi böhran hökm sürür. Demək olar ki, bütün ölkələrə bu böhranın çox mənfi təsiri olmuşdur və ölkələrin mütləq əksəriyyətində iqtisadi tənəzzül müşahidə edilir. Azərbaycan iqtisadiyyatı isə inkişaf edir. Əlbəttə, biz öz iqtisadi siyasətimizi apararkən ancaq daxili resurslarımıza əsaslanırıq. Azərbaycan iqtisadiyyatı istənilən iqtisadi şəraitdə öz imkanlarını ortaya qoyur.

Bu ilin doqquz ayında ümumi daxili məhsul 6,1 faiz artmışdır. Bu çox böyük nailiyyətdir, böyük uğurdur və onu göstərir ki, Azərbaycan iqtisadiyyatı çoxşaxəlidir. Son illər iqtisadiyyatımızın şaxələndirilməsi istiqamətində atılan praktiki addımlar bugünkü iqtisadi artımı şərtləndirib. Böhranlı ildə iqtisadiyyatın 6,1 faiz səviyyəsində artması çox

---

* Nazirlər Kabinetinin 2009-cu ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş geniş iclasında İqtisadi İnkişaf naziri Şahin Mustafayev, Təhsil naziri Misir Mərdanov, Nəqliyyat naziri Ziya Məmmədov və Sənaye və Energetika naziri Natiq Əliyev çıxış etdilər.

gözəl göstəricidir. Deyə bilərəm ki, bölgədə yerləşən ölkələrdə iqtisadi tənəzzül 10 faiz, 15 faiz, 18 faiz səviyyəsindədir. Azərbaycanda isə biz bütün imkanları səfərbər edib iqtisadiyyatımızı inkişaf etdiririk.

Doqquz ayda sənaye istehsalı 5 faiz artıb. Bu da çox gözəl göstəricidir. Bu onu göstərir ki, Azərbaycanda aparılan sənayeləşmə siyasəti öz bəhrəsini verir. Biz çalışırıq ki, sənaye sahəsində də müxtəlif yeni müəssisələr işə düşsün. Xarici və daxili investisiyalar cəlb edilir. Azərbaycanda aparılan çox böyük infrastruktur layihələri, xüsusilə Azərbaycanın bölgələrində aparılan infrastruktur layihələri sənaye istehsalının artırılmasına gözəl şərait yaradır. Söz yox ki, sənaye artımının təməlində özəl sektora verilən güzəştli kreditlər də mühüm rol oynayır. Belə olan halda biz yerli sahibkarlar üçün də çox gözəl şərait yaradırıq.

Kənd təsərrüfatında artım 3 faiz səviyyəsindədir. Bu da çox yaxşı göstəricidir. İlk dəfə olaraq Azərbaycanda rekord səviyyədə taxıl istehsal edilib – 3 milyon ton səviyyəsində. Bu, tarixi nailiyyətdir və Azərbaycanda kənd təsərrüfatı sahəsində aparılan islahatların bariz nümunəsidir. Həm dövlət tərəfindən verilən dəstək, həm maliyyə yardımı, fermerlərə yanacağın, gübrənin güzəştli şərtlərlə verilməsi, subsidiyaların verilməsi, aqrolizinqin yaradılması, dövlət tərəfindən kənd təsərrüfatı texnikasının alınması və kəndlilərə icarəyə verilməsi – yəni biz buna kompleks tədbirlər nəticəsində nail ola bilmişik. Suvarma, meliorasiya məsələlərinin həyata keçirilməsi, elevatorların, soyuducu kameraların tikilməsi – bu barədə çox danışmaq olar. Əsas odur ki, böhranlı ildə qeyri-neft sektoru inkişafdadır və kənd təsərrüfatı ölkəmiz üçün həm iqtisadi, həm sosial cəhətdən çox böyük əhəmiyyətə malik olan bir sahədir.

Azərbaycanda makroiqtisadi vəziyyət çox sabitdir. Doqquz ayda inflyasiya cəmi 2,1 faiz təşkil etmişdir. Bu onu göstərir ki, istehlak qiymətləri sabitdir və belə olan halda böhranın insanların həyatına təsiri minimum səviyyədədir.

Yenə də müqayisə aparsaq – mən bunun tərəfdarı deyiləm – əgər dünyada bu böhranlı vəziyyət yaşanmasaydı, biz heç vaxt müqayisə aparmazdıq. Amma müqayisə aparsaq görərik ki, bölgədə yerləşən ölkələrdə həm iqtisadiyyat, həm milli valyutanın məzənnəsi aşağı düşür, milli valyuta dəyərini itirir, inflyasiya qalxır. Azərbaycanda isə tam əksinədir – iqtisadiyyat artır, manat sabitdir, inflyasiya çox aşağı səviyyədədir. Doqquz ayda əhalinin pul gəlirləri təxminən 10 faiz artıbdır. Əhalinin 10 faiz artan pul gəlirləri, əlbəttə ki, cəmiyyətin bütün təbəqələrində bərabər şəkildə bölünməyib. Bu da təbiidir. Çünki biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq. Əhalinin 10 faiz artan pul gəlirləri, 2 faizlik inflyasiya – deməli, real artım templəri 8 faizdir. Böhranlı il üçün bu, hesab edirəm ki, dünya miqyasında nadir bir göstəricidir.

Əhalinin banklara qoyduğu əmanət 11 faiz artıb. Bu, əhalidə artıq pul kütləsi yarandığını göstərir. Digər tərəfdən onu göstərir ki, banklara olan inam və etibar çox yüksək səviyyədədir. Bu da bank sektorunun inkişafına xidmət edir. Mərkəzi Bankın səyləri nəticəsində manatın məzənnəsinin sabit vəziyyətdə saxlanılması, bax, bu vəziyyəti şərtləndiribdir. Əgər biz başqa ölkələr kimi milli valyutanı devalvasiyaya uğratsaydıq, o zaman manata inam azalardı, banklara qoyulan əmanət azalardı və beləliklə də, bankların maliyyə resursları azalardı. Düzgün siyasətimiz nəticəsində biz manatı sabit saxladıq və əhalinin banklara qoyduğu əmanətin həcmi 11 faiz artdı. Beləliklə, bir çox məsələ öz həllini tapdı.

Bu göstəricilər özlüyündə hər şeyi açıq-aydın ortaya qoyur ki, Azərbaycan böhranlı ildə böhrandan ən az əziyyət çəkən ölkələrdən biridir. Bunun başlıca səbəbi siyasətimizdir, aparılan islahatlardır, sosial siyasətdir, infrastruktur layihələridir və müstəqil siyasətdir. Biz nəyi hesab edirik ki, düzdür, ölkə üçün lazımdır, onu da edirik. Əlbəttə ki, beynəlxalq maliyyə qurumları ilə də yaxşı əməkdaşlıq edirik, məsləhətləşirik, ancaq öz bildiyimizi edirik. Çünki biz tam

əminik ki, bizim siyasətimiz Azərbaycan xalqının mənafeyinə xidmət edir və bunun ən gözəl göstəriciləri də doqquz ayın sosial-iqtisadi yekunlarıdır.

Bizim böyük təbii resurslarımız – neft-qaz resurslarımız vardır. Ancaq bir il ərzində neftin qiyməti 140 dollardan 37 dollara düşmüşdür. Bizim dövlət büdcəmizdə bu il neftin qiyməti 70 dollar səviyyəsində nəzərdə tutulmuşdur. Ancaq indi neftin qiyməti 70 dollara yaxınlaşıb, onun ətrafındadır. Buna baxmayaraq iqtisadiyyatımız inkişaf edir. Məhz ona görə ki, biz neftdən gələn gəlirləri vaxtlı-vaxtında insan kapitalına, infrastruktur layihələrinə, sahibkarlığın inkişafına, kreditlərin verilməsinə, infrastruktura və texnikanın alınmasına yönəltdik. Ona görə iqtisadiyyatımız neft amilindən asılılığını artıq böyük dərəcədə aşağı endirə bilmişdir.

Bu gün bizim valyuta ehtiyatlarımız 19 milyard dollar səviyyəsindədir və bu sahədə də gözəl inkişaf, artım vardır. Bu da bizim üçün çox böyük bir maliyyə qarantıdır. Bütün sosial proqramlar icra edilir. Bu ilin doqquz ayında orta əməkhaqqı 15 faiz artıbdır. Azərbaycanda orta əməkhaqqı 370 dollar səviyyəsindədir. Pensiyalar artır, ünvanlı sosial yardım proqramı uğurla icra edilir və bu gün 150 min ailəyə ünvanlı sosial yardım göstərilir. Ümumiyyətlə, bu proqram 700 min nəfəri əhatə edir və hər bir ailəyə verilən yardım orta hesabla haradasa, 140 dollar səviyyəsindədir. Bu da ən imkansız insanlara Azərbaycan dövləti tərəfindən praktiki dəstəkdir. Əlbəttə ki, görülən bütün tədbirlər nəticəsində Azərbaycanda yoxsulluğun səviyyəsi daha da aşağı düşməlidir.

Bölgələrdə infrastruktur layihələri uğurla davam etdirilir. 2003-cü ildən bu günə qədər Azərbaycanda 824 min yeni iş yerləri açılmışdır. Bu da bölgələrin inkişafı və yerlərdə iş yerlərinin, yeni müəssisələrin yaradılması üçün çox vacib amildir. Bu il, gələn il və ondan sonrakı illərdə bölgələrdəki mövcud problemlərin həlli üçün daha da böyük işlər görüləcəkdir. Gələn ilin dövlət büdcəsində bütün bu məsələlər öz əksini tapıbdır.

Hərbi potensialımız gündən-günə güclənir. Azərbaycan Ordusu bu regionda ən güclü ordudur, ən böyük hərbi potensiala malikdir. Bu potensialı daha da artırmalıyıq. Dediyim kimi, biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib və Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ danışıqları əfsuslar olsun ki, heç bir nəticə vermir. Bunun da yeganə səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyidir. Ermənistan tərəfi danışıqlar prosesində indi vaxt uzatmaq taktikasını tətbiq edir. Bu, yenilik deyildir. Danışıqların müxtəlif mərhələlərində biz bunu görmüşük. Müəyyən həlledici məqamlarda onlar daha əvvəl razılaşdırılmış məsələləri bir daha müzakirəyə çıxarmaq istəyirlər. Bu, əvvəllər də olub, əfsuslar ki, biz bunu bu mərhələdə də görürük. Bəzi hallarda həm biz, həm də məsələ ilə məşğul olan vasitəçilər bunu çox böyük təəccüblə qarşılayırıq ki, bir il, ya üç il əvvəl razılaşdırılmış məsələ yeni bir mövzu kimi ortalığa atılır. Bu da qəsdən vaxtı uzatmaqdır. Ermənistan tərəfi praktiki addımlar atmalıdır, bütün qoşunlarını Azərbaycanın işğal olunmuş torpaqlarından, Dağlıq Qarabağın ətrafında yerləşən torpaqlardan çıxarmalıdır. Bu, artıq uzun illərdir ki, razılaşdırılmış məsələdir. Bu məsələdə heç bir başqa fikir ola bilməz. Yenidən bu məsələyə qayıtmağın və razılaşdırılmış digər məsələlərə yenidən qayıtmağın yeganə izahını biz bunda görürük: həlledici məqamlarda vaxtı süni şəkildə uzatmaq və əslində, danışıqlar prosesinə zərbə vurmaq. Biz isə öz prinsipial mövqeyimizdən geri dönməyəcəyik.

Danışıqlar prosesində əldə edilmiş bütün nailiyyətlər, bir tərəfdən, gələcək proses üçün gözəl, yaxşı bir əsasdır. Digər tərəfdən, münaqişənin ərazi bütövlüyü prinsipləri çərçivəsində və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması məsələsi danışıqlar prosesində və razılaşdırılmış məsələlərdə öz əksini tapıb. Danışıqlar prosesində və müzakirə olunan məsələlərdə Dağlıq Qarabağa nə vaxtsa, lap 100 ildən sonra müstəqilliyin verilməsi, ümumiyyətlə, müzakirə olunmur və bu heç vaxt olmayacaqdır. Ona görə biz çalışırıq

ki, məsələ beynəlxalq birlik tərəfindən tanınmış norma və prinsiplər əsasında tezliklə həll olunsun. O da ondan ibarətdir ki, Azərbaycanın işğal olunmuş bütün torpaqları işğalçılardan azad edilməlidir. Azərbaycan vətəndaşları, məcburi köçkünlər öz doğma torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qayıtmalıdırlar. Bu baş verəndən sonra sülhməramlı qüvvələr tərəfindən sülhməramlı missiya həyata keçiriləcəkdir. Biz buna etiraz etmirik. Dağlıq Qarabağa müvəqqəti status verilə bilər. Ancaq bu, müstəqillik demək deyildir və gələcək danışıqlar prosesində iki tərəf – Ermənistan və Azərbaycan Dağlıq Qarabağın gələcək statusu haqqında müzakirələri davam etdirəcəklər. Bax, budur əsas prinsiplər. Onların ətrafında indi danışıqlar aparılır və ümid edirəm ki, Ermənistan tərəfi danışıqlarda konstruktivlik göstərib tezliklə məsələnin həlli üçün lazımi addımları atacaqdır.

Bölgədə yaşanan son hadisələr ola bilsin ki, Ermənistanı bir qədər ruhlandırsın. Bəlkə də onlar indi hesab edirlər ki, uzun illər təcrid olunmuş vəziyyətdə yaşamalarına son qoyulur. Mən bu fikirləri bölüşmürəm və bölgədə gedən proseslər, Azərbaycanın bölgədə fəal iştirakı, Azərbaycan tərəfindən irəli sürülmüş bütün təşəbbüslər – siyasi, iqtisadi və başqa təşəbbüslər, Azərbaycanın bölgədə və dünyada artan rolu heç vaxt imkan verməyəcək ki, Ermənistan təcrid olunmuş vəziyyətdən çıxsın. Ermənistanın təcrid olunması rəhbərlərinin fəaliyyəti nəticəsində baş veribdir.

Əgər Ermənistan işğal olunmuş torpaqlardan çıxsa, biz bütün kommunikasiyaları açmağa hazırıq və onda bölgədə sülh və əməkdaşlıq yarana bilər, ölkələrin təhlükəsizliyi təmin oluna bilər. Bölgədə Ermənistan–Azərbaycan münaqişəsi həll olunmadan heç bir müsbət irəliləyiş mümkün deyildir. Çünki bölgənin əsas problemi Ermənistan–Azərbaycan münaqişəsidir, Azərbaycan torpaqlarının işğal altında qalmasıdır. Bu məsələni kənara qoyub, hansısa başqa məsələni həll etmək məncə, həm siyasi, həm də mənəvi cəhətdən

düzgün deyildir və mümkün də deyildir. Çünki Azərbaycanın artan imkanları bunu qoymayacaqdır. Biz öz milli maraqlarımız uğrunda axıra qədər mübarizə aparacağıq. Bizim mübarizəmiz ədalət mübarizəsidir, haqq-ədalət bizim tərəfimizdədir.

Mən bu yaxınlarda Azərbaycan Televiziyasına müsahibəmdə bu məsələ ilə bağlı fikirlərimi bildirmişəm. Bir daha demək istəyirəm ki, bölgədə status-kvonun dəyişməsini ən çox istəyən ölkə Azərbaycandır. Çünki bu status-kvo bizim torpaqlarımızı 20 ilə yaxındır ki, işğal altında saxlayır. Ancaq bu status-kvo mənfi tərəfə yox, müsbət tərəfə dəyişməlidir. Əgər status-kvo Azərbaycanın maraqları hesabına dəyişəcəksə, biz buna imkan verməyəcəyik. Birinci məsələ həll olunmalıdır – Ermənistanın işğalçı qüvvələri torpaqlarımızdan çıxarılmalıdır. Ondan sonra bölgədə sülh, əməkdaşlıq yarana bilər və Azərbaycan o təqdirdə bu işlərdə fəal iştirak edəcəkdir. Hələ ki, Ermənistan–Azərbaycan münaqişəsi öz həllini tapmayıb. Əgər kimsə bunu dondurmaq istəyirsə, kimsə bu məsələni arxa plana qoyub başqa məsələni həll etmək istəyirsə, biz buna heç vaxt razı olmayacağıq.

Azərbaycanın mövqeyi heç kim üçün sirr deyil. Biz öz prinsipial mövqeyimizi ifadə etmişik və izah etməyə çalışmışıq ki, Azərbaycanın iştirakı olmadan bölgədə heç bir məsələ öz həllini tapa bilməz: nə siyasi, nə diplomatik, nə iqtisadi, nə enerji, nə nəqliyyat, nə hansısa başqa məsələ. Bu reallıqdır. Bu kiminsə xoşuna gələ və ya gəlməyə bilər. Bu reallıqları öz işimizlə, fəaliyyətimizlə, Azərbaycanın iqtisadi və siyasi potensialını gücləndirərək, enerji siyasətimizi uğurla və ağılla apararaq biz yaratmışıq. Vaxt keçdikcə bizim bölgədə olan mövqeyimiz, təsir imkanlarımız, iqtisadi, siyasi, diplomatik, hərbi gücümüz daha da güclənəcəkdir və hamı bununla hesablaşmalıdır. Mən bir daha bildirmək istəyirəm ki, bunu hamı bilsin: Azərbaycan bundan sonra da nə danışıqlar prosesində, nə də bölgədə gedən başqa proseslərdə öz prinsipial mövqeyindən dönməyəcəkdir.

## YEKUN NİTQİ

İlin sonuna iki ay yarım vaxt qalır və mən əminəm ki, bu müddət ərzində bütün qalan məsələlər də öz həllini tapacaq, Azərbaycan 2009-cu ili uğurla başa vuracaqdır.

Bu gün səslənən məruzələr və rəqəmlər onu göstərir ki, 2009-cu ildə Azərbaycan çox uğurla inkişaf etmişdir, 2008-ci ilin sonlarında qarşıya qoyulan bütün vəzifələr icra edilir. Bu bir daha onu göstərir ki, istənilən şəraitdə Azərbaycan öz planlarını icra etməyə qadirdir. 2003–2008-ci illərdə bizim uğurlu inkişafımız gözəl bir zəmin yaratdı. O illərdə iqtisadiyyat 2,6 dəfə artmışdır və bu artım həyatımızın bütün sahələrində özünü göstərmişdir. 2009-cu il böhranlı il olduğuna görə ümumi daxili məhsulun 6,1 faiz səviyyəsində artımı bizi çox sevindirir. Hesab edirəm ki, ilin sonuna qədər indiyədək həll olunmamış məsələlər də həll olunmalıdır, bütün sosial və infrastruktur layihələrinin icrası davam etdirilməlidir. Əminəm ki, 2009-cu ilin yekunları da çox müsbət olacaqdır. Makroiqtisadi sabitlik qorunub saxlanılacaqdır. Çalışmalıyıq ki, 2010-cu ildə də makroiqtisadi sabitliyin qorunması üçün praktiki işləri davam etdirək.

İnflyasiyanın aşağı səviyyədə olması çox gözəl göstəricidir. Əvvəlki illərdə Azərbaycanda inflyasiyanın həcmi bizi müəyyən dərəcədə narahat edirdi, çox sürətlə artırdı. Amma bu il inflyasiya çox yaxşı səviyyədədir.

Sahibkarlığa Kömək Milli Fondunda nəzərdə tutulmuş kreditlərin verilməsi ilin sonuna qədər davam etdirilməlidir. Hesab edirəm ki, 2010-cu ildə bu kreditlərin verilməsi ilin birinci yarısında baş tutmalıdır. Biz onu ilin sonuna saxlamamalıyıq. Bu kreditlər çox düşünülmüş şəkildə verilməlidir, ölkəmiz üçün lazım olan sahələrə verilməlidir ki, iqtisadiyyat çoxşaxəli şəkildə inkişaf etsin. Mən şadam ki, göstərişlərim İqtisadi İnkişaf Nazirliyi tərəfindən çox operativ icra olunur. Keçən müşavirədə qarşıya vəzifə qoyulmuşdu ki, tezliklə elevatorların, taxıl anbarlarının, soyuducu

kameraların tikintisi üçün lazımi tədbirlər görülsün. Bu məsələlər qısa müddətdə öz həllini tapdı, bu layihələr müxtəlif bölgələrdə uğurla icra edilir. Əminəm ki, gələn il və ondan sonrakı illərdə biz, bax, bu il görülən işlərin bəhrəsini görəcəyik. Çünki bu, fermerlərin məhsulunun saxlanması üçün çox yaxşı şərait yaradır, istehlak qiymətlərinin qalxmasına imkan vermir. Çalışmalıyıq ki, 2010-cu ildə də bu istiqamətə diqqətimizi yönəldək. Əlbəttə ki, kreditlər başqa sahələrə də veriləcəkdir.

Gələn il bu kreditlərin böyük hissəsi əvvəllər verilmiş kreditlərin hesabına başa gələcəkdir. O pullar qayıdır, sahibkarlar kreditlərə çox böyük məsuliyyətlə yanaşırlar. Kreditlərin verilməsi prosesi də çox düzgün aparılmışdır. Artıq qaytarılan və qaytarılacaq məbləğin hesabına gələn il sahibkarların fəaliyyəti üçün çox gözəl şərait yaradılacaqdır. Nəzərə alsaq ki, bu kreditlər uzun illərdir ki, verilir, hər il əvvəlki illərdə verilən kreditlərin qaytarılması hesabına biz əlavə vəsait əldə edəcəyik. Beləliklə, dövlət büdcəsinə olan yük daha da azalacaqdır.

İslahatların bu istiqaməti özünü təsdiq etdi. Bu onu göstərdi ki, bizim tərəfimizdən verilmiş qərarlar düzgün olub. Bu kreditləşmə, güzəştli şərtlərlə kreditlərin verilməsi sahibkarlığın inkişafına çox böyük imkanlar yaratdı. Bu gün Azərbaycanın ümumi daxili məhsulunda özəl sektorun payı 85 faiz təşkil edir. Bu onu göstərir ki, Azərbaycanda bazar iqtisadiyyatı prinsipləri tam şəkildə tətbiq olunur və güclənir. Biz bundan sonra da islahatlar aparacağıq. Aparılan islahatlar təkcə kreditlərin verilməsi, yaxud da ki, kənd təsərrüfatı texnikasının alınması ilə məhdudlaşmır. Aparılan islahatlar institusional xarakter daşıyır. Biz beynəlxalq təşkilatlarla məsləhətləşmələr aparırıq və elə etməliyik ki, Azərbaycanda bizneslə məşğul olmaq üçün ən gözəl şərait yaradılsın.

Bizim apardığımız işlər beynəlxalq təşkilatlar tərəfindən də qiymətləndirilir və belə olmasaydı, 2008-ci ilin yekun-

larına görə Dünya Bankı Azərbaycanı «Doing Business» proqramında bir nömrəli islahatçı ölkə kimi tanımazdı. Dünya İqtisadi Forumunun hesablamalarına görə – bu da dünyanın ən mötəbər qurumlarından biridir – Azərbaycan rəqabət qabiliyyətliliyinə görə dünyada 51-ci yerdədir, MDB məkanında isə birincidir. Bu bir daha onu göstərir ki, bizim uğurlarımızı neft və neftin qiyməti ilə bağlamaq istəyənlər qərəzli mövqedə idilər, yaxud da ki, səhv mövqedə idilər. Uğurlarımızın əsas səbəbi aparılan islahatlar, düşünülmüş siyasət və atılan düzgün addımlar olmuşdur. Bu gün Azərbaycan öz imkanlarından istifadə edib çox güclü və dayanıqlı iqtisadiyyat qurur.

Nəzərə almalıyıq ki, bizdə islahatlar cəmi 10–15 il bundan əvvəl aparılmağa başlamışdır. Çünki müstəqilliyimizin ilk illərində vəziyyət çox gərgin idi, maliyyə böhranı hökm sürürdü və ümumiyyətlə, büdcənin doldurulması böyük problemlərlə üzləşirdi. Keçən əsrin 90-cı illərinin ortalarından Azərbaycanda başlanmış islahatlar bu gün də davam edir. Hələ çox sahələr vardır ki, orada irəliləyiş olmalıdır. Biz bunu edirik və bunun praktiki nəticələrini də görürük. Həm qanunvericilik sahəsində – bizim qanunvericiliyimiz inkişaf etmiş ölkələrin qanunvericiliyinə yaxındır və böyük dərəcədə biz bu sahədə siyasi islahatlar aparmaqla istədiyimizə nail olmuşuq – həm də iqtisadi sahədə göstəricilər göz qabağındadır. Əgər neft amilinə qalsa idi, bölgədə bizdən qat-qat çox neft-qaz hasil edən ölkələr vardır və onların da iqtisadiyyatı bizdə olan templərlə artardı. Yəni bir daha demək istəyirəm ki, bu, iqtisadiyyatın dayanıqlılığını göstərir, aparılan islahatların düzgünlüyünü göstərir və əlbəttə ki, həm Azərbaycanı dünyaya olduğu kimi təqdim edir, həm də ən önəmlisi, ölkə daxilində mövcud problemlərin həlli üçün bizə əlavə imkanlar yaradır.

Bir sözlə, gələn il sahibkarlığın inkişafı üçün əlavə tədbirlər görülməlidir, islahatlar davam etdirilməlidir. Biz bütün

məsələlərə obyektiv yanaşmalıyıq və öz siyasətimizi məqsədyönlü şəkildə aparmalıyıq.

Azərbaycanda Dövlət İnvestisiya Şirkətinin fəaliyyətinə böyük əhəmiyyət verilir. Nəinki Azərbaycanda, başqa ölkələrdə, xarici səfərlərdə olarkən biz Dövlət İnvestisiya Şirkətinə olan marağı görürük. Bu şirkət artıq özünü dünyaya təqdim edə bilib və əsas funksiyalarını yerinə yetirir. Bu şirkəti yaradanda qarşıya əsas məqsəd qoyulmuşdu ki, Azərbaycan iqtisadiyyatı üçün lazım olan sahələrə investisiyalar cəlb edilsin, Azərbaycanda investisiya axını birtərəfli olmasın. Sirr deyil ki, müstəqilliyimizin ilk illərində investisiyalar daha çox neft-qaz sahəsinə qoyulurdu. Bunu alqışlayırıq, çünki Azərbaycanın neft-qaz sektoru beynəlxalq şirkətlər üçün cəlbedicidir. Belə olmasaydı, bu yaxınlarda çox vacib kontraktlar və anlaşma memorandumları imzalanmazdı. Bundan sonra bizə daha çox lazım olan investisiyalar qeyri-neft sektoruna olan investisiyalardır. Bu məqsədlə Dövlət İnvestisiya Şirkəti yaradıldı. İndi müxtəlif layihələr icra olunur və demək olar ki, şirkətin nizamnamə kapitalında cəmləşən vəsait də artıq bölünüb. Belə olan halda növbəti illərdə Dövlət İnvestisiya Şirkətinin maliyyə resurslarına biz hər il əlavə vəsait qoymalıyıq.

Gələn ilin dövlət büdcəsi hazırlandı və yaxın vaxtlarda Milli Məclis tərəfindən müzakirə olunacaqdır. Hesab edirəm ki, dövlət büdcəsi balanslaşdırılmış əsasda tərtib edilibdir. Neftin bir barrelinin qiyməti 45 dollar hesablanıbdır. Bu, düzgün yanaşmadır. Ola bilər ki, bir qədər konservativ yanaşmadır. Hətta 45 dollar olmaqla da, qarşımızda duran bütün sosial, iqtisadi və infrastruktur layihələrini icra etmək imkanlarımız vardır. Neftin qiyməti bundan artıq olsa, biz bundan ancaq fayda götürəcəyik, valyuta resurslarımız daha da çoxalacaqdır. Amma bir barreli 45 dollar olmaqla biz hesab edirik ki, Azərbaycanın valyuta ehtiyatları gələn il artmalıdır. Elə etməliyik ki, Dövlət Neft Fondunda cəmləşən vəsait, Mərkəzi Bankın ehtiyatları və Maliyyə Nazir-

liyinin resursları artsın. Bu gün valyuta ehtiyatlarımız 19 milyarddırsa, gələcəkdə bu daha da artmalıdır. Biz bunu 50 milyarda da, ondan böyük rəqəmə də çatdırmalıyıq ki, gələcəkdə bu vəsaitin idarə olunmasından əldə ediləcək gəlirlər sosial məsələlərin həllinə xidmət göstərsin. Böyük məbləğ yaradılmalıdır ki, idarəolunmadan əldə olunacaq faizdən biz dövlət büdcəsinin yükünü daha da azaltmaq üçün istifadə edək.

Gələn il müxtəlif sahələrdə islahatların davam etdirilməsi gözlənilir. Bu islahatlar həm iqtisadi vəziyyətimizi yaxşılaşdıracaq, həm də əhalinin sosial məsələlərinin həllinə xidmət göstərəcəkdir. İqtisadi siyasətin xüsusiyyəti ondan ibarətdir ki, insanlar bu islahatlardan əziyyət çəkməsinlər. Keçid dövrünü yaşayan ölkələrdə, adətən, ciddi islahatlar insanların müflisləşməsinə gətirib çıxarır. Ancaq Azərbaycanda ciddi sosial siyasət aparılır, bazar iqtisadiyyatıprinsipləri tam tətbiq edilir və Azərbaycan büdcəsi də bu siyasətin təzahürüdür. Büdcə həm socialyönümlü, investisiyayönümlüdür, həm də vacib infrastruktur layihələrinin icrası nəzərdə tutulur. İnvestisiya xərclərimiz haradasa 5 milyard dollar ətrafında nəzərdə tutulur. Sosial proqramlar, ünvanlı sosial yardım, əmək haqları, pensiyalar, digər müavinətlər nəzərdə tutulur və o yardımların səviyyəsi tədricən artırılır.

İnfrastruktur layihələrinə son illər ərzində qoyulan vəsait özünü doğrultdu. Əgər bu infrastruktur layihələrini biz icra etməsəydik, bu gün regional inkişafdan, ümumiyyətlə, söhbət gedə bilməzdi. Bu infrastruktur sosial obyektlərin tikintisinə yönəldilibdir, son illər 1800-ə qədər məktəb tikilibdir, yüzlərlə tibb məntəqələri, tibb ocaqları, xəstəxanalar tikilibdir. Bu proses davam etdirilməlidir və gələn ilin büdcəsində bu məsələlər üçün vəsait nəzərdə tutulur.

Yolların, su, qaz və elektrik xətlərinin, elektrik stansiyalarının, su anbarlarının tikintisinə qoyulan bütün bu investisiyalar bir məqsədi güdür ki, Azərbaycan iqtisadiyyatı

daha da güclü olsun və biz daxili imkanlardan maksimum dərəcədə səmərəli şəkildə istifadə edə bilək.

Biz ancaq özümüzə arxalanırıq. Azərbaycan yeganə ölkələrdən biridir ki, bu böhranlı müddətdə nə hansısa başqa ölkəyə, nə də beynəlxalq maliyyə qurumuna müraciət etmişdir. Əgər biz ətrafa baxsaq görərik ki, bəziləri gedib başqa ölkələrdən maliyyə resursları əldə etməyə çalışırlar və bəzi hallarda buna müvəffəq olurlar. Bəziləri isə beynəlxalq maliyyə qurumlarından veriləcək kreditlərin hesabına böhranlı vəziyyətdən çıxmaq istəyirlər. Azərbaycan isə heç kimə maliyyə yardımı üçün müraciət etməmişdir. Nəinki bu il, əvvəllər də olmayıbdır. Düzdür, müstəqilliyimizin ilk illərində beynəlxalq maliyyə qurumları bizə kömək göstərmişdilər və biz bu gün də xarici maliyyə qurumlarının kredit resurslarından imtina etmirik. Baxmayaraq ki, bizim böyük valyuta ehtiyatlarımız vardır, yenə də kredit imkanlarından istifadə etməliyik və beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığı davam etdirməliyik, daha da dərinləşdirməliyik. Ucuz kreditlərin Azərbaycan iqtisadiyyatına gətirilməsi, əlbəttə ki, bizim marağımızdadır.

İnfrastruktur layihələrinin icrası növbəti ildə də davam etdiriləcəkdir. Bu vaxta qədər icra olunmamış, icrada olan layihələr icra edilməlidir. İlk növbədə Oğuz–Qəbələ–Bakı su kəmərinin tikintisi başa çatdırılmalıdır. Taxtakörpü su anbarının tikintisi gedir, oraya da vəsait ayrılacaqdır. Samur–Abşeron su kanalının tikintisi də gedir, Şəmkirçay su anbarının tikintisi başlamışdır. Bu da çox böyük layihədir. Həm iqtisadi cəhətdən, həm sosial baxımdan çox böyük əhəmiyyətə malik layihədir. Bir müddət əvvəl mən o su anbarının təməl daşını qoydum. Suvarılan torpaqlar çoxalacaq, içməli su problemləri daha da asanlıqla öz həllini tapacaqdır. Ucuz elektrik enerjisi istehsal olunacaqdır. Biz alternativ enerji mənbələrindən istifadə etməliyik.

Enerji təhlükəsizliyi ilə bağlı olan əsas məsələləri həll etdik. Neft hasilatı, qaz hasilatı artıq bizim tələbatımızı ödə-

yir. Biz xaricə də qaz ixrac edirik. Son illər tikilən elektrik stansiyaları, modul tipli elektrik stansiyaları və mövcud stansiyalarda yenidənqurma işləri Azərbaycanı elektrik enerjisi ilə tam şəkildə təmin edir. Burada qeyd olunduğu kimi, Azərbaycan hətta müxtəlif ölkələrə – həm Rusiyaya, İrana, həm də Türkiyəyə elektrik enerjisini ixrac edir. Naxçıvandan Türkiyəyə elektrik enerjisi ixrac edilir. Yəni ki, biz bu əsas təxirəsalınmaz tədbirləri gördük. «Astara», «Xaçmaz», «Şəki», «Naxçıvan», «Bakı», «Səngəçal», «Şahdağ» modul tipli elektrik stansiyaları tikilib istifadəyə verildi. Sumqayıt Elektrik Stansiyası mənə verilən məlumata görə, demək olar ki, hazırdır. Bu da 500 meqavat gücündə olan stansiyadır. «Cənub» Elektrik Stansiyasında da tikinti gedir. O da 800 meqavat gücündə olan stansiyadır. Bizim su resurslarımızın xəritəsi tərtib edildi. Enerji resurslarını yaratmaq üçün hansı çaylardan istifadə edəcəyimizi yəqinləşdirdik. Tikilməkdə olan su anbarlarından – həm Taxtakörpü, həm Şəmkirçay su anbarlarından da elektrik enerjisi istehsalı üçün istifadə olunacaqdır. Dağ çaylarının imkanlarından tam şəkildə istifadə etməliyik və hesab edirəm ki, gələn il praktiki işlər başlanmalıdır. Lap 2-3 meqavat da olsa, biz bunu etməliyik. Bununla bərabər, külək və günəş enerjisinin istehsalı üçün indi əməli işlər görülür, ilkin təcrübə vardır və biz bu təcrübəni daha da genişləndirməliyik. Gələn il bu məqsədlər üçün xüsusi vəsait ayrılacaqdır. Bu yaxınlarda yaradılmış alternativ enerji üzrə agentlik də layihələrini hazırlayıb. Onlar tezliklə təhlil ediləcəkdir. Mən hesab edirəm ki, yubanmadan – gələn ilin əvvəlindən, bəlkə də bu il müəyyən işləri aparmaq mümkün olacaqdır. Çünki ilk növbədə təbii resurslarımıza qənaət edəcəyik, az qaz işlədəcəyik. İndi, düzdür, mazut yandırmırıq, amma əvvəllər mazut yandırırdıq. Az qaz işlətdikcə onu daha çox ixrac edəcəyik, eyni zamanda, ucuz enerji resursları alacağıq.

Azərbaycanı qonşu ölkələrlə birləşdirən elektrik xətlərində yenidənqurma işləri aparılır. Bu yaxınlarda İmişli–Parsabad elektrik xəttinin tikintisi başa çatacaqdır. Bu bizə imkan verəcək ki, İrana 700 meqavat gücündə elektrik enerjisi ixrac edək. Azərbaycanı Gürcüstanla birləşdirən enerji xətləri çəkilməlidir. Bununla əlaqədar müvafiq göstərişlər verilmişdir. Belə olan halda, Azərbaycan qərb istiqamətinə elektrik enerjisi ixrac edə biləcəkdir.

O ki qaldı Azərbaycan ilə Rusiya arasında bu sahədəki əməkdaşlığa, bu əməkdaşlığın böyük tarixi vardır. Əvvəllər biz Rusiyadan daha çox enerji idxal edirdik. İndi Azərbaycan ixrac edir və gələcəkdə biz bu ixracı artıra bilərik. Çünki bizim ətrafımızda yerləşən bölgələrdə enerji resurslarımıza böyük tələbat vardır. Bir daha demək istəyirəm ki, bölgəmizdə yerləşən ölkələrdə həm qaz, həm də neft hasilatı Azərbaycandan bir neçə dəfə çoxdur. Amma reallıq ondan ibarətdir ki, biz bu ölkələrə neft, qaz və elektrik enerjisi satırıq. Nəyin hesabına? Görülən işlərin, infrastruktur layihələrinin, düzgün iqtisadi siyasətin və strateji baxışların hesabına. Məqsədimiz ondan ibarətdir ki, Azərbaycan iqtisadiyyatı güclənsin, iqtisadiyyatımız gücləndikcə bizim siyasi imkanlarımız da genişlənir.

Gələn il ekoloji tədbirlərin gücləndirilməsi nəzərdə tutulur. Biz bu sahəyə böyük əhəmiyyət veririk. Mən tam əminəm ki, bu sahə hamı üçün prioritet olmalıdır. Biz bu torpaqda yaşayırıq, bu havanı uduruq, bu suyu içirik. Azərbaycanda ekoloji tədbirlərin gücləndirilməsi insanların sağlamlığı üçün başlıca şərtdir. Bu məqsədlə indi çaylar boyu təmizləyici qurğular quraşdırılır. 200 mindən artıq əhali Dünya Səhiyyə Təşkilatının standartları səviyyəsində içməli su ilə təmin edilir. Bu məqsədlə hər il həm büdcədə, həm prezidentin ehtiyat fondunda vəsait nəzərdə tutulur. Biz nəinki Kür–Araz, bütün başqa çaylarda bu qurğuları tikməliyik və orada yaşayan insanlar təmiz su içməlidir.

Oğuz–Qəbələ–Bakı su kəmərinin tikintisi də bu istiqamətdə atılan vacib addımdır. O da təmiz, saf bulaq suyudur.

Biz neftlə çirklənmiş əraziləri tezliklə təmizləməliyik. Bu proses başlanıb. Bibiheybətdə ən acınacaqlı vəziyyətdə olan sahələrdən biri artıq abadlaşıb, park salınıb. Neftlə çirklənmiş sahələrə baxanda adam dəhşətə gəlirdi, oralar fəlakət mənzərəsi idi. Orada artıq park salınıb. Qarşıya məqsəd qoyulur və icra edilir. Biz bunu bütün sahələrdə etməliyik. Azərbaycanın bu torpağı – Bakıətrafı bütün ərazilər təmizlənməlidir, rekultivasiya edilməlidir, neftlə çirklənmiş torpaqlar çıxarılmalıdır, yerinə ağaclar əkilməlidir. Bu, sağlamlıq deməkdir.

Hava da insanın sağlamlığı üçün ən vacib amillərdən biridir. Bu sahədə də kompleks tədbirlər görülməlidir. Mən beynəlxalq maliyyə qurumları, xüsusilə Dünya Bankı ilə bu məsələ barədə dəfələrlə müzakirələr aparmışam. Onlardan xahiş etmişəm ki, bir kompleks tədbirlər planı üzərində birlikdə çalışaq, insan sağlamlığı üçün lazım olan tədbirləri tam təfərrüatı ilə təhlil edək və yol xəritəsini yaradaq, bunu tezliklə icra edək. Burada müxtəlif amillər vardır. Təkcə neft-qaz sənayesi deyil, avtomobillərin buraxdığı qazlar da havanı çirkləndirir. Bəlkə də ən çox çirkləndirmə mənbəyi elə budur. O da yanacağın keyfiyyətilə bağlıdır. Biz Avro-2, Avro-3 standartına keçməliyik. Bəzi ölkələr buna keçiblər. Çünki onlar benzini, dizel yanacağını xaricdən alırlar. Amma biz öz məhsullarımızdan istifadə edirik ki, o da standartlara uyğun deyildir. Neftayırma zavodları yenidən qurulmalıdır. Əslində, neftayırma zavodları Bakının mərkəzindən çıxarılmalıdır. İndi Bakıda «Qara şəhər» adlandırılan sahə yoxdur. Əvvəllər olub. «Qara şəhər» adlandırılan ərazi indi abadlaşır, parklar, yollar salınır. Neftayırma zavodları şəhərdən çıxarılmalıdır.

Ya gərək mövcud zavodlarda yenidənqurmanı davam etdirək, bu da böyük vəsait tələb edir. Ya da yeni böyük neftayırma, neft-kimya kompleksinin tikintisinə başlayaq ki,

bütün ekoloji standartlara tam cavab versin. Mən hesab edirəm ki, 2010-cu il ərzində biz ciddi qərar qəbul etməliyik.

Dediyim kimi, ekoloji tədbirlər davam etdirilməlidir. Keçən dəfə danışdığımız kimi, hər yerdə ağaclar əkilməlidir. Mən istəmirəm ki, bu proses bir kampaniya xarakteri daşısın. Keçən dəfə bu məsələ barədə mən öz fikrimi bildirəndə bütün ölkə üzrə ağacəkmə kampaniyası başlamışdı, televiziya da onu işıqlandırırdı. Ancaq bir müddət keçəndən sonra bu, elə bil ki, aradan qalxdı. Yəni bizdə bu xüsusiyyət vardır, nəyəsə böyük şövqlə başlayırıq, prezidentin göstərişi var, hamı ağac əkir. Bir-iki aydan sonra bu unudulur. Aydındır ki, bu, mövsümlə bağlıdır. Demək istəyirəm ki, bu iş kampaniya xarakteri daşımamalıdır, daim aparılmalıdır.

Ekoloji tədbirlərin görülməsi prioritet xarakter daşıdığına görə mən təklif edirəm ki, gələn il Azərbaycanda «Ekologiya ili» elan edilsin. «Ekologiya ili»ni yüksək səviyyədə keçirmək üçün tezliklə tədbirlər planı hazırlansın, dövlət büdcəsində bu öz əksini tapsın və beynəlxalq maliyyə qurumları ilə əməkdaşlıqda bu amil nəzərə alınsın.

Bir daha demək istəyirəm ki, bizim elektrik enerjisinə, qaza olan tələbat ödənilir. Qaz infrastrukturunun bərpası və yeniləşdirilməsi məsələləri böyük vəsait tələb edir. Müvafiq göstərişlər verildi ki, tezliklə Azərbaycanda qaz təsərrüfatı, paylayıcı sistemi dünya standartlarına çatdırılsın. Bu sahədə görüləcək işlər çoxdur. Ancaq bütün işlər dünya standartları səviyyəsində görülməlidir. Qaz sayğacları smartkartla təmin edilməlidir. Bu təcrübə artıq vardır. Gəncədə bir qədər bundan əvvəl smartkartlar tətbiq olunub və orada yığım çox yüksək səviyyədədir, əhali də razıdır. Hamı da bilir nəyin pulunu verir. Smartkart sistemi tətbiq olunarkən heç bir xoşagəlməz hadisələr baş vermir.

Qaz xətləri yeniləşdirilməlidir. Xüsusilə bəzi yerlərdə yerin üstündən, yaxud da ki, arka şəklində olan qaz xətlərinin hamısı yığışdırılmalıdır. İnkişaf etmiş heç bir ölkədə bu mənzərəyə rast gəlmək mümkün deyildir. Bizdə isə Bakıda

belə, yolun üstündə böyük qaz boruları var. Qaz borusu yerin altından keçməlidir. Mən dəfələrlə bu barədə öz fikirlərimi, iradlarımı bildirmişəm. Müəyyən işlər görülüb. Ancaq əksər yerlərdə görürsən ki, qaz boruları düzülüb, ya yerin üstündə, ya da ki, arka şəklində. Hətta son vaxta qədər aeroport–Bakı yolunun sağında da, solunda da böyük borular düzülmüşdü. Biz Heydər Əliyev prospektində o vaxt onların hamısını yığışdırdıq.

Yüksək gərginlikli elektrik xətləri də həmçinin. İndi bunların hamısı yaddan çıxıb. Heydər Əliyev prospektində yolun kənarında yüksək gərginlikli böyük xətlər qurulmuşdu. Bu həm insan orqanizminə zərərdir, həm də ki, müasir şəhər üçün dözülməzdir. Neft Şirkəti tezliklə bu məsələləri həll etməlidir. Bütün qaz təsərrüfatında müasir standartlar tətbiq edilməlidir.

Qaz anbarlarının həcmi genişləndirilir, bu çox müsbət haldır. Mənə bu yaxınlarda verilən məlumata görə, biz yeraltı anbarlara artıq 1 milyard 800 milyon kubmetr qaz vurmuşuq. Bu çox böyük bir göstəricidir. Bir neçə il əvvəl ancaq 500 milyon kubmetr qaz tədarük edə bilirdik. Çünki həm qazımız yox idi, həm də ki, qaz anbarlarında quyular yararsız vəziyyətə düşmüşdü. İndi bizim 1 milyard 800 milyon kubmetr ehtiyatımız vardır. Bu, qış üçün əvəzolunmaz bir ehtiyatdır, həm də ixrac üçün resurs bazadır. Biz qaz anbarlarında yenidənqurma işləri aparmalıyıq. Yeni qaz kəmərləri tikilməlidir ki, o anbarların tutumunu növbəti mərhələdə 3 milyarda, ondan sonrakı mərhələdə isə 5 milyard kubmetrə çatdıraq.

Bizim qazımıza tələbat artır və artacaqdır, bu qaçılmazdır. Biz Avropa və dünya qaz bazarlarının imkanlarını yaxşı bilirik. Gələcəkdə Azərbaycan qazı enerji təhlükəsizliyi məsələlərində daha da ciddi rol oynayacaqdır. Çünki ənənəvi qaz mənbələri tükənməkdədir. Avropanı qidalandıran qaz mənbələri bizə bəllidir. Uzun illərdir ki, Avropa qitəsi müəyyən mənbələrdən qaz alır. Azərbaycan isə öz böyük qaz

resursları ilə Avropa bazarı üçün, digər ölkələrin bazarı üçün əvəzolunmaz təchizatçı tərəfdaş kimi çıxış etməyə başlayır.

Gələcəkdə ənənəvi qaz mənbələri tükəndikcə Azərbaycan qazına tələbat daha da artacaqdır. Biz bu rəqəmləri bilirik. Belə olan halda həm qaz anbarlarının genişləndirilməsi, həm də yeni qaz yataqlarının kəşfi böyük əhəmiyyətə malik məsələlərdir. Bu, gələcək illərdə – iyirmi il, əlli il bundan sonra ölkəmiz üçün əvəzolunmaz iqtisadi amil kimi özünü doğruldacaqdır.

Biz yeni bazarları aşkar etməli, yeni bazarlara çıxmalıyıq. Bizim üçün bütün bazarlar maraqlıdır, cəlbedicidir. Biz öz işimizdə bütün sahələrdə hər şeyi beynəlxalq təcrübə əsasında, qayda-qanunlar əsasında qururuq. Xaricdən nəyisə idxal edəndə dünya qiymətinə idxal edirik. Heç kimdən nə güzəşt, nə endirim, nə də ki, müftə nəsə istəyirik. Ancaq biz də öz resurslarımızı ixrac edəndə təbii olaraq istəyirik ki, buna normal qiymət verilsin. Özü də söhbət şişirdilmiş qiymətdən getmir, dünya qiymətindən gedir. İstəyirik ki, qaz potensialımızı bu əsaslarla realizə edək. Xüsusilə nəzərə alsaq ki, Avropa İttifaqı ilə Azərbaycan arasında hələ 2006-cı ildə enerji sahəsində strateji əməkdaşlıq haqqında memorandum imzalanmışdır və Avropa Komissiyasına mənim son səfərim zamanı enerji məsələləri çox geniş müzakirə olunmuşdu.

Azərbaycan bu gün hazırdır ki, Avropa İttifaqı bazarına öz qazını ixrac etsin. Bunu etmək üçün bizim resurslarımız və infrastrukturumuz vardır. Avropa ölkələri bizim qazımızı gözləyir. Mən şəxsən və bizim nümayəndələrimiz, Sənaye və Energetika naziri, Dövlət Neft Şirkətinin rəhbərləri dəfələrlə Avropa rəsmiləri ilə bu barədə söhbətlər aparmışıq. Bizim potensial tərəfdaşlarımız arasında Yunanıstan, Bolqarıstan, İtaliya, Rumıniya, Macarıstan, Avstriya, Almaniya, İsveçrə kimi ölkələr vardır. Bəzi ölkələr bizim sərhədlərimizə daha yaxın yerləşir, bəzi ölkələr daha uzaq. Ancaq bu ölkələr Azərbaycan qazını dünya qiymətinə almaq istəyirlər. Biz də

bunu dünya qiymətinə satmaq istəyirik. Bu, ikitərəfli mənfəət gətirən bir layihədir.

Ancaq əfsuslar olsun ki, iki ilə yaxındır biz bu imkanlardan məhrum olmuşuq. Səbəb ondan ibarətdir ki, bu vaxta qədər Türkiyə ilə Azərbaycan arasında tranzit məsələləri həll olunmayıb. Azərbaycan bütün ölkələrlə – həm dost ölkələrlə, həm tərəfdaş ölkələrlə münasibətləri qarşılıqlı maraqlar üzərində qurur. Biz də, əlbəttə ki, ilk növbədə öz maraqlarımızı güdürük. Amma öz maraqlarımızı güdməklə bizim tərəfimizdən təklif olunan məsələ dünya praktikasına əsaslanır. Həm qiymət, həm də tarif faktları baxımından.

Azərbaycan uzun illərdir Türkiyəyə qazı dünya qiymətinin üçdəbir hissəsinə, 30 faizinə satır. Hansı ölkə öz təbii resurslarını, xüsusilə indiki şəraitdə dünya qiymətinin 30 faizinə satar və bundan razı ola bilər? Yəni bu heç bir məntiqə sığmayan məsələlərdir. Keçən ilin aprel ayından bu günə qədər çoxsaylı danışıqlarda, əfsuslar olsun ki, heç bir nəticəyə gəlməmişik.

Biz istəyirik ki, qazımız dünya qiymətinə olmasa da, heç olmasa ona yaxın qiymətə alınsın. Rusiya qazının qiymətinə bərabər olmasa da, heç olmasa ondan 8-10 faiz aşağı olsun, daha 50 faiz yox. Hansı ölkə buna razılaşar? Biz «Şahdəniz» qaz yatağının ikinci hissəsinin işlənilməsinə başlamağa hazırıq. «Şahdəniz» yatağının ikinci fazasının işlənilməsi Azərbaycan iqtisadiyyatına ən azı 20 milyard dollar birbaşa investisiyanın qoyulmasına gətirib çıxaracaqdır. Bu bizim üçün böyük bir fürsətdir.

«Əsrin müqaviləsi» imzalanandan sonra Azərbaycanda neft sahəsinə qoyulan investisiyalar bütün başqa sahələrə – xidmət, istehsal, infrastruktur, təhsil sahələrinə də yayılırdı. Bizim nə qədər gənc mütəxəssislərimiz əcnəbi şirkətlər tərəfindən maliyyələşdirilən proqramlar hesabına gedib xaricdə öz biliklərini artırıblar, öz peşəkarlıqlarını təkmilləşdiriblər. Yəni 20 milyard dollar hətta ən inkişaf etmiş ölkə üçün böyük vəsaitdir, böyük yatırımdır. Biz iki ilə yaxındır ki,

buna başlaya bilmirik. Nəyə görə? Çünki burada bizim «Şahdəniz» konsorsiumunun üzvləri də haqlıdırlar. Qaz hasilatı konkret bazara bağlanmalıdır. Qaz hasilatı neft hasilatından fərqlidir. Nefti hasil etdin, boru kəmərin varsa çıxdın dünya bazarına, kimə istədin dünya qiymətinə satdın. Amma qaz biznesi belə deyil, konkret bazara bağlanmalıdır. Bütün tariflər, qiymətlər, qazın miqdarı müxtəlif formalar əsasında razılaşdırılmalıdır. Ona görə biz iki ilə yaxındır ki, «Şahdəniz» yatağının ikinci fazasının sanksiyasını verə bilmirik. Beləliklə, Azərbaycan iqtisadiyyatı çox böyük itkilərlə üzləşir. İtirilmiş gəlir itki deməkdir. Əgər biz iki il bundan əvvəl başlasaydıq «Şahdəniz»in ikinci fazasından iki il qabaq qaz çıxardı və biz də, «Şahdəniz» konsorsiumunun üzvləri də daha  çox qazanardıq.

Bir daha demək istəyirəm ki, bu məsələ çox ciddidir. Nəzərə alsaq ki, bütövlükdə Avropa İttifaqı və Avropa İttifaqına üzv olan ayrı-ayrı ölkələr bizim qazımızı almağa hazırdırlar. Azərbaycan və onun tərəfdaşları, dünyanın aparıcı neft şirkətləri bu hasilata başlamağa hazırdırlar. Hətta böhranlı şəraitdə də Azərbaycan iqtisadiyyatına ən azı 20 milyard dollar qoymağa hazırdırlar. Çünki onlar bizə inanırlar. Artıq bizim işbirliyimiz, əməkdaşlığımız böyük sınaqlardan keçibdir. Ancaq süni şəkildə yaradılmış səbəblər üzündən buna nail ola bilmirik. Həm qiymət bizi qane etmir və Azərbaycan təklif olunan qiymətlə heç kimə öz qazını satmayacaq, həm də tarif haqları bizi qane etmir. Tarif haqları beynəlxalq təcrübəyə əsaslanmalıdır. Bizə təklif olunan rəqəmlər bölgədə mövcud olan tariflərdən 70 faiz yuxarıdır. Nə üçün? Nə üçün biz pul itirməliyik? Bu məsələ təkcə bizi yox, bizim Avropa tərəfdaşlarımızı da çox ciddi düşündürür. «Şahdəniz» konsorsiumunun üzvləri də bildiyimə görə, çox narahatdırlar. Çünki «Şahdəniz» üzrə kontrakt 2006-cı ildə imzalanmışdır və o kontraktın müddəti vardır. 2026-cı ildə kontraktın müddəti bitir və 2026-cı ildə konsorsium üzvlərinin bu yataq üzrə bütün hüquqları sona çatır.

Əgər biz bu gün «Şahdəniz» yatağının ikinci fazasına başlasaq, ən yaxşı halda, bizə verilən məlumata görə, o laylardan ilk qazı 2015-ci ildə görəcəyik. Əgər bu gün başlasaq, 2015-ci ildən 2026-cı ilə qədər cəmi 11 il vaxt vardır. «Şahdəniz» yatağının minimal ehtiyatları 1,2 trilyon kubmetrdir. Yəni, bu 1,2 trilyon kubmetri çıxarmaq üçün ildə gərək «Şahdəniz»dən 100 milyard kubmetr qaz hasil olunsun. Bu, mümkün deyildir. Biz istəyirik ki, xarici tərəfdaşlarla əməkdaşlığımız daha da dərinləşsin. Bu əməkdaşlıq həm bizə, həm də xarici şirkətlərə xeyirdən başqa heç nə gətirməyib. Ancaq bütün bunlar reallıqlardır.

Xarici şirkətlər tələsirlər. Avropa İttifaqı bizi tələsdirir. Bu məsələ hər dəfə bütün danışıqlarda müzakirə olunur. Belə olan halda tranzit məsələlərinin həll olunmaması və bizim qarşımıza bəri başdan qəbul edilməyəcək şərtlərin qoyulması, əslində bu nəhəng, dünyamiqyaslı, çox perspektivli layihənin pozulmasına gətirib çıxara bilər.

Belə olan halda biz, əlbəttə ki, alternativ yollar axtarmalıyıq. Biz uzun illər, ən azı son iki il ərzində bu məsələni qabartmadıq. Çalışırdıq ki, bunu işgüzar şəraitdə, dostluq şəraitində çözək. Ancaq bizim imkanlarımız tükəndi və bizə verilən təklif Azərbaycan tərəfindən heç vaxt qəbul olunmayacaqdır. Belə olan halda biz çalışmalıyıq ki, alternativ yolları araşdıraq, təhlil edək. Bu yollar da vardır. Yenə də deyirəm, Azərbaycanın ətrafında yerləşən ölkələrdə bizim enerji resurslarımıza tələbat var – istər neft, istər elektrik enerjisi, istərsə də qaz.

Bu məqsədlə biz artıq praktiki işlərə də başlamışıq. İki gün əvvəl Rusiya ilə Azərbaycan arasında, «Qazprom»la Neft Şirkəti arasında qaz alqı-satqısı ilə əlaqədar kontrakt imzalanmışdır və gələn ildən başlayaraq Azərbaycan qazı Rusiya bazarına ixrac ediləcəkdir. İxrac ediləcək qazın miqdarı tərəflər arasında razılaşdırılacaqdır. Biz əvvəlcə çox aşağı, təvazökar rəqəmlərlə başladıq, ancaq bu ixracın yuxarı həddi yoxdur. Nə qədər olsa, o qədər də ixrac edə-

cəyik. Nəzərə alsaq ki, Rusiya ilə Azərbaycan arasında heç bir başqa tranzit ölkə yoxdur, qaz kəmərimiz də var, heç kimə tranzit haqları ödəmək də lazım deyil və bizə təklif olunan qiymət, yəni razılaşdırılmış qiymət formula əsasındadır. Dünya miqyasında qəbul edilmiş qaydalar və formalar əsasındadır. Yəni yaxşı qiymətdir, həm bizim üçün, həm istehlakçılar üçün. Niyə də biz bu imkanlardan istifadə etməyək? Rusiya ilə Azərbaycan arasında müxtəlif sahələrdə əməkdaşlıq vardır. Biz Rusiyaya başqa məhsulları da dünya qiymətinə ixrac edirik. Oradan gətirilən məhsulları da dünya qiymətinə alırıq. Bu bir variantdır.

Müzakirə olunan digər variant Azərbaycan qazını İrana ixrac etmək variantıdır. Biz bu məsələ üzərində də ciddi işləyirik və bu məsələ də perspektivli ola bilər. Yenə də biz burada tranzit problemləri ilə üzləşməyəcəyik. Çünki bizim aramızda başqa heç bir ölkə yoxdur və kəmərimiz də vardır. Düzdür, Astarada kompressor stansiyasının gücləndirilməsi ilə əlaqədar müəyyən işlər görülməlidir, bəlkə yeni kompressorun quraşdırılması nəzərdə tutulacaqdır. Magistral kəmər də təmir olunmalıdır. Bütün bunlar texniki məsələlərdir. İran bazarı da böyük bazardır. İran bu gün Türkmənistandan qaz alır. Niyə Azərbaycandan almasın? Biz İrana neft məhsulları satırıq. Niyə də qaz satmayaq?

Başqa variant da artıq müzakirə olunmaqdadır. Biz gərək bu müzakirələri daha da dərinləşdirək, daha da ciddi təhlil edək. Bu da Azərbaycan qazını Qara dəniz limanlarından Avropa İttifaqına çıxarmaq imkanlarından ibarətdir. Bu bizim təşəbbüsümüz olmayıbdır. Bizə müraciətlər olmuşdur və biz də bu müraciətlərə müsbət baxmışıq.

Bir müraciət də olub ki, qeyd etdiyim kimi, bu da Qara dəniz sahillərindən – Gürcüstandan Azərbaycan qazını Avropa məkanına nəql etmək layihəsidir. Bu, gərək ciddi araşdırılsın. Prinsip etibarilə biz bununla razıyıq. Biz də başqa ölkələr kimi çalışmalıyıq ki, bütün imkanlarımızı genişləndirək, şaxələndirək. Əgər bizim üç neft kəmərimiz

olmasaydı, bu gün Azərbaycan neftinin ixracı məsələsində böyük problemlərlə üzləşə bilərdik. Üç kəmərin mövcudluğu və üçünün də işlək vəziyyətdə olması bizim imkanlarımızı genişləndirir.

Biz qaz sahəsində də eyni mövqedən çıxış edəcəyik və hesab edirəm ki, dediyim o Qara dəniz sahilindən çəkilə biləcək üçüncü yol ciddi təhlil edilməlidir. Bu məsələ ilə əlaqədar son dəfə mən Rumıniyada rəsmi səfərdə olarkən geniş müzakirələr apardıq. Bu müzakirələr davam etdiriləcəkdir. Bolqarıstanla bu sahədə əməkdaşlıq mümkündür və biz bu məsələləri də araşdıracağıq.

Mən bu məsələ ilə bağlı bir az ətraflı danışdım. Bəzən bu məsələlər ətrafında müəyyən spekulyasiyalar aparılır, fikirlər təhrif edilir, reallıqlar gizlədilir və ortaya yanlış məlumatlar atılır. Ona görə mən istədim ki, Azərbaycan ictimaiyyəti də və kimə aidiyyəti var, onlar da Azərbaycanın mövqeyini bilsinlər, Azərbaycanın mövqeyini nəzərə alsınlar.

Bir daha demək istəyirəm ki, doqquz ayın yekunları məni çox sevindirir. Bu onu göstərir ki, Azərbaycan həmişə olduğu kimi, irəliyə uğurla gedir, gələcəyə nikbinliklə baxır. Azərbaycan xalqının milli maraqlarını təmin etmək üçün biz gələcəkdə də səylərimizi əsirgəməyəcəyik. Sizə bu işlərdə uğurlar arzulayıram.

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA**

Hörmətli cənab Prezident!

Ölkənizdə törədilmiş terror aktı nəticəsində çoxsaylı insan tələfatı xəbərindən olduqca sarsıldıq.

Biz bu hadisədən son dərəcə hiddətlənir, bəşəriyyət üçün böyük təhlükə mənbəyi olan terrorun bütün təzahürlərini qətiyyətlə pisləyir, terrorizmə qarşı mübarizəni hər vasitə ilə dəstəkləyirik.

Bu ağır anlarda dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün İran xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 oktyabr 2009-cu il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN İSVEÇRƏYƏ RƏSMİ SƏFƏRİ

*19 oktyabr 2009-cu il*

*Oktyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsveçrəyə rəsmi səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Oktyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsveçrə Konfederasiyasına rəsmi səfərə gəlmişdir.*

*Sürix şəhərinin Beynəlxalq hava limanında prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı İsveçrənin yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

*Mehriban xanıma gül dəstəsi təqdim olundu.*

*Prezident İlham Əliyev və xanımı Sürixdən paytaxt Bernə yola düşdülər.*

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Bern*

*19 oktyabr 2009-cu il*

*Oktyabrın 19-da İsveçrəyə rəsmi səfərə gəlmiş Azərbaycan prezidenti İlham Əliyevin Berndə rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Azərbaycanın və İsveçrənin dövlət bayraqlarının dalğalandığı meydanda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi İsveçrə prezidenti Hans-Rudolf Merts qarşıladı.*

*İsveçrənin dövlət və hökumət nümayəndələri Azərbaycan prezidentinə, Azərbaycan nümayəndə heyətinin üzvləri İsveçrə prezidentinə təqdim olundu.*

*Hərbi orkestrin ifasında Azərbaycanın və İsveçrənin dövlət himnləri səsləndi.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ HANS-RUDOLF MERTSİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Bern*

*19 oktyabr 2009-cu il*

*Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsveçrə Konfederasiyasının Prezidenti Hans-Rudolf Mertsin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.*

*President Hans-Rudolf Merts bildirdi ki, həm dövlət başçıları səviyyəsində, həm də digər səviyyələrdə intensiv əlaqələrimiz vardır. Parlamentlərarası qruplar əlaqələrimizin daha da dərinləşməsinə xidmət edir.*

*İsveçrədə keçirilən Azərbaycan mədəniyyəti günlərinin əhəmiyyətinə toxunan Hans-Rudolf Merts dedi ki, bu cür tədbirlər xalqlarımızı bir-birinə daha da yaxınlaşdırır. İqtisadi sahədə əlaqələrin sürətlə inkişaf etdiyini diqqətə çatdıran İsveçrə prezidenti bildirdi ki, energetika sahəsində əməkdaşlığımız genişlənir, qeyri-enerji sektorunda da layihələrimiz vardır. İsveçrə dövlətinin başçısı alternativ enerji sahəsində də əməkdaşlığın inkişafının əhəmiyyətinə toxundu, ölkələrimiz arasında ticarət dövriyyəsinin artdığını bildirdi.*

*Azərbaycan prezidenti İlham Əliyev dedi ki, onun İsveçrəyə rəsmi səfəri əlaqələrimizin genişlənməsinə xidmət edir.*

*Ölkələrimiz arasında iqtisadi əməkdaşlığın sürətlə inkişaf etdiyini, bu sahədə geniş potensialın olduğunu deyən prezident İlham Əliyev güclü siyasi əlaqələrimizin mövcudluğunu diqqətə*

*çatdırdı. Dövlətimizin başçısı dedi ki, enerji sahəsində əmək-daşlığımız uğurla gedir, qeyri-enerji sahəsində yaxşı imkanlar vardır və bunu inkişaf etdirmək lazımdır.*

*Prezident İlham Əliyev İsveçrədə Azərbaycan mədəniyyəti günlərinin əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı iki-tərəfli və regional məsələlərlə bağlı siyasi məsləhətləşmələrin bundan sonra da davam etdirilməsinin əhəmiyyətinə toxundu.*

*Görüşdə ikitərəfli münasibətlər, regional əməkdaşlıq və beynəlxalq məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.*

# AZƏRBAYCAN VƏ İSVEÇRƏ PREZİDENTLƏRİNİN MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI

*19 oktyabr 2009-cu il*

*Oktyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsveçrə Konfederasiyasının Prezidenti Hans-Rudolf Mertsin mətbuat konfransı olmuşdur.*

*Prezidentlər bəyanatlarla çıxış etdilər.*

## İsveçrə prezidenti Hans-Rudolf Mertsin bəyanatı

Xanımlar və cənablar, sizi salamlayıram!

Mən böyük məmnuniyyətlə və şərəf hissi ilə İsveçrəyə rəsmi səfərə gəlmiş zati-aliləri Azərbaycan prezidentinə, onu müşayiət edən üç nazirə və digər mühüm iştirakçılara «Xoş gəlmisiniz!» deyirəm.

İki ölkə arasında bir çox oxşarlıqlar vardır. Birincisi, onlar Şərq ilə Qərbin kəsişməsində, müxtəlif mentalitetlərin və dillərin qovuşduğu məkanda yerləşir. Hər iki ölkə siyasi və iqtisadi sahələrdə müstəqillik və sabitlik uğrunda mübarizə aparır. Bunları nəzərə alaraq, biz sıx təmaslar qurmuşuq. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra həmin əlaqələri möhkəmləndirməyə başlamışıq. Azərbaycan da İsveçrə kimi, heç bir hərbi təşkilat və ya ittifaqda iştirak etmir.

Digər tərəfdən, ölkələrimiz beynəlxalq təşkilatlarda, xüsusən də Beynəlxalq Valyuta Fondunda əməkdaşlıq edir. Azərbaycan İsveçrənin bu təşkilatda sədrlik etdiyi mühüm qrupun üzvüdür.

Bu gün biz bir sıra məsələləri müzakirə etdik. Nəzərə alsaq ki, əlaqələrimiz artıq təşəkkül tapmışdır, münasibətlərimizi bundan sonra da möhkəmləndirməli və dərinləşdirməliyik. Mədəniyyət sahəsinə gəldikdə, bu axşam Berndə rəsmən açılışı olacaq İsveçrədə Azərbaycan mədəniyyəti günlərini səbirsizliklə gözləyirik. İqtisadiyyatlarımızın, iqtisadi münasibətlərimizin inkişafı bizim üçün vacibdir. Məsələn, enerji sahəsində işbirliyimiz vardır. Miqrasiya sahəsində də danışıqlar davam edir.

Başqa sözlə desək, ölkələrimiz arasında problem yoxdur. Bizim aramızda dostluq vardır. Biz bu gün səhər görüşlərimizi bu ruhda keçirdik və ölkələrimiz arasında əlaqələrimizi eyni tərzdə inkişaf etdirmək əzmindəyik. Bu sözləri söyləyərək, cənab Prezident, mən Sizi ölkəmizdə bir daha səmimi-qəlbdən salamlayıram.

**Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı**

Çox sağ olun, cənab Prezident.

Hörmətli xanımlar və cənablar!

Əvvəlcə, cənab Prezident, gözəl ölkənizə səfər etmək üçün mənə göndərdiyiniz dəvətə, mənə, o cümlədən nümayəndə heyətimin üzvlərinə göstərilmiş qonaqpərvərliyə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm.

Mən Azərbaycan prezidentinin İsveçrəyə ilk rəsmi səfərini ikitərəfli əlaqələrimizin inkişafı istiqamətində atılmış mühüm addım hesab edirəm. Münasibətlərimiz çox uğurla inkişaf edir. Bu ilin əvvəlində biz Sizinlə Davosda görüşdük və maraqlı müzakirələrimiz oldu. Bu gün də biz dialoqumuzu davam etdiririk.

Bu dialoq bir çox sahələri əhatə edir. Artıq bir çox yaxşı nəticələr vardır və bu, gələcəkdə də belə ola bilər. Münasibətlərimizin gələcəyi çox perspektivlidir. Qeyd etmək istərdim ki, son bir neçə ildə əlaqələrimiz dinamik şəkildə inkişaf etmişdir. Prezidentlərin səfərləri, nümayəndə heyət-

lərinin qarşılıqlı səfərləri, İsveçrə və Azərbaycan parlamentlərində dostluq qruplarının yaradılması, İsveçrədə Azərbaycan mədəniyyəti günlərinin keçirilməsi ikitərəfli əlaqələrin çox mühüm elementləridir.

İsveçrə bizim üçün yaxın tərəfdaş, dost ölkədir. Cənab Prezident, bu gün bizə yaratdığınız mühit əsl dostluq mühitidir. Biz ikitərəfli əlaqələrə aid bir çox mühüm məsələləri müzakirə etdik, inkişaf yollarını araşdırdıq. İsveçrə və Azərbaycanda qarşılıqlı sərmayə layihələrinin həyata keçirilməsi ətrafında fikir mübadiləsi apardıq. Ticarət dövriyyəmiz sürətlə artır. Beynəlxalq maliyyə böhranına baxmayaraq, iqtisadi münasibətlərimiz uğurla inkişaf edir.

Regional inkişafın mühüm məsələlərini, həmçinin Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasını müzakirə etdik. Mən cənab Prezidentə danışıqlar prosesində baş verən son hadisələr haqqında məlumat verdim.

Enerji əməkdaşlığımıza aid məsələləri cari ilin əvvəlində müzakirə etmişdik. Bu mövzu bu gün və sabah da nəzərdən keçiriləcəkdir. Bu sahədəki əlaqələrimizin böyük potensialı vardır. Avropada enerji təhlükəsizliyi ilə bağlı ümumi baxışlarımız mövcuddur. Nəhəng neft və qaz ehtiyatlarına malik olan Azərbaycan öz enerji daşıyıcılarını Avropadakı tərəfdaşlarına tezliklə çatdırmağa hazırdır. Bu məsələdə ölkələrimizin qarşılıqlı maraqları «Cənub dəhlizi» adlanacaq yeni nəql marşrutunun formalaşmasına yardım edə bilər.

Əminəm ki, gələn illər ərzində münasibətlərimiz uğurla inkişaf edəcəkdir. Onlar bir çox sahələrdə öz əksini tapacaqdır. Çünki bunun üçün hər bir şərait vardır. Siyasi iradə, güclü siyasi təmaslar, iqtisadiyyatlarımızın bir-birinə cəlbedici olması və münbit sərmayə şəraiti mövcuddur. Müstəqil siyasətə qəti sadiqliyimiz, müstəqil siyasəti aparmaq bacarığı, coğrafi mövqeyimiz, xalqlarımızın və ölkələrimizin rifahı naminə daha sıx əlaqələri qurmaq arzusu vardır.

Mən aparılmış müzakirələrdən çox məmnunam. Bir neçə saatlıq söhbətimiz oldu. Görüşümüz olduqca faydalı idi. Bu görüş danışıqların ənənəvi mövzusu olan məsələlərə diqqət yönəltməyə və gələcəkdə həll edəcəyimiz yeni vəzifələrə nəzər salmağa imkan verdi.

Cənab Prezident, dəvətinizə və qonaqpərvərliyinizə görə bir daha minnətdaram.

* * *

*Sonra dövlət başçıları jurnalistlərin suallarını cavablandırdılar.*

**S u a l: (*AZƏRTAC-ın müxbiri)*: Sualım hər iki prezidentədir. İki ölkə arasında hansı qeyri-enerji layihələri həyata keçirilə bilər?**

**H a n s - R u d o l f  M e r t s :** Qeyd etmək lazımdır ki, Azərbaycan bizim üçün mühüm enerji mənbəyidir. Bu, ən mühüm mənbələrdən biridir. Təchiz edilən həcm o qədər çox deyildir, lakin sabit təchizat mənbəyidir. Çünki bu sahədə əlaqə qurulan ölkə sabit və addımları gözlənilən ölkə olmalıdır. Azərbaycan həmin ölkələrdən biridir. Azərbaycan İsveçrə üçün enerji təchizatçısı ola bilər. Təbii ki, biz enerjinin nəqli yolları məsələsini həll etməliyik. Bəzi məsələlər vardır ki, onlar hələ də həll olunmayıb. Məsələn, Azərbaycandan Aralıq dənizinə gedən boru kəməri. Bu sahədə Türkiyə ilə də razılıq olmalıdır ki, layihə davam etdirilsin. Bununla belə, biz əminik ki, çıxış yolu tapılacaqdır.

Digər tərəfdən, İsveçrə alternativ enerji texnologiyalarını ixrac edə bilər. Bu sahə İsveçrədə yüksək səviyyədə inkişaf etmişdir. Belə texnologiya Azərbaycan tərəfindən istifadə edilə bilər. Hesab edirəm ki, Azərbaycan böhrandan sonrakı vəziyyət haqqında düşünməlidir, çünki neft ilə qaz vaxt keçdikcə tükənəcəkdir. Ölkəmiz bu sahədə Azərbaycanı dəstəkləyə bilər. Öz növbəmizdə biz enerji daşıyıcılarına çıxış əldə etməkdə çox maraqlıyıq. Hesab edirəm ki, bu cür mübadilə istənilən vaxt çox cəlbedici ola bilər.

**İ l h a m Ə l i y e v:** Gələcəkdə enerji sektorunda qarşılıqlı maraq doğuran əməkdaşlıq məsələlərini müzakirə etdik. Bu vacib məsələ üzərində işləmək üçün imkan vardır. Azərbaycan bir neçə müddətdir ki, enerji resurslarını müxtəlif boru kəmərləri şəbəkəsi ilə ixrac edir. Dünya və Avropa bazarlarına çıxış bizim üçün xüsusi əhəmiyyət kəsb edir. İsveçrə ilə ikitərəfli əsaslarla müzakirə etdiyimiz enerji əməkdaşlığının xüsusi yeri vardır. Bu cür məsələləri biz hər zaman görüşəndə nəzərdən keçiririk. Hesab edirəm ki, qonşu ölkələrlə bütün tranzit məsələlərinin həlli Azərbaycana böyük həcmdə enerji resurslarını Avropa bazarlarına çıxarmaq imkanı yaradacaqdır və bunu etməklə biz ixrac marşrutlarımızı, Avropa isə təchizat yollarını müxtəlifləşdirəcəkdir. Bu, birmənalı şəkildə xeyir gətirən haldır və qarşılıqlı surətdə faydalıdır. Planlaşdırdığımız bütün işləri yerinə yetirmək məqsədi ilə tərəfdaşlarımızla həm ikitərəfli, həm də çoxtərəfli əsaslarla işimizi davam etdirəcəyik.

Qeyri-neft sektoruna gəldikdə, ölkələrimizin şirkətləri maraq göstərirlər ki, sərmayələr qoysunlar və birgə biznes yaratsınlar. Biz İsveçrənin «Holsim» qrupunun Azərbaycanın qeyri-enerji sektoruna böyük yatırımlarında maraqlıyıq. Hazırda bu şirkət ölkəmizdə yeni sement zavodunu tikməkdədir. Bu məsələ yanvar ayında cənab Prezidentlə görüşümüz zamanı müzakirə olunmuşdur. Mən Bakıda tikiləcək yeni sement zavodunun təməlqoyma mərasimində iştirak etməkdən məmnun oldum. Zavodun tikintisi artıq başlanıb. Çox vacibdir ki, sərmayələr yaxşı nüfuza malik olan və beynəlxalq səviyyədə tanınan şirkət tərəfindən qoyulur. Bu, beynəlxalq maliyyə böhranı ili sayılan 2009-cu ildə qeyri-enerji sektoruna qoyulan sərmayədir. Bu onu göstərir ki, Azərbaycan nəinki enerji sektorunda, o cümlədən qeyri-enerji sahəsində fəaliyyət göstərən şirkətlər üçün cəlbedici ölkə olaraq qalır. Hesab edirəm ki, bu nümunə şirkətlərimizin müxtəlif sahələrə marağına müsbət təsir göstərəcək və gələn illər ərzində biz bir neçə oxşar layihənin şahidi olacağıq.

## BERN ŞƏHƏRİ İLƏ TANIŞLIQ

*19 oktyabr 2009-cu il*

*İsveçrə Konfederasiyasına rəsmi səfəri çərçivəsində prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 19-da Bern şəhər meriyasında olmuşlar.*

*Şəhərin meri Aleksander Çeppet İsveçrənin paytaxtı Bernin tarixi və bu günü haqqında ətraflı məlumat verdi. Bildirildi ki, Bern İsveçrənin ictimai-siyasi və mədəni həyatında mühüm rol oynayır. Meriyada Azərbaycan prezidenti İlham Əliyevə və xanımı Mehriban Əliyevaya xatirə hədiyyələri təqdim olundu.*

*Azərbaycan prezidenti və xanımı Bern şəhər meriyasının Fəxri qonaqlar kitabına ürək sözlərini yazdılar.*

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Bern şəhərinin meri Aleksander Çeppetin müşayiəti ilə şəhəri gəzdilər.*

*İsveçrə paytaxtının tarixi memarlıq abidələri ilə zəngin hissəsinə gələn Azərbaycan prezidenti və xanımı «Münster» kilsəsində oldular.*

*Bildirildi ki, XVI əsrdə inşa olunan bu tarixi abidə dövlət tərəfindən memarlıq incisi kimi qorunur. Bu, İsveçrədə mövcud olan ən böyük kilsələrdən biridir.*

*Daha sonra Azərbaycan prezidenti və xanımı Albert Eynşteynin ev-muzeyi ilə tanış oldular. Ömrünün bir hissəsini bu mənzildə keçirən məşhur alim, nisbilik nəzəriyyəsinin banisi Eynşteynin şəxsi əşyaları burada etibarla qorunur.*

*Şəhərlə tanışlıq zamanı dövlətimizin başçısı və xanımı paytaxtdakı saat qülləsinin önünə gəldilər.*

*Qüllə ilə tanışlıq zamanı bildirildi ki, Bernə xüsusi yaraşıq verən bu tarixi abidə XVI əsrin birinci yarısında inşa olunmuşdur. İsveçrə paytaxtına gələn turistlərin diqqətini daha çox çəkən bu tarixi məkan qədim Bernin rəmzlərindən biridir.*

## İSVEÇRƏ KANTONLAR ŞURASININ SƏDRİ ALAİN BERSET İLƏ GÖRÜŞ

*19 oktyabr 2009-cu il*

*İsveçrədə rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da İsveçrə Konfederasiyası Kantonlar Şurasının sədri Alain Berset ilə görüşmüşdür.*

*Azərbaycan ilə əlaqələrin əhəmiyyətinə toxunan Alain Berset dedi ki, İsveçrə parlamentində Azərbaycan üzrə parlamentlərarası dostluq qrupu fəaliyyət göstərir. Parlamentlərarası münasibətlərin çox yaxşı səviyyədə olduğunu deyən Alain Berset hökumətlərarası və dövlətlərarası münasibətlərin də inkişaf etdiyini bildirdi.*

*İsveçrədə keçirilən Azərbaycan mədəniyyəti günlərinin əhəmiyyətinə toxunan Kantonlar Şurasının sədri dedi ki, bu cür tədbirlər bir-birimiz haqqında məlumatları genişləndirir.*

*Prezident İlham Əliyev dedi ki, əlaqələrimizdə müxtəlif sahələr üzrə irəliləyişlər vardır. Azərbaycan Milli Məclisində də İsveçrə üzrə dostluq qrupu fəaliyyət göstərir və ölkəmiz parlamentlərarası əlaqələrə böyük əhəmiyyət verir.*

*Dövlətimizin başçısı bildirdi ki, hökumətlərarası münasibətlər yaxşı səviyyədədir. Keçən il İsveçrə prezidentinin Azərbaycana, indi isə Azərbaycan prezidentinin İsveçrəyə səfəri əlaqələrimizi daha da möhkəmləndirir.*

*Azərbaycan prezidenti iqtisadi münasibətlərin inkişaf etdiyini, bu sahədə qarşılıqlı maraqlar əsasında yeni layihələrin həyata keçirildiyini qeyd etdi və ikitərəfli münasibətlərimizi yüksək qiymətləndirdi.*

*Prezident İlham Əliyev İsveçrədə keçirilən Azərbaycan mədəniyyəti günlərinin əhəmiyyətini qeyd etdi və bildirdi ki, ölkələrimiz haqqında məlumatlar daha da çox olmalıdır.*

*Görüşdən sonra prezident İlham Əliyev Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

## İSVEÇRƏDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ GÜNLƏRİNİN RƏSMİ AÇILIŞI

*19 oktyabr 2009-cu il*

*Oktyabrın 19-da İsveçrənin paytaxtı Berndə Azərbaycan mədəniyyəti günlərinin rəsmi açılışı olmuşdur. İsveçrə paytaxtının konsert zalında keçirilən mərasimdə Azərbaycan prezidenti İlham Əliyev və xanımı, İsveçrə prezidenti Hans-Rudolf Merts və xanımı iştirak etmişlər.*

*Mərasimdən əvvəl iştirakçılara ölkəmiz və onun mədəniyyəti, incəsənəti haqqında məlumat verildi. Bildirildi ki, Odlar yurdu Azərbaycan həm də mədəniyyətinin qədimliyi ilə fəxr edə bilər. Dünyada geniş şöhrət qazanmış muğamlarımızı xüsusi qeyd edən natiq məşhur xanəndə Alim Qasımovun bu ölkədə verdiyi konsertlərin böyük əks-səda doğurduğunu xatırlatdı. Qeyd olundu ki, XX əsrin 30-cu illərində Hollivudla yanaşı, Bakı tammetrajlı ağ-qara filmlərlə dünya arenasına çıxmış ilk şəhərlərdən biridir. Bu filmlərdən biri azərbaycanlı caz ustası Salman Qənbərovun müşayiəti ilə mədəniyyət günlərində nümayiş etdiriləcəkdir.*

*Tamaşaçılara mədəniyyət günlərinin proqramı barədə məlumat verildi ki, altı həftə ərzində İsveçrədə Azərbaycanın 200-dən çox incəsənət ustası 80 tədbirdə iştirak edəcək və musiqinin klassik, ənənəvi və caz janrlarında bacarıqlarını nümayiş etdirəcəklər. Həmçinin Dövlət Pantomima və Kukla teatrlarının çıxışları, Azərbaycan filmlərinin nümayişi, sərgilərin təşkili də mədəniyyət günlərinin proqramına daxildir.*

*İsveçrədə keçiriləcək Azərbaycan mədəniyyəti günləri mədəniyyətlər arasında körpü yaratmaq və ümumiyyətlə, ölkəmizin mədəniyyəti ilə yaxından tanış olmaq baxımından çox mühüm hadisə kimi dəyərləndirildi.*

*Dövlət başçıları açılış mərasimində çıxış etdilər.*

## İsveçrə prezidenti Hans-Rudolf Mertsin çıxışı

Cənab İlham Əliyev!
Hörmətli xanım Əliyeva!
Zati-aliləri!
Xanımlar və cənablar!

İlk baxışda İsveçrə ilə Azərbaycan arasında çox xırda oxşarlıqlar müşahidə oluna bilər. Lakin siz təfərrüatlara varsanız və daha dərindən nəzər yetirsəniz, iki ölkə arasında paralel olan bir çox xətləri görə bilərsiniz. Hər iki ölkə sivilizasiyaların qovuşduğu yerdə yerləşir. Azərbaycan Şərq ilə Qərbin, dinlərin və mədəniyyətlərin qovuşuğunda, İsveçrə isə Avropanın mərkəzində, bir çox yolların kəsişdiyi yerdə yerləşir. Burada bir çox dillər, mentalitetlər və dinlər bir-biri ilə qovuşur. Hər iki ölkədə siyasi vəziyyət sabitdir. Hər iki ölkə müstəqillik uğrunda mübarizə aparıb və onu hazırda möhkəmləndirir.

Buna görə, ölkələrimiz arasında münasibətlərin dərinləşməsi faydalı olardı. Azərbaycan müstəqilliyini 1991-ci ildə bərpa etdikdən sonra ölkələrimiz arasında diplomatik münasibətlər qurulmuşdur. İsveçrə Azərbaycanda öz diplomatik nümayəndəliyini açmışdır. İqtisadi sahəyə gəldikdə, bilirik ki, son bir neçə ildə Azərbaycan iqtisadiyyatı üç dəfə artıb.

Lakin mədəniyyət sahəsində münasibətlərimizdə çatışmazlıq vardır. Bu axşam burada olmağımdan və münasibətlərimizə mədəniyyət sahəsini də əlavə etməyimizdən olduqca məmnunam. Mədəniyyət sahəsindəki əlaqələrimiz uzun tarixi olan zəngin mədəniyyətə, adət-ənənələrə əsaslanır. Biz Azərbaycan mədəniyyəti ilə İsveçrədə növbəti həftələr ərzində geniş tanış olacağıq. Mən bu tədbir münasibətilə Sizin hamınıza xoş axşam arzulayıram. Bu tədbirə gəlmiş şəxslərə, xüsusən də Sizə, cənab Prezident, İsveçrəyə etdiyiniz səfərə görə dərin minnətdarlığımı bildirirəm.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!
Hörmətli birinci xanım!
Xanımlar və cənablar!

Əvvəlcə, mən cənab Prezidentə İsveçrəyə rəsmi səfərə dəvətə və göstərilmiş səmimi qonaqpərvərliyə görə minnətdarlığımı bildirmək istəyirəm. Mən Sizin gözəl ölkənizdə bir neçə dəfə olmuşam. Lakin bu səfər xüsusi əhəmiyyət daşıyır. Çünki diplomatik münasibətlərin qurulmasından sonra Azərbaycan prezidentinin ilk rəsmi səfəridir. Bu, aydın şəkildə onu göstərir ki, ölkələrimiz arasında münasibətlər çox uğurla və sürətlə inkişaf edir. Deyərdim ki, biz son illər bir çox sahələrdə münasibətlərimizi intensivləşdirməyə nail olmuşuq. Ötən il İsveçrə prezidenti Azərbaycanda səfərdə oldu. Ölkələrimiz arasında nümayəndə heyətləri geniş şəkildə qarşılıqlı səfərlərdə olur. Hər iki ölkənin parlamentlərində İsveçrə–Azərbaycan dostluq qrupları fəaliyyət göstərir. Hazırda regionumuzun bir çox digər ölkələrini də əhatə edəcək qarşılıqlı maraq doğuran məsələləri müzakirə edirik.

Ölkələrimiz arasında iqtisadi və siyasi əlaqələr çox yüksək səviyyədədir. Bu gün bütün məsələlər müzakirə olundu. Əminəm ki, gələcək əlaqələrimiz daha gözəl olacaqdır. Çünki biz bir-birimizin imkanlarını yalnız indi kəşf etməyə, bir-birimizə real tərəfdaş kimi baxmağa başlamışıq. Son iki-üç ildə əlaqələrimizin intensiv xarakter alması qarşılıqlı ticarət dövriyyəsinin artmasına, yeni birgə layihələrin həyata keçirilməsinə aparır. İsveçrə şirkətləri Azərbaycanı sərmayələr üçün etibarlı ölkə hesab edirlər. Hətta beynəlxalq maliyyə və iqtisadi böhran ili olan 2009-cu ildə İsveçrə şirkətləri Azərbaycan iqtisadiyyatına yüz milyonlarla vəsaitləri sərmayə kimi yatırırlar. Ən vacibi isə budur ki, sərmayələr iqtisadiyyatın qeyri-enerji sektoruna qoyulur. Bu bizim bir-birimiz üçün nə dərəcədə vacib olduğumuzu göstərir. Əmi-

nəm ki, Azərbaycan şirkətləri də İsveçrədə sərmayə qoyacaqlar.

Möhkəm siyasi əlaqələrin, qarşılıqlı iqtisadi maraqların olması və iqtisadiyyatlarımızın bir-biri ilə rəqabət aparan deyil, əksinə, bir-birini dəstəkləyən iqtisadiyyatlar olmasıyla böyük uğurları əldə edə bilərik.

Azərbaycan müstəqil ölkə kimi nisbətən gəncdir. Müstəqil ölkə kimi, biz yalnız 18 ildir ki, yaşayırıq. Cənab Prezidentin qeyd etdiyi kimi, ölkələrimiz arasında bir çox oxşarlıqlar vardır. Ölkələrimizdə dövlətçiliyin tarixi və təkamül yolu eyni olmuşdur. Fikrimcə, ən mühüm oxşarlıqlardan biri isə müstəqillikdir. Ölkələrimiz üçün müstəqillik kimi ən böyük nailiyyəti yüksək qiymətləndiririk. Sizin ölkəniz dünyada aparıcı ölkələrdən biridir. Müstəqillik, ləyaqət, neytrallıq, daxili məsələlərə diqqət və insanların həyatının yaxşılaşdırılması baxımından ölkəniz nümunə ola bilər.

Biz müstəqil ölkə kimi gəncik. Müstəqilliyimizi 18 il əvvəl bərpa etmişik. Lakin böyük keçid mərhələsini qət etmişik. Tam mənada planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına, birpartiyalı sistemdən demokratik inkişafa, yoxsulluq və xaos vəziyyətindən iqtisadi və siyasi sabitliyə doğru getmişik. Bu gün Azərbaycan dünyada nadir ölkələrdən biridir ki, böhrana baxmayaraq iqtisadiyyatı artır.

Lakin biz bir-birimizi daha yaxşı tanımalıyıq. Təbii ki, bir-birimizi daha yaxşı tanımaq mədəniyyətdən keçir. Hər bir ölkə öz mədəni və tarixi irsi ilə fəxr edir. Biz müstəqil ölkə və beynəlxalq ictimaiyyətin üzvü kimi gənc dövlətik. Lakin bizim böyük tariximiz, ənənələrimiz, mədəniyyətimiz vardır. Əsrlər boyu xalqımız digər dövlətlərin və imperiyaların tərkibində yaşamışdır. Lakin biz özünəməxsusluğumuzu, milli qürurumuzu və mədəniyyətimizi itirmədik. Musiqimizi, poeziyamızı, dilimizi və ənənələrimizi qoruyub saxladıq. Bu, hər hansı ölkənin inkişafı üçün ən mühüm əsasdır.

Biz tam dağılmış iqtisadiyyatdan sonra yalnız 18 il ərzində iqtisadi rəqabət qabiliyyətinə görə bu gün dünya reytinqində 51-ci yerə çıxmışıq. Gələcəkdə görəcəyimiz işlər daha çoxdur. Bizim təbii sərvətlərimiz vardır. Ölkəmiz sürətlə müasirləşməyə doğru gedir. Biz Avropaya inteqrasiya xəttinə sadiqik və gələcəkdə inkişafı mümkün edəcək bütün mütərəqqi qayda və qanunları Azərbaycanda tətbiq edirik.

Bu gün çox vacib gündür: mənim İsveçrəyə rəsmi səfərim və Azərbaycan mədəniyyəti günlərinin açılışıdır. Bu tədbir İsveçrədə yaşayanlara Azərbaycanı və onun mədəniyyətini, ənənələrimizi daha yaxşı tanımaq və bir-birimizə daha yaxın olmaq imkanını yaradacaqdır. Mən İsveçrədə bu cür mühüm mədəni tədbiri təşkil edən bütün şəxslərə minnətdaram. Cənab Prezident, mühüm tədbirdə iştirak etdiyinizə görə Sizə minnətdaram. Bu gün Azərbaycan mədəniyyətinin yalnız kiçik bir hissəsi ilə tanış olmaq üçün buraya gəlmiş şəxslərə təşəkkürümü bildirirəm. Çox sağ olun. Mən, həmçinin Sizin hamınızı Azərbaycana səfərə dəvət edirəm və istəyirəm ki, dostluğumuz davam etsin.

* * *

*Sonra Azərbaycan mədəniyyəti günlərinin açılışı mərasiminin bədii hissəsi başladı.*

*Azərbaycanın tanınmış incəsənət xadimlərinin, musiqiçilərinin ifasında bir-birindən rəngarəng musiqi çələngindən ibarət kompozisiya alqışlarla qarşılandı.*

*Konsertdə səslənən maraqlı musiqi nömrələri Azərbaycan mədəniyyətinin qədimliyini və zənginliyini bir daha nümayiş etdirdi. Xüsusilə Heydər Əliyev fondu tərəfindən milli musiqimizə, bütövlükdə mədəniyyətimizə göstərilən dəstək Azərbaycan musiqi mədəniyyətinin dünyada daha yaxından tanınmasına geniş imkanlar açmışdır. Azərbaycan musiqiçilərinin ifasında Avropa tamaşaçısına təqdim olunan Qərb ilə Şərqin sintezindən doğan rəngarəng musiqi nömrələri maraqla qarşılandı.*

## İSVEÇRƏNİN ENERJİ, NƏQLİYYAT, KOMMUNİKASİYA VƏ ƏTRAF MÜHİT ÜZRƏ FEDERAL MÜŞAVİRİ MORİTS LEUENBERGER İLƏ GÖRÜŞ

*Bern*

*20 oktyabr 2009-cu il*

*İsveçrə Konfederasiyasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də İsveçrənin Enerji, nəqliyyat, kommunikasiya və ətraf mühit üzrə federal müşaviri Morits Leuenberger ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə İsveçrə arasında energetika sahəsində əməkdaşlığın hazırkı vəziyyəti barədə fikir mübadiləsi aparıldı. Bu sahədə gələcək əlaqələrin daha da genişlənməsi üçün yaxşı perspektivlərin olduğu bildirildi.*

*Görüşdə, həmçinin bərpa olunan və alternativ enerji mənbələri sahəsində əməkdaşlıqla bağlı imkanların öyrənilməsi ətrafında fikir mübadiləsi aparıldı.*

### Səfər başa çatdı

*Oktyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İsveçrə Konfederasiyasına rəsmi səfəri başa çatmışdır.*

*Bern şəhərinin hava limanında Azərbaycan dövlətinin başçısını və xanımını İsveçrənin yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

* * *

*Dövlətimizin başçısı həmin gün Bakıya qayıtmışdır.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## DÜNYA BANKININ SƏRƏNCAMÇI DİREKTORU NQOZİ OKONCO-İVEALANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 oktyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də Dünya Bankının sərəncamçı direktoru Nqozi Okonco-İvealanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Dünya Bankı arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini vurğuladı. Bu yaxınlarda Dünya Bankının nümayəndə heyəti ilə görüşünü xatırladan prezident İlham Əliyev həmin görüş zamanı əməkdaşlığın perspektivləri ilə bağlı məsələlərin müzakirə olunduğunu qeyd etdi. Azərbaycan ilə Dünya Bankı arasında məhsuldar əməkdaşlığın gələcəkdə də müvəffəqiyyətlə davam edəcəyinə ümidvar olduğunu vurğulayan dövlətimizin başçısı bu baxımdan Dünya Bankının sərəncamçı direktoru Nqozi Okonco-İvealanın ölkəmizə səfərinin uğurlu olacağına əminliyini bildirdi.*

*Azərbaycana səfəri çərçivəsində Bakı şəhəri ilə yaxından tanış olmaq fürsəti əldə etdiyini bildirən Dünya Bankının sərəncamçı direktoru Nqozi Okonco-İveala paytaxtımızın çox gözəl şəhər olduğunu, Bakı ilə tanışlığın onda xoş təəssürat oyatdığını vurğuladı. Azərbaycan prezidentinin Dünya Bankı ilə əməkdaşlığa dair fikirlərinə toxunan qonaq dedi:* «Sizin Dünya Bankı ilə əməkdaşlıqdan necə razı qaldığınızı eşitməkdən çox şadam. Dünya Bankının Azərbaycanın tərəfdaşı ola bilməsindən böyük şərəf hissi duyuruq».

**ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA**

Hörmətli cənab Prezident!

Milli bayramınız – İnqilab günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Əlcəzair münasibətlərinin hərtərəfli inkişafı, dostluq və əməkdaşlığımızın möhkəmləndirilməsi yolunda səylərimiz bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Əlcəzair xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 oktyabr 2009-cu il*

## TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ ƏHMƏD DAVUDOĞLU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 oktyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də Türkiyənin Xarici İşlər naziri Əhməd Davudoğlunu qəbul etmişdir.*

*Türkiyənin Xarici İşlər naziri Əhməd Davudoğlu Türkiyə prezidenti Abdullah Gülün salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycan–Türkiyə münasibətləri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, Ermənistan–Türkiyə münasibətləri ilə bağlı gedən proseslər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Türkiyə prezidenti Abdullah Gülün salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin dövlət başçısına çatdırmağı xahiş etdi.*

## BOLQARISTANIN XARİCİ İŞLƏR NAZİRİ XANIM RUMYANA JELEVA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 oktyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də Bolqarıstanın Xarici İşlər naziri xanım Rumyana Jelevanı qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin bundan sonra da möhkəmlənməsi üçün yaxşı potensialın olduğu qeyd edildi və münasibətlərimizin gələcəkdə daha da genişlənəcəyinə əminlik ifadə olundu.*

*Görüşdə, həmçinin Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının Bakıda keçirilən XXI görüşünün əhəmiyyəti vurğulandı və bu görüşün ölkələr arasında əməkdaşlığın genişləndirilməsi işinə xidmət etdiyi bildirildi.*

## İRANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MEHDİ SƏFƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 oktyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də İran İslam Respublikası Xarici İşlər nazirinin müavini Mehdi Səfərini qəbul etmişdir.*

*Mehdi Səfəri İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Seçkilərdən əvvəl Azərbaycanda olduğunu vurğulayan qonaq ötən dövr ərzində ölkəmizdə, xüsusilə Bakı şəhərində çoxlu müsbət dəyişikliklərin baş verdiyini dedi və əldə olunan yüksək nailiyyətlərə görə dövlətimizin başçısını təbrik etdi.*

*Ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyini bildirən dövlətimizin başçısı gələcək əməkdaşlıq üçün də yaxşı perspektivlərin olduğunu vurğuladı. Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq münasibətlərinin bundan sonra da davam etdiriləcəyinə əminliyini ifadə etdi.*

*Dövlətimizin başçısı prezident Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran İslam Respublikasının Prezidentinə çatdırmağı xahiş etdi.*

## ZƏMANƏMİZİN GÖRKƏMLİ MUSİQİÇİSİ MÜSLÜM MAQOMAYEVİN XATİRƏSİNİ ANMA MƏRASİMİ

*«Park İnn» oteli*

*22 oktyabr 2009-cu il*

*Oktyabrın 22-də Bakıda, «Park İnn» otelində zəmanəmizin görkəmli musiqi xadimi, müğənni və bəstəkar, Azərbaycanın və SSRİ-nin Xalq artisti Müslüm Maqomayevin xatirəsini anma mərasimi keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*Görkəmli musiqi xadiminin ruhuna dualar oxundu.*

*Müslüm Maqomayev Azərbaycanın fəxri idi. Cəmi 20 yaşı olarkən Helsinki festivalında uğurlu çıxışı ilə şöhrət qazanmış gənc müğənni tezliklə Sovet İttifaqında məşhurlaşmışdı. Müslüm sadəcə, oxumurdu, mahnını qəlbindən keçirərək dinləyiciyə çatdırırdı. «Bakı bülbülü» adlandırılan Müslüm Maqomayev Sovet İttifaqında milyonlarla insanın – dövlət rəhbərlərindən tutmuş, sadə əmək adamlarına qədər hamının sevimlisi idi. Buna görə də onu sovet estradasının son yarım əsrdəki ən parlaq ulduzu, kralı, simvolu adlandırırdılar. Keçmiş SSRİ-də klassik ariyaları və mahnıları estradaya məhz Müslüm gətirmişdi. Buna görə ona 31 yaşında SSRİ Xalq artisti adı verilmişdi. O bu ada layiq görülmüş ən cavan sənətkar idi.*

*Öz nəğmələrində hər zaman Azərbaycanı yaşadan, onu dünyada məşhurlaşdıran dünya şöhrətli sənətkar Müslüm Maqomayev həyatı boyu Azərbaycan musiqisinin təbliği ilə məşğul olmuşdur. Onun Xalq şairi Nəbi Xəzrinin şeirinə bəstələdiyi və dillər əzbəri olan əzəmətli «Azərbaycan» mahnısı*

*ölkəmizə ithaf olunmuş ən gözəl əsərlərdən biridir. Bu nəğməni ümummilli lider Heydər Əliyev də sevirdi. Ulu öndər Müslüm Maqomayevə həmişə himayədarlıq etmiş, ona əsl atalıq qayğısı göstərmişdir. Onların arasında son dərəcə səmimi münasibətlər var idi.*

*Anım mərasiminin keçirildiyi salonda Müslüm Maqomayevin ifasında «Azərbaycan», «Sənsiz» mahnıları səsləndi. Salona toplaşanlar Müslümün könül nəğmələrini onunla birgə oxuyurdular.*

*Təkrarsız səsi, yüksək artistizmi onu sənət dünyasının sevilən personasına çevirmişdi. Böyük müğənni həm də gözəl mahnılar müəllifi idi. 20-dən çox mahnı, kinofilmlərə musiqi bəstələmişdi. O, «Oxuyur Müslüm Maqomayev», «Nizami», «Moskva notlarda» filmlərində çəkilmişdir. Elə bu sənətkarlıq da onun bioqrafiyasına böyük mükafatlar yazmışdı. Bu mükafatların sırasında müstəqil Azərbaycanın «Şöhrət» və «İstiqlal» ordenləri də vardır.*

*Anım mərasiminin sonunda səslənən «Əlvida, Bakı» nəğməsi də Müslüm Maqomayevin doğma torpağa, Vətənə olan sevgisinin tərənnümü idi.*

## ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ XANIM TİNA KAYDANOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 oktyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müşaviri xanım Tina Kaydanovu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan–ABŞ ikitərəfli münasibətləri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

**TUNİS RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ZEYNULABİDİN BEN ƏLİYƏ**

Hörmətli cənab Prezident!

Tunis Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Tunis arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsi və inkişaf etdirilməsi istiqamətində qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Tunis xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 oktyabr 2009-cu il*

## TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN XARİCİ ƏLAQƏLƏR KOMİSSİYASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 oktyabr 2009-cu il*

*Oktyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin ölkəmizdə səfərdə olan Xarici əlaqələr komissiyasinin üzvlərini qəbul etmişdir.*

*Dövlətimizin başçısı İlham Əliyev qonaqları salamladı.*

**İlham Əliyev:** Xoş gəlmisiniz! Sizi Bakıda salamlayıram. Çox şadam ki, siz böyük tərkibdə Azərbaycana səfər edirsiniz. Bunun böyük əhəmiyyəti vardır. Bir müddət əvvəl Azərbaycandan da bir qrup deputat Türkiyəyə səfər etmiş, sizlərlə görüşmüşdür. Belə qarşılıqlı səfərlərin böyük faydası vardır. Çünki hər bir görüş yeni imkanlar açır, hər bir görüş imkan verir ki, bir-birimizlə səmimi söhbət edək, öz fikirlərimizi bölüşək. Belə görüşlər mütəmadi qaydada keçirilməlidir. Bölgədə yaşanan prosesləri nəzərə alaraq, belə görüşlərin çox böyük əhəmiyyəti vardır. Çünki məlumatı mənbədən əldə etmək, səmimi, açıq şəkildə bölgədə gedən proseslər haqqında bir-birimizi bilgiləndirmək çox önəmlidir.

Azərbaycanda gedən proseslər, Türkiyədə gedən proseslər, bölgədə yaşanan hadisələr, müəyyən yeniliklər – bütün bunlara biz həmişə olduğu kimi, vahid mövqedən yanaşmalıyıq. Türkiyə–Azərbaycan münasibətlərinin inkişafı bütün dövrlərdə bu amillər üzərində qurulmuşdur. Müstəqilliyimizi bərpa etdikdən sonra bizi ilk tanıyan ölkə Türkiyə olmuşdur və o gündən bu günə qədər bütün dövrlərdə biz beynəlxalq məsələlərdə deyə bilərəm ki, əksər hallarda vahid mövqedən

çıxış etmişik. İkitərəfli münasibətlərin nə qədər önəmli olduğunu həmişə vurğulamışıq. Siyasi əlaqələr ən yüksək səviyyədə idi və bu gün də bu, davam edir. Bəlkə də dünyada başqa iki belə ölkə yoxdur ki, bir-biri ilə bütün sahələrdə bu qədər səmimi və faydalı əməkdaşlıq etsin.

Son illər iqtisadi sahədə böyük uğurlar əldə edilmişdir. Qarşılıqlı ticarət dövriyyəsinin həcmi daim artmaqdadır. Biz mədəniyyət sahəsində çox uğurlu əməkdaşlıq edirik. Bu yaxınlarda türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşündə mədəni əlaqələrin inkişafına dair çox önəmli qərarlar qəbul edilmişdir. Azərbaycan Naxçıvanda keçirilən zirvə görüşündə TÜRKSOY Fondunun yaradılması haqqında təşəbbüs irəli sürdü və bu təşəbbüs dəstəkləndi.

Ona görə bütün dövrlərdə Türkiyə–Azərbaycan münasibətləri həm iki ölkə üçün, həm də bölgə üçün çox önəmli rol oynamışdır. Bölgədə Türkiyə–Azərbaycan əməkdaşlığı, işbirliyi olmadan heç bir təşəbbüs, heç bir layihə həyata keçirilə bilməz. Məhz Türkiyə və Azərbaycanın səyləri nəticəsində bu gün həm nəqliyyat, həm energetika, həm də siyasi sahədə başlanan bütün təşəbbüslər uğurla gerçəkləşdi. Əlbəttə ki, bu müsbət meyillər gələcəkdə də davam etməlidir, daha da gücləndirilməlidir. Bunun həm ölkələrimiz, həm xalqlarımız, həm də bölgə üçün çox böyük faydası olacaqdır.

Bu il, əlbəttə ki, başqa illərdən bir qədər fərqli ildir. Dünyada yaşanan iqtisadi böhran bütün ölkələrə öz mənfi təsirini göstərdi. Kiməsə daha çox, kiməsə daha az. Amma bütün ölkələr bundan əziyyət çəkir. Bu, bir qlobal mənzərədir. Bölgəmizdə yaşanan hadisələr onu göstərir ki, biz daim təmasda olmalıyıq, ola biləcək anlaşılmazlıqları tezliklə aradan qaldırmalıyıq. İmkan verməməliyik ki, bu anlaşılmazlıqlar ikitərəfli münasibətlərə təsir göstərsin. Bunu təmin etmək üçün daim təmaslar olmalıdır. Dövlət, hökumət səviyyəsində bu təmaslar həmişə olduğu kimi, lazımi səviyyədədir və çox yaxşıdır ki, parlamentlərarası əlaqələr də məhz bu zəmində qurulur.

Bu ilin əvvəlində bizə Türkiyə–Ermənistan münasibətlərinin normallaşması haqqında məlumat daxil olmuşdur. Bildirildi ki, il yarımdır Türkiyə ilə Ermənistan arasında danışıqlar aparılır və bu danışıqlar sona yaxınlaşır, yekunlaşır. Beləliklə, Türkiyə və Ermənistan arasında münasibətlərin normallaşması haqqında sənəd imzalanacaqdır. Əlbəttə, bizim buna münasibətimiz birmənalı olmuşdur. Heç vaxt Azərbaycan başqa ölkələr arasındakı münasibətlərə qarışmayıb, qarışmır və qarışmayacaqdır. Yəni Türkiyə ilə Ermənistan arasında olan ilişkilər iki ölkəyə aiddir və bizim, ümumiyyətlə, mövqeyimiz ondan ibarətdir ki, hər bir ölkə öz daxili işləri ilə məşğul olsun. Əgər bütün ölkələr öz işləri ilə məşğul olsaydılar, dünyada nə müharibə, nə münaqişə, nə də qovğa olardı. Təəssüf ki, biz hələ buna nail ola bilməmişik. Amma Azərbaycan heç vaxt heç bir başqa ölkənin nə daxili işinə qarışıb, nə də ki, ölkələr arasında münasibətlərə müdaxilə edibdir.

Ancaq 20 ilə yaxındır Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxlayır və bu işğal nəticəsində bir milyondan artıq Azərbaycan vətəndaşı qaçqın vəziyyətinə düşübdür. Ermənistan tərəfindən azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparılıbdır və nəinki Dağlıq Qarabağdan, Dağlıq Qarabağın ətrafında yerləşən 7 rayondan bütün Azərbaycan əhalisi çıxarılmışdır. O rayonlarda ermənilər, ümumiyyətlə, heç vaxt yaşamamışlar. Dağlıq Qarabağda azərbaycanlıların say etibarilə tərkibi haradasa 30 faizə yaxın idi. Ətraf bölgələrdə isə əhalinin təxminən 100 faizi azərbaycanlılardan ibarət idi. İşğal bu gün də davam edir. Ermənilər tərəfindən Xocalı soyqırımı törədildi, 600-dən çox günahsız insan qətlə yetirildi, onların içərisində uşaqlar, qadınlar, qocalar vardı. Danışıqlar davam edir, ancaq heç bir nəticə yoxdur.

Ona görə təbii ki, Ermənistanla münasibətlərdə Azərbaycan ictimaiyyəti çox həssasdır. Biz uzun illərdir beynəlxalq birlikdən tələb edirik ki, Ermənistana öz təsirini, təzyiqini

göstərərək onları işğal edilmiş torpaqlardan çıxmağa məcbur etsin. Əgər belə olarsa, onda Ermənistan ilə Azərbaycan arasında münasibətlər normallaşa, bütün kommunikasiyalar açıla, bölgədə əməkdaşlıq, işbirliyi başlana bilər və bundan bütün ölkələr ancaq faydalana bilərlər. Əgər Dağlıq Qarabağ münaqişəsi yenə də belə dondurulmuş vəziyyətdə qalacaqsa, o zaman bölgədə əməkdaşlıqdan söhbət gedə bilməz. Çünki bölgənin əsas problemi Azərbaycan torpaqlarının işğal altında qalmasıdır. Bu, böyük ədalətsizlikdir. Çünki XXI əsrdə bir ölkə o biri ölkənin torpaqlarını işğal etsin və heç kim buna reaksiya verməsin, heç kim öz təsirini göstərməsin, böyük dövlətlər öz münasibətini bildirməsin – bu, dözülməz bir haldır.

Bütün beynəlxalq normalar kobudcasına pozulubdur. Çünki Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Ermənistan qüvvələrinin Azərbaycan torpaqlarından qeydşərtsiz çıxarılmasına dair dörd qətnamə qəbul edib. Ermənistan onları icra etmir və beynəlxalq birlik buna biganə qalır. Beynəlxalq birlik və bu məsələ ilə məşğul olan dövlətlər bizə tövsiyə edirlər ki, məsələni sülh yolu ilə, yəni barış yolu ilə çözmək lazımdır. Biz də bunun tərəfdarıyıq. İstəyirik ki, bu məsələ sülh yolu ilə çözülsün, amma çözülmür. Minsk qrupunun 20 ilə yaxındır ki, fəaliyyəti nəticəsizdir. Qeyd etməliyəm ki, 3-4 ildir Minsk qrupu öz fəaliyyətini daha da sürətləndirib, yeni təkliflər irəli sürür. Bu təkliflər prinsip etibarilə qəbul edilən təkliflərdir. Təkliflərin mahiyyəti ondan ibarətdir ki, Ermənistanın silahlı qüvvələri işğal edilmiş bütün torpaqlardan çıxarılır, bölgəyə sülhməramlı qüvvələr yerləşdirilir, yəni bütün tərəflərə təhlükəsizlik zəmanəti verilir. Dağlıq Qarabağda yaşayan insanlar – həmçinin ermənilər də ora qayıdacaq və bölgəyə müvəqqəti, keçici status veriləcək.

Gələcəkdə – bu bir ildən, yüz ildən sonra ola bilər – Dağlıq Qarabağın yekun statusu haqqında Ermənistan və Azərbaycan – iki tərəf müzakirələr apararaq bir qərara gələ-

cəklər. Qərara gəlsələr, Dağlıq Qarabağın hüquqi statusu müəyyənləşər, qərara gəlməsələr bu məsələ açıq qalacaqdır. Yəni bu gün danışıqlar masası üzərində olan təkliflər, demək olar ki, bundan ibarətdir.

Bildiyiniz kimi, Dağlıq Qarabağla Ermənistan arasında sərhəd yoxdur. Dağlıq Qarabağ Azərbaycanın içində yerləşən bir ərazidir, əzəli Azərbaycan torpağıdır. Amma biz razıyıq ki, Ermənistanla Dağlıq Qarabağın əlaqəsinin pozulmaması üçün dəhliz verilsin, yəni biz buna da razıyıq. Ancaq Ermənistan tərəfi məsələni süni şəkildə uzadır və əfsuslar olsun ki, Kişinyovdakı son görüş – bu ayın 8-də baş tutan görüş nəticəsiz qaldı.

Ermənistan öz mövqeyini daha da sərtləşdirir və bunun müxtəlif səbəbləri ola bilər. Səbəblərin biri də ondan ibarət ola bilər ki, Ermənistan tərəfi fikirləşir – Türkiyə–Ermənistan sərhədləri açılacaq, Ermənistan bu ağır, kritik iqtisadi durumdan çıxacaq və beləliklə, Dağlıq Qarabağ məsələsi hələ həll olunmamış qalacaqdır.

Mən iqtisadi böhrandan danışarkən qeyd etdim ki, bütün ölkələr zərər çəkdi, ancaq ən çox zərər çəkən bəlkə də Ermənistandır. Çünki bu ilin 9 ayında Ermənistanın iqtisadiyyatı təxminən 20 faiz aşağı düşüb. Böhran Azərbaycana da mənfi təsir göstərmişdir. Buna baxmayaraq, 9 ayda Azərbaycanda iqtisadiyyat 6 faiz artıb. Ona görə Ermənistanın təcrid edilmiş, yəni izolə edilmiş vəziyyətdə qalması, bizim fikrimizə görə Dağlıq Qarabağ məsələsinin həllinə, yəni onların məsələyə müsbət yanaşmalarına təkan verə bilər. Yəni onların əsas məqsədi təcrid olunmuş vəziyyətdən çıxmaqdır. İndi Azərbaycan sərhədi təbii ki, bağlıdır. Türkiyə sərhədi bağlıdır. Gürcüstan–Rusiya müharibəsindən sonra Gürcüstan üzərindən Ermənistan Rusiya ilə əlaqə saxlaya bilmir. Bir İran sərhədi qalıb ki, o da böyük sərhəd deyil və hündür dağlardan keçir. Nə dəmir yolu var, nə də etibarlı bir avtomobil yolu. Böyük, uca dağlardan keçən yol dünyaya çıxış üçün yetərli deyildir. Ermənistan bu gün blokadada

deyil, Gürcüstan limanlarından dünyaya çıxışı vardır. Ancaq bu sərhədlərin bağlı qalması, əlbəttə ki, onları daha da realist olmağa təhrik etməlidir, sövq etməlidir.

Bu məlumat bizə daxil olanda özümüzü çox təmkinlə aparmışdıq. O dövrdə Ermənistan mətbuatında məqalələr çıxdı ki, Türkiyə və Ermənistan öz münasibətlərini normallaşdırır və imzalanacaq protokollarda Dağlıq Qarabağa aid heç bir maddə yoxdur. Əlbəttə ki, bizim mətbuat da o məqalələri dərc etdi və Azərbaycanda suallar meydana çıxdı. Əcəba, doğrudan da belədir, yoxsa yox? Əfsuslar olsun ki, fevral, mart və aprel ayları ərzində bu suallara cavab verilmədi. Narahatlığın və lazım olmayan gərginliyin əsas səbəbi məhz bundadır. Çünki əgər o vaxt – fevralda, martda, ya apreldə rəsmi qaydada bir məlumat verilsəydi, necə ki, indi bu məlumat verilir – Dağlıq Qarabağ məsələsi həll olunmadan Türkiyə–Ermənistan sərhədləri açılmayacaq, heç nə olmazdı. İndi də heç nə yoxdur.

Son aylar ərzində müəyyən gərginlik də baş verdi. May ayında Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın Bakıya səfəri zamanı verdiyi açıqlamalardan sonra Azərbaycan xalqı bildi ki, Dağlıq Qarabağ məsələsi həll olunmayana qədər Türkiyə–Ermənistan sərhədləri açılmayacaqdır. Bunu hörmətli Baş nazir bu binada, bizim mətbuat konfransımızda və Milli Məclisdə çıxışı zamanı söylədi. Türkiyənin prezidenti, Baş naziri, Türkiyə parlamentinin sədri, Xarici İşlər naziri dəfələrlə rəsmi şəkildə və şəxsi görüşlər əsnasında bildirmişlər ki, baxmayaraq, protokollarda Dağlıq Qarabağa heç bir reverans yoxdur, bu məsələ həll olunmalıdır, ondan sonra sərhədlər açılmalıdır. Yaxşı xatırlayıram, hörmətli Baş nazir vurğulamışdır ki, Türkiyə Ermənistanla sərhədini Azərbaycan torpaqlarının işğalından sonra bağladı, daha dəqiq desək, 1993-cü ilin aprel ayında Kəlbəcərin işğalından sonra. O səbəb aradan qalxmadan, əlbəttə ki, hər hansı bir addım atılmamalıdır. Mən də may ayında keçirilmiş həmin mətbuat konfransında Azərbaycan xalqına üz

tutub dedim ki, bu sözlərə inanıram və artıq bu mövzu qapadılmalıdır.

Protokolların imzalanması ərəfəsində, bu ayın 8-də dediyim kimi, Kişinyovda mənim Sarkisyanla görüşüm oldu, lakin təəssüf ki, görüş nəticəsiz qaldı. Mən ayın 8-də Azərbaycan Televiziyasına geniş müsahibə verdim və orada həm Ermənistan–Azərbaycan münaqişəsinə toxundum, həm də Türkiyə–Ermənistan münasibətlərinin normallaşmasına dair öz fikrimi bildirdim. Söylədim ki, mən verilən sözlərə inanıram. Türkiyə rəhbərlərinin sözlərinə inanıram və əminəm ki, onlar verdikləri sözlərə sadiq qalacaqlar. Mən bu müsahibəni qəsdən protokolların imzalanmasından bir neçə gün əvvəl verdim. Çünki Azərbaycan ictimaiyyətinin, Azərbaycan xalqının bu mənzərəyə – protokolların imzalanmasına münasibətini bilirdim. Məsələ çox həssasdır. Bütün cəmiyyət bir mövqedən çıxış edir və mən də cəmiyyətin bir üzvü kimi həmçinin. Bilirdim ki, o görüntülər, o mərasim, yaşanan o sevinc burada başqa hisslər oyadacaqdır, bu da təbiidir.

Ona görə mən söylədim ki, verilən sözlərə inanıram və Azərbaycan xalqına dolayı yolla bir mesaj göndərdim ki, siz də mənə inanın, mənə verilən sözlərə inanın, o görüntüyə yox. Əlbəttə ki, biz gələcək əməkdaşlıqda da bu işlərdə koordinasiya məsələlərini daha da gücləndirməliyik. Bu, həm də parlamentlərarası münasibətlərə aiddir.

Türkiyədə və Azərbaycanda mətbuat, yəni söz azadlığı vardır. Bizdə yüzlərlə, bəlkə sizdə minlərlə qəzet vardır. Özəl televiziya kanalları vardır. Onlara nə biz təlimat verə bilərik, nə də sizin iqtidar. Ancaq onlar daha da həssas, daha da diqqətli olmalıdırlar. Anlamalıdırlar ki, Türkiyə–Azərbaycan münasibətləri xüsusi münasibətlərdir. Bu münasibətləri hər bir vətəndaş – həm Türkiyə vətəndaşı, həm Azərbaycan vətəndaşı öz əməli işləri ilə gücləndirməlidir. Hər hansı bir narahatlıq varsa, aradan qaldırılmalı, şişirdilməməlidir.

Əfsuslar olsun ki, həm Türkiyədə, həm Azərbaycanda bəzi mətbuat orqanlarında bu həssas dönəmdə vəziyyəti daha da gərginləşdirmək üçün xoşagəlməz yazılar dərc edilmişdir və bu yazılar insanların fikrinə istər-istəməz mənfi təsir göstərmişdir. Hesab etdim, bu həssas dönəmdə parlamentlərarası əlaqələr daha da sıx olsun, məlumatları qəzetlərdən deyil, bir-birimizdən eşidək. Bizim nümayəndə heyəti də Türkiyədə yüksək səviyyədə qəbul edildi və mənə verilən məlumata görə çox səmimi söhbət aparıldı. Bu gün də biz görüşürük. Sizin bu gün də, sabah da görüşləriniz zamanı insanlar məlumatı mənbədən alacaq, siz də Azərbaycan xalqının ovqatını duyacaqsınız.

Bir daha demək istəyirəm ki, vəziyyətdən asılı olmayaraq görüşlər mütəmadi keçirilməlidir. Belə olarsa Türkiyə–Azərbaycan münasibətləri həmişə olduğu kimi, ancaq və ancaq inkişaf edəcəkdir.

* * *

*Türkiyə Böyük Millət Məclisinin Xarici Əlaqələr Komissiyasının sədri, Ədalət və İnkişaf Partiyasından olan millət vəkili Murat Mərcan görüşdə çıxış etdi.*

**M u r a t M ə r c a n:** Hörmətli Prezident, sözlərimə başlamazdan əvvəl Türkiyə Respublikasının Prezidenti cənab Abdullah Gülün, Baş nazir cənab Rəcəb Tayyib Ərdoğanın, Türkiyə Böyük Millət Məclisinin sədri cənab Məhmət Əli Şahinin xüsusi salamlarını Sizlərə çatdırmaq istəyirəm. Mən üç il əvvəl Azərbaycana gəlmişdim və Bakıdakı bu inkişafı xüsusilə qeyd etmək istəyirəm. Bakı hər gün daha da inkişaf edir, gözəlləşir, yeni yollar çəkilir.

Demək istəyirəm ki, bizim üçün Türkiyə bayrağı nə qədər əzizdirsə, Azərbaycan bayrağı da bir o qədər əzizdir. Türkiyə Respublikasının vətəndaşları nə qədər bizim vətəndaşlarımızdırsa, azərbaycanlı qardaşlarımız da bir o qədər bizim qardaşlarımızdır. Sizin də bildirdiyiniz kimi, Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər dünyada başqa heç bir

iki dövlət arasında mövcud deyildir. Bu, sadəcə sözdə qalmamışdır, əlaqələrdə, dialoqlarda hər vaxt belə olmuşdur. Təbii ki, burada bu qarşılıqlı münasibətlərin təməlini qoyan rəhmətlik atanız, hörmətli prezident Heydər Əliyevi xatırlamaq lazımdır. İnşallah, bu görüşlərdən sonra məzarını ziyarət edib, xatirəsini ehtiramla anacağıq.

Bildirdiyiniz kimi, istər prezident, Baş nazir, istərsə də TBMM-nin sədri Türkiyə–Azərbaycan münasibətlərinin nə qədər önəmli olduğunu dəfələrlə qeyd etmişlər. Biz də nümayəndə heyəti olaraq bunu Sizə bildirmək arzusundayıq və bunu söyləməyi özümüzə borc bilirik.

*Murat Mərcan Azərbaycan və Türkiyə deputatlarının Avropa Şurasında və digər beynəlxalq təşkilatlarda məhsuldar əməkdaşlıq qurduqlarını dedi. O, prezident İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinə rəhbərlik etdiyi vaxtları xatırladaraq bildirdi ki, Türkiyə və Azərbaycan deputatlarının birgə fəaliyyəti həmin vaxtlar Ermənistanın Avropa Şurası tərəfindən işğalçı dövlət kimi tanınmasında mühüm rol oynamışdır.*

*Murat Mərcan Azərbaycan ilə Türkiyə arasında – tarixi dostluq və qardaşlıq münasibətlərinə toxunaraq dedi*: Bizlər TBMM üzvləri olaraq, Azərbaycanın həssaslığını və şərəfini öz həssaslığımız və şərəfimiz bilirik. Bunu açıq söyləyə bilərəm ki, bu protokolların nəinki bizim komissiyamızda müzakirəsi, hətta gündəmə gətirilməməsi məsələsində bizə güvənə bilərsiniz. Çünki Sizin də dediyiniz kimi, Azərbaycan ictimaiyyəti bu məsələdə nə qədər həssasdırsa, əmin olun ki, türk xalqı da bir o qədər həssasdır. TBMM heç vaxt öz xalqının maraqlarına zidd hərəkət etməmişdir və Azərbaycan xalqının, Zati-aliləri, Sizin arzu etmədiyiniz bir məsələdə nə qərar qəbul etməz, nə bir fikir bildirməz, nə də bir mövqe tutmaz. Zati-aliləri, bu məsələ ilə əlaqədar hörmətli Prezidentimiz, Baş nazirimiz və Xarici İşlər nazirimiz Sizinlə dəfələrlə görüşmüşlər.

Bu mərhələdə protokollar bizim komissiyada olduğuna görə Sizi və Azərbaycan xalqını birbaşa məlumatlandırmağı və məsələ barədə fikirlərimizi bildirməyi lazım bildik. Bu məsələdə Azərbaycan xalqının hər hansı formada tərəddüd etməsinə və əndişə duymasına ehtiyac yoxdur. Çünki biz bir millət, iki dövlətik. Azərbaycandakı qardaşlarımızın barmağına tikan batsa, biz bunu qəlbimizdə hiss edirik. Bu mənada tərəddüd edilməməsində Zati-alilərinizin rəhbərliyinə ehtiyac duyduğumuzu, iki ölkə arasındakı münasibətlərin yüksək səviyyədə olmasının bəzi dairələrin qısqanclığına səbəb olduğunu, bəzən anlaşılmazlıqlara səbəb ola biləcək yazıların məhz bu səbəbdən ortaya çıxdığını Sizlərə təkrar söyləmək arzusundayam.

*Murat Mərcan Azərbaycan–Türkiyə parlamentlərarası əməkdaşlığının bundan sonra da möhkəmlənməsinin vacib olduğunu vurğulayaraq, iki ölkə parlamentləri xarici əlaqələr komissiyalarının ildə iki dəfə görüşməsi təklifini verdi. Bildirdi ki, bu çərçivədə dostluq qruplarının da görüşlərinin mütəmadi xarakter alması zəruridir. Nümayəndə heyətinin rəhbəri Naxçıvanda türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşünün yüksək səviyyədə təşkilinə görə Azərbaycan prezidentinə minnətdarlığını bildirərək dedi:* Naxçıvanda keçirilən toplantını hörmətli Prezidentimiz təqdirlə qarşıladı. Türk soylarının parlamentlərarası dialoqunun qurulması işinə rəhbərliyinizə, verdiyiniz töhfəyə görə həm Prezidentimiz, həm də xalqımız adından Sizə çox təşəkkürümüzü bildirirəm. Həqiqətən də Türkiyə–Azərbaycan qardaşlığı olmasa, bölgədəki sabitliyin təmin edilməsi mümkün olmayacaqdır.

* * *

*Sonra Türkiyə Böyük Millət Məclisinin Xarici Əlaqələr Komissiyasının üzvü, Milliyyətçi Hərəkat Partiyasından olan deputat Dəniz Bölükbaşı çıxış etdi.*

**Dəniz Bölükbaşı:** Hörmətli Prezident, bizi Bakıda qəbul etdiyiniz üçün Sizə dərindən təşəkkür etmək istəyirəm.

Mən də Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Baxçalının ən xoş arzularını, hörmət və salamlarını Sizə çatdırmaq istəyirəm.

Türkiyə üçün Azərbaycanın və azərbaycanlı qardaşlarımızın xüsusi yeri olduğu bir həqiqətdir. Bizim üçün heç bir siyasi layihə, düşüncə, mülahizə, xarici siyasət amili azərbaycanlı qardaşlarımızın dostluğundan vacib deyildir. Azərbaycan Türkiyənin türk dünyası ilə münasibətlərinə rəhbərlik edir. Azərbaycanın itirilməsi kimi fikirlər Türkiyədə heç kəsdə ola bilməz. Milliyyətçi Hərəkat Partiyası iki səbəbdən bu protokolların əleyhinədir. Birincisi Türkiyəni maraqlandıran səbəblərdir. Öz Konstitusiyasında və İstiqlaliyyət Bəyannaməsində Türkiyənin ərazi bütövlüyünə iddia edən və qondarma «soyqırımı» əsasında beynəlxalq kampaniya təşkil edən ölkə ilə beynəlxalq hüquqa uyğun olaraq, öz mövqeyindən əl çəkməyənə qədər protokolların imzalanmasının əleyhinəyik.

İkinci əsas səbəb də Dağlıq Qarabağ və 7 rayonun işğalının davam etməsidir. Bizim bu protokollara olan baxışımız hörmətli Baş nazirimizin burada ifadə etdiyi kimi, 7 rayonun işğaldan azad edilmədən, Laçın dəhlizi məsələsində və Dağlıq Qarabağın yekun statusu ilə bağlı azərbaycanlı qardaşlarımızın qəbul edəcəyi razılaşma əldə olunmadan bu protokolların TBMM-nin və bizim komissiyamızın gündəminə gəlməyəcəyidir. Dağlıq Qarabağın işğalı həll olsa belə, Milliyyətçi Hərəkat Partiyası Türkiyəni maraqlandıran səbəblərə görə bu protokolların əleyhinə olmağa davam edəcəkdir.

* * *

*Prezident İlham Əliyev şəxsi salamlarını Türkiyə prezidentinə, Baş nazirinə, parlament sədrinə və Milliyyətçi Hərəkat Partiyasının sədrinə çatdırmağı nümayəndə heyətinin üzvlərindən xahiş etdi. Prezident İlham Əliyev Milliyyətçi*

*Hərəkat Partiyasının tutduğu prinsipial mövqeyə görə şəxsən minnətdarlığını bildirdi. Azərbaycan prezidenti parlament nümayəndə heyətlərinin ildə iki dəfə görüşməsi təklifini bəyəndiyini bildirdi və qeyd etdi ki, bu görüşlər yalnız paytaxtlarda deyil, bölgələrdə də keçirilə bilər.*

*Dövlətimizin başçısı bölgədə təhlükəsizlik məsələlərindən danışarkən qeyd etdi ki, Ermənistan–Azərbaycan və Türkiyə–Ermənistan münasibətləri öz həllini eyni vaxtda tapmalıdır. Parlamentlərarası əlaqələrdən danışan prezident İlham Əliyev Bakıda Türkdilli Ölkələrin Parlament Assambleyasının yaradılmasının əhəmiyyətini vurğuladı.*

*Dövlətimizin başçısı qeyd etdi ki, Naxçıvanda keçirilən zirvə görüşü, orada qəbul edilən qərarlar və imzalanan sənədlər türkdilli ölkələr arasında əməkdaşlığın daha da möhkəmlənməsi baxımından böyük önəm daşıyır.*

*Avropa Şurasında Azərbaycan və Türkiyə nümayəndə heyətlərinin əməkdaşlığına toxunan dövlətimizin başçısı həmin qurumun Parlament Assambleyasında Dağlıq Qarabağ münaqişəsinə dair məsələnin müzakirəsində və Azərbaycanın ədalətli mövqeyini dəstəkləyən qətnamənin qəbul edilməsində iki ölkə deputatlarının birgə fəaliyyətini yüksək qiymətləndirdi. Bildirdi ki, bu il Bakı İslam mədəniyyətinin paytaxtı elan edilib. 2018-ci ildə isə Naxçıvan İslam mədəniyyətinin paytaxtı olacaqdır. Bütün bunlar mühüm hadisələrdir.*

*Prezident İlham Əliyev bir daha ölkələrimiz arasında əməkdaşlığın möhkəmlənməsinin əhəmiyyətinə toxunaraq, parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin gələcəkdə də davam etdirilməsinin zəruriliyini qeyd etdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İSMAYILLI VƏ AĞSU RAYONLARINA SƏFƏRİ

*29 oktyabr 2009-cu il*

*Oktyabrın 29-da Azərbaycan prezidenti İlham Əliyev İsmayıllı rayonuna gəlmişdir.*

*2003–2008-ci illərdə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində İsmayıllı rayonunda geniş abadlıq və quruculuq işləri aparılmışdır. Rayonda ümumi məhsul buraxılışı 2003-cü ilə nisbətən 2008-ci ildə 2,9 dəfə artaraq 90 milyon 164 min manata, sənaye məhsulunun həcmi 1,6 dəfə artaraq 20 milyon 306,7 min manata, kənd təsərrüfatı məhsullarının həcmi 2,1 dəfə artaraq 48 milyon 39 min manata çatmış, əsas kapitala yönəldilən investisiyalar 15,6 dəfə artaraq 17 milyon 754,3 min manat, tikinti-quraşdırma işlərinin həcmi 17,3 dəfə artaraq 16 milyon 148,8 min manat təşkil etmişdir.*

*Əhalinin təbii qazla təminatının yaxşılaşdırılması istiqamətində görülmüş işlər nəticəsində son 5 ildə rayonun 15 yaşayış məntəqəsinə təbii qaz verilməsi bərpa edilmişdir. Rayonda yeni təhsil və səhiyyə obyektləri tikilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva İsmayıllı şəhərinin mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoymuşlar.*

### İsmayıllıda Heydər Əliyev Mərkəzinin açılışı mərasimi

*Oktyabrın 29-da prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva İsmayıllı şəhərində Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişlər.*

*Dövlətimizin başçısı açılışı bildirən lenti kəsdi və Mərkəzlə tanış oldu.*

*İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nizami Ələkbərov bildirdi ki, Mərkəzin tikintisinə 2007-ci ilin yanvarında başlanılmış, inşaat işləri 2008-ci ilin mayında başa çatdırılmışdır. Mədəniyyət və Turizm Nazirliyinin qərarı ilə 2009-cu ilin mayından isə bura Heydər Əliyev Mərkəzi adlandırılmışdır. Mərkəz hər biri 730 kvadratmetr olmaqla, iki mərtəbədən və zirzəmi qatından ibarətdir. Burada şahmat, aviamodelçilik, heykəltəraşlıq, rəssamlıq, «Bacarıqlı əllər» uşaq dərnəkləri fəaliyyət göstərir. Birinci mərtəbədə daimi fəaliyyət göstərən sərgi-ekspozisiya zalı, ikinci mərtəbədə Heydər Əliyev irsini araşdırma mərkəzi, elektron kitabxana, kitabxana, kompyuter otaqları, konfrans zalı vardır. Mərkəzdə xarici dil və kompyuter kurslarının təşkili də nəzərdə tutulmuşdur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ulu öndərin həyatını, respublikamıza rəhbərlik etdiyi dövrləri, eləcə də İsmayıllı rayonuna səfərlərini əks etdirən sərgi-ekspozisiya zalına, Heydər Əliyev irsini araşdırma mərkəzinə, elektron kitabxanaya, kitabxanaya, kompyuter otaqlarına, konfrans zalına baxdılar.*

*Heydər Əliyev irsini araşdırma mərkəzində ulu öndərin həyatına dair filmlərin nümayişi üçün iki iri monitor quraşdırılmışdır. Elektron kitabxanada xüsusi sayt vasitəsilə ümummilli liderin irsi haqqında 29 dildə məlumat almaq mümkündür. Elektron kitabxananın M.F.Axundov adına Respublika Kitabxanası ilə internet vasitəsilə birbaşa əlaqəsi vardır. Mərkəzin kitabxanasında 5 minədək kitab toplanmışdır. Burada ulu öndərin həyatından bəhs edən ayrıca guşə də vardır.*

*Dövlətimizin başçısı Mərkəzin Xatirə kitabına ürək sözlərini yazdı.*

*Mərkəzin ətrafında 4,4 hektar sahədə abadlıq və yaşıllaşdırma işləri aparılmışdır. Burada ulu öndərin qranitdən*

*hazırlanmış 3,2 metr hündürlüyündə abidəsi ucaldılmışdır. Abidənin postamentinin hündürlüyü 2,2 metrdir.*

*Ərazidə iki fəvvarə quraşdırılmış, 22 metr hündürlükdə Dövlət bayrağı ucaldılmış, dairə seçki komissiyasının, maliyyə idarəsinin, prokurorluğun, əmək və əhalinin sosial müdafiə mərkəzinin yeni inzibati binaları tikilmiş, rayon mədəniyyət evi, mərkəzi kitabxana, uşaq kitabxanası əsaslı təmir edilmişdir.*

*Şəhərin mərkəzindən keçən yola cilalanmamış 4260 kvadratmetr qranit daş döşənmişdir. Mərkəzin arxa tərəfində də müasir istirahət guşəsi yaradılmışdır.*

*Heydər Əliyev Mərkəzinin ətrafında salınan istirahət kompleksi və buradakı inzibati binalar ümumi ansambl təskil edir və şəhərə xüsusi yaraşıq verir.*

## Heydər Əliyev adına mədəniyyət və istirahət parkında yenidənqurma işləri ilə tanışlıq

*Oktyabrın 29-da prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva İsmayıllı şəhərində Heydər Əliyev adına mədəniyyət və istirahət parkında aparılmış yenidənqurma işləri ilə tanış olmuşlar.*

*Dövlətimizin başçısına məlumat verildi ki, bu istirahət ocağı ümummilli liderimizin anadan olmasının 75 illiyi ilə əlaqədar 1998-ci ildən Heydər Əliyev adına mədəniyyət və istirahət parkı adlandırılmışdır.*

*Parkın ümumi sahəsi 9 hektardır. Cari ilin may ayından parkda abadlıq və yenidənqurma işlərinə başlanılmışdır. Bu istirahət ocağında hündürlüyü 12,5 metr, eni 19,5 metr olan əzəmətli giriş portalı yaradılmışdır. Xüsusi kompozit materialdan hazırlanan həmin portalın üzərində «*Heydər Əliyev adına park*» sözləri həkk olunmuşdur. Portalın ətrafı qranit daşla üzlənmişdir.*

*Parkın girişində – 2 min kvadratmetr sahədə Azərbaycanın milli ornamentlərinə uyğun xüsusi gül çələnglərindən ibarət*

*guşə yaradılmış, 15 min kvadratmetr sahəyə müasir dizaynla daş, 45 min kvadratmetr sahəyə isə qazon döşənmişdir.*

*Parkın ərazisində olan tikililər müasir üslubda əsaslı təmir edilmiş, 500 nəfərlik yeni yay kinoteatrı tikilmiş, Tarix-Diyarşünaslıq Muzeyi, uşaq yaradıcılıq mərkəzi, idman-əyləncə klubu yaradılmışdır. Parkda 16 min kvadratmetr əraziyə daş piltə döşənmiş, 5 hektar sahədə yaşıllıq salınmış, uzunluğu 132 metr, eni 7 metr olan müasir fəvvarə, işıqlandırma və suvarma sistemləri quraşdırılmışdır. Abadlıq və yaşıllaşdırma işlərində Almaniya, İtaliya və Türkiyədən gətirilmiş 10 min ağac və gül kolundan istifadə olunmuşdur.*

*Dövlətimizin başçısı və xanımı Uşaq yaradıcılıq mərkəzi ilə tanış oldular. Üçmərtəbəli Mərkəzin ümumi sahəsi 3.320 kvadratmetrdir. Uzun müddət fəaliyyətsiz qalan Mərkəz tamamilə yenidən qurulmuş, mebel və digər lazımi avadanlıqlarla təchiz olunmuşdur. Uşaq yaradıcılıq mərkəzində 350 yerlik tamaşa salonu da vardır. Burada uşaqların bilik və bacarıqlarını artırmaları üçün müxtəlif dərnəklər fəaliyyət göstərir.*

*Parkın ərazisində Azərbaycanda ilk dəfə olaraq 1500 kvadratmetr sahədə yapon mütəxəssisləri tərəfindən «Yapon bağı» salınmışdır. Prezident İlham Əliyev və xanımı «Yapon bağı»nı gəzdilər. Yaponiyanın Azərbaycandakı səfiri Masamitsu Oki məlumat verərək dedi ki, «Yapon bağı» yaponiyalı mütəxəssislər tərəfindən salınmışdır.*

*Sonra dövlətimizin başçısı və xanımı ümumi sahəsi 360 kvadratmetr olan Tarix-Diyarşünaslıq Muzeyi ilə də tanış oldular. Muzeyin tamamilə yenidən qurulmuş binasında iki ekspozisiya zalı və bir konfrans salonu vardır. Ekspozisiya zallarının birində İsmayıllı rayonunda aparılmış arxeoloji qazıntılar zamanı tapılmış məişət əşyaları, sikkələr, Lahıc misgərlərinin əl işləri və s. nümayiş olunur. İkinci ekspozisiya zalında isə xalça-kilim məmulatı saxlanılır. Eksponatların bir qismi bizim eradan əvvəlki dövrə aiddir.*

*Prezident İlham Əliyev parkda 1100 kvadratmetr sahəsi olan idman-əyləncə klubu ilə tanış oldu. Burada bilyard və tennis stolları quraşdırılmışdır.*

*Azərbaycan prezidenti mədəniyyət və istirahət parkındakı uşaqlar üçün əyləncə qurğularına da baxdı. Burada müxtəlif tipli 16 əyləncə qurğusu quraşdırılmışdır. Dövlətimizin başçısı İsmayıllıda həyata keçirilən yenidənqurma işləri ilə bağlı tövsiyələrini verdi.*

## Akademik Zərifə Əliyeva adına istirahət parkı ilə tanışlıq

*Oktyabrın 29-da prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva İsmayıllıda görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyeva adına parkla tanış olmuşlar.*

*Məlumat verildi ki, Heydər Əliyev prospektində yerləşən və 1,6 hektar sahəni əhatə edən parkda inşaat işləri yüksək səviyyədə həyata keçirilmişdir. Müasir tələblərə uyğun qurulan və İsmayıllının görkəminə xüsusi yaraşıq verən Zərifə Əliyeva adına parkda sakinlərin mənalı istirahəti üçün hər cür şərait yaradılmışdır.*

*İstirahət parkında milli üslubla müasirlik uzlaşdırılmışdır. Parkın girişində xüsusi kompozit materiallardan istifadə edilməklə hündürlüyü 12 metr, eni 31 metr olan portal inşa olunmuşdur. Portalın üstündə «*Zərifə Əliyeva adına park*» sözləri yazılmışdır.*

*Mərmər üzlüklü fəvvarənin, çarhovuzun inşa edildiyi parkın ərazisində kafe və uşaq meydançası fəaliyyət göstərir.*

*Əraziyə üzlük daşlar döşənmiş, istirahət ocağında geniş yaşıllaşdırma işləri aparılmışdır. Parkın mənzərəsi yaddaqalan və ifadəli elementlərdən ibarətdir. Uzunluğu 1,4 kilometr, eni 20 metr olan kanal çay daşı ilə doldurulmuşdur. Kanalın 980 metri qala divarı kimi hörülmüşdür.*

*Prezident İlham Əliyev görülmüş işləri yüksək qiymətləndirdi. Parkla üzbəüz milli üslubda Qala divarları inşa olunmuşdur.*

*Dövlətimizin başçısı və xanımı Qala divarının önündə el sənətkarlarının əl işlərindən ibarət sərgiyə baxdılar. Burada papaqçıların, sərracların, misgərlərin, nalbəndlərin əl işləri nümayiş olunur, qızlar xalça toxuyur, XVIII əsrə aid sac üzərində yuxa bişirilirdi.*

*Prezident İlham Əliyev aşıqların, Lahıc və Molla İsaqlı, İvanovka kəndlərinin folklor qruplarının Azərbaycan, rus və alban dillərində çıxışlarını və rəqslərini izlədi. Folklor qrupları Azərbaycana, Vətənə, dövlətimizin başçısına aid mahnılar oxudular.*

*Prezident İlham Əliyev el sənətkarları ilə söhbət etdi. Lahıc kəndindən olan misgərlər dövlətimizin başçısına durna çırağı hədiyyə etdilər.*

*Talıstan kənd orta məktəbinin şagirdləri «Cavanşir» tamaşasından bir parça nümayiş etdirdilər. Sumağallı kənd orta məktəbinin ləzgi folklor qrupu, uşaq incəsənət məktəbinin şagirdləri də məharətlərini göstərdilər.*

*Prezident İlham Əliyev İsmayıllı rayonunda da bütün xalqların adət-ənənələrinə bu cür həssaslıqla yanaşmanın dövlət siyasətinin prioritet istiqaməti olduğunu və bu siyasətin davam etdiriləcəyini bildirdi.*

## Olimpiya İdman Kompleksinin açılışı mərasimi

*Oktyabrın 29-da Azərbaycan prezidenti İlham Əliyev İsmayıllıda Olimpiya İdman Kompleksinin açılışında iştirak etmişdir.*

*Rayon ictimaiyyətinin nümayəndələri dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar. Mehriban xanıma gül dəstəsi təqdim olundu.*

*Son illər İsmayıllıda inşa olunan infrastruktur obyektləri sırasında Olimpiya İdman Kompleksi də vardır. Azərbaycanda*

*idman hərəkatının geniş vüsət aldığı bir vaxtda bölgələrdə olimpiya idman komplekslərinin inşası xüsusi əhəmiyyət daşıyır. Dövlətimizin başçısının tapşırığına əsasən, təkcə 2008-ci ildə 8 olimpiya idman kompleksinin açılışı olmuşdur. Hazırda 20-dən çox kompleksin inşası davam etdirilir.*

*Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi, respublikamızda sayca 23-cü olan İsmayıllı Olimpiya İdman Kompleksi ilə tanış oldu.*

*Məlumat verildi ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına əsasən inşa olunmuş kompleksin tikinti işlərinə «Asnaf» sənaye-tikinti şirkəti tərəfindən 2007-ci ildə başlanılmışdır. Tikinti-quraşdırma işlərində rayonun 80-dək sakini iştirak etmişdir. Ümumilikdə tikintinin qızğın vaxtında burada 300-dək yerli və xarici mütəxəssis çalışmışdır.*

*Ümumi sahəsi 7,5 hektar, tikinti sahəsi isə 12 min kvadratmetr olan kompleksin əsas binası iki mərtəbədən ibarətdir. Birinci mərtəbənin foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin idmanın inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən guşə yaradılmışdır. Bu mərtəbədə müxtəlif yarışların və məşqlərin keçirilməsi üçün 510 tamaşaçı yeri olan idman zalı, məşqçi, hakim otaqları və digər otaqlar vardır.*

*İkinci mərtəbədə trenajor və cüdo zalları, habelə ən müasir avadanlıqlarla təchiz olunmuş konfrans zalı, yeməkxana, inzibati və digər yardımçı otaqlar yerləşir.*

*Dövlətimizin başçısı ikinci mərtəbənin eyvanından kompleksin ərazisini seyr etdi, idman zalında idmançıların çıxışlarını izlədi.*

*Ərazi ilə tanışlıq zamanı məlumat verildi ki, burada 936 yerlik süni örtüklü futbol meydançası, 191 yerlik üzgüçülük hovuzu, 2 tennis kortu, ikimərtəbəli 4 kottec, basketbol və voleybol meydançaları, sahəsi 3 min kvadratmetr olan 500 yerlik avtomobil dayanacağı inşa olunmuşdur. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri aparılmış, 3 min dekorativ ağac*

*və gül kolu əkilmiş, 17 min kvadratmetr sahəyə asfalt, 8 min kvadratmetr sahəyə isə müxtəlif daşlar döşənmişdir.*

*FİFA standartlarına cavab verən stadionun süni örtüyü ən müasir tələblərə uyğundur. Ən güclü yağışlar zamanı belə, bu qurğuda su gölməçələri yaranmır.*

*Olimpiya İdman Kompleksi İsmayıllı rayonunda idmanın müxtəlif sahələrinin müasir tələblər səviyyəsində inkişaf etdirilməsi üçün lazımi avadanlıqlarla təchiz olunmuşdur.*

*Komplekslə tanışlıqdan sonra dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb onları təbrik etdi.*

**İlham Əliyev:** Bu gözəl Olimpiya İdman Kompleksinin açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm. Əminəm ki, İsmayıllıda idmançılar bu kompleksdən çox səmərəli şəkildə istifadə edəcəklər və Azərbaycanın idman şöhrətinə ismayıllılar da öz töhfələrini verəcəklər.

Burada idmanla məşğul olmaq üçün bütün şərait vardır, ən müasir standartlar tətbiq olunub. İsmayıllı rayonu üçün belə bir kompleksin yaradılması çox əhəmiyyətli hadisədir. Bilirsiniz ki, bütün bölgələrimizdə belə gözəl idman qurğuları tikilib, biri də İsmayıllıda. İdman sağlamlıq deməkdir və hər bir ölkənin inkişafının əlamətidir. Mən istəyirəm ki, İsmayıllıdan olan idmançılar da Olimpiya oyunlarında medallar qazansınlar və dünya çempionatlarında yüksək yerləri tutsunlar.

İsmayıllı rayonunun inkişafı çox sürətlə gedir. Mənə verilən məlumata görə, son beş il ərzində İsmayıllıda iqtisadiyyat təxminən üç dəfə artmışdır. Bu onu göstərir ki, rayonun imkanlarından səmərəli istifadə olunur və Azərbaycanın bütün regionlarında olduğu kimi, burada da yaxşı nəticələr vardır. Azərbaycanın ümumi iqtisadi inkişafı son 5-6 il ərzində dünyada ən yüksək templərlə artmışdır. Bu onu göstərir ki, Azərbaycan iqtisadiyyatı hərtərəfli inkişaf edir, ancaq bir sahədən – energetika sahəsindən asılı deyildir. Əgər belə olmasaydı, bölgələrdə iqtisadi inkişaf sürətlə getməzdi. Həm sosial məsələlərin həlli, həm abadlıq-quruculuq,

infrastruktura – bax, bu gün Bakıdan Şamaxıya, İsmayıllıya qədər çox gözəl, keyfiyyətli yeni yol salınır. Əvvəllər yol çox pis vəziyyətdə idi. Siz də bunu yaxşı bilirsiniz. Amma bu gün bu, dünya standartları səviyyəsindədir. Bu yolun tikintisi Balakənə qədər davam edəcəkdir.

Yol olan yerdə turizm də inkişaf edəcəkdir. Mənə deyiblər, indi baxacağam, müasir, beşulduzlu yeni mehmanxana tikilir. İsmayıllı çox səfalı, gözəl təbiətə malik rayondur. Burada turizmin inkişafı üçün çox gözəl imkanlar vardır. Amma gərək turizmin inkişafı üçün şərait olsun. Yol, hər cür infrastruktur, belə gözəl idman qurğuları, mehmanxanalar. Turizmin inkişafı rayonun iqtisadiyyatına çox böyük töhfə verəcəkdir. Rayonlarımızın tam əksəriyyəti dotasiya əsasında yaşayır. Rayonlarda yığılan vəsait rayonların fəaliyyəti üçün, yaşaması üçün kifayət deyildir. Yəni, dövlət büdcəsindən dotasiya alaraq öz işlərini qururlar və o cümlədən, infrastruktur, abadlıq işləri – bütün bunlar dövlət tərəfindən görülən tədbirlərdir.

Bu gözəl Olimpiya İdman Kompleksi dövlət tərəfindən tikilib. Mehmanxana özəl şirkətlər tərəfindən tikilir. Yol, elektrik stansiyaları, qaz xətləri, bütün infrastruktur layihələrini dövlət öz üzərinə götürüb. Məktəblər, tibb məntəqələri – İsmayıllıda son illər ərzində bir neçə məktəb tikilib və bu proses hələ davam edir. Özəl sektorun inkişafı üçün də şərait yaradılır, dəstək verilir, o cümlədən də maliyyə dəstəyi, kreditləşmə, sahibkarlığın inkişafı, kənd təsərrüfatına dövlət tərəfindən edilən subsidiyalar. Azərbaycanda kənd təsərrüfatı artır, sənaye artır, iqtisadiyyat artır. Başqa ölkələrdə iqtisadiyyat böhrana görə zəifləyir, haradasa 10 faiz, haradasa 20 faiz. Azərbaycanda iqtisadi artım 6 faizdir. Bəziləri bunu neft amili ilə bağlayırdılar ki, Azərbaycanda neft hasil edilir, ona görə iqtisadi artım vardır. Neft başqa ölkələrdə də çıxarılır, bizdən daha da böyük həcmdə. Ancaq o ölkələrdə iqtisadiyyat tənəzzülə uğrayır, Azərbaycanda isə

inkişaf edir. Nəyin hesabına? Düzgün siyasətin hesabına, düşünülmüş iqtisadi islahatların hesabına.

Belə gözəl gündə bir daha sizi ürəkdən salamlayıram. İsmayıllının bütün sakinlərinə xoşbəxtlik arzulayıram. Arzu edirəm ki, bu gözəl imkanlardan təkcə idmançılar yox, bütün rayon sakinləri də istifadə etsinlər. Fiziki sağlamlığın möhkəmlənməsi üçün uşaqlar səmərəli istifadə etsinlər. Burada bölmələr qurulsun, uşaqlar, yeniyetmələr gəlsinlər, məşq etsinlər. Sizə gələcək işlərinizdə uğurlar arzulayıram.

## «Cavanşir Qala» mehmanxanasının tikintisi ilə tanışlıq

*Oktyabrın 29-da prezident İlham Əliyev İsmayıllı rayonunda «Cavanşir Qala» beşulduzlu mehmanxana kompleksinin tikintisi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısını inşaatçılar hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyevə layihə əsasında məlumat verildi ki, «Akkord» şirkətlər qrupu Talıstan kəndi ərazisində yerləşən 50 hektar sahədə «Cavanşir Qala» mehmanxana kompleksinin tikintisinə 2008-ci ildə başlamışdır. Cavanşir qalasının qalıqlarının yaxınlığında yerləşən kompleksin birinci mərhələsinə aid olan 11 mərtəbəli əsas korpusu tikilir. Kompleks 180 adi və lüks otaq, 500 nəfərlik konfrans mərkəzi, 2 əsas restoran, qapalı və açıq hovuz, idman zalı, vitamin-bar və digər məişət xidmətləri göstərən obyektlərdən ibarət olacaqdır.*

*Əsas binanın ümumi tikinti sahəsi 20 min kvadratmetrdir. Hazırda əsas korpusun 7-ci mərtəbəsi inşa edilir. Layihənin ikinci mərhələsində kotteclər kompleksi, üç və dördmərtəbəli istirahət kompleksləri, idman-sağlamlıq meydançaları, uşaq əyləncə mərkəzləri, açıq teatr, qolf klubu və digər istirahət-xidmət sahələrinin inşası nəzərdə tutulur.*

*Prezident İlham Əliyev mehmanxana kompleksinin maketini əks etdirən videoçarxa baxdı.*

*Görülən işlərdən razılığını bildirən dövlətimizin başçısı tikinti işləri ilə bağlı tapşırıq və tövsiyələrini verdi, inşaatçılara uğurlar arzuladı.*

**İvanovka kəndinin sakinləri ilə görüş**

*Oktyabrın 29-da prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva İsmayıllı rayonunun bu yaxınlarda 150 illiyi qeyd olunan İvanovka kəndinə gəlmişlər. Həmin gün kənddə məhsul bayramı keçirilirdi.*

*Kəndin sakinləri dövlətimizin başçısını və xanımını böyük mehribanlıqla qarşıladılar. Milli geyimli qızlar ali qonaqlara duz-çörək, gül dəstələri təqdim etdilər.*

*Nikitin adına kolxozun sədri Mixail Panfyorov və İsmayıllı Rayon İcra Hakimiyyəti başçısının İvanovka inzibati ərazi vahidi üzrə nümayəndəsi Olqa Jadina bu kənddə, o cümlədən Heydər Əliyev küçəsində aparılan abadlıq-quruculuq işləri barədə ətraflı məlumat verdilər. Qeyd edildi ki, kənddəki inzibati binada yenidənqurma tədbirləri görülmüş, Heydər Əliyev küçəsində ulu öndərin abidəsi ucaldılmışdır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ulu öndərin abidəsini ziyarət edərək önünə gül dəstələri qoydular. Burada ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin İvanovkaya səfərlərini əks etdirən fotoguşə yaradılmışdır.*

*Məlumat verildi ki, 2008-ci ildən İvanovka kəndində abadlıq və quruculuq işlərinə başlanılmışdır. Nikitin adına kolxozun inzibati binası, mədəniyyət sarayının fasadı əsaslı təmir edilmiş, ətrafında abadlıq və yaşıllaşdırma işləri aparılmış, iki fəvvarə yenidən qurulmuşdur.*

*İkinci dünya müharibəsində İvanovka kəndindən cəbhədə həlak olanların xatirəsinə yaradılmış abidə kompleksi yenidən qurulmuşdur.*

*Sonra dövlətimizin başçısı və xanımı kəndin mərkəzində məhsul bayramına toplaşmış sakinlərlə görüşüb söhbət etdilər.*

*Bayramsayağı bəzədilən meydana İvanovka kəndinin min nəfərə yaxın sakini toplaşmışdı.*

*Prezident İlham Əliyev sakinləri salamladı.*

**İ l h a m Ə l i y e v:** Salam, sizi görməyə şadam.

**K ə n d s a k i n i:** Xoş gəlmisiniz!

**İ l h a m Ə l i y e v:** Sağ olun. Biz bir neçə il əvvəl görüşmüşdük, budur, indi mən yenə də gəlmişəm və buradakı dəyişiklikləri görürəm. Əlbəttə, inkişaf vardır.

**K ə n d s a k i n i:** Bunlar Sizin zəhmətinizin bəhrəsidir, cənab Prezident. Sizin bugünkü gəlişiniz məhsul bayramı ilə bir vaxta düşmüşdür. Bizim uğurlarımızın bəhrəsi anbarlarda və süfrələrdədir.

**İ l h a m Ə l i y e v:** Mən sizi məhsul bayramı münasibətilə təbrik edirəm. Sizin hamınıza ən xoş arzularımı çatdırıram, firavanlıq, xoşbəxtlik, sağlamlıq diləyirəm. Arzum budur ki, həmişə yaxşı yaşayasınız. İstəyirəm ki, İvanovka inkişaf etsin, çoxəsrlik ənənələrini qoruyub saxlasın, cavanlar siz veteranlara baxıb nümunə götürsünlər, kənd təsərrüfatı, bütün infrastruktur inkişaf etsin. Mənə dedilər ki, yeni məktəb tikilmişdir. Dörd il əvvəl İvanovka sakinləri mənə müraciət etmişdilər və biz məktəbi tikdik. Əgər daha nə etmək lazımdırsa, mənə deyin.

**K ə n d s a k i n i:** Biz Sizə təşəkkür edirik ki, gəlmisiniz. Biz çox şadıq ki, Siz öz səfərinizi bizim bayramımız – Məhsul günü ilə bir vaxta salmısınız. Biz kənd təsərrüfatı bayramını qeyd edəcəyik. Bir də Sizə ona görə çox təşəkkür edirik ki, Siz atanızın vəsiyyətini unutmursunuz. O Sizə vəsiyyət etmişdi ki, bizim kəndə diqqət yetirəsiniz. Sizin uğurlu rəhbərliyiniz bizim rayonun həyatında da hiss edilir. Bizim rayon həqiqətən gözəl görünməyə başlamışdır. Bir arzumuz da var ki, bizə su da çəkilsin. Su sarıdan korluq çəkirik. Allah Sizə cansağlığı versin. Atanızın Sizə vəsiyyət etdiyi kimi, bizim kəndi unutmayın.

**İ l h a m Ə l i y e v:** Mən heç vaxt unutmuram. Bax, buraya gəlmişəm, Heydər Əliyevin abidəsi önünə çiçəklər

qoymuşam və abidə ilə üzbəüz mənim dörd il əvvəl dediyim sözləri gördüm. Bu sözlər sizin də yadınızdadır, mənim də yadımdadır. Mən sizin qarantınızam. Sizə həmişə kömək edəcəyəm. Mən Heydər Əliyevin siyasətini bütün istiqamətlərdə davam etdirəcəyəm. O cümlədən İvanovka kəndinin sakinlərinə münasibətdə də. Rayon inkişaf edir. Bu gün mən rayon mərkəzində oldum və təzə parka, idman kompleksinə baxdım, hovuz da vardır. Gözəldir, beynəlxalq səviyyədədir. İvanovka da inkişaf edir. Azərbaycanda həmişə bütün xalqların nümayəndələri dinc şəraitdə yaşamışlar, yaşayırlar və yaşayacaqlar.

**K ə n d s a k i n i:** Sizin atanız – mən onun sözlərini eşitmişəm – belə deyirdi: molokanlara toxunma, onlar mənim xalqımdır. Bizdə isə belə bir məsəl var: Yaxşı ağacın barı da yaxşı olar.

**İ l h a m Ə l i y e v:** Heydər Əliyev həm də belə deyirdi: Qoy onlar necə istəyirlərsə, elə də yaşasınlar. Kolxozda yaşamaq yaxşıdırsa, qoy onlar elə kolxozda yaşasınlar. Bu da əyani misaldır ki, Azərbaycanda təsərrüfatçılıq formasından asılı olmayaraq, iqtisadiyyatın inkişafı üçün şərait yaradılmışdır. İstər fermer olsun, istər kolxozçu, elə böyük fərq yoxdur. Əsas odur ki, insan torpaqda işləyir. Siz əsrlər boyu Azərbaycan dövləti üçün çalışır və onun üçün sərvətlər yaradırsınız. Siz həmişə mənə arxalana bilərsiniz və problemlərinizi imkan daxilində həll etməyə çalışacağıq.

Biz artıq bu istiqamətdə hərəkət edirik. Müstəqillik əldə etdiyimiz bu qısa müddətdə, daha dəqiq desək, keçən əsrin 90-cı illərinin ortalarından praktiki inkişaf başlamışdır. Sizin hamınızın yadındadır ki, 90-cı illərin əvvəlində burada nələr baş verirdi, hansı siyasi və iqtisadi proseslər gedirdi. İqtisadi tənəzzül, iqtisadiyyatın dağılması, sənaye müəssisələrinin dayanması...

90-cı illərin ortalarında Heydər Əliyev prezident vəzifəsinə gələn kimi, islahatlar, tərəqqi başlandı və qısa müddətdə, 10 ildən bir qədər çox vaxtda Azərbaycan dünyanın

bütün ölkələri arasında iqtisadiyyatın rəqabət qabiliyyətinə görə 51-ci yeri tutdu.

Biz yalnız zəhmət sayəsində, düzgün siyasət, iqtisadiyyatın düzgün təşkili, siyasi sabitlik, Azərbaycanda yaşayan bütün xalqlar arasında sülh sayəsində MDB-nin üzvü olan dövlətləri qabaqlamışıq. Təəssüf ki, bu heç də hər yerdə belə deyildir. Dünyada elə ölkələr var ki, orada əksinə, milli zəmində, dini zəmində toqquşmalar vardır. Azərbaycanda belə hallar heç vaxt olmamışdır və olmayacaqdır. Buna həm siz, həm prezident, həm də bütün cəmiyyət təminat verir. Azərbaycanda həmişə sülh, həmrəylik, dostluq, qardaşlıq olsun. Sizin kəndin timsalında bunlar aydın görünür. Mən İvanovkanın inkişafda olduğunu görməyə şadam. Bu, müasir kənddir, hətta kənd yox, böyük şəhərdir.

**K ə n d  s a k i n i:** Hər şey üçün çox sağ olun, cənab Prezident, həmişə var olasınız.

*Sonra Nikitin adına kolxozun istehsal etdiyi məhsulların sərgisinə baxış keçirildi. Kolxozda 30-dan çox adda kənd təsərrüfatı məhsulları istehsal olunur. Kolxozun sədri kənd təsərrüfatı sahəsində qazanılan uğurlar və yeniliklər barədə məlumat verdi.*

*Sərgi ilə tanışlıqdan sonra prezident İlham Əliyev İvanovka kənd orta məktəbinin kollektivi ilə söhbət etdi.*

*Birinci sinif şagirdləri Azərbaycana, Vətənə, ulu öndər Heydər Əliyevə həsr olunmuş şeirlər oxudular.*

*Təhsil ocağı kollektivinin üzvləri yeni binaya görə dövlətimizin başçısına minnətdarlıq etdilər.*

*«Slavyanka» özfəaliyyət kollektivi isə rus xalq mahnılarını ifa etdi. Vyaçeslav Panin Müslüm Maqomayevin məşhur «Azərbaycan» mahnısını oxudu.*

*Prezident İlham Əliyevə və xanımına İvanovkanın milli mətbəxinin nümunələri göstərildi.*

*Dövlətimizin başçısına kənd sakini Anna Radayevanın yağlı boya ilə çəkdiyi «Kusok İvanovki» adlı rəsm əsəri hədiyyə edildi.*

*Prezident İlham Əliyev kənd sakinlərinə yeni uğurlar arzuladı.*

## AĞSU RAYONUNDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*29 oktyabr 2009-cu il*

*Oktyabrın 29-da Azərbaycan prezidenti İlham Əliyev İsmayıllı rayonuna səfərini başa çatdıraraq Ağsu rayonuna gəlmişdir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Ağsu şəhərinin mərkəzindəki Heydər parkında ulu öndərin tuncdan tökülmüş abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydular.*

*Məlumat verildi ki, abidənin müəllifi Rəssamlar İttifaqının üzvü, heykəltəraş Rəşid Hüseynovdur. Qranit postamentlə birlikdə abidənin hündürlüyü 7 metrdir. Ətrafı yüksək zövqlə abadlaşdırılmış möhtəşəm abidənin xüsusi yaraşıq verdiyi bu park Ağsu sakinlərinin əsas istirahət yeridir.*

*Dövlətimizin başçısı Heydər parkında aparılmış yenidənqurma və abadlıq işləri ilə tanış oldu. Bildirildi ki, ərazisi 1,2 hektardan 2,5 hektara çatdırılan Heydər parkında yenidənqurma işlərinə 2008-ci ilin mayından başlanılmışdır və sakinlərin istifadəsi üçün tam hazırdır. Parkda 5 fəvvarə quraşdırılmış, ümumi sahəsi 1000 kvadratmetr olan 100 yerlik yay konsert meydançası tikilmiş, Hollandiya, İtaliya və İrandan gətirilmiş ağaclar və dekorativ gül kolları əkilmişdir.*

### «Az-Qranata» MMC-nin şirələr və şərab emalı zavodunda tikinti işlərinin gedişi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 29-da Ağsu şəhərində Azərbaycan–Almaniya birgə müəssisəsi olan «Az-Qranata» MMC-nin şirələr və şərab emalı zavodunda tikinti işlərinin gedişi ilə tanış*

*olmuşlar. İnşaatçılar dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar.*

*Zavodun baş planı ilə tanış olan prezident İlham Əliyevə məlumat verildi ki, «Az-Qranata» MMC-nin şirələr və şərab emalı zavodunun ümumi ərazisi 8,8 hektardır. İnşaat işlərinə 2008-ci ilin iyulunda başlanılmışdır. İnşaat işlərində əsasən yerli materiallardan istifadəyə üstünlük verilmişdir. Bu zavodun Cənubi Qafqaz regionunda oxşarı yoxdur.*

*Qeyd olundu ki, zavodun tikintialtı sahəsi 15 min 600 kvadratmetrdir. Zavod beş sexdən, inzibati bina, mehmanxana və yardımçı tikililərdən ibarətdir. Burada hər birinin tutumu 50 ton olan 50 çən quraşdırılmışdır.*

*Bildirildi ki, zavodda ən son texnologiyaya əsaslanan avadanlıqlar quraşdırılmışdır. Avadanlığın hamısı Almaniya və Avstriyanın aparıcı şirkətlərinin istehsalıdır. Bu isə öz növbəsində məhsulun qəbulu, şirənin yığılması, onun tərkibinin təmizlənməsi və qablaşdırılması, habelə hazır məhsulun saxlanmasını müasir tələblər səviyyəsində həyata keçirməyə imkan verir. Zavodda nar və üzümdən hazırlanacaq məhsullar tərkibinə və qablaşdırılmasına görə ən yüksək səviyyədə olacaqdır. Burada əlavə qarışıqlar olmadan, nar şirəsi istehsalı üçün Almaniya istehsalı olan pasterilizə avadanlığı alınmışdır. Zavodda, həmçinin narşərab, nar sousu, üzüm şirəsi və şərab istehsal olunacaqdır. Narın tumundan alınacaq yağdan isə ətriyyat istehsalında istifadə olunacaqdır. Narın qabığından isə xüsusi boya hazırlanacaqdır. Burada quraşdırılan müasir avadanlıqlar ildə 5 min ton hazır məhsul əldə etməyə imkan verəcəkdir. Gələcəkdə tələbata uyğun olaraq, müəssisənin illik gücü 3 dəfə artırılaraq, 15 min tona çatdırılacaqdır.*

*Məlumat verildi ki, müəssisənin 1000 hektar ümumi sahəsi olan meyvə bağları da vardır. Sahənin 500 hektarında yüksək məhsuldar növ üzüm plantasiyaları və nar bağları salınmışdır. Zavoda indiyədək 50 milyon ABŞ dolları sərmayə qoyulmuşdur. Burada 10-12 adda məhsul istehsal ediləcəkdir.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, gələcəkdə məhsullar bir çox ölkələrə, o cümlədən MDB və Avropa dövlətlərinə ixrac olunacaqdır.*

*Binanın mərkəzləşdirilmiş havalandırma sistemi ilə təchiz olunması nəzərdə tutulur. Bundan başqa, zavodun ərazisində transformator yarımstansiyası, nəzarət-buraxılış məntəqələri, hər birinin tutumu 300 kubmetr olan iki su anbarı, 50 kubmetrlik təmizlənmiş su anbarı, nasosxana və qazanxana tikilmişdir. Zavodu fasiləsiz elektrik enerjisi ilə təmin etmək üçün burada 1000 kilovoltluq ehtiyat generator da vardır.*

*Qeyd edildi ki, zavod gələn mövsümdən tam gücü ilə işə başlayacaqdır.*

*Dövlətimizin başçısı inşaatçılara uğurlar arzuladı, tapşırıq və tövsiyələrini verdi.*

## Şəhər stadionunun təməlqoyma mərasimi

*Oktyabrın 29-da Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Ağsu şəhər stadionunun təməlqoyma mərasimində iştirak etmişlər.*

*Dövlətimizin başçısına layihə əsasında məlumat verildi ki, 1000 tamaşaçı yeri olan Ağsu şəhər stadionunun tikintisi üçün 4,3 hektar torpaq sahəsi ayrılmışdır. Obyektin smeta dəyəri 1 milyon 150 min manatdır. Stadionda futbol meydançası, tribuna, inzibati bina, kassa, kafe-çayxana, elektron tablo, anbar, qaraj, içməli su anbarı, transformator, üç giriş darvazası, voleybol və basketbol meydançalarının tikintisi nəzərdə tutulmuşdur.*

*Stadionun istifadəyə verilməsi istər yerli, istərsə də beynəlxalq oyunların keçirilməsinə hərtərəfli şərait yaradacaqdır.*

*Prezident İlham Əliyev kapsulu bünövrəyə buraxdı, beton qarışığı tökdü.*

*Dövlətimizin başçısı tapşırıq və tövsiyələrini verdi, inşaatçılara uğurlar arzuladı.*

## Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunacaq Uşaq-Gənclər Bədii Yaradıcılıq Məktəbinin təməlqoyma mərasimi

*Oktyabrın 29-da Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Ağsu şəhərində Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunacaq Uşaq-Gənclər Bədii Yaradıcılıq Məktəbinin təməlqoyma mərasimində iştirak etmişlər.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Ağsu şəhər Uşaq-Gənclər Bədii Yaradıcılıq Məktəbinin tikintisi üçün 560 kvadratmetr torpaq sahəsi ayrılmışdır. Heydər Əliyev Fondunun «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsi çərçivəsində inşa ediləcək məktəb ikimərtəbəli olacaqdır. Smeta dəyəri 650 min manat olan binanın tikintialtı sahəsi 400 kvadratmetrdir. Bədii yaradıcılıq məktəbində sinif, müəllimlər, dərnək, direktor otaqları, müxtəlif tədbirlərin keçirilməsi üçün zal nəzərdə tutulmuşdur. Tikintinin 2010-cu ildə başa çatdırılması planlaşdırılır.*

*Prezident İlham Əliyev kapsulu bünövrəyə buraxdı, beton qarışığı tökdü. Mehriban xanım Əliyeva da bünövrəyə beton qarışığı tökdü.*

*İnşaatçılara tapşırıq və tövsiyələrini verən dövlətimizin başçısı onlara uğurlar arzuladı.*

## Heydər Əliyev Mərkəzinin açılışı mərasimi

*Oktyabrın 29-da Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Ağsu şəhərində Heydər Əliyev Mərkəzinin açılışı mərasimində iştirak etmişlər.*

*Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi, Heydər Əliyev Mərkəzi ilə tanış oldu.*

*Məlumat verildi ki, inşasına 2008-ci ildə başlanılmış Mərkəzin ümumi tikinti sahəsi 302 kvadratmetrdir. İkimərtəbəli*

*binada 30 yerlik konfrans, eksponat zalları, dərnək, ofis və kompyuter otaqları vardır.*

*Binanın birinci mərtəbəsində ulu öndərin büstü qoyulmuşdur. Burada ümummilli lider Heydər Əliyevin həyatını və dövlətçilik fəaliyyətini əks etdirən 4 bölmə yaradılmışdır. Bu bölmələrdə ulu öndərin ölkəmizin beynəlxalq imicinin, müstəqilliyinin möhkəmləndirilməsi üçün gördüyü möhtəşəm işlərdən bəhs edən eksponatlara da geniş yer ayrılmışdır.*

*İkinci mərtəbədə informasiya texnologiyaları, xarici dillər, texniki yaradıcılıq otaqları və işçi heyət üçün kabinetlər yerləşir. Binanın hər iki mərtəbəsində ümummilli liderin həyat və fəaliyyətini əks etdirən fotoların, müxtəlif məlumatların yer aldığı 212 tablo, 32 kompyuter dəsti, elektron köşk, genişekranlı monitor, səsgücləndirici qurğular yerləşdirilmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Mərkəzin birinci mərtəbəsində yerləşən Heydər Əliyev Muzeyi 4 bölmədən ibarətdir. Birinci bölmədə ulu öndərin yeniyetmə və gənclik dövrlərini əks etdirən fotoşəkillər əksini tapmışdır. İkinci bölmədəki fotoşəkillər Heydər Əliyevin 1969–1982-ci illərdə respublikamızın sosial-iqtisadi inkişafı və digər sahələrin tərəqqisi ilə bağlı gördüyü işlərdən söhbət açır. Üçüncü bölmədə ümummilli liderin 1993-cü ildə xalqımızın təkidi ilə hakimiyyətə qayıdışından sonra ölkəmizin ictimai-siyasi, sosial və mədəni həyatındakı quruculuq işlərindən bəhs edən materiallar toplanmışdır. Dördüncü bölmədə isə ümummilli liderin respublikamıza rəhbərlik etdiyi müxtəlif illərdə Ağsuya səfərləri, yerli əhali ilə görüşləri əks olunmuşdur. Burada ulu öndərin həyatına və dövlətçilik fəaliyyətinə həsr olunan filmlərin nümayişi üçün elektron köşk də vardır.*

*Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Mərkəzin ikinci mərtəbəsi ilə tanış oldular. Dövlətimizin başçısına məlumat verildi ki, ikinci mərtəbədə «Heydər Əliyev və uşaqlar» bölməsi fəaliyyət göstərir. Burada ulu öndərin uşaqlara diqqət və qayğısını əks etdirən fotoşəkillər toplanmışdır.*

*Mərkəzin informasiya texnologiyaları kabinetində müasir standartlara cavab verən 17 kompyuter lokal şəbəkəyə qoşulmuşdur. Texniki yaradıcılıq otağında isə uşaqların əl işlərindən ibarət sərgi nümayiş etdirilir. Burada radio-telemexanika dərnəyinin üzvləri olan uşaqların hazırladıqları elektron avadanlıq da diqqəti cəlb edir. Kompyuterlərlə təchiz olunmuş xarici dillər kabinetində isə ingilis və rus dillərinin tədrisi üçün lazımi şərait yaradılmışdır.*

*Dövlətimizin başçısı Mərkəzin Xatirə kitabına ürək sözlərini yazdı.*

*Prezident İlham Əliyev Mərkəzin önündə rayon ictimaiyyətinin nümayəndələrini salamladı.*

**İ l h a m  Ə l i y e v:** Sizi salamlayıram, bu gün sizi burada görməyimə çox şadam. Ağsunu tanımadım. Dörd il əvvəl gəlmişdim Ağsuya, o vaxtkı vəziyyətlə indiki vəziyyət arasında çox böyük fərq vardır. Şadam ki, Ağsu rayonu sürətlə inkişaf edir. Abadlıq-quruculuq işləri aparılır, gözəl parklar salınır. Yollar necə də gözəldir. İstehsalat sahələri yaradılır. Mən rayonda gedən proseslərlə bu gün yaxından tanış olmuşam, sizi bu nailiyyətlər münasibətilə ürəkdən təbrik etmək istəyirəm.

Dörd il əvvəl Ağsuda olarkən mənzərə tam başqa idi. Amma bu gün Ağsu, deyə bilərəm ki, Azərbaycan rayonlarının arasında ən qabaqda gedən rayonlardan biridir. Çox böyük işlər görülür. İnsanların məşğulluğu üçün praktiki işlər aparılır.

Bu gün tikilməkdə olan böyük şirə və şərab zavodunun inşası ilə tanış oldum. O zavodun istifadəyə verilməsi nəticəsində minlərlə insan işlə təmin olunacaqdır. Kənd təsərrüfatı inkişaf edəcək, emal sənayesi inkişaf edəcək, ixrac qabiliyyətli məhsullar istehsal olunacaq və rayon iqtisadiyyatına əlavə gəlir daxil ediləcəkdir. Zavodun fəaliyyəti nəticəsində bəlkə yüzlərlə hektar əkin sahələri, bağlar salınacaqdır və indi də salınır. Gözəl meydanlar, parklar, yollar... Bu gün stadionun, uşaq yaradıcılıq məktəbinin təməl daşını qoyduq. Burada gedən

proseslər məni çox sevindirir. Bir daha demək istəyirəm ki, bütün bu gözəl nailiyyətlərlə sizi ürəkdən təbrik edirəm və arzu edirəm ki, ağsulular həmişə olduğu kimi, gələcəkdə də çox fəal olsunlar, Azərbaycanın hərtərəfli inkişafına öz dəyərli töhfələrini versinlər.

Ölkəmiz sürətlə inkişaf edir. Mənə verilən statistik məlumatlara görə, son 5 il ərzində Ağsuda iqtisadi artım 3 dəfə yüksəlibdir, çoxalıbdır. Yəni bu onu göstərir ki, Azərbaycanda qeyri-neft sektoru, kənd təsərrüfatı inkişaf edir. Azərbaycan dövləti öz tərəfindən bütün bölgələrin inkişafı üçün əməli tədbirlər görür.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı uğurla icra edilir. Növbəti 4 il ərzində bütün rayonların əsas problemləri öz həllini tapmalıdır. İş yerləri açılır, sahibkarlara kreditlər verilir, kənd təsərrüfatının inkişafı üçün güzəştlər edilir, yəni hərtərəfli dəstək göstərilir. İnfrastruktur layihələri də dövlət tərəfindən həyata keçirilir. Bakıdan Şamaxıya, Ağsuya qədər yollar abadlaşır, müasirləşir. Yəni Azərbaycan iqtisadiyyatı çoxşaxəli iqtisadiyyatdır. Bunu biz özümüz yaratmışıq. Bütün dünyada iqtisadiyyat aşağı düşüb, Azərbaycanda isə 6 faiz artıbdır. Bu, Azərbaycan xalqının zəhməti nəticəsində baş verən hadisələrdir.

İndi biz burada sizinlə yeni, gözəl Heydər Əliyev Mərkəzinin açılışında görüşürük. Ulu öndərin Azərbaycan xalqı, Azərbaycan dövləti qarşısında müstəsna xidmətləri olmuşdur. Məhz onun siyasəti, qətiyyəti nəticəsində Azərbaycan ağır vəziyyətdən şərəflə çıxa bilmişdir. Sabitlik, iqtisadi yüksəliş, sosial məsələlərin həlli, hərtərəfli inkişaf, neft strategiyası, ordu quruculuğu – bütün bu işlərdə Azərbaycan xalqı Heydər Əliyevin siyasəti və amalı ətrafında birləşərək bu gözəl nəticələri əldə edir. Bu gün bu siyasət hər yerdə, o cümlədən Ağsu rayonunda davam edir. İnkişaf, abadlıq, quruculuq, yaradıcılıq, sabitlik, asayiş və vətəndaş birliyi – bu amillər Azərbaycanı başqa ölkələrdən çox fərqləndirir. Bu amillər Azərbaycan xalqını daha da ruhlandırır. Biz dünyaya da sübut

edə bilmişik ki, müstəqil ölkə kimi yaşaya bilərik. Hətta dünyada yaşanan ən ağır böhran zamanında biz müstəqil siyasətimizi apara bilərik. Bundan sonra Azərbaycanın inkişafı sürətlə gedəcək və ölkə qarşısında duran bütün vəzifələr icra olunacaqdır.

Ağsu rayonunun problemlərinə gəldikdə, biz əlavə tədbirlərin görülməsi üçün addımlar atacağıq və mövcud problemlər, xüsusilə içməli su problemi, əminəm ki, tezliklə öz həllini tapacaqdır.

Bir daha sizi ürəkdən salamlayıram və sizə gələcək işlərinizdə uğurlar arzulayıram.

## Qəhrəmanlar parkının açılışı

*Oktyabrın 29-da Ağsu şəhərində Qəhrəmanlar parkının açılışı olmuşdur. Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*Dövlətimizin başçısı və xanımı parkda aparılmış abadlıq və quruculuq işləri ilə tanış oldular.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, tikintisinə 2008-ci ildən başlanılmış Qəhrəmanlar parkının ərazisi bir hektardır. Müasir memarlıq üslubunda tikilmiş parkın layihə tərtibatında üç tarixi hadisənin qəhrəmanlıq rəmzi ifadə olunmuşdur. Kompleksdə İkinci dünya müharibəsində həlak olmuş həmyerlilərimizin, 20 Yanvar şəhidlərinin və Qarabağ müharibəsində həlak olmuş 104 şəhidin əziz xatirəsi əksini tapmışdır. Burada «Əbədi məşəl» alovlanır.*

*Kompleksin döşəmə və divarları qara və qırmızı qranitlə işlənilmişdir. Tikintinin sahəsi 3600 kvadratmetrdir. Kompleksin ətrafında 4862 kvadratmetr yaşıllıq salınmış, min ədəd həmişəyaşıl ağac əkilmiş, suvarma sistemi yenidən qurulmuşdur.*

*Dövlətimizin başçısı görülmüş işlərdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.*

**Ağsu Rayon İcra Hakimiyyətinin inzibati binasının açılışı**

*Oktyabrın 29-da Azərbaycan prezidenti İlham Əliyev Ağsu Rayon İcra Hakimiyyətinin inzibati binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Rayon İcra Hakimiyyətinin inzibati binasının tikintisinə 1987-ci ildən başlanılmış, inşaat işləri 1990-cı ilə qədər davam etdirilmişdir. Maliyyə vəsaiti çatışmazlığından işlər dayandırılmışdır. 1991–1992-ci illərdə bina baxımsızlıq ucbatından tamamilə yararsız hala düşmüşdür. Keçən il binanın inşası üçün 516 min manat vəsait ayrılmış və tikinti-bərpa işləri yüksək səviyyədə yerinə yetirilmişdir.*

*Bina üçmərtəbəli olmaqla 35 iş otağından, 2 iclas zalından ibarətdir.*

*Dövlətimizin başçısı görülmüş işləri yüksək qiymətləndirdi, tapşırıq və tövsiyələrini verdi.*

* * *

*Bununla da dövlət başçısının İsmayıllı və Ağsu rayonlarına səfəri başa çatmışdır.*

## FƏLƏSTİN MUXTARİYYƏTİNİN XARİCİ İŞLƏR NAZİRİ RİYAD ƏL-MALİKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*30 oktyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Fələstin Muxtariyyətinin Xarici İşlər naziri Riyad əl-Malikinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Xarici İşlər naziri Riyad əl-Maliki Fələstin Muxtariyyətinin rəhbəri Mahmud Abbasın salamlarını və məktubunu dövlətimizin başçısına çatdırdı. O, Fələstin Muxtariyyəti rəhbərliyinin Azərbaycanda səfirliyin açılması barədə qərar qəbul etdiyini bildirdi.*

*Görüşdə münasibətlərimizin müxtəlif sahələrinə dair fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı İlham Əliyev Mahmud Abbasın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Fələstin Muxtariyyətinin rəhbərinə çatdırmağı xahiş etdi.*

## TÜRKİYƏNİN QURU QOŞUNLARI KOMANDANI İŞIK KOŞANERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 noyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Türkiyənin Quru Qoşunları Komandanı İşık Koşanerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan–Türkiyə münasibətlərinin bütün sahələrdə olduğu kimi, hərbi sahədə də uğurla davam edəcəyinə əminliyini ifadə etdi. Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, Türkiyənin Quru Qoşunları Komandanı İşık Koşanerin Azərbaycana səfəri bu sahədə əməkdaşlığımızın perspektivləri ilə bağlı məhsuldar müzakirələr aparılması baxımından əhəmiyyətli olacaqdır.*

*İşık Koşaner qeyd etdi ki, Türkiyə və Azərbaycan silahlı qüvvələri arasında əməkdaşlıq dünyaya nümunə olacaq səviyyədədir. İşık Koşaner bu əlaqələrin bundan sonra da genişlənəcəyinə əminliyini ifadə etdi.*

## YALTA ŞƏHƏRİNİN BAŞÇISI SERGEY BRAYKO İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 noyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Yalta şəhərinin başçısı Sergey Braykonu qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Ukrayna arasında ikitərəfli münasibətlər çərçivəsində Yalta və Xaçmaz şəhərlərinin uğurlu əməkdaşlığından məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, qonağın ölkəmizə səfəri bu əlaqələrin daha da inkişaf etdirilməsi işinə öz töhfəsini verəcəkdir.*

*Yalta şəhərinin başçısı Sergey Brayko ölkəmizdə olduğu müddətdə Bakıda və Xaçmazda çox böyük inkişaf proseslərinin getdiyinin, geniş abadlıq və quruculuq tədbirlərinin həyata keçirildiyinin şahidi olduğunu vurğuladı.*

## BAKI DÖVLƏT UNİVERSİTETİNİN 90 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM*

*2 noyabr 2009-cu il*

*Noyabrın 2-də Bakı Dövlət Universitetinin (BDU) 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmək üçün universitetə gəldilər. Dövlətimizin başçısını və xanımını binanın önündə BDU-nun rektoru Abel Məhərrəmov qarşıladı. Mehriban xanım Əliyevaya gül dəstəsi təqdim olundu.*

*Salona toplaşanlar dövlətimizin başçısını və xanımını alqışlarla qarşıladılar.*

*Əvvəlcə BDU-nun tələbə xorunun ifasında universitetin himni oxundu.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə çıxış etdi.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Əziz dostlar!

Mən sizin hamınızı Bakı Dövlət Universitetinin 90 illik yubileyi münasibətilə ürəkdən təbrik etmək istəyirəm,

---

* Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmov, Moskva Dövlət Universitetinin rektoru, akademik Viktor Sadovniçi, Türkiyənin Atatürk Universitetinin rektoru Hikmət Koçak, Tbilisi Dövlət Universitetinin rektoru, professor Giorgi Xubua, Tehran Universitetinin rektoru, professor Nəsrətollah Zanqham, alim Lev Qumilyov çıxış etdilər

universitetin bütün kollektivinə xoşbəxtlik və yeni-yeni uğurlar arzulayıram.

Bakı Dövlət Universitetinin çox şərəfli və böyük tarixi vardır. 1919-cu ildə təsis edilmiş universitet 90 il ərzində Azərbaycanın hərtərəfli inkişafında çox mühüm rol oynamışdır. Bakı Dövlət Universiteti Azərbaycan müstəqilliyini əldə edəndən bir il sonra Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti tərəfindən təsis edilmişdir. Bu çox düşünülmüş və uzaqgörən bir addım idi. O vaxt ölkəmiz çox gənc idi. Buna baxmayaraq, əhalinin maarifləndirilməsi, Azərbaycanda savadsızlığın aradan qaldırılması və intellektual potensialın gücləndirilməsi üçün universitetin yaradılması çox mühüm hadisə olmuşdur. Bildiyiniz kimi, Azərbaycan Xalq Cümhuriyyəti iki il yaşadı, onun ömrü uzun olmadı, iki ildən sonra süqut etdi. Ancaq Bakı Dövlət Universiteti yaşadı. Düzdür, o, zamanın müəyyən ideoloji çərçivələri daxilində fəaliyyət göstərmişdir. Buna baxmayaraq, Bakı Dövlət Universiteti Azərbaycanın inkişafı, Azərbaycanda təhsilin inkişafı, elmi potensialın gücləndirilməsi üçün çox mühüm rol oynamışdır. Bu rol bu gün də davam edir. Sevindirici haldır ki, Bakı Dövlət Universiteti bu illər ərzində Azərbaycanda təhsil sahəsində öz aparıcı rolunu qoruyub saxlaya bilmişdir və bu gün bu rol daha da güclənir. Bu bir daha onu göstərir ki, universitetin zəngin ənənələr, böyük potensialı, professor-müəllim heyətinin təcrübəsi, tələbələrin yaxşı oxuması və təhsilə verdikləri önəm vardır. Xüsusilə indiki şəraitdə hər şey təhsilin səviyyəsi ilə ölçülür. Hər bir insanın gələcəyi, hər bir gəncin taleyi onun biliyindən, təcrübəsindən, savadından asılıdır.

Biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq və bazar iqtisadiyyatının öz qanunları vardır. İnsanlar üçün bərabər imkanlar yaradılır. O imkanlardan faydalanmaq, xüsusilə Azərbaycanın indiki inkişaf dövrünü yaşadığı bir vaxtda yaradılan bu imkanlardan faydalanmaq üçün ilk növbədə gənclər bilikli, savadlı olmalıdırlar.

Bakı Dövlət Universiteti müxtəlif dövrlərdə Azərbaycanın hərtərəfli inkişafı üçün öz dəyərli töhfəsini vermişdir. Bakı Dövlət Universitetinin məzunları da fəaliyyətləri ilə ölkəmizin çiçəklənməsinə dəyərli töhfələrini vermişlər. Ulu öndər Heydər Əliyev də Bakı Dövlət Universitetinin məzunu idi və bütün dövrlərdə – 1970–80-ci illərdə və müstəqil Azərbaycanın prezidenti kimi, Bakı Dövlət Universitetinin inkişafı üçün çox böyük səylər göstərmişdir. Həmişə universitetin tədbirlərində iştirak etmişdir və Bakı Dövlət Universitetinin belə yüksək səviyyəyə qalxması üçün əməli işlər görmüşdür.

1970–80-ci illərin əvvəllərində və 90-cı illərdə ulu öndər Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan çox böyük və uğurlu yol keçmişdir. 1970-ci ildə Azərbaycan müttəfiq respublikalar arasında ən axırıncı yeri tuturdu. Ancaq 1982-ci ildə Azərbaycan müttəfiq respublikalar arasında birinci sıralarda idi. O illər ərzində sənaye potensialının, intellektual potensialın inkişaf etdirilməsi, gənc nəslin maarifləndirilməsi və Sovet İttifaqının aparıcı ali məktəblərinə onların imtahansız qəbulu sayəsində Azərbaycanın elmi potensialı böyük dərəcədə gücləndirilmişdir.

Müstəqilliyin ilk dövründə – 1993-cü ildə Azərbaycanın qarşısında duran çağırışlar, demək olar ki, müstəqilliyimizi sınağa çəkirdi, çox ciddi böhran – həm iqtisadi, həm siyasi böhran yaşanırdı. Lakin 1993-cü ildən başlayaraq 2003-cü ilə qədər Azərbaycanda təhsilin inkişafı üçün köklü islahatlar aparıldı, lazımi qərarlar verildi. Azərbaycan təhsilinin maddi-texniki bazasının gücləndirilməsi işində çox vacib addımlar atılmışdır. Bu siyasət bu gün davam etdirilir. Bu gün Azərbaycanın, demək olar ki, bütün ali məktəblərinin maddi-texniki bazası ən yüksək standartlara cavab verir. Demək olar ki, bütün dövlət ali məktəblərində əsaslı təmir işləri aparılmışdır. Ali məktəblərin maddi-texniki bazası xeyli gücləndirilmişdir. Bu onu göstərir ki, Azərbaycan dövləti həmişə olduğu kimi, təhsilin inkişafına çox böyük

əhəmiyyət verir. Bu həqiqətən də belədir. Bunu görmək üçün Azərbaycanın dövlət büdcəsinə baxmaq kifayətdir.

Təhsil xərcləri ordu xərclərindən sonra dövlət xərclərimizdə ikinci yerdədir. Bu da təbiidir. Çünki biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib və biz hər an hazır olmalıyıq ki, öz doğma torpaqlarımızı işğalçılardan hərbi yolla azad edək.

Hərbi xərclərdən sonra ikinci yerdə təhsilə ayrılan xərclərdir. Bu, Azərbaycan dövlətinin prioritetlərini göstərir və bizim siyasətimizin ən bariz nümunəsidir. Çünki hər bir ölkənin inkişafı üçün ən başlıca şərt o ölkənin təhsilinin səviyyəsidir. Əgər inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq görərik ki, İkinci dünya müharibəsindən sonra və bəzi ölkələrdə ondan əvvəl elmi-texniki tərəqqi olan yerlərdə ölkələr inkişaf edib və bu gün dünyanın inkişaf etmiş ölkələri kimi tanınır. Nə təbii resurslar, nə coğrafi vəziyyət – halbuki bu amillər də çox önəmlidir – bu şərti təmin etmir. Ancaq təhsilin səviyyəsi, elmi-texniki tərəqqi, təhsilə verilən önəm və təhsil sahəsində aparılan islahatlar əsas şərtlərdir. Biz də bu yolu seçmişik.

Bir sözlə, təhsil sisteminin təkmilləşdirilməsi, təhsilin səviyyəsinin qaldırılması üçün bundan sonra da lazımi tədbirlər görüləcəkdir. Son altı il ərzində Azərbaycanda 1800 yeni məktəb tikilibdir. Yüzlərlə məktəbdə yeni korpuslar tikilib, təmir aparılıbdır. Bu nəyi göstərir?! Bu onu göstərir ki, bu sahə prioritet sahədir. Bütün orta məktəblərdə kompyuter sinifləri yaradılır, informasiya-kommunikasiya texnologiyaları tətbiq edilir. Məktəblərin internetə qoşulması prosesi uğurla davam edir. Belə olan halda gənclərimiz, uşaqlarımız, yeniyetmələrimiz bilikli və savadlı olacaqlar, həyatda özlərinə layiq yeri tutacaq, eyni zamanda, gələcəkdə Azərbaycanın uğurlu inkişafını təmin edəcəklər. Çünki təbii sərvətlər tükənən dəyərdir, ancaq təhsil, bilik, elm əbədi, hər bir ölkənin gücləndirilməsinə töhfə verən amillərdir.

Son illər ərzində təhsilin səviyyəsinin qaldırılması işində vacib addımlar atılır, «Təhsil haqqında» qanun uzun müzakirələrdən sonra qəbul edilibdir. Ancaq bu sahədə hələ çox iş görülməlidir. Bir daha demək istəyirəm ki, dünyanın ən mütərəqqi təcrübəsi öyrənilməlidir, Azərbaycan gəncləri milli ruhda tərbiyə olunmalıdır. Biz əsrlər boyu başqa ölkələrin, imperiyaların tərkibində yaşamışıq. Ancaq öz milli dəyərlərimizi, ənənələrimizi qoruya bilmişik, saxlaya bilmişik. Öz ana dilimizi saxlaya bilmişik. Nəyin hesabına?! Ona görə ki, Azərbaycan xalqında milli ruh həmişə çox yüksək səviyyədə olmuşdur.

Bu gün qloballaşan dünyada bəlkə də buna daha çox diqqət verilməlidir. Qloballaşma təbii prosesdir və yəqin ki, bu proses müəyyən düzəlişlərlə davam edəcəkdir. Belə olan halda milli dəyərlərə önəm vermək, gənc nəsli milli dəyərlər əsasında tərbiyə etmək xüsusi əhəmiyyət daşıyır. Mən çox şadam ki, Azərbaycanda milli ənənələr güclənir, möhkəmlənir və bu prosesləri daha da sürətləndirmək üçün kompleks tədbirlər görülməlidir. Əlbəttə, təhsil bu işlərdə ən prioritet məsələdir. Mədəni irsimizin öyrənilməsi, ədəbiyyatımızın təbliği, xalq musiqimizin təbliği və öyrənilməsi böyük əhəmiyyət daşıyır. Azərbaycanda bütün bu sahələrə çox böyük əhəmiyyət verilir.

Biz öz iqtisadiyyatımızı inkişaf etdiririk. Azərbaycan iqtisadi cəhətdən artıq oturuşmuş dövlət kimi tanınır. Hesab edirəm ki, biz artıq iqtisadi sahədə keçid dövrünü başa vurmuşuq. Dünyanın aparıcı maliyyə qurumları Azərbaycanda aparılan islahatları çox yüksək qiymətləndirirlər. Dünya İqtisadi Forumu – dünyanın ən mötəbər qurumlarından biri olan bu təşkilat rəqabət qabiliyyətliliyinə görə Azərbaycanı dünya miqyasında 51-ci yerdə görür və bütün MDB məkanında biz bu sahədə birinci yerdəyik. Dünya Bankı 2008-ci ilin hesablamalarına görə Azərbaycanı bir nömrəli islahatçı ölkə kimi tanıdı. Bu onu göstərir ki, bizim uğurlarımızın əsas səbəbi ölkədə aparılan siyasi və iqtisadi

islahatlardır. Hasilat sənayesi sahələrində şəffaflığın təmin edilməsi ilə əlaqədar Azərbaycanın təcrübəsi dünya miqyasında öyrənilir. Birləşmiş Millətlər Təşkilatı Azərbaycanı bu sahə üzrə mükafatlandırıbdır.

Ona görə biz gələcəyə bu prizmadan yanaşmalıyıq. Azərbaycan üçün ən ağır, ən çətin dövr artıq arxada qaldı. Sabitlik dövrü tam bərqərar olundu və biz irəliyə baxmalıyıq. Azərbaycan 20 ildən, 50 ildən sonra necə inkişaf edəcək, hansı resurslar bunu təmin edəcək?!

Dünyada müstəqil sayılan ölkələr çoxdur. Əgər biz bir az dərinə baxsaq görərik ki, onların heç də hər biri müstəqil siyasət aparmaq iqtidarında deyildir. Bunun müxtəlif səbəbləri vardır və bu, təkcə bugünkü siyasi mənzərə deyil, bu, əsrlər boyu belə olubdur. O ölkələr dünyada özünə layiq yeri tutar ki, onlar öz hesabına yaşaya bilsin, başqa ölkələrin yardımına ehtiyacları olmasın. Azərbaycan bu ölkələrdəndir. Baxmayaraq ki, müstəqilliyi əldə edəndə, Azərbaycan çox ağır vəziyyətdə idi. Çünki ölkə iqtisadiyyatı dağılmışdı, ölkədə siyasi proseslər faktiki olaraq ölkəni uçurum kənarına gətirmişdi. XX əsrin 90-cı illərinin əvvəllərində yaşanan siyasi, iqtisadi, hərbi böhran faktiki olaraq müstəqilliyimizi təhlükə altına qoymuşdu. Ancaq buna baxmayaraq, Azərbaycan o dövrdən, xüsusilə ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra uğurla çıxa bilmişdir və bu gün uğurla inkişaf edir. Biz elə etməliyik ki, uzun illər bundan sonra da Azərbaycan öz müstəqil siyasətini apara bilsin. Bunu etmək üçün müxtəlif amillər lazımdır. İlk növbədə, siyasi iradə lazımdır. Digər tərəfdən, xalqla iqtidar arasında birlik, sabitlik, əmin-amanlıq, inkişaf, iqtisadi canlanma, siyasi islahatların, demokratiya proseslərinin sürətləndirilməsi lazımdır. Bütün bu amillər Azərbaycanda var.

Bu il bütün dünya böhran içindədir və biz dünyada gedən proseslərə bələdik. Azərbaycan iqtisadiyyatı doqquz ayda 6,1 faiz artıbdır. Bütün bu nəticələr onu göstərir ki, biz sözün

əsl mənasında, müstəqil dövlətik, müstəqilliyimizi hər şeydən uca tuturuq, müstəqilliyimizin möhkəmləndirilməsi üçün əlimizdən gələni edirik. Bu müstəqilliyi əbədi, dönməz etmək üçün mən bir daha vurğulamaq istəyirəm, hesab edirəm ki, təhsilin səviyyəsi ən vacib rollardan birini oynayır. Azərbaycanda bu istiqamətdə çox vacib işlər görülüb. Bütövlükdə təhsil sahəsində görülən işlər müsbət qiymətləndirilə bilər. Çatışmayan cəhətlər vardır. Onları aradan qaldırmaq üçün biz daha da fəal işləməliyik.

Azərbaycanı irəliyə aparan çox gözəl və milli ruhda böyüyən gənc nəsil yetişir. Müəllimlərin, əlbəttə ki, bu işdə rolu bəlkə də ən önəmlidir. Çünki müəllimlər həm tələbələrə öz biliklərini çatdırırlar, həm də gənc nəslin milli ruhda böyüməsinə böyük təsirləri var. Mən bu fürsətdən istifadə edərək Bakı Dövlət Universitetinin bütün professor-müəllim heyətinə uzun illər çox vacib funksiya daşıdıqlarına görə öz minnətdarlığımı bildirirəm və onlara gələcəkdə yeni uğurlar, tələbələrə isə yaxşı oxumağı, yaxşı biliyə yiyələnməyi və gələcəkdə Azərbaycanın dövlət müstəqilliyinə öz töhfələrini verməyi arzulayıram. Əziz dostlar, bu gözəl yubiley münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı və yeni-yeni uğurlar arzulayıram.

* * *

*Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunan mərasimdə iştirak edən prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva bu təhsil ocağındakı Heydər Əliyev Muzeyinə baxdılar. 1996-cı ildə yaradılmış muzeydə universitetin dünya şöhrətli məzunu, xalqımızın ümummilli lideri, bu ali təhsil ocağının Fəxri doktoru və qayğıkeşi olan dahi şəxsiyyət barədə tarixi sənədlər və materiallar toplanmışdır.*

## LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VALDİS ZATLERSƏ

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Latviya Respublikasının elan edilməsi günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Bu gün Azərbaycan ilə Latviya arasındakı münasibətlər dinamik inkişaf yolundadır. Əminəm ki, mütəmadi görüşlərimiz, genişlənən siyasi dialoqumuz iki ölkə arasındakı münasibətlərin hərtərəfli inkişafına, əlaqələrimizin bütün sahələrdə möhkəmləndirilməsinə daim öz müsbət təsirini göstərəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Latviya xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 noyabr 2009-cu il*

**OMAN SULTANI ƏLAHƏZRƏT
QABUS BİN SƏİDƏ**

Əlahəzrət!

Omanın milli bayramı – Təvəllüd gününüz münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Ümidvaram ki, Azərbaycan ilə Oman arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Oman xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 noyabr 2009-cu il*

**ANQOLA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JOZE EDUARDU DUŞ SANTUŞA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və xalqınıza təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Anqola Respublikası arasında təşəkkül tapmış münasibətlər daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 noyabr 2009-cu il*

## ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ

Hörmətli cənab Prezident!

Əfqanıstan İslam Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Əfqanıstan münasibətlərinin, xalqlarımız arasındakı dostluq və əməkdaşlıq ənənələrinin möhkəmləndirilməsi və inkişafı yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Əfqanıstan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 noyabr 2009-cu il*

## BAKI BƏRK MƏİŞƏT TULLANTILARININ YANDIRILMASI ZAVODUNUN TƏMƏLQOYMA MƏRASİMİ

*3 noyabr 2009-cu il*

*Noyabrın 3-də paytaxtın Sabunçu rayonu Balaxanı qəsəbəsinin yaxınlığında Bakı bərk məişət tullantılarının yandırılması zavodunun təməlqoyma mərasimi keçirilmişdir.*

*Prezident İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Mərasim iştirakçıları dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Məlumat verildi ki, dövlətimizin başçısının müvafiq sərəncam və göstərişlərinə əsasən ölkə ərazisində ətraf mühitin sağlamlaşdırılması ilə bağlı ekoloji tədbirlər davam etdirilir. Prezident İlham Əliyevin 2006-cı il 28 sentyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006–2010-cu illər üçün kompleks Tədbirlər Planı»na əsasən ölkə ərazisinin qısa vaxt ərzində ekoloji cəhətdən təmiz məkana çevrilməsi məqsədi ilə müvafiq tədbirlər görülür. Bu məqsədlə dövlət başçımızın 2008-ci il 6 avqust tarixli Sərəncamı ilə Bakı Şəhər İcra Hakimiyyətinin Mənzil-Kommunal Təsərrüfatı Departamentinin bazasında yaradılan «Təmiz şəhər» ASC məişət tullantılarının toplanması və emalı üzrə müasir standartlara uyğun vahid sistemin yaradılması prosesini həyata keçirir. Artıq ölkə ərazisində məişət tullantılarını emal edəcək zavodların inşasına start verilmişdir. Bu emal zavodlarından biri də Balaxanı qəsəbəsində inşa olunacaq Bakı bərk məişət tullantılarının yandırılması zavodudur.*

*Sonra yeni zavodun təməli qoyuldu. Dövlətimizin başçısı gilizi təmələ atdı, özülə beton qarışığı tökən qurğunun düyməsini basdı.*

*Prezident İlham Əliyev inşaatçıları salamladı.*

**İ l h a m Ə l i y e v:** Bu gün Bakıda çox əlamətdar hadisə baş verir. Azərbaycanda məişət tullantıları zavodunun tikintisi başlayır. Çox önəmli və əlamətdar hadisədir. Bu zavodun istifadəyə verilməsi nəticəsində Bakının və Abşeron yarımadasının ekoloji vəziyyətinin böyük dərəcədə yaxşılaşması nəzərdə tutulur. Azərbaycan dövləti ekologiya məsələlərinin həllinə çox böyük diqqət göstərir. Üç il bundan əvvəl geniş ekoloji proqram qəbul edilibdir və uğurla icra olunur. Gələn il Azərbaycanda «Ekologiya ili» elan edilibdir və müxtəlif tədbirlər görüləcəkdir. Kompleks tədbirlər nəticəsində qısa müddətdə Bakı və Abşeron yarımadası çox təmiz bölgəyə çevriləcəkdir. Bu zavodun inşası, bölgələrdə, çaylarda təmizləyici qurğuların tikintisi, ağacların əkilməsi, Bakının kanalizasiya sisteminin yeniləşməsi və başqa tədbirlər ölkə üçün mühüm vəzifəni icra etməyə imkan yaradacaqdır.

Azərbaycan inkişaf edir. Biz bu gün böyük layihələr icra edirik. Bu layihə maliyyə resursları baxımından çox nəhəng layihədir və Azərbaycanın dövlət büdcəsinin vəsaiti hesabına icra ediləcəkdir.

Mən çox şadam ki, məşhur Fransa şirkəti bu zavodun tikintisində əsas podratçı kimi iştirak edəcəkdir. Bu şirkət müxtəlif inkişaf etmiş ölkələrdə bir neçə belə böyük zavod tikib, onların bu işdə təcrübələri vardır. Əminəm ki, bu zavod vaxtında və keyfiyyətlə tikiləcəkdir. Zavodun tikintisi və istismarı zamanı çox sayda iş yerləri açılacaqdır.

Bir sözlə, zavodun tikintisi Azərbaycan üçün əlamətdar və yeni bir hadisədir. Ekologiya, insanların sağlamlığı, təmiz su, təmiz hava – bunlar hər bir inkişaf etmiş ölkəni fərqləndirən əlamətlərdir. Mən bu zavodun təməl daşının qoyulması münasibətilə sizi ürəkdən təbrik edirəm və inşaatçılara bu zavodun tikintisində çox keyfiyyətli iş

görməyi arzulayıram. Bizim fransalı tərəfdaşlarımızı da bir daha salamlayıram. Deyə bilərəm ki, bu zavodun tikintisi, eyni zamanda, Fransa–Azərbaycan iqtisadi əlaqələrinin inkişafına mühüm töhfə verəcəkdir. Bu əlaqələr yüksək səviyyədədir. Fransa şirkətləri Azərbaycanda böyük investisiyalar qoyur, eyni zamanda, Azərbaycanda dövlət tərəfindən icra edilən layihələrdə də podratçı kimi fəal iştirak edirlər.

Sizi bir daha təbrik edirəm. Sizə uğurlar arzulayıram.

*Sonra dövlətimizin başçısı zavodun tikintisi ilə bağlı bir daha tapşırıq və tövsiyələrini verdi.*

## ŞAHMAT ÜZRƏ AVROPA ÇEMPİONATININ QALİBİ OLMUŞ KİŞİLƏRDƏN İBARƏT AZƏRBAYCAN MİLLİ KOMANDASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 noyabr 2009-cu il*

*Noyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Serbiyada keçirilmiş şahmat üzrə Avropa çempionatının qalibi olan kişilərdən ibarət Azərbaycan milli komandasının üzvlərini qəbul etmişdir.*

*Prezident İlham Əliyev şahmatçıları qələbə münasibətilə təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Əziz dostlar, sizi böyük qələbə münasibətilə ürəkdən təbrik edirəm. Azərbaycan şahmatçıları Avropa çempionatının qalibləridir. Bu, böyük və tarixi qələbədir. Şahmatçılarımız çox istedadlıdırlar, müxtəlif beynəlxalq yarışlarda, turnirlərdə yaxşı nəticələr göstərirlər və FİDE-nin reytinqində də yüksək yerləri tuturlar. Ancaq ilk dəfədir ki, şahmatçılarımız komanda hesabında birinci olublar. Bu, böyük qələbədir, böyük sevincdir.

Yaxşı bilirsiniz ki, ən güclü şahmat komandaları Avropa ölkələrindədir. Avropada birinci olmaq, dünya miqyasında birinci olmaq deməkdir. Bu doğrudan da böyük uğurdur. Sizi bütün bu gözəl hadisələr, qələbələr münasibətilə bir daha ürəkdən təbrik edirəm.

Bu qələbə bir daha Azərbaycanın imkanlarını, Azərbaycan xalqının intellektual potensialını göstərir və Azərbaycanın idman sahəsində uğurlarını bir daha təsdiq edir. İdman növlərinin, demək olar ki, əksəriyyətində intellektual

potensial mühüm rol oynayır. Ancaq şahmat elə bir idman növüdür ki, burada sırf intellekt mübarizəsi gedir. İdmançılarımızın – şahmatçılarımızın belə gözəl çıxışları, belə yüksək nailiyyətləri hamımızı ürəkdən sevindirir. Bir də onu göstərir ki, Azərbaycanın idman potensialı və intellektual potensialı çox yüksək səviyyədədir.

Qadınlardan ibarət komandamız da yaxşı nəticə göstərmişdir, üçüncü-dördüncü yerləri tutmuşdur. Bu da çox yaxşı nəticədir və mən qadınları da bu nəticə münasibətilə ürəkdən təbrik edirəm.

Onu da qeyd etmək istəyirəm ki, komandamızın üzvlərinin yaş həddi də çox aşağıdır, gənclərdən ibarətdir. Bu sevindirici haldır. İdmançılarımızın hamısı müstəqillik dövründə böyümüşlər, müstəqillik dövründə oxumuşlar, tərbiyə almışlar. Bu onu göstərir ki, müstəqil Azərbaycan belə gözəl idmançıları, belə ağıllı insanları yetişdirir.

Azərbaycanda şahmat ənənələri həmişə güclü olubdur. Keçən əsrin 70-ci illərində Heydər Əliyevin təşəbbüsü ilə bütün rayonlarda şahmat məktəbləri tikilmişdi. Bu da şahmatın inkişafına böyük təkan vermişdir. Düzdür, müstəqilliyimizin ilk illərində şahmat evlərinin böyük əksəriyyəti dağıldı, bağlandı, bəziləri özəlləşdirildi, satıldı. Ancaq bu gün bütün bölgələrdə şahmat məktəbləri ya bərpa edilir, ya da ki, yenidən tikilir. Mən bölgələrdə tez-tez oluram və bir neçə şahmat evinin açılışında şəxsən iştirak etmişəm. Çox şadam ki, bu gözəl ənənələr bərpa edilir. Belə olan halda idmançılarımızın yüksək nəticələr əldə etmələri ilə əlaqədar, əminəm ki, şahmat məktəblərinə axın daha da sürətlənəcək, uşaqlarımız idmanın bu gözəl növü ilə daha da kütləvi şəkildə məşğul olacaqlar.

Mən bir daha sizin hamınızı ürəkdən təbrik etmək istəyirəm – ilk növbədə idmançıları, şahmatçıları, onların məşqçilərini, federasiya rəhbərliyini. Bu doğrudan da böyük və tarixi qələbədir, siz bu qələbəyə layiqsiniz. Siz uzun illər bu

qələbəyə doğru addımlamısınız və bu qələbə sizin fəaliyyətinizin məntiqi nəticəsidir.

Bu, əslində, Azərbaycanın inkişafını göstərir.

Bütün başqa idman yarışlarında da idmançılarımız ancaq qələbə arzusu ilə yarışa qatılırlar. Bu, artıq reallıqdır. Azərbaycanda idmanın, demək olar ki, bütün növləri inkişaf edir və bu il – 2009-cu ildə müxtəlif idman növlərində Azərbaycan idmançıları dünya miqyasında, Avropa çempionatlarında birinci yerləri tutmuşlar. Güləş, avarçəkmə, digər idman növlərində, indi şahmat üzrə – bu, böyük tarixi qələbədir. Azərbaycan vətəndaşları bir növ bu qələbələrə öyrəşiblər. Hesab edilir ki, bu, daim belə olmalıdır. Amma heç də hər zaman belə olmur. Bu, Azərbaycanın reallıqlarıdır.

Şahmatçılarımız həm fərdi oyunlarda, həm də komanda şəklikdə çox güclüdürlər. Bu, ölkənin potensialını göstərir. Bir ölkədə bir görkəmli şahmatçı ola bilər. Ancaq bir neçə güclü idmançının, şahmatçının yetişdirilməsi üçün münbit şərait olmalıdır. Ölkənin ümumi inkişafı olmalıdır. İnkişaf etməmiş, yaxud da ki, ağır vəziyyətdə yaşayan ölkələrdə çox nadir hallarda görkəmli idmançılar belə kütləvi şəkildə yetişir. Azərbaycanda mövcud şərait, ümumi inkişaf, müasirləşmə prosesləri o qədər güclüdür ki, bu, istənilən sahəyə öz təsirini göstərir. Şahmatçılarımızın həm intellektual səviyyəsi, həm vətənpərvərlik hissləri qələbəni şərtləndirir. Bu bir daha onu göstərir ki, biz böyük işlərə qadirik, bizim təşəbbüslərimiz yaxşı nəticələrlə başa çatır.

Bu qələbə Azərbaycan şahmat məktəbinin tarixinə qızıl hərflərlə yazılmış bir qələbədir və dünya şahmat aləmində də bu, artıq tarixdir. Bu tarixi siz yazmısınız. Əminəm ki, bütün Azərbaycan xalqı bu qələbəyə görə sizə minnətdardır. Əminəm ki, siz gələcək yarışlarda eyni əzmkarlıq və mübarizə ruhu ilə yeni qələbələrə doğru uğurla gedəcəksiniz. Bir daha sizi təbrik edirəm.

## BAKIDA «BAKUTEL–2009» 15-ci YUBİLEY BEYNƏLXALQ TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SƏRGİSİNİN AÇILIŞI MƏRASİMİ

*4 noyabr 2009-cu il*

*Noyabrın 4-də Bakıda Heydər Əliyev adına İdman-Konsert Kompleksində «BakuTel–2009» 15-ci Yubiley Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgisi açılmışdır.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*Sərginin ekspozisiyaları ilə yaxından tanış olan dövlətimizin başçısına məlumat verildi ki, son 15 ildə «BakuTel–2009» sərgisi 26 ölkədən 800-dən çox şirkəti qəbul etmişdir.*

*Builki tədbirdə isə dünyanın 16 ölkəsindən 112 şirkət iştirak edir. Ötən illə müqayisədə iştirakçıların sayı 5 faiz artmışdır. Yerli şirkətlər ümumi iştirakçıların 55 faizini təşkil edir. İteca Caspian və onun tərəfdaşı Böyük Britaniyanın İTE Group PLC şirkətlərinin təşkilatçısı olduğu sərgi Xəzəryanı və Cənubi Qafqazda keçirilən bu cür ən böyük tədbirdir. Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tədbirin keçirilməsinə rəsmi dəstək verir. Bundan əlavə, BMT, Beynəlxalq Telekommunikasiya İttifaqı, Rabitə sahəsində Regional Birlik, İnformasiya-Kommunikasiya Texnologiyaları və İnkişaf üzrə Qlobal Alyans və digər nüfuzlu beynəlxalq təşkilatlar da sərginin keçirilməsini dəstəkləyir.*

*Azərbaycanda informasiya və kommunikasiya texnologiyaları sahəsində bazarların təyini, istehlakçılarla səmərəli əlaqələrin qurulması baxımından bu sərgi mühüm rol oynayır. Hər il bu tədbirdə 3G və 4G texnologiyaları, həmçinin nano-*

*materialların istifadəsi perspektivi və bir sıra digər tədqiqatlar da geniş təqdim olunur. Sərgi neft kapitalını insan kapitalına çevirməyi qarşıya başlıca məqsəd qoyan Azərbaycan dövlətinin bu sahəyə prioritet əhəmiyyət verdiyinin göstəricisidir.*

*Rabitə və İnformasiya Texnologiyaları naziri Əli Abbasov və tədbirin digər təşkilatçıları dövlətimizin başçısına sərgi barədə ətraflı məlumat verdilər. Bildirildi ki, sərgiyə maraq artdığından tədbirə yeni iştirakçılar da qoşulmuşlar.*

*Prezident İlham Əliyev respublikamızda fəaliyyətini genişləndirən «Azərfon» şirkətinin ekspozisiyası ilə tanış oldu.*

*Bildirildi ki, bu iqtisadi qurum 3G yeni nəsil şəbəkələrinin və digər texnologiyaların ölkəmizdə geniş tətbiqi üçün silsilə tədbirlər həyata keçirmişdir.*

*Ekspozisiyada respublikamızın bölgələri arasında 3G şəbəkəsi vasitəsilə ilk videozəng təşkil olundu.*

*Prezident İlham Əliyev «Azərfon»un Naxçıvan şəhərindəki satış üzrə meneceri Natiq Paşayevlə videozənglə əlaqə yaratdı.*

**N a t i q  P a ş a y e v**: Hörmətli cənab Prezident, Sizi Naxçıvan şəhərindən mən, Natiq Paşayev salamlayıram. «Azərfon» şirkəti böyük fəxrlə elan edir ki, 3G şəbəkəsi artıq Naxçıvan şəhərində də quraşdırılmışdır və yaxın zamanlarda abunəçilərin istifadəsinə veriləcəkdir.

Cənab Prezident, Bakı və Naxçıvan şəhərləri arasında baş tutmuş ilk videozəng münasibətilə hamını təbrik edirik. Diqqətinizə görə təşəkkür edirəm.

**İ l h a m  Ə l i y e v**: Sağ ol, səni də təbrik edirəm. Bu yenilik əslində Azərbaycanda bu sahədə gedən inkişafı göstərir. Mən çox şadam ki, bir il əvvəl mənə verilən vədlər yerinə yetirildi və bu gün biz səninlə videogörüntü ilə danışırıq. Bütün naxçıvanlılara mənim salamlarımı çatdır.

**N a t i q  P a ş a y e v**: Təşəkkür edirəm, cənab Prezident!

# BEYNƏLXALQ TELEKOMMUNİKASİYA İTTİFAQININ BAŞ KATİBİ HAMADUN TURE İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 noyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Beynəlxalq Telekommunikasiya İttifaqının Baş katibi Hamadun Tureni qəbul etmişdir.*

*Baş katib Hamadun Ture ölkəmizdə keçirilən Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgisində yenidən iştirakından məmnunluğunu bildirmişdir. O, Azərbaycanda informasiya və kommunikasiya texnologiyaları sahəsində inkişafa nail olunduğunun əhəmiyyətini qeyd etmişdir. Hamadun Ture bu sektorda ölkəmizin həyata keçirdiyi işlərin gələcəkdə də uğurlu nəticələr verəcəyinə əminliyini bildirmişdir.*

*Dövlətimizin başçısı qeyd etmişdir ki, informasiya və kommunikasiya texnologiyaları sahəsi Azərbaycanda nisbətən yaxın zamanlarda inkişafa başlasa da, bu sektorda artıq böyük irəliləyişlər əldə edilmişdir. «BakuTel–2009» 15-ci Yubiley Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgisinin əhəmiyyətini qeyd edən prezident İlham Əliyev sərgiyə marağın getdikcə artdığını və ildən-ilə daha da genişləndiyini bildirmişdir.*

## GÜRCÜSTAN PATRİARX KATALİKOSU II İLYANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 noyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Gürcüstan Patriarx Katalikosu II İlyanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Gürcüstan arasında münasibətlərin bütün istiqamətlərdə uğurlu inkişafından məmnunluğunu bildirdi. Prezident İlham Əliyev nüfuzlu din xadimlərinin iştirakı ilə regionumuzda həyata keçirilən dinlərarası dialoqun önəmini vurğuladı və bunun regionda qarşılıqlı anlaşmaya, əməkdaşlığa və təhlükəsizliyin bərqərar olunması baxımından böyük imkanlar yaratdığını qeyd etdi. Dövlətimizin başçısı Gürcüstan Patriarx Katalikosu II İlyanın Bakıda keçiriləcək «Dinlərarası dialoq: qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru» beynəlxalq konfransında iştirakının əhəmiyyətini vurğuladı və onun ölkəmizə səfərinin uğurlu keçəcəyinə ümidvar olduğunu bildirdi.*

*Gürcüstan Patriarx Katalikosu II İlya gürcü Pravoslav kilsəsi, gürcü xalqı və şəxsən öz adından dövlətimizin başçısını salamlayaraq dedi:* «Bir daha demək istəyirəm ki, Gürcüstanda Sizi yaxşı tanıyırlar və yaşadığımız mürəkkəb dövrdə yeritdiyiniz müdrik siyasətə görə Sizi sevirlər».

## ƏFSANƏVİ NEFT DAŞLARININ 60 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM

*5 noyabr 2009-cu il*

*Əfsanəvi Neft Daşlarının 60 illik yubileyi münasibətilə noyabrın 5-də dünyanın səkkizinci möcüzəsi adlandırılan dəniz şəhərində təntənəli mərasim keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təntənəli mərasimdə iştirak etmək üçün Neft Daşlarına gəldi.*

*Dövlətimizin başçısını dəniz neftçiləri hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.*

*Dövlətimizin başçısı Neft Daşlarında neftçilərin mədəniyyət və istirahət parkı ilə tanış oldu. Müasir tələblər səviyyəsində qurulan parkda neftçilərin istirahəti üçün bütün infrastruktur yaradılmış, yaşıllaşdırma işləri aparılmış, ərazinin landşaftında yeni dekorativ bitkilərdən istifadə olunmuşdur. Parkda 45 metr hündürlüyündə Dövlət bayrağı ucaldılmışdır.*

*Prezident İlham Əliyev Heydər Əliyev Muzeyinin açılışında iştirak etdi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, muzey ulu öndərin ictimai-siyasi və dövlətçilik fəaliyyəti ilə bağlı eksponatlarla zəngindir. Burada ümummilli liderin büstü qoyulmuş, onun neft sənayesinin inkişafına göstərdiyi diqqət və qayğısını əks etdirən çoxsaylı tarixi fotolar, ulu öndərin dövlətçilik fəaliyyətinə həsr olunmuş kitablar saxlanılır. Muzeydə ulu öndər Heydər Əliyevin neft strategiyasının prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini əks etdirən eksponatlara*

*da geniş yer ayrılmışdır. Muzeyin ən müasir avadanlıqlarla təmin olunmuş konfrans zalında dahi rəhbərin irsinin öyrənilməsi ilə bağlı müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılmışdır.*

*Prezident İlham Əliyev muzeyin Xatirə kitabına ürək sözlərini yazdı.*

*Sonra dövlətimizin başçısı Neft Daşlarında 1957-ci ilin noyabrında Xəzəri fəth edərkən dənizdə həlak olmuş neftçilərin xatirəsinə ucaldılmış abidə kompleksini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Burada Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş şəhid neftçilərin xatirəsinə də abidə ucaldılmışdır. Prezident İlham Əliyev Qarabağ uğrunda döyüşlərdə şəhid olmuş 17 neftçinin xatirəsinə ehtiramını bildirərək, abidə önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyev mədəniyyət və istirahət parkında neftçilərin mənalı istirahətinin təşkili məqsədilə tikilmiş ikimərtəbəli «Çay evi» ilə tanış oldu.*

*Dövlətimizin başçısına bu yaxınlarda 60 illik yubileyini qeyd etməyə hazırlaşan Xəzər Dəniz Neft Donanması haqqında ətraflı məlumat verildi. Hazırda Xəzərdə bu nadir donanmanın 264 gəmidən ibarət olduğu, onlardan 200-nün gündəlik reysə çıxdığı diqqətə çatdırıldı, ən böyük gəmilərin maketi nümayiş olundu.*

*Prezident İlham Əliyev muzeyin eskiz layihəsi ilə tanış oldu. Sonra dövlətimizin başçısı Neft Daşlarında yeni yaradılmış idman zalındakı şəraitlə tanış oldu. Məlumat verildi ki, neftçilərin sağlamlıqlarını möhkəmləndirmələri, bədən tərbiyəsi ilə məşğul olmaları üçün idman zalında müasir trenajorlar, stolüstü tennis və bilyard stolları qoyulmuşdur.*

*Prezident İlham Əliyev «28 May» Neft və Qazçıxarma İdarəsinin qazın ilkin hazırlanması, nəqli və kompressor təsərrüfatı sexində 2 saylı sıxıcı kompressor stansiyasının açılışında iştirak etdi.*

*Dövlətimizin başçısı əvvəlcə stansiyanın texnoloji sxemi ilə tanış oldu. Məlumat verildi ki, bu stansiyanın əsas funksiyası aşağıtəzyiqli səmt qazının təzyiqini artıraraq sahilə nəql etməkdən ibarətdir. Bu məqsədlə stansiyadakı 9 kompressorun sayı artırılaraq 16-ya çatdırılmış, nəticədə məhsuldarlıq sutkada 5,8 milyon kubmetrdən 11 milyon kubmetrə yüksəlmişdir. Bu stansiya «Günəşli» yatağından gələn səmt qazını sahilə iki pillədə ötürəcəkdir.*

*Prezident İlham Əliyev stansiyanın işə düşməsini bildirən düyməni basdı.*

*Dövlətimizin başçısı yubiley mərasimində iştirak etmək üçün mədəniyyət evinə gəldi. Burada Neft Daşlarının 60 illik yubileyinə həsr olunan fotosərgi təşkil edilmişdir.*

*Sonra dövlətimizin başçısı Neft Daşlarının 60 illiyinə həsr olunan təntənəli mərasimdə iştirak etdi.*

*Əvvəlcə əfsanəvi Neft Daşlarının tarixinə və bu gününə həsr edilmiş film nümayiş olundu.*

*Sonra prezident İlham Əliyev mərasimdə nitq söylədi.*

**Azərbaycan prezidenti İlham Əliyevin nitqi**

Əziz neftçilər, əziz dostlar!

Mən sizin hamınızı Neft Daşlarının 60 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı və gələcək işlərinizdə uğurlar arzulayıram.

Bu gün nümayiş etdirilən film Neft Daşlarının şanlı tarixini göstərir. Dünya miqyasında dənizdə ilk dəfə olaraq neft çıxarılması məhz Azərbaycan neftçiləri tərəfindən başlanmışdır. Bu gün Neft Daşları yaşayır. Neft Daşlarında aparılan quruculuq-abadlıq işləri məni çox sevindirir.

Beş il əvvəl biz sizinlə bərabər bu salonda Neft Daşlarının 55-ci ildönümünü qeyd etdik. Qısa müddət – cəmi 5 il ərzində burada görülmüş işlər və bu gün gördüklərim məni çox sevindirir. Həm neftçilərin məişət şəraiti yaxşılaşır, həm də Neft Daşları abadlaşır, gözəlləşir. Neft Daşlarında Azər-

baycan neft sənayesi üçün əvəzolunmaz texniki qurğular yaradılır. Bu gün biz yeni kompressor stansiyasının açılışını bərabər qeyd etdik. Beləliklə, Azərbaycanın neft-qaz potensialının gücləndirilməsi və müasirləşməsi üçün çox vacib addım atılmışdır.

Bu gün filmdə göstərilən maraqlı tarixi məqamlar bir daha bunu əyani şəkildə sübut edir. Neft Daşları Azərbaycan xalqının, Azərbaycan dövlətinin ayrılmaz bir dəyəridir, çox gözəl inkişaf nümunəsidir. Azərbaycanda neftçilər bütün dövrlərdə böyük hörmətə malik adamlar olmuşlar, bu gün də belədir. Neftçi peşəsi çox şərəfli peşədir və neftçilər həmişə dövlət tərəfindən yüksək qiymətləndirilir və bundan sonra da belə olacaqdır. Çox vacibdir ki, neftçilərin məişət şəraiti, iş şəraiti, sosial vəziyyəti daim diqqət mərkəzində olsun. Neft Daşlarının inkişafı bunu göstərir. Gələcəkdə daha da böyük işlər görüləcəkdir. Azərbaycan neft-qaz potensialının gücləndirilməsi üçün daha da böyük işlər görəcəkdir.

Dünyada sənaye üsulu ilə ilk neft Azərbaycanda hasil edilmişdir, dənizdə ilk neft Azərbaycanda hasil edilmişdir. Bu gün müstəqil Azərbaycan neft-qaz sahəsində yenə də öndə gedən ölkələrin sırasındadır. Bu gün dünyada enerji təhlükəsizliyi məsələləri qaldırılanda, ilk növbədə Azərbaycan haqqında söhbət aparılır. Məhz Azərbaycan neftçiləri tərəfindən yaradılmış bu sərvət bu gün ölkəmizin müstəqil ölkə kimi yaşamasına şərait yaradır.

Azərbaycan öz neft-qaz potensialını çox böyük məharətlə və müdrikliklə realizə edir. Həm 1970–80-ci illərdə, həm İkinci dünya müharibəsi illərində, həm bu gün müstəqillik dövründə Azərbaycan nefti həmişə olduğu kimi, Azərbaycan xalqının rifahı, Azərbaycan dövlətinin inkişafı naminə öz rolunu oynayır. İkinci dünya müharibəsi zamanı Azərbaycan nefti olmasaydı, müharibənin nəticələri tam başqa cür ola bilərdi. Faşizm üzərində Qələbədə Azərbaycan neftinin, Azərbaycan neftçilərinin müstəsna xidmətləri vardır. Ondan sonrakı illərdə neft sənayesində, o cümlədən Neft

Daşlarında aparılan işlər yeni layihələrin inkişafına təkan vermişdir. Əgər vaxtilə Neft Daşlarında Azərbaycan neftçiləri ağır, çətin şəraitdə böyük qəhrəmanlıq göstərərək işlərə başlamasaydılar, ondan sonrakı layihələr ya gecikə, ya ümumiyyətlə, həll olunmamış qala bilərdi. Bu gün Azərbaycanın neft-qaz potensialının əksəriyyətini təşkil edən «Azəri», «Çıraq», «Günəşli» yataqlarının kəşfiyyatı və işlənilməsi məhz 60 il əvvəl burada qoyulan təməl üzərində reallaşır.

1970–80-ci illərdə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda neft sənayesinin inkişafı istiqamətində çox əlamətdar və tarixi əhəmiyyət daşıyan addımlar atıldı. Bu filmdə onların bir hissəsi göstərildi. Əgər Bakı Dərin özüllər zavodu tikilməsəydi «Əsrin kontraktı»nın icrası bir neçə il yubana bilərdi. Yaxud da «Əsrin müqaviləsi»nin təsdiq edilmiş şərtlər bizim üçün daha da ağır ola bilərdi. Əgər bizim çox inkişaf etmiş neft infrastrukturumuz, xüsusi gəmilərimiz və platformalarımız olmasaydı, «Əsrin müqaviləsi»nın imzalanması hesab edirəm ki, bizə o qədər böyük səmərə verməzdi, ümumiyyətlə, xarici şirkətlər 1994-cü ildə Azərbaycana sərmayə qoyacaqdı, qoymayacaqdı, bu hələ sual doğururdu.

1970–80-ci illərdə neftayırma sahəsində, neft hasilatı sahəsində çox böyük və önəmli addımlar atılmışdır. Azərbaycan müstəqilliyi bərpa edəndə, əlbəttə ki, o illərdə, ondan əvvəlki illərdə görülmüş işlər bizim inkişafımızı müəyyən etdi.

Hətta biz yaxşı xatırlayırıq ki, özümüzü təbii qazla təmin edə bilmirdik və bir müddət xaricdən qaz alırdıq. Ancaq bu gün Azərbaycan öz enerji təhlükəsizliyi məsələlərini tam şəkildə həll edib. Azərbaycan dünya miqyasında etibarlı tərəfdaş kimi öz mühüm rolunu oynayır. Azərbaycanın neft-qaz resursları başqa ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində çox vacib rol oynayır.

Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışından sonra – 1993-cü ildən bu sahədə vəziyyət dəyişmiş və müsbətə doğru meyillər görünməyə başlanmışdır. Qısa müddətdə «Əsrin kontraktı» imzalanmışdır. «Əsrin müqaviləsi»nın Azərbaycan tarixində xüsusi yeri vardır və Azərbaycanın müstəqil ölkə kimi yaşamasında bu rol əvəzolunmazdır. O vaxt bizim nə imkanlarımız var idi, nə də vəsaitimiz. Ölkədə sənaye sahəsində hələ ki, tənəzzül yaşanırdı, iqtisadiyyat, demək olar ki, çökmüşdü. Müstəqil ölkə üçün yaşamaq çox çətin idi. Müstəqilliyimiz, demək olar ki, şübhə altında idi. Məhz o çətin illərdə Azərbaycana investisiyalar gətirmək, Azərbaycanı dünya birliyinə etibarlı tərəfdaş kimi təqdim etmək, xarici investorlar üçün münbit şərait yaratmaq, Azərbaycanın dövlət maraqlarını tam şəkildə qorumaq böyük siyasi təcrübə, bilik və məharət tələb edirdi. O vaxt Azərbaycanın xarici şirkətlərlə əməkdaşlığı bölgədə birmənalı qarşılanmırdı. «Əsrin müqaviləsi»nin imzalanması böyük siyasi cəsarət tələb edirdi. Ancaq Heydər Əliyevin qətiyyəti və Azərbaycan xalqının dəstəyi ilə biz ona nail ola bilmişik. Bu gün – 15 il keçəndən sonra biz görürük ki, «Əsrin kontraktı»nın imzalanması Azərbaycanın qarşısında yeni inkişaf yolunu açmışdır.

O illər yaxşı xatirimizdədir. Azərbaycan özünü dünyaya etibarlı tərəfdaş kimi təqdim etdi və beləliklə, böyük investisiyaları ölkəmizə cəlb etdi. Bütün gənc, müstəqil ölkələr öz inkişafı üçün ilkin addımları birinci növbədə xarici investisiyalar hesabına atırlar. Azərbaycan da o yolu keçmişdir. Ancaq bu gün özümüz başqa ölkələrə investisiya qoyuruq. Azərbaycan Dövlət Neft Şirkəti bu gün xaricdə investisiyalar qoyur. Yəni biz artıq xarici sərmayədən asılı deyilik. Əgər xarici sərmayələr Azərbaycana qoyularsa, əlbəttə ki, biz bundan çox məmnun olarıq. Qoyulmazsa da bu bizim inkişafımıza heç bir təsir etməyəcəkdir.

Bizim indi əsas vəzifəmiz investisiyaları neft-qaz sektoruna deyil, qeyri neft-qaz sektoruna cəlb etməkdir. Çünki

neft-qaz sahəsində biz istədiyimizə nail ola bilmişik. Azərbaycan indi böyük neft-qaz hasilatçısıdır. Bizim yeddi neft-qaz kəmərimiz vardır – üçü neft kəməri, dördü qaz kəməri. Biz nefti də, qazı da müxtəlif ölkələrə ixrac edirik. Neft sənayesinin inkişafı sayəsində elektrik enerjisini də ixrac edirik.

Böhranlı 2009-cu ildə maddi sıxıntılar yaşamırıq. Əksinə, Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, hətta 2009-cu ildə iqtisadiyyatı inkişaf edib və bu ilin 9 ayında iqtisadiyyat 6 faizdən çox artıb. Bütün bunların təməlində, əlbəttə ki, Azərbaycanın neft strategiyası dayanır. Dövlət Neft Şirkətinin xarici tərəfdaşlarla uğurlu əməkdaşlığı bugünkü reallıqları yaradıbdır. Azərbaycan fəxr edir ki, biz dünyada müstəqil siyasət aparırıq.

Əlbəttə ki, iqtisadi müstəqillik bizə siyasi müstəqillik də verir. Biz öz sözümüzü qətiyyətlə deyirik. Biz bölgədə yaşanan proseslərə daim öz münasibətimizi bildiririk. Artıq bölgədə Azərbaycanın maraqları nəzərə alınmadan heç bir təşəbbüs reallaşa bilməz. Bu, artıq reallıqdır və bu reallığı biz özümüz yaratmışıq. Nə iqtisadi, nə siyasi, nə enerji, nə nəqliyyat sahəsində heç bir layihə icra oluna bilməz. Azərbaycan bölgənin çox güclü ölkəsinə çevrilibdir və bu müstəqil siyasəti aparmaq üçün iqtisadi imkanlar bizə şərait yaradır. Əgər ancaq iqtisadi imkanlar olsaydı və başqa amillər olmasaydı, müstəqil siyasət aparmaq, Azərbaycan xalqının maraqlarını tam şəkildə qorumaq bizim üçün yenə də çətin olardı. Bizdə iqtisadi müstəqilliklə bərabər, çox güclü siyasi iradə vardır. Azərbaycan xalqının maraqlarını bütün sahələrdə və istənilən formada müdafiə edirik. Bu amillərin sintezi Azərbaycanın hərtərəfli inkişafı üçün şərait yaradır. Azərbaycanı dünya miqyasında böyük hörmətə malik olan ölkə kimi tanıdır və ən önəmlisi Azərbaycan xalqının rifah halının yaxşılaşmasına xidmət edir.

Cəmi beş il keçibdir. Siz – Neft Daşlarının əməkdaşları burada işləyirsiniz, yaşayırsınız. Siz bu müsbət dəyişiklikləri

görürsünüz və bu dəyişikliklər hər yerdə vardır. Bakı şəhəri nə qədər gözəl olubdur, nə qədər gözəl yollar, xiyabanlar, parklar, insanlar üçün istirahət yerləri, məktəblər, tibb ocaqları tikilibdir. İndi Azərbaycanın bölgələrində gedən proseslər bəzi ölkələrin paytaxtlarında gedən proseslərdən daha da dəyərli və qiymətlidir, inkişaf çox sürətlidir. Hər yerdə inkişaf, hər yerdə yenilik, hər yerdə müasirlik – nəyin hesabına? Ancaq və ancaq öz siyasi iradəmizin hesabına.

Bütün bunları xatırlatmaqla bir daha demək istəyirəm ki, neft sənayesinin və neftçilərin ölkəmizin inkişafında çox böyük rolu, çox böyük xüsusi çəkisi vardır. Bu, bütün dövrlərdə belə olub. Ancaq 1991-ci ilə qədər Azərbaycan müstəqil dövlət deyildi. Ancaq biz Azərbaycanda yaranan o sərvətlərdən – əlbəttə ki, onların bir hissəsi Azərbaycanın inkişafına çox böyük təkan vermişdir – öz təbii resurslarımızdan müstəqil şəkildə istifadə edə bilmirdik. Əgər o vaxt, 1950-ci, 1960-cı, 1970-ci illərdə Azərbaycan müstəqil ölkə olsaydı, görün indi nə qədər inkişaf edərdi. 1993-cü ildən bu günə qədər keçdiyimiz uğurlu yol onu göstərir ki, Azərbaycan xalqı böyük xalqdır. Biz böyük nailiyyətlərə nail olmuşuq. Biz ölkəmizi gücləndirmişik. Neft-qaz potensialımızı böyük dərəcədə artıra bilmişik. Bu il Azərbaycanda 50 milyon ton neft hasil ediləcəkdir.

Bu, rekord göstəricidir və biz çalışmalıyıq ki, bu müsbət dinamika və bu hasilatın davamı təmin edilsin.

Bu gün Azərbaycan dünyada və Avropada daha çox qaz ölkəsi kimi tanınır. Bu da müasir reallıqdır. Qaz sahəsi heç vaxt Azərbaycanda ön planda deyildi. Amma bu gün qaza daha da böyük tələbat vardır. Qaz hasilatı konkret bazarlara bağlandığına görə, əlbəttə ki, qaz siyasətində vəziyyət neft siyasəti ilə müqayisədə başqadır. Biz buna da hazırıq. Bu gün mənə verilən məlumata görə, Azərbaycanın qaz imkanları çox böyük səmərə ilə işə salınır. Bu gün açdığımız qaz-kompressor stansiyası bütün səmt qazının yığılması üçün bizə şərait yaradacaqdır. Bu gün Azərbaycanın qaz an-

barlarının tutumu təxminən iki milyard kubmetrə çatdırılıb. Halbuki bir neçə il bu, 500 milyon kubmetr həcmində idi. Bu bizə hansı imkanları yaradacaq? İlk növbədə Azərbaycanda qazlaşma daha da sürətlə gedəcək. Digər tərəfdən, bizim ixrac imkanlarımız daha da artacaqdır. Qaz ixracı imkanlarımız artdıqca ölkəmizə daha da çox vəsait daxil ediləcək, bizim siyasi önəmimiz, siyasi çəkimiz daha da artacaqdır.

Neftçilərin zəhməti hesabına bu gün Azərbaycanda sosial məsələlər uğurla həll edilir. Bütün çadır şəhərcikləri ləğv edildi və işğaldan əziyyət çəkən soydaşlarımız normal, müasir evlərə köçürüldü. Bu da böyük nailiyyətdir.

Ölkəmiz üçün vacib olan müxtəlif layihələr Azərbaycan Dövlət Neft Fondunun xətti ilə icra edilir. Su kəmərləri, suvarma kanalları, məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması, təhsil məsələlərinin həlli, növbəti ildən ekologiya və alternativ enerji mənbələrinin yaradılması sahəsində də Neft Fondunun vəsaitindən istifadə olunacaqdır. Bizim iqtisadi imkanlarımızın təməlində neft sənayesidir.

Neftdən əldə olunan gəlirlər də şəffaf şəkildə saxlanılır. Azərbaycan Dövlət Neft Fondu dünyada şəffaflıq təcrübəsinə görə birincidir. Dünyada bir neçə ölkədə neft fondları vardır. Şəffaflıq və idarə olunması baxımından Azərbaycan Dövlət Neft Fondu birinci yerdədir. Baxmayaraq ki, Azərbaycan Dövlət Neft Fondu cəmi on il bundan əvvəl yaradılmışdır. Bu şəffaflıq bizə imkan verir ki, neftdən gələn gəlirlər iqtisadiyyatın vacib olan sahələrinə səmərəli şəkildə yönəldilsin, yeni iqtisadi imkanlar yaradılsın, sosial məsələlər həll olunsun və iqtisadiyyatımız hərtərəfli inkişaf etsin.

Neftin qiyməti qısa müddət ərzində 140 dollardan 37 dollara düşmüşdür. Azərbaycanda bir adam bunu hiss elədi?! Halbuki dövlət büdcəmiz – bu ilin büdcəsində neftin qiyməti 70 dollardan hesablanıb. Bir adam bunu hiss etmədi. Nə üçün? Çünki birincisi, Azərbaycan dövlətinin güclü sosial siyasəti vardır və bu sosial məsələlərin həlli prioritetdir. İkincisi,

Azərbaycanın iqtisadiyyatı artıq təkcə neft-qazdan asılı deyildir. Neft sənayesindən əldə edilən gəlirlərin ağılla və böyük səmərə ilə qeyri-neft sektoruna yatırılması nəticəsində Azərbaycanda kənd təsərrüfatı, tikinti, emal sektoru sürətlə inkişaf edir. Bu gün biz ərzaq təhlükəsizliyinin böyük hissəsini həll etmişik. Azərbaycan özünü əsas ərzaq məhsulları ilə, demək olar ki, maksimum dərəcədə təmin edir.

Həmişə Azərbaycan ərzaq məhsullarının idxalından asılı idi. Vəzifə qoyulmuşdu ki, özümüzü əsas ərzaq məhsulları ilə təmin etməliyik və biz bu məqsədə çatırıq. Güzəştli kreditlərin verilməsi, Dövlət İnvestisiya Şirkətinin yaradılması, bölgələrdə infrastruktur layihələrinin icrası, elektrik stansiyalarının tikintisi – bütün bunlar vəsait tələb edir, pul tələb edir. Bəzi başqa ölkələrdən fərqli olaraq bizə qıraqdan heç kim pul vermir. İndi bizim buna ehtiyacımız da yoxdur. Bütün bunları biz öz hesabımıza edirik. Bu hesab hansı hesabdır? Bu hesab neftçilərin əməyidir. Bu gün Azərbaycan vətəndaşları neftçilərin hesabına daha da yaxşı yaşayırlar, qaçqınlar daha da yaxşı vəziyyətdə yaşayırlar. Son beş il ərzində Azərbaycanda 1800 məktəb tikilibdir. Uşaqlar yaxşı məktəblərdə oxuyurlar.

Bütün bunların təməlində, bir daha demək istəyirəm ki, neft sənayesidir, Azərbaycan neftçiləridir. Həmişə olduğu kimi, Azərbaycan neftçiləri çox böyük hörmətə malikdirlər. Bu hörməti onlar çətin, ağır şəraitdə Azərbaycanın inkişafı üçün çəkilən zəhmətləri hesabına qazanmışlar.

Azərbaycan Dövlət Neft Şirkəti son illərdə sürətlə inkişaf edir. Vəzifə qoyulmuşdur ki, Azərbaycan Dövlət Neft Şirkəti dünya miqyasında beynəlxalq və aparıcı şirkətlərin birinə çevrilsin. Bu istiqamətdə vacib addımlar atılır. Artıq Azərbaycan Dövlət Neft Şirkəti öz imkanları, həm maliyyə, həm texniki imkanları hesabına kəşfiyyat işləri aparır. «Ümid» yatağında qazma işləri başlanmışdır. «Babək» yatağında eyni dərəcədə qazma işləri aparılmalıdır. Əgər o qaz-

ma işləri uğurla nəticələnsə Azərbaycanın neft-qaz potensialı daha da artacaqdır.

Azərbaycan Dövlət Neft Şirkəti artıq xarici ölkələrə böyük investisiyalar qoyur. Həm bölgə ölkələrində, həm Avropanın mərkəzində, həm də Uzaq Şərqdə Azərbaycan Neft Şirkətinin nümayəndəlikləri vardır və bu proses davam edir. Qlobal, transmilli, eyni zamanda, milli və dövlət şirkəti olan Azərbaycan Dövlət Neft Şirkəti dünya miqyasında neft şirkətləri arasında reytinqdə yaxşı yerlərdədir. Azərbaycan Dövlət Neft Şirkətinin gücləndirilməsi həm Azərbaycanın maraqlarına cavab verir, həm də Azərbaycanda neft-qaz sənayesinin inkişafı, sosial məsələlərin həlli üçün çox vacibdir.

Son bir neçə ildə Dövlət Neft Şirkəti tərəfindən bölgələrdə doqquz ən müasir diaqnostika-müalicə mərkəzi tikilmişdir, beş-altısı da tikilməkdədir. Həm sosial yük, həm iqtisadi yük, həm xaricdə investisiyalar, yəni bu doğrudan da böyük işlərdir. Bunlar Azərbaycanın inkişafını göstərir. Məqsədimiz Azərbaycanın dövlət müstəqilliyinin, iqtisadi potensialının gücləndirilməsi, xalqımızın daha da yaxşı yaşamasıdır. Bu yolda atılan bütün addımlar Azərbaycanın maraqlarına cavab verir, bütün qərarlar vaxtında icra edilir. 2009-cu il bütün ölkələr üçün bir sınaq ili idi. 2009-cu ilə qədər mənzərə o qədər də aydın deyildi, kim nəyə qadirdir. Amma 2009-cu ildə Azərbaycan göstərdi ki, dünyada nadir ölkələrdəndir. Azərbaycanda iqtisadiyyat, sənaye istehsalı, kənd təsərrüfatı artır, milli valyuta sabitdir, inflyasiya 2 faizdir. Budur görülən işlərin nəticəsi.

Hesab edirəm ki, bu gün bu gözəl yubiley bayramında bir daha bu məsələyə toxunmaq lazımdır. Çünki bir daha qayıdıram əsas məsələyə – bizim uğurlarımızın təməlində neftçilərin zəhməti dayanır. Neft sənayesi uzun illər bundan sonra Azərbaycanın uğurlu inkişafını təmin edəcəkdir. Biz istəyirik və nail oluruq ki, qeyri-neft sektoru inkişaf etsin. Ancaq qeyri-neft sektoru hələ on il, iyirmi il bundan sonra da neft

sənayesinin yerini verə bilməz. Biz bundan sonra da neft sənayesinin inkişafı üçün əlimizdən gələni edəcəyik və Azərbaycan neftçilərinin bütün problemlərinin həlli üçün öz sözümüzü deyəcəyik, lazımi tədbirlərimizi görəcəyik.

Bu gün burada nümayiş etdirilən filmdə çox maraqlı kadrlar, o cümlədən 5 il əvvəlki görüşümüzün bəzi görüntüləri göstərildi. Mən demişdim ki, həyatımın müəyyən hissəsi Azərbaycan Dövlət Neft Şirkətində keçibdir. O sözləri mən bu gün də təkrarlaya bilərəm. Beş il keçəndən sonra deyə bilərəm ki, neft şirkətində keçirdiyim 1994–2003-cü illər mənim bugünkü fəaliyyətim üçün də çox vacibdir. Orada əldə edilmiş təcrübə, neftçilərlə bir kollektivdə olmağım mənim bu gün prezident kimi fəaliyyətimdə də çox vacib rol oynayır.

Beş il əvvəl mən prezident kimi, gənc idim, cəmi bir il prezident vəzifəsində idim. O vaxt ancaq planlar haqqında, Azərbaycanın beş il sonra hansı vəziyyətdə olacağı haqqında bərabər düşünürdük, planlar cızırdıq. Bu il – beş il keçəndən sonra mən çox böyük məmnuniyyət hissi ilə deyə bilərəm ki, 5 il bundan əvvəl, 6 il bundan əvvəl nəzərdə tutulmuş bütün planlar reallaşıb. Baxmayaraq ki, bölgədə həm iqtisadi, həm siyasi vəziyyət bəzən gərginləşirdi. Biz bu bölgədə yaşayırıq və bölgədə gedən prosesləri yaxşı bilirik. Bilirik ki, bu xüsusiyyətlər həmişə olacaqdır. Ancaq biz son illər ərzində müstəqil ölkə kimi özümüzü bir daha təsdiq etdik və göstərdik ki, Azərbaycan müstəqil yaşaya bilər, yaxşı yaşaya bilər, öz milli maraqlarını qoruya, müdafiə edə bilər. Azərbaycanın inkişafı üçün nə lazımdır, onu edəcəyik.

Əziz neftçilər, mən bu əziz gündə Azərbaycan neft sənayesinin bütün işçilərini, sizi bir daha ürəkdən təbrik edirəm və sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Sizi əmin etmək istəyirəm ki, mən həmişə sizinlə olacağam. Mən sizin dəstəyinizi həmişə hiss edirəm. Əmin olun ki, siz də hər zaman mənim dəstəyimə arxalana bilərsiniz. Bir daha bayramınız mübarək olsun, sizə cansağlığı, gələcək işləri-

nizdə uğurlar arzulayıram. Biz hələ çox görüşəcəyik. Bu gün Xoşbəxt müəllim həmişə olduğu kimi, çox gözəl və maraqlı çıxış etdi. Bizi çox maraqlı tarixi anlara qaytardı və qeyd etdi ki, mən, adətən, bölgələrə tez-tez gedirəm. Hər dəfə gedib öz gözümlə görüb tanış oluram, maraqlanıram, lazım olan göstərişləri verirəm və sonra qayıdıb yoxlayıram. Amma Xoşbəxt müəllim bir məsələni demədi. Bu gün biz avtobusla Neft Daşları ilə tanış olarkən mən qeyd etdim ki, keçən dəfə burada gördüklərim və bu gün tam başqa mənzərədir. Yəni, beş il ərzində böyük irəliləyiş vardır. Hələ mən vertolyotla bura yaxınlaşanda gördüm ki, binalar təmir olunub, gözəl parklar salınıb, gözəl məişət obyektləri tikilib. Xoşbəxt müəllimə dedim ki, inşallah 5 ildən sonra da gələcəyəm, çox güman ki, daha da yaxşı dəyişikliklər olacaqdır. Xoşbəxt müəllim də dedi ki, 5 il bundan sonra mən harda olacağımı bilmirəm. Dedim ki, elə şey yoxdur, siz olmasanız mən gəlməyəcəyəm. Beş ildən sonra burada növbəti yubileyi bərabər qeyd edəcəyik. Sağ olun.

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 noyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də ATƏT-in Minsk qrupunun həmsədrləri Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya), Robert Bradkeni (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair məsələlər müzakirə edilmişdir.*

## MİNSK VƏ SLUTSK MİTROPOLİTİ, BELARUS ÜZRƏ PATRİARX EKZARXI FİLARETİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 noyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Minsk və Slutsk Mitropoliti, Belarus üzrə Patriarx Ekzarxı Filaretin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Mitropolit Filaretin ölkəmizə səfərinin əhəmiyyətini vurğulayan dövlətimizin başçısı Bakıda keçirilən «Dinlərarası dialoq: qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru» beynəlxalq konfransda qonağın iştirakının önəmini qeyd etmişdir. Prezident İlham Əliyev Mitropolit Filaretin ölkəmizə səfərinin, həmçinin konfransda aparılacaq müzakirələrin xalqlarımız arasında münasibətlərin inkişafı və eləcə də dinlərarası dialoqun möhkəmlənməsi baxımından faydalı olacağına əminliyini bildirmişdir.*

*Ölkələrimiz arasında mövcud olan qədim dostluğun yeni inkişafa kömək edəcəyini vurğulayan Mitropolit Filaret münasibətlərimizin möhkəm əsaslara malik olduğunu qeyd etmişdir.*

## AZƏRBAYCAN RUS İCMASININ III QURULTAYININ İŞTİRAKÇILARINA

Hörmətli qurultay iştirakçıları!

Əziz həmvətənlər!

Sizi – Azərbaycan Rus İcmasının III qurultayının iştirakçılarını ürəkdən salamlayır, hamınıza ən xoş arzularımı yetirirəm.

Cənubi Qafqazda ən böyük rus icmasının məhz bizim ölkəmizdə yaşaması Azərbaycanda tarixən mövcud olan etnik-dini tolerantlığın və millətlərarası münasibətlərin sivil normalarla tənzimlənməsinin bariz nümunəsidir. Bu gün respublikamızda dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq hər bir ölkə vətəndaşı üçün beynəlxalq prinsiplərə əsaslanan hüquq və azadlıqlar təmin edilmişdir. Bütün milli azlıqlar kimi, rus əhalisi də mövcud demokratik hüquqi şəraitdən hərtərəfli yararlanmaqla, azad şəkildə öz milli-mənəvi dəyərlərini, dil və mədəniyyətini qoruyub inkişaf etdirməkdədir. İctimai-siyasi, elmi-mədəni, sosial-iqtisadi həyatın bütün sahələrində geniş təmsil olunan ruslar ölkədə gedən böyük yenidənqurma və quruculuq işlərində, dövlət müstəqilliyimizin möhkəmləndirilməsində yaxından iştirak edirlər.

Minnətdarlıq hissi ilə qeyd etmək istəyirəm ki, rus vətəndaşlarımız torpaqlarımızın erməni işğalından azad edilməsi uğrunda da əsl vətənpərvərlik nümunələri göstərmişlər. Azərbaycanın ərazi bütövlüyü naminə canlarını fəda etmiş Milli qəhrəmanlar – Yuri Kovalyov, Yevgeni Karlov, Viktor Seryoqin, Sergey Senyuşkin kimi qeyrətli oğullarımızın əziz xatirəsi xalqımız tərəfindən daim ehtiramla yad olunur.

Bir sıra MDB ölkələrindən fərqli olaraq, müstəqillik qazandıqdan sonra Azərbaycanda rus dilindən istifadəyə və bu dildə təhsilə heç bir məhdudiyyət qoyulmamışdır. Hazır-

da respublikamızda rus dilində onlarla orta ümumtəhsil məktəbləri, ali təhsil ocaqlarında rus bölmələri, zəngin elmi-pedaqoji ənənələri olan Bakı Slavyan Universiteti, Dövlət Rus Dram Teatrı, milli teatrların nəzdində rus truppaları həmişəki kimi fəaliyyət göstərməkdə davam edir. Televiziya və radio kanallarında rus dilində daimi verilişlər yayımlanır, çoxsaylı mətbuat orqanları və müxtəlif təyinatlı ədəbiyyat nəşr olunur. Keçən il Moskva Dövlət Universitetinin Bakı filialının açılması isə elmi-mədəni ictimaiyyətin həyatında diqqətəlayiq hadisə olmuşdur.

Ümummilli liderimiz Heydər Əliyev cəmiyyətdə etnik-mədəni müxtəlifliyə milli dövlətçiliyimizin tarixi nailiyyəti kimi, xüsusi həssaslıqla yanaşırdı. Biz bu siyasi xəttə sadiqik və bundan sonra da Azərbaycanda etnik-dini dözümlülük prinsiplərinin bərqərar edilməsi, milli-mədəni müxtəlifliyin qorunub saxlanılması istiqamətində ardıcıl səylərimizi davam etdirəcəyik.

Əziz həmvətənlər!

Azərbaycanın Rus İcması təşkilatı fəaliyyət göstərdiyi illər ərzində ölkədə aparılan demokratik-hüquqi islahatlar prosesində və azad vətəndaş cəmiyyəti quruculuğunda daim öz fəallığı ilə seçilmiş, Azərbaycan və Rusiya dövlətləri arasında ictimai-mədəni əlaqələrin inkişafında, xalqlarımızın bir-birinə daha da yaxınlaşmasında və Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində təqdirəlayiq işlər görmüşdür. Əminəm ki, təşkilatınız bundan sonra da respublikamızın rus icmasını layiqincə təmsil edəcək, cəmiyyətimizdə vətəndaş həmrəyliyinin, xalqlar arasında dostluq və qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə sanballı töhfələr verəcəkdir.

Bu nəcib və xeyirxah yolda hər birinizə cansağlığı və xoşbəxtlik, qurultayınızın işinə uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 noyabr 2009-cu il*

**BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAİD ƏL-NƏHƏYYANA**

Əlahəzrət!

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirliklərini möhkəm dostluq və sıx əməkdaşlıq münasibətləri birləşdirir. Əminəm ki, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı işimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Birləşmiş Ərəb Əmirliklərinin qardaş xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 noyabr 2009-cu il*

## DAĞISTAN RESPUBLİKASININ PREZİDENTİ MUXU ƏLİYEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 noyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 6-da Dağıstan Respublikasının Prezidenti Muxu Əliyevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan–Rusiya arasında ikitərəfli münasibətlərin, o cümlədən Dağıstan Respublikası ilə əlaqələrin inkişaf etdiyini vurğulamışdır. Əməkdaşlıq imkanlarını daha da genişləndirməyin zəruriliyini bildirən prezident İlham Əliyev Dağıstan prezidenti Muxu Əliyevin ölkəmizə səfərinin əlaqələrimizin perspektivlərini müzakirə etmək baxımından yaxşı fürsət yaratdığını qeyd etmişdir.*

*Prezident Muxu Əliyev bildirmişdir ki, yenidən qardaş Azərbaycana baş çəkmək imkanının yaranması onun üçün çox xoşdur. O, Dağıstan ilə Azərbaycan arasında ən səmimi əlaqələrin olduğunu vurğulamışdır.*

## ÇEÇENİSTAN RESPUBLİKASININ PREZİDENTİ RAMZAN KADIROV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 noyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 6-da Çeçenistanın Respublikasının Prezidenti Ramzan Kadırovu qəbul etmişdir.*

*Prezident Ramzan Kadırovun Bakıda keçirilən tədbirlərdə iştirakından məmnunluğunu bildirən dövlətimizin başçısı onun Azərbaycana səfərinin əlaqələrimizin perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını demişdir. Azərbaycan və çeçen xalqlarının əsrlər boyu davam edən dostluq münasibətlərini yüksək qiymətləndirən prezident İlham Əliyev Çeçenistanda aparılan bərpa, yenidənqurma işlərinin və inkişafın ölkəmizdə izlənildiyini bildirdi. Dövlətimizin başçısı Azərbaycan ilə Çeçenistan arasında qarşılıqlı fəaliyyət və iqtisadi əlaqələrin inkişafı üçün yeni yolların müəyyənləşdirilməsinin zəruriliyini vurğuladı. Prezident İlham Əliyev Ramzan Kadırovun rəhbərliyi ilə Çeçenistanın bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini diqqətə çatdırmışdır.*

*Xalqının ən çətin vaxtlarında Azərbaycanın onun həmvətənlərinə sığınacaq verdiyini və yüksək qayğı göstərdiyini yada salan prezident Ramzan Kadırov öz adından və çeçen xalqı adından dövlətimizin başçısına minnətdarlığını bildirmiş və çeçen xalqının bunu heç vaxt unutmayacağını demişdir.*

## MOSKVANIN VƏ BÜTÜN RUSİYANIN PATRİARXI KİRİLL İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 noyabr 2009-cu il*

*Noyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirilli qəbul etmişdir.*

*Prezident İlham Əliyev pravoslav kilsəsinin başçısını salamladı.*

**İ l h a m Ə l i y e v:** Zati-müqəddəsləri, Azərbaycana xoş gəlmisiniz! Sizi görməyə çox şadam. Bu, dövlətlərimiz arasında əlaqələri möhkəmləndirmək, habelə dinlərarası dialoqu inkişaf etdirmək üçün yaxşı imkandır. Sizin bugünkü tədbirlərdə iştirak etməyiniz onlara xüsusi önəm verir və biz bunu çox qiymətləndiririk. Əminəm ki, bu səfər dövlətlərimiz arasında dinamik və səmərəli inkişaf edən, ölkələrimizə və xalqlarımıza fayda gətirən münasibətlərin dərinləşməsinə kömək edəcəkdir. Bir daha xoş gəlmisiniz!

*Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill Azərbaycan dövlətinin başçısına təşəkkürünü bildirərək dedi:*

– Cənab Prezident, mən qonaqpərvər, gözəl Azərbaycan torpağına qədəm qoyan kimi Sizinlə – Azərbaycan xalqının görkəmli lideri ilə görüşmək imkanına və dinlərarası münasibətlərin səviyyəsinə, Azərbaycanda pravoslav kilsəsinin vəziyyətinə, müsəlmanlar və xristianlar arasında əməkdaşlığa görə Sizə ürəkdən təşəkkürümü bildirirəm. Bu baxımdan Azərbaycan örnək ölkədir. Bu Sizin qayğınızdan, hökumətinizin qayğısından, dinlərarası, mədəniyyətlərarası dialoqun səviyyəsindən xəbər verir. Bu, praktik dialoqdur, insan qəlblərinin dialoqudur. Bu, cəmiyyəti, insanları birləşdirir və bunu qeyd etmək mənim üçün çox xoşdur.

## «DİNLƏRARASI DİALOQ: QARŞILIQLI ANLAŞMADAN BİRGƏ ƏMƏKDAŞLIĞA DOĞRU» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS*

*«Gülüstan» sarayı*

*7 noyabr 2009-cu il*

*Noyabrın 6-da Bakıda, «Gülüstan» sarayında «Dinlərarası dialoq: qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru» mövzusunda beynəlxalq konfrans işə başlamışdır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva konfransın açılışında iştirak etmişlər.*

*Dövlətimizin başçısı İlham Əliyev tədbirdə çıxış etmişdir.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli şeyx həzrətləri!
Hörmətli qonaqlar!
Xanımlar və cənablar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bütün qonaqlara «Azərbaycana xoş gəlmisiniz!» deyirəm.

---

* «Dinlərarası dialoq: qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru» mövzusunda beynəlxalq konfransda Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill, Gürcüstanın Patriarx Katolikosu II İlya, Gürcüstan prezidenti adından parlament sədrinin müavini Pridon Todua, İslam Konfransı Təşkilatının Baş katibi Ekmələddin İhsanoğlu, Roma Papası XVI Benediktin adından Vatikanın nümayəndəsi Kardinal Salvatore De Corci, Rusiya Federasiyası Dağıstan Respublikasının Prezidenti Muxu Əliyev, Rusiya Federasiyası Çeçenistan Respublikasının Prezidenti Ramzan Kadırov, Konstantinopol Patriarxı Varfolomeyin adından patriarxlığın nümayəndəsi Emanuel, Minsk və Slutsk Mitropoliti, Belarus üzrə Patriarx Ekzarxı Filaret çıxış etdilər

Bu gün Bakıda çox əlamətdar hadisə baş verir, dinlərarası dialoq mövzusunda çox önəmli və mötəbər konfrans öz işinə başlayır. Bu çox əlamətdar hadisədir. İlk növbədə ona görə ki, bu hadisə Bakıda baş verir. Bakı və Azərbaycan dinlərarası dialoqun inkişafı üçün həmişə çox fəal işləyir, öz fəal rolunu oynayır. Ölkəmizdə bu mövzu ilə əlaqədar keçirilən müxtəlif beynəlxalq konfranslar dinlərarası dialoqun inkişafına çox böyük töhfələr verir.

Digər tərəfdən, bu konfransın özəlliyi və önəmi ondan ibarətdir ki, qonaqlarımızın arasında dünya miqyaslı şəxsiyyətlər vardır. Dünyada böyük nüfuza malik olan şəxsiyyətlər bizim qonaqlarımızdır. Eyni zamanda, konfrans hörmətli şeyx həzrətlərinin 60 illik yubileyinə həsr edilir. Yəni, bütün bu amillər konfransın önəmini olduqca artırır. Əminəm ki, Bakıda bu gün və sabah aparılan müzakirələr, fikir mübadiləsi, qəbul ediləcək qərarlar dünyada dinlərarası dialoqun inkişafına çox böyük töhfə verəcəkdir.

Azərbaycan əsrlər boyu dinlərarası münasibətlərin inkişafında öz rolunu oynamışdır. İctimai-siyasi quruluşundan asılı olmayaraq bütün dövrlərdə Azərbaycanda dini və milli dözümlülük, tolerantlıq yüksək səviyyədə olub. Bu, Azərbaycan xalqının duyğularıdır, müstəqil Azərbaycan dövlətinin siyasətidir və Azərbaycanda fəaliyyət göstərən dini qurumların əməyinin praktiki nəticəsidir.

Bu doğrudan da dünyada nadir hallarda rast gəlinən bir fenomendir. Azərbaycanda nə milli, nə dini zəmində heç vaxt heç bir münaqişə və qarşıdurma olmamışdır və əminəm ki, olmayacaqdır. Azərbaycanda bütün xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar, Azərbaycanın inkişafı üçün fəal çalışırlar. Onlar Azərbaycanın layiqli və dəyərli vətəndaşları kimi, ölkəmizin hərtərəfli inkişafına öz töhfələrini verirlər.

Coğrafi vəziyyəti, tarixi, bugünkü inkişaf templəri və xüsusilə sivilizasiyalararası münasibətlərə verdiyimiz önəm Azərbaycanı bu mövzu ilə əlaqədar keçirilən və keçiriləcək

tədbirlərin qeyri-rəsmi paytaxtı elan edir. Azərbaycan islam dünyasının bir parçasıdır, öz dini və milli ənənələrinə çox sadiqdir. Biz islamın bir parçası olaraq İslam Konfransı Təşkilatının üzvüyük. Azərbaycan coğrafi vəziyyətinə görə bəzi Avropa təşkilatlarının da üzvüdür. Yəni, dünyada çox nadir hallarda biz bu mənzərə ilə üzləşirik ki, bir ölkə öz dini və milli ənənələrinə sadiq olmaqla bərabər, bölgədə bütün millətlərin nümayəndələrinin yaşaması, normal fəaliyyəti üçün əlindən gələni edir.

Biz hamımız bu nadir imkanlardan səmərəli şəkildə istifadə etməliyik. Çünki bugünkü zamanda dünyada sülhün, əmin-amanlığın təmin edilməsi, asayişin qorunması üçün mütləq dinlərarası dialoq gücləndirilməlidir.

Sivilizasiyalararası dialoqla bağlı müxtəlif tədbirlər keçirilir, müxtəlif bəyanatlar verilir. Bunların hamısı çox vacib məsələlərdir. Ancaq biz çalışmalıyıq ki, bu dialoqun gözəl nəticələrini real həyatda görək, nəinki görək, bu nəticələri əldə edək. Biz birgə fəaliyyətimiz nəticəsində buna nail olsaq, dünyada sülhün bərqərar olması daha da sürətli templərlə gedəcəkdir. Buna həm dünyada, həm yaşadığımız bölgədə, həm də Qafqazda böyük ehtiyac vardır. Mən həmişə demişəm ki, Qafqaz vahid bir orqanizmdir. Şimali Qafqazda, Cənubi Qafqazda baş verən proseslərlə sıx bağlıdır. Biz hamımız çalışmalıyıq ki, bölgəmizdə, bu gözəl Qafqaz bölgəsində sülh, əmin-amanlıq, tərəqqi təmin edilsin, insanlar sülh, rifah şəraitində yaşasınlar və ölkələrimiz inkişaf etsin, çiçəklənsin. Biz buna ancaq birlikdə nail ola bilərik. Birgə səylərimizlə, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət əsasında, bir-birimizə kömək etməklə biz buna nail ola bilərik. Azərbaycan öz tərəfindən bu istiqamətdə üzərinə düşən vəzifələri ləyaqətlə icra edir.

Biz çalışmalıyıq ki, dünyada dinlərarası münasibətlər yeni müstəviyə qalxsın. Bu gün buna böyük ehtiyac vardır. Bunu reallaşdırmaq üçün bizdə bütün imkanlar vardır. Bu gün Azərbaycanda bu gözəl tədbirin keçirilməsi, müxtəlif dinlə-

rin nümayəndələrinin bu tədbirdə iştirakı və birgə fəaliyyəti, qarşılıqlı anlaşma, hətta qeyri-formal və qeyri-rəsmi təmaslar əminəm ki, bu amala çatmaq üçün bizə yaxşı imkanlar yaradacaqdır.

Əminəm ki, Azərbaycan dinlərarası dialoqun gücləndirilməsi üçün öz rolunu oynayacaq. Bu il Azərbaycanın paytaxtı Bakı şəhəri İslam mədəniyyətinin paytaxtı elan edilmişdir. Bu bizim üçün böyük şərəfdir. Ümid edirəm ki, gələcək illərdə Bakı Avropa mədəniyyətinin paytaxtı elan ediləcəkdir.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə bütün azadlıqlar yaradıldı, o cümlədən vicdan azadlığı, dini azadlıqlar. Müstəqillik dövründə ölkəmizdə mindən çox məscid tikildi, yüzlərlə tarixi, dini abidələrimiz bərpa edildi. Azərbaycanda pravoslav və katolik kilsələri, sinaqoqlar tikilir və təmir edilir. Bu bizim siyasətimizin çox vacib bir hissəsidir. Ölkəmizdə gedən iqtisadi inkişaf qarşıda duran əsas iqtisadi və sosial problemlərin həlli üçün bizə gözəl şərait yaradır.

Düşünürəm ki, bütün siyasi proseslərdə, dinlərarası, millətlərarası münasibətlərdə daim dövlət dəstəyi olmalıdır. Azərbaycan dövlətinin bu məsələlərlə əlaqədar düşünülmüş siyasəti vardır və ölkəmizin hərtərəfli inkişafı məhz bu şəkildə mümkün olacaqdır. Hər bir vətəndaş eyni hüquqlara malikdir. Biz bunu təkcə rəsmi qanunlarla yox, Konstitusiya ilə yox, gündəlik fəaliyyətlə daim təsdiq etməliyik. Elə etməliyik ki, ölkələrimizdə yaşayan bütün vətəndaşlar dini və milli mənsubiyyətlərindən asılı olmayaraq özlərini tamhüquqlu vətəndaşlar kimi hiss etsinlər. Ölkələrimizin ictimai, siyasi, iqtisadi həyatında fəal rol oynasınlar.

Azərbaycan çoxmillətli ölkədir və biz bu amillə fəxr edə bilərik. Əsrlər boyu ölkəmizdə, Azərbaycanda müxtəlif xalqların nümayəndələri yaşayıblar, yaradıblar. Azərbaycanın bu gün müstəqil ölkə kimi inkişafında ölkəmizdə yaşayan bütün xalqların nümayəndələrinin böyük rolu vardır.

Biz də çalışırıq ki, bu xalqların nümayəndələri üçün öz praktiki işlərimizlə, konkret proqramlarımızla gözəl şərait yaradaq. Bütün bölgələrdə olduğu kimi, milli azlıqların yaşadığı bölgələrdə də sürətli inkişaf gedir, sosial və iqtisadi problemlər uğurla həll edilir. Bunun nəticəsində Azərbaycan 2009-cu ilin böhran ili olmasına baxmayaraq, iqtisadi artım templərini saxlayır.

Bizim iqtisadi inkişafımız ölkənin müstəqil siyasətini də şərtləndirir. Çünki müstəqil siyasətə malik olmayan ölkələr bəzi hallarda asılı vəziyyətə düşürlər. Siyasi müstəqilliyi təmin etmək üçün mütləq iqtisadi müstəqillik də lazımdır. Azərbaycanın son 5 il ərzindəki iqtisadi göstəriciləri dünya miqyasında seçilir. Son beş ildə iqtisadiyyatımız 2,6 dəfə artmışdır. Sənaye istehsalı 2,5 dəfə artmışdır. Ölkə qarşısında duran əsas iqtisadi vəzifələr icra edilib. Vətəndaş cəmiyyətinin formalaşması, ölkəmizdə sabitliyin bərqərar olunması, millətlərarası münasibətlərin yüksək səviyyədə təşkil olunması və dövlət tərəfindən bu məsələyə daim diqqətin göstərilməsi, dini qurumların fəaliyyəti bu uğurlu inkişaf dinamikasını təmin edir.

Bu münasibətlə mən bu gün hörmətli şeyx həzrətlərinin fəaliyyətini bir daha yüksək qiymətləndirmək istəyirəm. Çünki şeyx həzrətləri uzun illər öz praktiki işləri ilə, Azərbaycan xalqı qarşısında gördüyü işlərlə, çəkdiyi zəhmətlə ölkəmizin inkişafına dəyərli töhfəsini verir. Ağsaqqal sözü, dini rəhbərlərin sözləri hər zaman çox böyük əhəmiyyətə malik olubdur. Bugünkü dünyada bəzi bölgələrdə dini zəmində qarşıdurmalar baş verir. Dinlərarası dialoqun gücləndirilməsi əvəzinə, əksinə, dinlərarası qarşıdurmaya təkan olan hadisələr baş verir. Hətta bəzi hallarda bir dinin içində xoşagəlməz proseslər müşahidə olunur. Din rəhbərlərinin müdrikliyi, onların qətiyyəti, cəsarəti, əlbəttə ki, ölkə daxilindəki nüfuzu bütün xoşagəlməz halların aradan qaldırılmasında çox mühüm rol oynayır. Mən şadam ki, biz Azərbaycanda məhz bu mənzərəni yaşayırıq. Əminəm ki,

bundan sonra uzun illər ərzində Azərbaycanda dini və milli dözümlülük yüksək səviyyədə olacaqdır. Hörmətli şeyx həzrətlərinin bu işlərdə fəaliyyəti Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir. Mən prezident kimi, bir daha bu məsələyə öz münasibətimi bildirmək istəyirəm.

Şeyx həzrətləri 30 ildir ki, bu böyük vəzifədə Azərbaycan naminə çalışır, həm Sovet İttifaqı zamanında, həm müstəqil Azərbaycanda. Bu dövrlərin arasında çox böyük fərq vardır. Buna baxmayaraq, şeyx həzrətləri olduqca çətin ideoloji çərçivələr içində həmişə öz ədalətli sözünü demişdir. Ölkəmiz üçün ən çətin anlarda o, birinci sıralarda idi. Müstəqilliyimizin ərəfəsində Azərbaycanda yaşanan çox ağır hadisələr zamanı şeyx həzrətlərinin müdrik sözü, onun vətəndaş mövqeyi Azərbaycanı daha da böyük bəlalardan qurtara bilmişdir. Müstəqillik dövründə, Azərbaycan gənc müstəqil dövlət kimi inkişaf etməyə başlayanda bizim vəziyyətimiz çox ağır idi. Həm iqtisadi, həm siyasi böhran, iqtisadiyyatın çökməsi, sənaye sahəsində, ümumiyyətlə, tamamilə durğunluq yaranmışdı. İqtisadi inkişafla, islahatlarla, siyasi islahatlarla bərabər, dini sahədə də aparılan islahatlar və atılan addımlar Azərbaycanı hərtərəfli inkişaf etdirməyə imkan yaratdı.

Şeyx həzrətləri dünyada böyük nüfuza malik olan bir şəxsiyyətdir. Bu gün onun dəvəti ilə Bakıya gəlmiş yüksək vəzifəli şəxslərin, din xadimlərinin burada bizimlə bərabər iştirakı bunu bir daha göstərir.

Şeyx həzrətləri Azərbaycan xalqının ümummilli lideri, mənim atam Heydər Əliyevlə də çox yaxın dostluq əlaqələri saxlamışdır. Bu səmimi dostluq münasibətləri Azərbaycanda dini məsələlərin düzgün istiqamətdə həlli üçün mühüm rol oynamışdır. Bu şəxsi dostluq ölkəmiz üçün, ölkə əhalisi üçün də çox vacibdir. Bu gün mənimlə hörmətli şeyx həzrətləri arasında münasibətlər çox səmimidir, dostluq münasibətləridir. Biz bu dostluqdan məmnunuq. Bu dostluq həm bizim üçün, həm də ölkəmiz üçün lazımdır.

Azərbaycanda din ilə dövlət ayrıdır. Azərbaycan dünyəvi dövlətdir, ancaq din ilə dövlət birgədir. Bu birlik bizi qarşımızda duran amallar ətrafında birləşdirir. Azərbaycanda dinlərarası münasibətlərin həmişə müsbət istiqamətdə inkişaf etməsini təmin etmək, ölkədə yaşayan bütün xalqların hüquqlarını qorumaq amallarıdır. Baxmayaraq ki, rəsmi qaydada dövlət dindən ayrıdır, mən hesab edirəm ki, bu məsələlərlə bağlı din ilə dövlət birdir.

Necə ki, bizim hörmətli şeyx həzrətləri ilə dostluğumuz sarsılmazdır, elə də Azərbaycanda din ilə dövlət arasında münasibətlər də sarsılmazdır. Mən bir daha əziz dostum hörmətli şeyx həzrətlərini bu gözəl yubiley münasibətilə təbrik etmək istəyirəm. Bundan əvvəlki illərdə də şeyx həzrətləri Azərbaycan dövlətinin yüksək ordenləri ilə təltif edilmişdi. Bu gün isə mən əziz dostumu, hörmətli şeyx həzrətlərini bu yaxınlarda təsis edilmiş «Şərəf» ordeni ilə təltif etmək istəyirəm. Bu ordeni ona təqdim edirəm və nəcib fəaliyyətində ona uğurlar, cansağlığı arzulayıram.

* * *

*Azərbaycan prezidenti İlham Əliyev «Şərəf» ordenini şeyxülislam Allahşükür Paşazadəyə təqdim etdi.*

## BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ ZİYAFƏT

*«Buta» sarayı*

*6 noyabr 2009-cu il*

*Noyabrın 6-da «Buta» sarayında Bakıda keçirilən «Dinlərarası dialoq: qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru» mövzusunda Beynəlxalq konfransın iştirakçılarının şərəfinə ziyafət verilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ziyafətdə iştirak etmişdir.*

## SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ DANİLO TYURKUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*9 noyabr 2009-cu il*

*Noyabrın 9-da Azərbaycan Respublikasına rəsmi səfərə gələn Sloveniya Respublikasının Prezidenti Danilo Tyurkun rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Sloveniya prezidenti Danilo Tyurku və xanımı Barbara Mikliç Tyurku səmimiyyətlə qarşıladılar.*

*Fəxri qarovul dəstəsinin rəisi Sloveniya prezidentinə raport verdi.*

*Sloveniyanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Sloveniya prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Danilo Tyurka, Sloveniya nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ SLOVENİYA PREZİDENTİ DANİLO TYURKUN TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*9 noyabr 2009-cu il*

*Noyabrın 9-da rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Sloveniya Respublikasının Prezidenti Danilo Tyurk və xanımı Barbara Mikliç Tyurk ilə birgə görüşü olmuşdur.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyevin və Sloveniya prezidenti Danilo Tyurkun təkbətək görüşü keçirilmişdir.*

*Görüşdə ikitərəfli əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etməsindən məmnunluq ifadə olundu. Ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensial imkanların olduğu vurğulandı.*

*Yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətinin qeyd edildiyi görüşdə Sloveniya prezidenti Danilo Tyurkun Azərbaycana rəsmi səfərinin də ikitərəfli əlaqələrin inkişafına töhfə verəcəyinə əminlik bildirildi.*

*Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN VƏ SLOVENİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*9 noyabr 2009-cu il*

*Noyabrın 9-da təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Sloveniya prezidenti Danilo Tyurkun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.*

**İ l h a m Ə l i y e v:** Cənab Prezident!

Mən Sizi Azərbaycanda bir daha salamlayıram. Sizi görməyimə çox şadam. Bu, Sloveniya prezidentinin ölkəmizə ilk rəsmi səfəridir. Əminəm ki, bu səfər uğurlu olacaqdır. Biz ikitərəfli münasibətlərə dair məsələləri müzakirə edəcəyik və onların daha da inkişaf etdirilməsi yollarını araşdıracağıq. Potensial çox böyükdür və əminəm ki, Azərbaycana səfərinizin praktiki nəticələrini gələcəkdə görəcəyik.

Bu gün bizim ikitərəfli münasibətlər və regional inkişafla bağlı müəyyən müzakirələrimiz oldu. Sabah işgüzar dairələr görüşəcək. Bir sözlə, hesab edirəm ki, səfərinizin əməkdaşlığımızda praktiki nəticələrini görəcəyik. Apardığımız fəal siyasi dialoq gələcəkdə də davam edəcəkdir.

Azərbaycanda Sizi bir daha salamlayıram və uğurlu səfər arzulayıram.

**D a n i l o T ü r k:** Çox sağ olun, cənab Prezident!

Burada olmağımızdan çox şadam. Bizə göstərilən yüksək qonaqpərvərlikdən çox məmnunuq. Mən Sloveniya prezidenti seçildiyim ilk günlərdən Azərbaycana səfər etmək istəyirdim. Nəhayət, şadam ki, bu səfər artıq baş tutub.

Cənab Prezident, bildiyiniz kimi, Sloveniya ilə Azərbaycanın yaxın keçmişdəki tarixi oxşar olub. Hər iki ölkə gənc müstəqil dövlətdir. Xalqlarımız çətin siyasi sınaqlardan keçib. Hər iki ölkə daha geniş Avropanın formalaşmasına çalışır. Budəfəki səfərimiz Berlin divarının yıxılması tarixinə təsadüf edir. Həmin tarixi hadisə Avropada böyük dəyişikliklərə səbəb oldu və qarşımızda geniş imkanlar açdı.

Təbii ki, bizim münasibətlərimiz müstəqillik dövrü ilə məhdudlaşmır. Biz yaxşı bilirik ki, Azərbaycanın qəhrəman oğulları İkinci dünya müharibəsi dövründə Sloveniya torpağında faşizmə qarşı mübarizə aparıblar. Biz həmin faktları ölkələrimizin ictimaiyyətinin diqqətinə geniş çatdırmalıyıq. Çünki bu, ortaq tariximizin ən mühüm hissələrindən biridir. Bu cür hadisələr tədqiq edilməli və daimi olaraq öyrənilməlidir. Hesab edirəm ki, biz belə bir bünövrə əsasında münasibətlərimizi daha da inkişaf etdirə bilərik.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Prezident sarayı*

*9 noyabr 2009-cu il*

*Noyabrın 9-da geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Sloveniya prezidenti Danilo Tyurkun iştirakı ilə Azərbaycan–Sloveniya sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və Sloveniya prezidenti Danilo Tyurk «Azərbaycan Respublikası və Sloveniya Respublikası arasında strateji tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyənnamə»ni imzaladılar.*

*«Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyi (ANAMA) və Sloveniya Respublikası Minatəmizləmə və Minalardan Zərər Çəkmiş İnsanlara Yardım üzrə Beynəlxalq Etimad Fondu arasında Əməkdaşlıq Memorandumu»nu Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin direktoru Nazim İsmayılov və Sloveniya Respublikası Minatəmizləmə və Minalardan Zərər Çəkmiş İnsanlara Yardım üzrə Beynəlxalq Etimad Fondunun direktoru Qoran Qaçnik imzaladılar.*

*«Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və Sloveniya Respublikasının İqtisadiyyat Nazirliyi arasında sənaye və energetika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycanın Sənaye və Energetika naziri Natiq Əliyev və Sloveniyanın İnkişaf və Avropa İşləri üzrə naziri Mitya Qaspari imzaladılar.*

*«Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Sloveniya Respublikasının İqtisadiyyat Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum»u Azərbaycanın İqtisadi*

*İnkişaf naziri Şahin Mustafayev və Sloveniyanın İnkişaf və Avropa İşləri üzrə naziri Mitya Qaspari imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Sloveniya Respublikası Hökuməti arasında diplomatik pasportlara malik vətəndaşlara viza tələbinin ləğv olunması haqqında Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Sloveniyanın İnkişaf və Avropa İşləri üzrə naziri Mitya Qaspari imzaladılar.*

## AZƏRBAYCAN VƏ SLOVENİYA PREZİDENTLƏRİNİN MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLARI

*Noyabrın 9-da sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra prezidentlər İlham Əliyev və Danilo Tyurk mətbuat üçün bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Cənab Prezident, Sizi ölkəmizdə bir daha salamlayıram. Sizi görməyimə çox şadam. Bu gün bizim ikitərəfli münasibətlərimizdə çox mühüm bir gündür. Bu, Sloveniya prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. Bu gün ikitərəfli münasibətlərimizin gələcək inkişafı, regional və qarşılıqlı maraq doğuran məsələlərlə bağlı çox yaxşı müzakirələrimiz baş tutdu. Mən Sizə deyə bilərəm ki, ölkələrimiz arasında əlaqələrin perspektivlərinə dair yaxşı qarşılıqlı anlaşmamız, yaxşı siyasi münasibətlərimiz mövcuddur. Cənab Prezident, əminəm ki, ölkəmizə səfəriniz nəticəsində iqtisadi əlaqələrimizi genişləndirəcəyik. Ölkələrimiz arasında iqtisadi əməkdaşlığın inkişafı üçün yaxşı potensial vardır və Sloveniyadan Sizi müşayiət etmək məqsədi ilə gəlmiş iş adamlarının burada olması bizim ikitərəfli iqtisadi münasibətlərə göstərdikləri maraqdan irəli gəlir. Bu bizim birgə iqtisadi fəaliyyətimizin potensialını göstərir. Bizim iqtisadiyyatlarımız bir-biri ilə rəqabət aparmır, onlar bir-birini dəstəkləyən iqtisadiyyatlardır. İqtisadi sahədə nə qədər çox təmaslarımız olarsa, biz özümüzü bir o qədər yaxşı tanıdarıq və bu əməkdaşlığın praktiki nəticələrinin şahidi olarıq.

İqtisadi fəaliyyət çərçivəsində bir çox sahələr mövcuddur ki, onlar bizim sərmayələr üçün cəlbedici ola bilər. Turizm, infrastruktur, informasiya-kommunikasiya texnologiyaları, sənaye, energetika və digər sahələrdə sərmayə imkanlarını araşdırdıq. Bütün sahələrdə əməkdaşlıq edə bilərik və əminəm ki, bunun yaxşı nəticələrini görəcəyik.

Əməkdaşlığımızın mühüm sahələrindən biri, həmçinin energetika sahəsidir və hesab edirik ki, bu baxımdan Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlər mühüm əhəmiyyət kəsb edir. Çünki biz artıq bir neçə ildir ki, enerji təhlükəsizliyi məsələləri, enerji nəqlinin şaxələndirilməsi sahəsində avropalı tərəfdaşlarımızla işləyirik. Azərbaycan nəhəng neft və qaz yataqlarına və çox müasir nəqletmə infrastrukturuna malik olan ölkə kimi, enerji təchizatının şaxələndirilməsində mühüm rol oynayır. Ümidvaram ki, biz gələcək illərdə bu istiqamətdə daha mühüm addımlar atacağıq. Bu həm Avropanın, həm də Azərbaycanın marağındadır. Ona görə enerji amili bizim münasibətlərimizdə çox mühüm önəm daşıyır.

Humanitar sahədəki əlaqələrimizi də geniş şəkildə müzakirə etdik, mədəni dialoqa toxunduq və ötən cümə günü Lyublyanada mühüm bir beynəlxalq konfransın keçirildiyini bilmək çox maraqlı oldu. Bakıda da elə bir tədbir keçirilmişdir. Bu tədbir mədəni dialoqa, mədəni mübadiləyə aid olan dini dialoqa və sivilizasiyaların dialoquna həsr olunmuş tədbir idi. Hesab edirik ki, biz belə bir formatda ölkələrimiz arasında bu baxımdan çox möhkəm əlaqələr qura bilərik. Siz Balkan, biz isə Qafqaz regionunda yerləşirik. Bunu nəzərə alaraq, biz xalqların bir-birini yaxşı tanıması və sivilizasiyalararası dialoqun və dinlərarası münasibətlərin praktiki nəticələrini görmək üçün daha yaxşı mühit yarada bilərik.

Bu gün müzakirə etdiyimiz məsələlərdən biri Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi idi. Ümumiyyətlə, regional hadisələr nəzərdən keçirildi. Təbii ki, dondurulmuş münaqişələr bu proseslərə təsir göstərir. Uzun illərdir ki,

Azərbaycan torpaqları işğal altındadır. 1994-cü ildən etibarən biz atəşkəs rejimində yaşayırıq. Nə hərb, nə sülh vəziyyətidir. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri pozulub. Ölkəmiz Ermənistanın təcavüzündən və işğalından əziyyət çəkir. Bunun nəticəsində torpaqlarımızın 20 faizi işğal altındadır. Azərbaycanlılara qarşı etnik təmizləmə siyasətinin aparılması nəticəsində ölkəmizdə bir milyondan artıq qaçqın və məcburi köçkün vardır. BMT-nin Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. BMT-nin Baş Məclisində və digər beynəlxalq təşkilatların iclaslarında da bu cür qətnamələr qəbul olunub. Əfsuslar olsun ki, münaqişə hələ də həll olunmayıb və işğal davam edir. Ermənistan–Azərbaycan münaqişəsinin həlli regiona sülh gətirər, əməkdaşlığı və təhlükəsizliyi təmin edər. Regionun inkişafı ilə bağlı bizim baxışlarımız üst-üstə düşür. Avropa İttifaqı ilə region dövlətləri arasında əməkdaşlıq və bu yaxınlarda başlanmış «Şərq tərəfdaşlığı» proqramı əməkdaşlıq üçün yeni imkanlar açır. Yekun olaraq onu bildirmək istəyirəm ki, biz münasibətlərimizdən və onların inkişafından çox məmnunuq. Ümidvaram ki, cənab Prezidentin səfəri qarşılıqlı əməkdaşlıq üçün geniş imkanlar açacaqdır.

## Sloveniya prezidenti Danilo Tyurkun bəyanatı

Çox sağ olun, cənab Prezident!

Siz müzakirələrimizi o qədər dəqiq və düzgün şəkildə təsvir etdiniz ki, hesab edirəm, bunun üçün heç bir əlavəyə ehtiyac qalmadı. Münasibətlərimizin keyfiyyəti və potensialı haqqında söylədiyiniz fikirlər tam yerinə düşür. Biz bundan sonra da çalışmalıyıq ki, əlaqələrimiz daha geniş şəkildə inkişaf etsin. Siyasi əlaqələrimiz sayəsində biz bir-birimizi daha yaxşı anlayırıq. Biz bir-birinə oxşar ölkələrik. Bizim mədəniyyətimizdə, adət-ənənələrimizdə də oxşarlıqlar vardır. Təbii ki, suverenlik və müstəqillik uğrunda siyasi tarixi-

mizdə də oxşarlıqlar mövcuddur və bu da tariximizin vacib hissələridir. Biz bir-birimizi yaxşı tanıyırıq, anlayırıq və çox şadam ki, bu anlaşma əlaqələrimizin inkişafı üçün yaxşı çərçivəni təmin edir.

Bu gün məlumat aldıq ki, ötən həftə mədəniyyət sahəsində, ölkələrimizin mədəni həyatında mühüm tədbirlər keçirilib. Sloveniya mədəni irsin qorunmasına xüsusi diqqət yetirir.

Bizim kimi ölkələrdə və yerləşdiyimiz regionlarda bu addımları atmalıyıq ki, Avropa Şurasının və Avropa İttifaqının amalları daha lazımi şəkildə tətbiq edilsin. Biz bu regiondakı mədəni irsdən xəbərdar olmalıyıq. Mədəni irsin qorunması və inkişaf etdirilməsində iştirak etməliyik, bu, sülhün möhkəmləndirilməsinə də xidmət edə bilər. Əminəm ki, gələcəkdə bu münasibətlər daha geniş şəkildə inkişaf edəcəkdir.

Avropa İttifaqına gəldikdə, bildiyiniz kimi, Avropa İttifaqı nəinki iqtisadi bir klubdur, iqtisadi məkan və ya sırf iqtisadi sistemdir. Bu təşkilat həm də, yeni mədəniyyətin formalaşmasına və mədəni adət-ənənələrin bu tərzdə təşviq edilməsinə xidmət edən bir təşkilatdır. Ona görə də, bu baxımdan biz qarşımızda duran məqsədlərə doğru getməliyik.

Ümid edirəm ki, biz artıq vacib əməkdaşlığımızın çərçivəsi üzərində razılığa gəldik. Cənab Prezident, Sizinlə Birgə Bəyannamə imzaladıq. Mən bunu xüsusilə qeyd edirəm ki, bu bəyanat bizim gələcək əməkdaşlığa dair gündəliyimizin konkret mexanizmlərini əks etdirir. Digər mühüm sənədlər də – energetika, iqtisadiyyat nazirliklərimiz arasında da mühüm sənədlər imzalandı.

Sizin qeyd etdiyiniz kimi, mən Bakıya böyük biznes nümayəndə heyəti ilə gəlmişəm. Biz həm hökumət rəsmiləri, həm də iş adamları ilə təmaslarımızın genişləndirilməsində maraqlıyıq. Əminəm ki, onlar nəinki yeni təmaslar quracaq, o cümlədən gələcək üçün konkret addımlar atacaqlar. Siz burada bir sıra sahələri xatırlatdınız. Fikrimcə, həmin sahələrdə çalışa bilərik. Energetika və enerji nəqlinin şaxələndirilməsi sahələri gələcəkdə nəzərə alına bilər. Azərbaycanda

su elektrik stansiyalarının inkişafı gündəlikdədir və bizim bu sahədə yaxşı təcrübəmiz vardır. Bu sahədə işləyən şirkətlərimizin əməkdaşları nümayəndə heyətində təmsil olunub və mənimlə buraya gəliblər. Əminəm ki, onlar faydalı təmaslar quracaqlar və bu istiqamətdə əməkdaşlığı genişləndirəcəklər. Telekommunikasiya, informasiya texnologiyaları, əczaçılıq və digər sahələrdə də işbirliyi qurula bilər.

Çıxışımı yekunlaşdırmazdan əvvəl onu qeyd etməliyəm ki, Sloveniya Qafqaz regionunu xarakterizə edən həssas məsələləri yaxşı bilir. Qafqaz regionunda təhlükəsizlik məsələləri Avropada təhlükəsizlik və əməkdaşlığa təsir göstərən məsələlərdir. Biz heç də məmnun deyilik ki, dondurulmuş münaqişələr bu cür uzun müddətdə davam edir. Dağlıq Qarabağ, demək olar ki, ən uzun çəkən münaqişələrdən biridir və bu illər ərzində biz həll olunma sahəsində istənilən irəliləyişi görmədik. Münaqişənin həlli prinsipləri artıq keçmişdə müəyyən olunub və onlar çox aydındır. Bu prinsiplər ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı və münaqişənin sülh yolu ilə həll olunma prinsipləridir. Hazırda güclü siyasi iradəyə ehtiyac duyulur. Mən Bakıda bu tribunadan çıxış edərək demək istəyirəm ki, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində müəyyən edilmiş prinsiplər əsasında problemin yekun və birmənalı həlli məqsədi ilə ATƏT-in Minsk qrupu və digər iştirakçıların daha güclü səylər göstərməsinə dəstək veririk. Biz hamımız, Avropa da bu nizamlamada maraqlıyıq və bizim hamımız çoxdan gözlənilən daha güclü səylərin olmasını dəstəkləyirik.

Cənab Prezident, Siz burada əməkdaşlığımızın bütün sahələrinə toxundunuz. Mən onların bir neçəsinə toxunmaq istərdim. Hesab edirəm ki, bu bizim münasibətlərimizdə yeni mərhələnin başlanğıcıdır. Bu fürsətdən istifadə edərək ictimaiyyət qarşısında bəyan edirəm ki, biz də çox istərdik, Siz yaxın zamanda vaxt tapıb Sloveniyaya səfər edəsiniz. Biz dialoqumuzu davam etdirək və müzakirə etdiyimiz bütün əməkdaşlıq sahələrini inkişaf etdirək.

## HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*9 noyabr 2009-cu il*

*Sloveniya Respublikasının Prezidenti Danilo Turk və xanımı Barbara Mikliç Tyurk noyabrın 9-da Heydər Əliyev Fonduna gəldilər.*

*Sloveniya prezidentini və xanımını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva qarşıladılar.Ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış fondun məqsədləri və fəaliyyəti barədə məlumat verildi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Sloveniya prezidentini və xanımını ulu öndərin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid eksponatlar və fotoşəkillərlə tanış etdilər.*

*Dövlətimizin başçısı bildirdi ki, bugünkü qüdrətli və zəngin Azərbaycan ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yol ilə uğurla irəliləyir. Ulu öndərin hakimiyyətdə olduğu dövr Azərbaycan tarixində ən şərəfli səhifələrdən biridir. Bu gün beynəlxalq birlik tərəfindən ölkəmizin misilsiz uğurları kimi qəbul edilən sosial-iqtisadi inkişaf, əldə olunan nailiyyətlər məhz ümummilli liderin fəaliyyətinin bəhrələridir.*

*Sloveniya prezidenti və xanımı fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin verdikləri hədiyyələrlə, ulu öndərə həsr olunmuş kitablarla tanış oldular.*

*Prezident Danilo Tyurk fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.*

*Qarşılıqlı hədiyyələr təqdim olundu.*

*Dövlət başçıları və xanımları Heydər Əliyev Fondunun fəaliyyəti haqqında filmə baxdılar.*

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*«Gülüstan» sarayı*

*9 noyabr 2009-cu il*

*Noyabrın 9-da «Gülüstan» sarayında Azərbaycan prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından Sloveniya prezidenti Danilo Tyurkun və xanımı Barbara Mikliç Tyurkun şərəfinə rəsmi qəbul təşkil edilmişdir.*

*Dövlət başçıları qəbulda nitq söyləmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli cənab Prezident!

Hörmətli xanım Barbara Mikliç Tyurk!

Xanımlar və cənablar!

Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayır və «Xoş gəlmisiniz!» deyirəm. Bu gün Sloveniya ilə Azərbaycan arasında münasibətlərin yeni səhifəsi açılır. Sizin Azərbaycana ilk səfəriniz ikitərəfli münasibətlərimizdə mühüm hadisədir. Mən bu səfəri yüksək qiymətləndirir və onun ölkələrimiz arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətlərinin yeni mərhələsinə zəmin yaradacağına inanıram. Şübhə etmirəm ki, keçirdiyimiz görüşlər, apardığımız danışıqlar və fikir mübadiləsi, habelə imzalanmış sənədlər və iki ölkənin iş adamlarının sabah təşkil olunacaq biznes-forumu qarşılıqlı fəaliyyət üçün yeni sahələri müəyyən edəcək, əlaqələrimizin gələcək inkişafına öz töhfəsini verəcəkdir.

Qeyd etmək istəyirəm ki, Sloveniya Avropa ölkələri arasında Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir. Tarixdə bizim xalqları birləşdirən ümumi məqamlar çoxdur. İkinci dünya müharibəsi illərində – alman faşizminə qarşı mübarizədə sloveniyalılarla birlikdə Azərbaycan xalqının qəhrəman övladları da fəal iştirak etmişlər. Sloveniyalılarla çiyin-çiyinə vuruşmuş Azərbaycanın qəhrəman oğlu Mehdi Hüseynzadə Sloveniyada həlak olmuş və onun şərəfinə orada abidə ucaldılmışdır.

Sloveniya ilə Azərbaycanın müstəqillik tarixi də oxşardır. Uzun müddət başqa dövlətlərin tərkibində olmuş və dövlət müstəqilliyini təxminən eyni vaxtda qazanmış ölkələrimiz son illərdə böyük sınaqlardan uğurla çıxmışlar. Əlamətdar haldır ki, ölkələrimiz arasında ticarət-iqtisadi, sənaye və energetika, mədəniyyət və turizm, təhsil, informasiya texnologiyaları, sərmayə qoyuluşu və digər sahələrdə yaxşı əməkdaşlıq imkanları vardır. Düşünürəm ki, biz birgə səylərimizlə bu imkanları reallaşdıra bilərik.

Azərbaycan Sloveniya ilə həm ikitərəfli əsasda, həm də beynəlxalq və regional təşkilatlar, eləcə də Avropa İttifaqı, ATƏT və NATO çərçivəsində sıx əməkdaşlığa xüsusi əhəmiyyət verir. Avropa İttifaqının «Şərq tərəfdaşlığı» təşəbbüsü əməkdaşlığımız üçün yeni perspektivlər açır.

Azərbaycan son illər sürətli inkişaf yolu keçmişdir. Ötən beş ildə iqtisadiyyatımız 2,6 dəfə artmışdır. Bunun nəticəsidir ki, dünyada hökm sürən maliyyə böhranına, neftin qiymətinin kəskin şəkildə aşağı düşməsinə baxmayaraq, bu ilin 9 ayı ərzində Azərbaycan iqtisadiyyatı 6,1 faiz artmışdır. İrimiqyaslı beynəlxalq layihələrin həyata keçirilməsi nəticəsində Böyük İpək yolunun bərpası, Şərq–Qərb nəqliyyat dəhlizinin yaradılması, eləcə də Avropanın enerji təhlükəsizliyinin təmin olunması istiqamətində səylərimiz artıq öz bəhrəsini verməkdədir.

Bunlar sübut edir ki, regionumuzun dinamik inkişafı üçün hər cür şərait vardır. Lakin Ermənistan–Azərbaycan,

Dağlıq Qarabağ münaqişəsinin hələ də davam etməsi regionun çiçəklənməsi yolunda böyük maneə olaraq qalır. Ermənistanın hərbi təcavüzü və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş, ölkədə 1 milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır. Dünya birliyi və beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır, münaqişənin ölkəmizin ərazi bütövlüyü çərçivəsində beynəlxalq hüquq normalarına uyğun, ədalətli həllinin tərəfdarıdır. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, ATƏT, Avropa Şurası Parlament Assambleyası, NATO və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri vardır.

Hörmətli cənab Prezident, icazə verin, Azərbaycana rəsmi səfərinizə böyük əhəmiyyət verdiyimi bir daha ifadə edim və bu badəni Sizin sağlığınıza, xanımınızın sağlığına, Sloveniya ilə Azərbaycan arasında səmimi dostluq və faydalı əməkdaşlıq əlaqələrinin inkişafının şərəfinə qaldırım.

**Sloveniya prezidenti Danilo Tyurkun nitqi**

Hörmətli cənab Prezident!
Hörmətli xanım Əliyeva!
Xanımlar və cənablar!
Əziz dostlar!

Bizi salamlamaq üçün söylədiyiniz xoş sözlərə görə çox sağ olun. İcazə verin, sizin XII əsrdə yaşamış məşhur şairiniz Nizami Gəncəvidən bir sitat gətirim: «Qəlbdən deyilən söz qəlbə yol tapır». Azərbaycan Respublikasına rəsmi səfər etmək üçün dəvət almağımdan yüksək dərəcədə məmnun oldum. İcazə verin, nümayəndə heyətimlə birlikdə gözəl paytaxtınız Bakıda qaldığım müddətdə bizə göstərilən səmimi münasibətə və qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirim. Bizim üçün bu səfər ölkənizin əldə etdiyi qeyri-adi tərəqqi ilə birbaşa tanışlıq üçün nadir fürsətdir. Bu tərəqqi təkcə böyük təbii sərvətlərə əsaslanmır, o həm də

xalqınızın xüsusi novatorluq və yaradıcılıq bacarıqlarının olmasının, Sizin sələfiniz, müasir Azərbaycanın qurucusu mərhum prezident Heydər Əliyevin baxışının nəticəsidir.

Sloveniya və Azərbaycan təkcə iki dost ölkə deyildir. Demək olar ki, onlar müəyyən cəhətdən həmyaşıddırlar. Bu il ölkələrimizin müstəqilliklərinin 18-ci ildönümüdür. Xalqlarımız arasındakı əlaqələrin uzun tarixi kökləri vardır. İkinci dünya müharibəsinin ağır illərində Sloveniya xalqı sloven torpağında faşizmə qarşı mübarizə apararaq həyatını qurban vermiş azərbaycanlı döyüşçülərin göstərdiyi şücaəti xüsusi minnətdarlıqla xatırlayır.

Sloveniya Azərbaycan rəhbərliyinin Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi, Fəaliyyət Planı, Avropa Qonşuluq Siyasəti və «Şərq tərəfdaşlığı»nın əsas məqsədlərinin həyata keçirilməsindən irəli gələn çağırışların həllində və zəruri islahatların həyata keçirilməsində tutduğu qətiyyətli mövqeyini alqışlayır. Sloveniya və Avropa İttifaqı Qafqazdakı qonşularla daha yaxın əməkdaşlığa çalışır. Bu məqsədlə biz qitəmizdə davamlı sülh, sabitlik, təhlükəsizlik və rifahı təmin edəcək bu əməkdaşlığın təşviqini intensivləşdirməliyik. Həm Sloveniya, həm Azərbaycan ölkələrimiz və xalqlarımız arasında yaxşı qonşuluq əlaqələrini, təhlükəsizliyi və əməkdaşlığı, eləcə də qarşılıqlı hörməti gücləndirmək üçün əlindən gələn səyləri göstərir. Regionda mühüm rol oynayan sabit və müvəffəqiyyətli Azərbaycan Avropa və bütün dünya üçün müstəsna əhəmiyyət kəsb edir.

Biz, həmçinin ölkənizin müasir tarixində üzləşdiyi faciəli hadisələrlə tanışıq. Əminik ki, Azərbaycan açıq dialoq vasitəsilə bu günə qədər göstərdiyi eyni əzmkarlıqla Dağlıq Qarabağ məsələsinin sülh yolu ilə ədalətli həllinə töhfəsini davam etdirəcəkdir. İnanırıq ki, beynəlxalq hüquqa əsaslanan ədalətli həll variantına nail olunacaq və qaçqınlar öz evlərinə qayıtmaq imkanı əldə edəcəklər.

Düşünürəm ki, ölkələrimiz arasında mədəniyyət və iqtisadiyyat sahələrində əməkdaşlığımızı daha da gücləndirməli-

yik. Səfər çərçivəsində məni müşayiət edən sloveniyalı iş adamları ölkənizin etimadına və dəstəyinə arxalanırlar.

Cənab Prezident, bizə göstərdiyiniz yüksək qonaqpərvərliyə görə Sizə təşəkkür edirəm. Əminəm ki, qarşılıqlı əməkdaşlığımız sülh, təhlükəsizlik, sabitlik və inkişaf kimi ortaq məqsədlərə nail olmağımıza və xalqlarımızın rifahının təmin olunmasına töhfə verəcəkdir.

## AZƏRBAYCAN–SLOVENİYA BİZNES-FORUMU

*10 noyabr 2009-cu il*

*Noyabrın 10-da Bakıda Azərbaycan prezidenti İlham Əliyevin və Sloveniya prezidenti Danilo Tyurkun iştirakı ilə Azərbaycan–Sloveniya biznes-forumu keçirilmişdir.*

*Biznes-forumda Sloveniya tərəfindən 70 nəfərlik heyət, Azərbaycan tərəfindən isə 90-dək iş adamı iştirak etmişdir.*

*Dövlət başçıları forumda çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Mən cənab Prezidenti Azərbaycanda bir daha salamlamaq istəyirəm. Dünən bizim ikitərəfli münasibətlərimizin gələcək inkişafı ilə bağlı çox uğurlu görüşlərimiz, müzakirələrimiz baş tutdu. Səfərin vacibliyi ondan ibarətdir ki, bu, Sloveniya prezidentinin Azərbaycana ilk səfəridir və dünən imzaladığımız sazişlər, o cümlədən siyasi bəyanat, sözün əsl mənasında, ikitərəfli münasibətlərin bir çox istiqamətlərini əhatə edir. Zənnimcə bu, həmçinin işgüzar dairələrə də yaxşı bir siqnaldır ki, onlar müxtəlif birgə layihələri həyata keçirsinlər.

Güclü siyasi münasibətlər, o cümlədən, iqtisadi əməkdaşlığın yüksək potensialı ikitərəfli münasibətlərimizdə çox yaxşı bir mühit yaradır. Buna görə də mən Sloveniyanın işgüzar dairələrini bugünkü biznes-forumda görməkdən çox şadam. Həmçinin bilirəm ki, dünən bizim iş adamları çox faydalı görüşlər keçirmişlər. Bu cür biznes-forumlar əməkdaşlığımızın

inkişaf etdirilməsi üçün yaxşı imkanlar yaradır. Çünki güclü siyasi iradə vardır. Hesab edirəm ki, iqtisadiyyatımızın Sloveniyanın işgüzar adamları üçün cəlbedici olması göz qabağındadır. Ona görə biz indi ölkələrimiz arasında əməkdaşlığın gücləndirilməsi üçün praktiki nöqteyi-nəzərdən nəyin edilməsi üzərində düşünməliyik.

Hesab edirəm ki, bu tədbir əsnasında qarşılıqlı maraq doğuran məsələlər müəyyən ediləcəkdir. Çünki işgüzar dairələr özləri üçün müəyyən edəcəklər ki, hansı sahəyə sərmayə yatırmalıdırlar. Hökumətlər də bu insanlara yardım etməli və müəyyən məsləhətləri, təlimatları verməlidir. Təbii ki, hər bir ölkənin hansı sahəni özünə vacib hesab etdiyi müəyyən olunmalıdır. Biz xarici sərmayələrə açığıq. Müstəqillik dövründən etibarən Azərbaycan adambaşına birbaşa xarici sərmayələrin həcminə görə regionda aparıcı dövlətlərdən birinə çevrilmişdir. Ölkəmizdə münbit sərmayələr mühiti vardır, xarici sərmayələr lazımi səviyyədə qorunur. Həmçinin enerji sektorunda əsas kommersiya müqavilələri parlamentimiz tərəfindən ratifikasiya edilib və artıq qanun formasını alıb. Yəni heç kim həmin müqavilədə heç bir sözü dəyişə bilməz. Bu da sərmayədarların əlavə etimadına səbəb olur. Biz qeyri-enerji sektoruna da sərmayələr yatırılmasında maraqlıyıq. Çünki enerji sektorunda bir çox işlər artıq görülüb. İqtisadiyyatımızın şaxələndirilməsi bir nömrəli prioritetdir. Hazırda iqtisadiyyatımız yalnız enerji amillərindən asılı deyildir.

Əməkdaşlığın potensial və maraqlı sahələri özlüyündə çox genişdir. Kənd təsərrüfatı, turizm, informasiya texnologiyaları, bərpa olunan enerji mənbələri və bir çox digər sahələr mövcuddur. Hesab edirəm ki, biznes dairələri nəyin edilməsi barədə özləri qərar qəbul etməlidir və biz, ölkələrin rəhbərləri yalnız onlara yardım etməkdən çox şad olardıq.

Azərbaycan iqtisadiyyatı Sovet İttifaqının süqutundan öncə 100 faiz planlı iqtisadiyyat idi. Lakin biz islahatlar apardıq və ümumi daxili məhsulun 85 faizi artıq özəl sektor

tərəfindən təmin olunur. Özəl sektor ölkəmizin iqtisadiyyatının şaxələndirilmiş inkişafında mühüm rol oynayır. Hökumətimiz Azərbaycanda qeyri-enerji sektoruna öz yardımını göstərir və bu sektorun inkişafını stimullaşdırır. Son beş ildə iqtisadiyyatımız 2,6 dəfə artmışdır, bu, dünyada ən yüksək göstəricidir. Hətta bu gün böhran ilində – gördüyünüz kimi, neftin qiymətinin kəskin aşağı düşməsinə baxmayaraq, iqtisadiyyatımız yenə də artır. Bu ilin 9 ayında ümumi daxili məhsulun artımı 6,1 faiz olmuşdur. Lakin dünən verilmiş məlumata görə, 10 ay ərzində ümumi daxili məhsulun artımı 8,3 faiz təşkil etmişdir. Sənaye artımı isə 7,4 faiz olmuşdur. Bu bizim iqtisadiyyatımızın davamlı xarakterindən xəbər verir. İqtisadi böhrana baxmayaraq, Azərbaycanın iqtisadi inkişafı davam edir və uğurla həyata keçirilir.

Azərbaycan İnvestisiya Şirkəti kifayət qədər yaxın zamanlarda yaradılmış bir təsisatdır. Zənnimcə, bu haqda məlumat veriləcək və yaxud da artıq rəsmilər tərəfindən məlumat verilmişdir. Bu şirkətin əsas məqsədi xarici sərmayələri hökumətimiz üçün, prioritet sahələr üçün cəlb etməkdir. Biz hər hansı bir sahədə hər hansı bir sərmayəni alqışlayırıq. Qeyd etdiyim kimi, hər bir ölkənin özünün prioriteti vardır. Ona görə biz bilməliyik ki, sərmayələri hansı istiqamətə yönəltməliyik. Azərbaycan hökuməti xarici və yerli sərmayədarların stimullaşdırılması və müxtəlif layihələrdə iştirakı ilə bu işi irəliyə doğru aparmalıdır.

Bu günə qədər beynəlxalq sərmayədarlar tərəfindən Azərbaycan İnvestisiya Şirkətinə təqdim edilmiş layihələr çox uğurlu olmuşdur. Onlardan bir çoxu hazırda həyata keçirilmək üzrədir. Bu şirkətin ilkin kapitalının həcmi təxminən 100 milyon dollar idi və bu vəsaitlər artıq müxtəlif layihələrə sərf olunmuşdur. Biz gələn il ərzində gözəçarpan vəsaitin Azərbaycan İnvestisiya Şirkətinə öz büdcəmizdən ayrılmasını planlaşdırırıq ki, maraq doğuran sahələrdə ölkəmiz və sərmayədarlar üçün yeni layihələr həyata keçirilsin.

Fikrimcə, bu biznes-forumun da vacibliyi onunla izah olunur ki, sloveniyalı iş adamları Azərbaycanda nəyin baş verdiyini, ümumi iqtisadi vəziyyəti, qanunverici əsasları, vergilər haqqında məlumatı öyrənmək imkanını əldə edirlər və sərmayə imkanlarını araşdırırlar. Onlar artıq planlaşdırılan layihələri də nəzərdən keçirə bilərlər. Bu bizim əməkdaşlığımızın bir forması ola bilər.

Yəni bu, iqtisadiyyatımıza birbaşa yatırılan sərmayə, yaxud ikitərəfli formada Azərbaycan İnvestisiya Şirkətinin iştirakı ilə həyata keçirilə bilər. Yaxud üçüncü forma podratçı qismində Azərbaycanda həyata keçirilən layihələrdə iştirakçı ola bilər. Biz məhz əsasən infrastruktur sahəsində bir çox layihələri həyata keçiririk, ölkəmizdə mövcud olan bütün infrastrukturu yeniləşdirmək fikrindəyik. Çünki Sovet İttifaqı dövründə yaradılmış infrastruktur təbii ki, bizim müstəqil ölkə kimi inkişafımıza yardım etdi. Amma bu gün bu infrastruktur bizim tələbatlarımıza tam cavab vermir.

İnfrastruktur sahəsində işlərə, məsələn, yollar, elektrik stansiyaları, kanalizasiya xətləri, su təchizatı, qazlaşdırma, sosial obyektlər, məktəblər, xəstəxanalar və digər bu kimi layihələrə dövlət büdcəsindən vəsait ayrılır, sərmayələr qoyulur. Hesab edirəm ki, bu günlərdə biz potensial layihələrin mümkünlüyünü qiymətləndirə və beləliklə işimizi dərhal başlaya bilərik.

Biz birgə layihələrin dərhal başlanmasının tərəfdarıyıq. Artıq bütün zəruri elementlər masa üzərindədir. Siyasi münasibətlər, güclü siyasi iradə və iqtisadi təkanlar vardır. Sloveniya bizim üçün, həmçinin böyük əhəmiyyət kəsb edən ölkədir. Ona görə hesab edirəm ki, bizim biznesmenlər də vaxt tapıb Sloveniyaya səfər etməlidirlər və orada sərmayə imkanlarını araşdırmalıdırlar. Hazırda Azərbaycan şirkətləri xaricdə fəal şəkildə sərmayə yatırırlar. Əsasən bu, qonşu ölkələrdə baş verir. Sərmayələr olduqca böyükdür, yəni bir neçə il ərzində milyardlarla dollar sərmayə yatırılıb.

Ona görə də biz bir-birimizi daha yaxşı tanımalıyıq, daha çox təmaslarımız olmalıdır və birgə iqtisadi əməkdaşlığın başlanılması üçün daha nəyin edilməsi üzərində düşünməliyik. Azərbaycan böyük enerji potensialı olan bir ölkə kimi, enerji təhlükəsizliyi məsələlərində mühüm rol oynayır.

Cənab Prezidentlə görüşümüz zamanı Azərbaycan ilə Avropa İttifaqı arasındakı münasibətləri də müzakirə etdik. Çünki Sloveniya Avropa İttifaqının üzvü kimi, Avropa İttifaqı ilə onun qonşuları arasında inteqrasiya prosesində mühüm rol oynayır. Azərbaycan üç ildir ki, Avropa İttifaqının Yeni Qonşuluq Proqramının üzvüdür və bir neçə ay əvvəl ölkəmiz «Şərq tərəfdaşlığı» proqramına qoşulmuşdur. Bu proqram qarşımızda yeni imkanlar açır və biz Avropa təsisatları ilə təmaslarımızı daha da sıxlaşdırmalıyıq. Əməkdaşlığımızı sırf enerji məsələləri ilə məhdudlaşdırmalı deyilik. Baxmayaraq ki, bu məsələlər vacibdir. Biz bir neçə il ərzində neft və qaz yataqlarının işlənilməsinə böyük sərmayələrin yatırılmasına nail olduq, boru kəmərlərini çəkdik, çünki biz əksər tərəfdən quru ilə əhatə olunan ölkəyik. Yeri gəlmişkən onu da deyim ki, biz qazı hasil edən yeganə ölkəyik ki, bazarlara su yolu ilə açıq çıxışa malik deyilik. Ona görə də biz neft və qazın nəqli üçün digər ölkələrin ərazisindən keçən boru kəmərlərinə ehtiyac duyuruq.

Son on ildə bizim bütün əsas enerji layihələrimiz həyata keçirilmişdir. Bu gün artıq bizim şaxələndirilmiş neft və qaz boru kəmərlərimizin şəbəkəsi mövcuddur və bu bizim bir marşrutdan asılılığımızı aradan qaldırır. Bu il Azərbaycanda neft hasilatı gündə təxminən 1 milyon barrel təşkil edəcəkdir, qaz hasilatı isə 25 milyard kubmetr həcmində olacaqdır. Biz qazı qonşu ölkələrə nəql edirik, çatdırırıq və istəyirik ki, bu həcm daha da artsın. Bu təchizatın coğrafiyasını da genişləndirmək fikrindəyik. Məhz ona görə enerji daşıyıcılarının nəqli yollarının şaxələndirilməsi olduqca vacib məsələdir. Bu nəinki istehlakçılar, o cümlədən hasilatçılar üçün də vacibdir. Çünki bəzi hallarda hasilatçılar da –

xüsusən də əgər onlar tranzit ölkələrdən asılıdırlarsa – problemlər və çətinliklər görürlər.

Bəzi hallarda bu tranzit ölkələrlə danışıqlarda hasilatçılar həmin ölkələr tərəfindən qəbul oluna biləcək kommersiya təkliflərinə nail olmurlar. Əgər biz Azərbaycan qazının ixracına, onun Avropa bazarına çıxarılmasına dair tranzit məsələlərində razılığa gələ bilsək, onda Avropa İttifaqının bazarında yeni qaz mənbəyi olacaqdır.

Əfsuslar olsun ki, artıq iki ildir bu məsələnin həlli istiqamətində beynəlxalq normalara və mövcud kommersiya tarifləri çərçivəsinə əsaslanan səylərimiz hər hansı bir nəticə verməmişdir. Ümidvarıq ki, tranzit məsələləri öz həllini tapacaqdır. Əgər bu baş verərsə, onda Azərbaycandan hasil edilən qaz Avropa bazarına çıxarılacaqdır. Bu da bizim maraqlarımıza və əminəm ki, Avropa İttifaqının da maraqlarına cavab verəcəkdir Başqa sözlə, biz Sloveniya ilə əməkdaşlığımızı çox vacib hesab edirik.

Bizim birgə biznes aparmaq imkanlarımız vardır. Ona görə də Sloveniyadan iş adamlarının bu cür çox sayda gəlməsi həmin marağı bir daha nümayiş etdirir. Siyasi, iqtisadi, mədəni və «Şərq tərəfdaşlığı» Proqramı çərçivəsində əməkdaşlığımızın da böyük potensialı vardır. Biz hər zaman Avropa İttifaqı ilə inteqrasiya fəaliyyətimizdə Sloveniyanın dəstəyini hiss edirik. Biz eyni vaxtda müstəqilliyimizi qazandıq. Bu müstəqillik Balkanlarda və keçmiş SSRİ-də 1991-ci ildə baş vermiş geosiyasi proseslər nəticəsində əldə olundu və həmin dövrdə həm Sloveniya, həm Azərbaycan bir çox çətinliklər və problemlərlə üzləşdi, lakin onları uğurla həll etdi. Siz NATO-nun və Avropa İttifaqının üzvüsünüz, şaxələndirilmiş və rəqabətqabiliyyətli iqtisadiyyatınız vardır.

Azərbaycanın da çətin vaxtları olubdur və həmçinin biz də əsas iqtisadi və sosial problemlərin həllinə nail olmuşuq. Biz olduqca ciddi iqtisadi islahatlar həyata keçirmişik. 2008-ci ildə Dünya Bankı özünün «Doing business» hesabatında Azərbaycanı islahatlarına görə dünyada birinci yerdə elan etmişdir.

Hasilat sənayesində şəffaflığa gəldikdə, Neft fonduna da bütün digər suveren neft fondları arasında birinci yer verilmişdir. Bu qiymət həmin təsisatın olduqca şəffaf şəkildə fəaliyyət göstərməsi ilə bağlıdır. Qlobal rəqabətqabiliyyətlilik göstəricisinə görə keçmiş SSRİ məkanında bizim iqtisadiyyatımız birinci yerdə gedir. Yəni ölkələrimiz arasında bir çox oxşarlıqlar vardır. Bəli, biz müxtəlif regionlarda yerləşirik. Lakin hesab edirəm ki, bu heç də bizim güclü siyasi və iqtisadi münasibətin inkişafına mane olmamalıdır. Sözün əsl mənasında, bizim uğurlu danışıqlarımız və müzakirələrimiz oldu, sənədlər imzalandı. Ümid edirik ki, bu biznes-forumun praktiki nəticələri olacaq və işgüzar dairələr arasında əlaqələr uğurla davam edəcəkdir.

## Sloveniya prezidenti Danilo Tyurkun çıxışı

Cənab Prezident Əliyev!

Həvəsləndirici sözlərinizə, xoş qonaqpərvərliyə və verdiyiniz geniş təhlilə görə olduqca minnətdaram. Siz siyasi əməkdaşlığımızın əsaslarını, onun mühüm cəhətlərini izah etdiniz. Qeyd etdiniz ki, iqtisadiyyatlarımız bir-biri ilə rəqabət aparmır, əksinə, bir-birinə yardım edir. Qarşımızda yaxşı imkanlar vardır. Münasibətlərimizin kifayət dərəcədə geniş təhlili Sizin tərəfinizdən verildi. Bunu nəzərə alaraq, verəcəyim şərhlər qısa olacaqdır. Sizin istinad etdiyiniz aspektləri mən burada təkrar etmək istəməzdim, çünki onların hamısı ilə tam şəkildə razıyam.

Mən biznes-forumun təşkil olunmasına görə, cənab Prezident, Sizə və Azərbaycanın Ticarət və Sənaye Palatasına minnətdarlığımı bildirmək istəyirəm. Bu tədbir ikitərəfli səfərlərin mühüm nəticəsidir. Mən Sloveniyanın iş adamları ilə səfər etməyi xoşlayıram. Çünki onlar praktiki baxımdan çox işgüzar şəxslərdir. Onlar ikitərəfli münasibətlərimizin inkişafında əlavə rol oynayırlar.

Cənab Prezident, Siz qeyd etdiniz ki, ölkələrimiz müstəqillik baxımından gəncdir. Bizim uzunmüddətli suveren dövlətçilik tariximiz olmayıb. Lakin bizim zəngin mədəni tariximiz vardır. Xalqlarımızın tarix boyu çətinliklərlə üzləşdiyi anlarda da bir çox oxşarlıqlar olub. Suverenliyimiz gəncdir. Hər iki ölkə böyük sınaqlardan keçib. Bu proses getdikcə iqtisadi özünəməxsusluğumuzu da təyin edib. Mən əldə edilmiş nailiyyətlərə görə Azərbaycanı təbrik etmək istəyirəm. Biz Sloveniyada yaxşı anlayırıq ki, ölkənizin enerji təchizatı sahəsində qlobal səviyyəyə çıxması Sizin böyük iqtisadi nailiyyətinizdir. Hazırda Azərbaycan iqtisadiyyatını şaxələndirir. Bütün bunlar Azərbaycan xalqının, o cümlədən regionun perspektivli gələcəyini təmin edir.

Sloveniya öz gələcəyini Avropaya inteqrasiyada görür. Biz nəinki Avropa İttifaqının, o cümlədən avro zonasının üzvüyük. Bu bizə valyuta sabitliyini vəd edir. Baxmayaraq ki, həmin zonaya qoşulmaq müəyyən mənada valyuta suverenliyini məhdudlaşdırır. Lakin biz bunu qəbul edirik. Bilirik ki, bu, iqtisadiyyatımızın sabitliyinə, eləcə də tərəfdaşlarımızla iqtisadi əməkdaşlığın aparılmasına şərait yaradır. Bir sözlə, qarşımızda duran üstünlüklərə nəzər yetirməli, yaradıcı və məqsədyönlü olmalıyıq.

Dünən axşam məmnunluqla öyrəndim ki, bizim iş adamları ölkənizin müxtəlif nazirlikləri və həmkarları ilə artıq təmaslar qurublar. Mən gündəliyə nəzər salanda gördüm ki, eyni sahədə işləyən şirkətlər vardır. Cənab Prezident, Siz onlara öz çıxışınızda istinad etdiniz. Həqiqətən, gələcək iqtisadi əməkdaşlığımızda biz bir çox maraqlı variantları işləyə bilərik. İcazə verin üç-dörd misal gətirim. Onlardan biri bərpa edilən enerji mənbələrinə aiddir. Biz yaxşı anlayırıq ki, Azərbaycan karbohidrogen hasilatından başqa, digər sahələri də inkişaf etdirmək fikrindədir. Elə bir vəziyyət yaranmalıdır ki, iqtisadiyyatın bütün sahələri ölkənin ümumi inkişafında iştirak etsin. Sloveniyanın su elektrik stansiyalarının tikintisi sahəsində böyük təcrübəsi

vardır. Biz bütün ölçülərdə, növlərdə və coğrafi şəraitlərdə su elektrik stansiyalarını tikmişik. Bütün bunlar, keçmişdə əldə etdiyimiz təcrübəmiz bu istiqamətdə inkişafı bölüşmək imkanı yaradır.

Cənab Prezident, əslində bu məsələ Sizin ətraf mühitin qorunması sahəsinə də göstərdiyiniz qayğı ilə bir araya gəlir. Hazırda ekologiya məsələləri qlobal səviyyədə müzakirə olunan məsələlərdəndir. Biz bərpa olunan enerji mənbələrindən getdikcə daha çox istifadə etməliyik və bunlardan ən mühüm mənbə su elektrik stansiyalarıdır. Hesab edirəm ki, bu sahədə ümumi layihələr həyata keçirilə bilər və həmin layihələrdə Sloveniya şirkətləri sizə yardımçı ola bilər. Biz də həmin əməkdaşlıqdan faydalana və yararlana bilərik.

Telekommunikasiya və informasiya texnologiyaları sahəsinə gəldikdə biz bir-birimizi tamamlayırıq. Ölkəmiz keçid dövründə informasiya cəmiyyətinin qurulması sahəsində diqqətəlayiq nailiyyətlər əldə etmişdir. İnternetdən istifadə sahəsində yaxşı təcrübəmiz vardır. Bu sahədə təcrübə mübadiləsi ola bilər və bu, iqtisadi əməkdaşlığımızın mühüm hissəsinə çevrilər. Məsələn, yolların çəkilməsinə gəldikdə Sloveniya magistral yolların tikintisi və yol qovşaqlarının inşası sahəsində zəngin təcrübə toplayıb. Təcrübəmiz bu sahədə də faydalı ola bilər. İnşaat sahəsi əməkdaşlıq sahəsi ola bilər və biz ümumi inşaat layihələrini həyata keçirə bilərik. Siz burada turizmi qeyd etdiniz. Fikrimcə, bu sahə iqtisadi özünəməxsusluğun mühüm bir elementidir. Turizm insanları bir-biri ilə yaxınlaşdırır, onları bir-biri ilə tanış edir. Bu sahədə əməkdaşlıq mümkündür və bizim ümumi iqtisadi əməkdaşlığımızı tamamlaya bilər.

Cənab Prezident, onu deyə bilərəm ki, qarşımızdakı mövcud vəziyyət olduqca faydalıdır. Hətta deyərdim ki, həmin vəziyyət bizi həvəsləndirir. Nikbinlik də vardır. Siz qeyd etdiniz ki, Azərbaycan uzun müddət ərzində çox yüksək templərlə inkişaf edib. Əvvəla, hazırkı qlobal tənəzzül və böhran şəraitində sizin inkişaf etmək təcrübənizi

öyrənmək bizim üçün çox maraqlı olardı. Dünya iqtisadi böhranı Sloveniyaya böyük təsir göstərmişdir. Çünki Sloveniya iqtisadiyyatı ixracyönümlü iqtisadiyyatdır və biz müəyyən mənada xarici tərəfdaşlarımızdan asılıyıq. Lakin bu dövr bitmək üzrədir. Gələn 2010-cu ildən etibarən iqtisadi inkişaf bərpa olunacaq və sabit templə irəliyə doğru gedəcəyik. Buna görə də biz gələcəyə son çətinliklər prizmasından deyil, qarşımızda duran perspektivlər baxımından nəzər yetirməliyik. Mən bu fürsətdən istifadə edərək bildirmək istəyirəm ki, biz gələcəkdə Sloveniya ilə Azərbaycan arasında tammiqyaslı əməkdaşlığın qurulacağına əminik və əməkdaşlığımızı yalnız iqtisadi sahə ilə məhdudlaşdırmalı deyilik.

Mədəniyyət sahəsində əməkdaşlıq üçün böyük imkanlar mövcuddur. Sloveniya Cənubi-Şərqi Avropada mədəni irsin qorunması sahəsində mühüm rol oynamışdır. Bilirik ki, Azərbaycan da öz regionunda oxşar proqramları həyata keçirir. Biz bu sahədə tərəfdaşlığı daha da inkişaf etdirmək fikrindəyik. İstərdik ki, mədəniyyət sahəsi xalqlarımızın görüşdüyü və əməkdaşlıq etdiyi yerə çevrilsin.

Çox şadam ki, biz müəyyən sazişləri imzaladıq və onlardan bəziləri burada toplaşan iş adamları üçün faydalı olacaqdır. Sizlərdən bəzilərinin diplomatik pasportları vardır. Həmin şəxslərə bildirmək istəyirəm ki, onlar bundan sonra ölkələrimizə vizasız səfər etmək imkanına malik olacaqlar. Bu sahədəki irəliləyiş daha da möhkəmlənəcəkdir. Çünki Avropa İttifaqı qonşuluqda olan ölkələrlə əməkdaşlıq sahəsində yeni addımların atılmasını istəyir. Cənab Prezident, ölkələrimizin iş adamları qarşısında çıxış etmək imkanı yaratdığınıza görə minnətdarlığımı bildirmək istəyirəm. Ümidvaram ki, gələcəkdə bizim nəinki çıxış edən qismində, o cümlədən qeyri-formal şəraitdə adi iştirakçılar kimi görüşmək imkanımız olacaqdır.

Çox sağ olun.

## TÜRKİYƏNİN DÖVLƏT NAZİRİ HAYATİ YAZICININ BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 noyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də Türkiyənin Dövlət naziri Hayati Yazıcının başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan–Türkiyə ikitərəfli münasibətləri, iqtisadi əlaqələr, regional əməkdaşlıq və digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## İSLAM KONFRANSI TƏŞKİLATININ BAŞ KATİBİ EKMƏLƏDDİN İHSANOĞLU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 noyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də İslam Konfransı Təşkilatının Baş katibi Ekmələddin İhsanoğlunu qəbul etmişdir.*

*Ekmələddin İhsanoğlu yenidən Azərbaycana səfərindən məmnunluğunu bildirdi. O, Bakıda keçirilən «Sivilizasiyalararası dialoq: Azərbaycandan baxış» beynəlxalq konfransının əhəmiyyətini vurğuladı.*

*Dövlətimizin başçısı bu mövzu ilə bağlı ölkəmizdə mütəmadi olaraq mötəbər konfransların keçirilməsinin önəmini qeyd etdi.*

*Görüşdə Azərbaycan ilə İslam Konfransı Təşkilatı arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi və bu əməkdaşlığın gələcəkdə daha da genişlənəcəyinə əminlik ifadə olundu.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BELARUSA RƏSMİ SƏFƏRİ

*11 noyabr 2009-cu il*

*Noyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belarus Respublikasına rəsmi səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də Belarus Respublikasına rəsmi səfərə gəlmişdir.*

*Hər iki ölkənin dövlət bayraqları ilə bəzədilmiş Minsk Milli Hava Limanında Azərbaycan prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Milli geyimli qızlar dövlətimizin başçısına duz-çörək və gül dəstəsi təqdim etdilər.*

*Prezident İlham Əliyevi Belarus Respublikasının Baş naziri Sergey Sidorski və digər rəsmi şəxslər qarşıladılar.*

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Minsk*

*12 noyabr 2009-cu il*

*Noyabrın 12-də Belarusda rəsmi səfərdə olan Azərbaycan prezidenti İlham Əliyevin Minskdə Prezident İqamətgahında rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Azərbaycanın və Belarusun dövlət bayraqlarının dalğalandığı meydanda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Belarus prezidenti Aleksandr Lukaşenko qarşıladı.*

*Hərbi orkestrin ifasında Azərbaycanın və Belarusun dövlət himnləri səsləndi.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi.*

*Prezidentlər Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Belarusun dövlət və hökumət nümayəndələri Azərbaycan prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Belarus prezidenti Aleksandr Lukaşenkoya təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BELARUS PREZİDENTİ ALEKSANDR LUKAŞENKONUN TƏKBƏTƏK GÖRÜŞÜ

*Minsk*

*12 noyabr 2009-cu il*

*Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun təkbətək görüşü olmuşdur.*

**Aleksandr Lukaşenko:** İlham Heydər oğlu, Sizinlə yenidən bu cür rəsmi şəraitdə görüşürük. Mən bunu ona görə xüsusi vurğulayıram ki, bizim işgüzar görüşlərimizin sayı kifayət qədər çoxdur. Biz tez-tez ünsiyyətdə oluruq və bu, sadəcə dostcasına ünsiyyət deyildir. Bu bizim görüşlərə xas olan cəhətdir. Belarusda bunu hamı bilir. Lakin bu həm də çox cəhətdən işgüzar danışıqlardır. Qeyd etmək istərdim ki, Sizin gəlişinizə hazırlaşarkən mən görüşlərimizin xüsusiyyətinin nədən ibarət olması barədə düşünürdüm. Axı Siz də dövlət rəhbərləri, dövlət başçıları ilə görüşürsünüz, mən də. Razılaşmalarımızın yüksək səmərəliliyini görmək mənə xoş idi – əvvəllər mən bu barədə fikirləşməmişdim. Praktiki olaraq biz nə barədə razılığa gəlmişiksə, hamısı həll olunub. Son dövrlərdə ticarət dövriyyəsinin 11 dəfə artması bunun nəticəsidir. Lakin Sizin Baş nazirin birinci müavini Belarusda səfərdə olarkən biz həmin problemi müzakirə etdik və birmənalı şəkildə qeyd etdik ki, bu bizi təmin edən əmtəə dövriyyəsi deyildir. Bizim kimi ölkələr iki-üç il müddətində 500 milyonluq həddi asanlıqla aşa bilər. Bunun rəhni odur ki, maliyyə-iqtisadi böhran

şəraitində hər yerdə əmtəə dövriyyəsinin azaldığı bir vaxtda, bizdə əmtəə dövriyyəsinin həcmi keçənilki səviyyə ilə müqayisədə təqribən 110 faiz olmuşdur. Yaxşı dinamikadır. Bu birincisi.

İkincisi, biz bu gün hansı istiqamətlər üzrə irəliləməyin mümkün olacağını müəyyənləşdirə bilmişik. Bəzən hər iki tərəfin potensial imkanları olur. Lakin onlar həmin potensialı cəmləşdirə bilmirlər. Biz dəqiq razılığa gəlmişik və müasir metodlarla işləyirik – müştərək istehsalatlar yaradırıq. Biz daxili bazarlarımız üçün işləyirik və kifayət qədər məhsul istehsal etdiyimiz təqdirdə üçüncü dövlətlərin bazarlarına çıxırıq. Bu, yaxşı perspektivdir. Ona görə də biz bu istiqamətdə hərəkət etmək əzmindəyik. Biz görürük ki, razılaşdırdığımız layihələri Siz Azərbaycanda dəstəkləyirsiniz. Bu bizi qane edir və razı salır. Buna görə də əmin ola bilərsiniz ki, razılığa gəldiyimiz bütün məsələlər sözsüz yerinə yetiriləcəkdir.

Yəqin ki, biz başqa məsələləri də müzakirə edəcəyik. Ukrayna rəhbərliyi ilə mənim son görüşüm barədə məlumat vermək istəyirəm. Bizim ümumi layihələrimiz ola bilər. Ona görə mən bu gün Sizi özünüzə doğma saydığınız şəhərdə böyük məmnuniyyətlə qəbul edirəm. Görürəm ki, bu şəhər Sizin xoşunuza gəlir və biz yaxşı işləyə bilərik.

**İlham Əliyev:** Çox sağ olun, hörmətli Aleksandr Qriqoryeviç. İlk növbədə, Sizin ölkəyə yenidən rəsmi səfərə dəvətə görə sağ olun. Mən yenidən qonaqpərvər Belarus torpağında olmağıma və fəal dialoqumuzu davam etdirməyə görə şadam. Ölkələrimiz arasında münasibətlər güclü, dinamik və Sizin qeyd etdiyiniz kimi, çox səmərəli inkişaf edir. Çox mühüm nəticələr əldə edilmişdir. Nisbətən qısa müddətdə biz rəsmi səfərlər etmişik. Səfər ərəfəsində mən də materiallara baxmışam. Son bir neçə ildə hökumətlərimizin başçıları müvafiq surətdə Belarusa və Azərbaycana üç dəfə səfər etmişlər. Beləliklə, çox səmərəli dialoq aparılır və qərarlar praktiki olaraq həyata keçirilir.

Bizim aramızda ortaq cəhətlər çoxdur və bu keyfiyyətlərdən biri məhz qəbul edilmiş qərarların yerinə yetirilməsində məsuliyyət hissidir. Mən də çox şadam ki, razılığa gəldiyimiz bütün məsələlər uğurla, özü də qısa müddətdə və keyfiyyətlə həyata keçirilir. Bu, əlbəttə, ölkələrimiz arasında etimad səviyyəsini qat-qat artırır və həm də yeni perspektivlər açır. Yaxınlarda, cəmi üç il əvvəl Belarusda Azərbaycan və Azərbaycanda Belarus səfirlikləri açılmışdır. Lakin bu müddət ərzində biz çox böyük yol keçmişik. Böhranlı ildə əmtəə dövriyyəsinin artırılması barədə Sizin qeyd etdiyiniz fakt yəqin ki, tənəzzül deyil, tərəqqi prosesi gedən nadir hallardan biridir. Bütün bunlar nikbinlik doğurur. Əminəm ki, biz birgə fəaliyyətimizi səylə davam etdirəcək, qarşılıqlı siyasi əlaqələri gücləndirəcək, yeni iqtisadi layihələri həyata keçirəcəyik.

Mən buraya bizim iqtisadiyyatın, demək olar ki, bütün sektorlarını əhatə edən nazirlərdən və Baş nazirin müavinindən ibarət böyük bir nümayəndə heyəti ilə gəlmişəm. Ümid edirəm ki, bu səfərin yekunlarına əsasən biz yeni konkret qərarlar qəbul edəcək, yeni layihələri daha səmərəli şəkildə həyata keçirəcək, köhnə layihələri davam etdirəcək, tərəfdaşlığı möhkəmləndirəcəyik. Sizinlə şəxsi planda görüşlərimiz, həmçinin mənə də çox xoşdur. Sizin qeyd etdiyiniz kimi, biz beynəlxalq tədbirlərdə tez-tez görüşürük, ünsiyyət saxlamağa həmişə vaxt tapırıq. Lakin rəsmi səfər tamam başqa formatdır. O həm də bizim ikitərəfli əlaqələrin inkişafına verdiyimiz əhəmiyyəti vurğulayır.

Qonaqpərvərliyə görə Sizə bir daha təşəkkür edirəm. Minskin sürətlə inkişafını görməyə çox şadam. Mən burada üç il bundan əvvəl olmuşam və bu gözəl şəhərin, Sizin ölkənin necə dinamik inkişaf etdiyini görürəm. Bu münasibətlə Sizi ürəkdən təbrik edirəm.

## DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Minsk*

*12 noyabr 2009-cu il*

*Noyabrın 12-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Belarus prezidenti Aleksandr Lukaşenkonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

*Prezident Aleksandr Lukaşenko Azərbaycan nümayəndə heyətini Belarus torpağında bir daha salamladı.*

**Aleksandr Lukaşenko:** Hörmətli İlham Heydər oğlu! Hörmətli dostlar! Sizi Belarus torpağında bir daha salamlamağa şadam. Siz bizim üçün həmişə arzuedilən, hörmətli adamlarsınız. Cənab Prezidentlə mən öz münasibətlərimizi qurarkən bunu əsas götürürük. Azərbaycanın nümayəndə heyətinin 2006-cı ildə Minskə yüksək səviyyəli axırıncı səfərindən sonra ikitərəfli münasibətlərin fəallaşdırılması üçün çox böyük işlər görülmüşdür.

Bu gün inamla deyə bilərik ki, ölkələrimiz arasında münasibətlər həqiqətən strateji xarakter daşıyır. Zaman bizim əvvəllər qəbul etdiyimiz qərarların düzgün olmasını təsdiq etmişdir. Həm sahələr səviyyəsində, həm də iki ölkənin hökumətləri xətti üzrə daimi qarşılıqlı fəaliyyət mexanizmi tənzimlənmişdir, geniş əhatəli məsələlər üzrə əməkdaşlıq intensiv genişlənir. Bu halda Belarus–Azərbaycan münasibətlərinin fərqləndirici cəhəti ondan ibarətdir ki, bu münasibətlər dostluq, qarşılıqlı hörmət, etimad prinsipləri üzərində qurulmuşdur. Bizim münasibətlərdə heç bir qapalı mövzu yoxdur. Bu gün prezident İlham Əliyevlə

bərabər qeyd etdik ki, ən yüksək etimad dərəcəsi və əldə etdiyimiz razılaşmaların yerinə yetirilməsi bizim münasibətlərin fərqləndirici xüsusiyyətləridir.

Siyasi sahədə bizdə bütün məsələlər çoxdan həll edilmişdir. Mədəniyyət, təhsil sahələrində möhkəm əlaqələr qurulmuşdur. Biz yüksək səviyyədə ikitərəfli danışıqların növbəti raundu barədə razılığa gələrkən ticari-iqtisadi münasibətlərin də yeni, perspektivli istiqamətlərini müəyyən etmək vəzifəsini qarşıya qoymuşduq.

Son beş ildə ölkələrimiz arasında əmtəə dövriyyəsi 11 dəfə artmışdır. Bu yəqin ki, bu gün əldə edə biləcəyimizin yalnız beşdə bir hissəsidir. Əgər İlham Heydər oğlu razılaşarsa, biz öz hökumətlərimiz üçün təqribən yarım milyard dollar həcmində əmtəə dövriyyəsini oriyentir kimi müəyyən edə bilərdik. Bu tamamilə təbiidir, bu, normal haldır, biz əmtəə dövriyyəsini iki-üç il müddətində asanlıqla bu həddə çatdıra bilərik.

İndiki mürəkkəb şəraitdə, dünyada maliyyə-iqtisadi böhran şəraitində dəqiq qarşılıqlı fəaliyyət və görülmüş birgə tədbirlər sayəsində biz həm ikitərəfli əmtəə dövriyyəsinin azalmasını dayandırmışıq, həm də sentyabrdan sonra müsbət dinamikaya nail olmuşuq. Cari mərhələdə strateji vəzifə bu şəraitdə bəzən qeyri-standart qərarlar qəbul etməklə həm Azərbaycanda, həm də Belarusda daha genişmiqyaslı müştərək layihələr həyata keçirməkdən ibarətdir. Bunun üçün artıq təməl yaradılmışdır. 2006-cı ildə İlham Əliyevlə razılaşmışdıq ki, Azərbaycanda Belarus texnikası buraxılan müştərək istehsalat təşkil edilsin. Bu gün Gəncə avtomobil zavodunun bazasında Belarus traktorları və «MAZ» markalı yük avtomobilləri yığılır. Lakin daha irəli getmək, Azərbaycanda avtokranlar, lift avadanlığı, kənd təsərrüfatı texnikası buraxılışı üzrə müştərək istehsalatlar yaradılması ideyalarını praktikada həyata keçirmək lazımdır. Bizdə sənayenin modernləşdirilməsi üzrə böyük təcrübə toplanmışdır. Biz bu təcrübəni dostlarımızla bölüşməyə hazırıq.

Biz indicə razılığa gəldik ki, ticarətin sadə formalarından Belarusda və Azərbaycanda müştərək istehsalatlar yaradılmasına doğru hərəkət etməliyik. Biz bu istiqamətdə daha geniş, daha əhatəli fəaliyyət göstərməyə hazırıq.

Belarus–Azərbaycan münasibətlərini ötəri prinsiplər üzərində deyil, ciddi və uzun dövr üçün qururuq. Buna görə də ikitərəfli əlaqələrin institusional, əlaqələndirmə mexanizmlərini möhkəmlətməliyik. Çox yaxşı haldır ki, komissiya çərçivəsində həm hökumət rəhbərləri səviyyəsində, həm də sahəvi nazirliklər və konsernlər səviyyəsində məsələləri operativ həll etmək olar. Məncə, müştərək biznes mərkəzləri, iqtisadi əməkdaşlıq şuraları, qeyri-hökumət təşkilatları yaradılması məsələlərinə baxmaq olardı. Bu cür diskussiya formaları əlverişli biznes şəraiti formalaşması üzərində həm hökumətin, həm də biznesin məqsədyönlü şəkildə işləməsinə kömək edər.

Bizim indiki görüşümüzlə əlaqədar hökumət başçıları, dövlət idarəetmə orqanlarının rəhbərləri bir sıra mühüm sənədləri imzalanmaq üçün hazırlamışlar. Prezidentlə biz ikitərəfli münasibətlərə aid geniş əhatəli məsələləri müzakirə etmişik.

Hörmətli İlham Heydər oğlu, mən əminəm ki, Sizin bu səfəriniz də əvvəlki kimi səmərəli olacaq və Belarus–Azərbaycan münasibətlərində keyfiyyətcə yeni səhifə açacaqdır.

Əziz dostlar, bir daha vurğulamaq istəyirəm: əgər müəyyən problemli məsələlər varsa, gəlin həmin məsələləri bu cür dostluq, əlbirlik şəraitində bu masa arxasında əyləşənləri Azərbaycan və Belarus tərəflərinə bölmədən nəzərdən keçirək və həll edək. Mən cənab Prezidentlə prinsipial razılığa gəlmişəm ki, bu gün bizdə mövcud olan bütün niyyətləri və layihələri burada mən, Azərbaycanda isə İlham Heydər oğlu tamamilə dəstəkləyəcəyik.

**İ l h a m Ə l i y e v:** Hörmətli Aleksandr Qriqoryeviç, hörmətli dostlar! Azərbaycan nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə və səmimi qəbula görə təşəkkürümü bildirirəm. Bir daha ölkənizə gəlmək və ikitərəfli əməkdaşlığa dair

bir çox məsələləri müzakirə etmək imkanına görə Sizə bir daha təşəkkürümü bildirirəm. Siz düzgün qeyd etdiniz ki, ölkələrimiz arasında münasibətlər çox dinamik, fəal inkişaf edir. Bunun əsas göstəricisi odur ki, hətta böhran ilində ölkələrimiz arasında ticari-iqtisadi əlaqələr artır. Bu bizim iqtisadi sahədə qarşılıqlı fəaliyyətin, konkret layihələrin həyata keçirilməsi çərçivəsində son illər gördüyümüz işlərin nəticəsidir. 2006-cı ildə burada, Minskdə və 2007-ci ildə Sizin rəsmi səfəriniz zamanı Bakıda razılığa gəldiyimiz layihələrin operativ, səmərəli və keyfiyyətlə həyata keçirilməsi onu göstərir ki, siyasi əzmkarlıq olduqda hər şeyi həll etmək mümkündür. Ölkələrimiz arasında siyasi münasibətlər çox yüksək səviyyədədir. Biz beynəlxalq təşkilatlar çərçivəsində də fəal qarşılıqlı fəaliyyət göstəririk. Beynəlxalq tədbirlərdə prezidentlər səviyyəsində mütəmadi olaraq görüşürük. Səfərlərimiz intensiv xarakter daşıyır və hökumətlərimizin başçıları son bir neçə ildə üç səfər etmişlər, nazirlər səviyyəsində yaxşı əlaqələr mövcuddur. Biz praktikada bunun nəticələrini görürük.

Biz ikitərəfli münasibətlərimizin necə inkişaf etməsindən, qəbul edilən qərarların necə yerinə yetirilməsindən çox razıyıq. Bu baxımdan, Belarus ilə Azərbaycan arasında ümumi cəhətlər çoxdur. Qərarlar qəbul olunur, operativ yerinə yetirilir və biz yaxşı, keyfiyyətli nəticələr görürük. Bu gün birinci görüşümüzdə gələcək əməkdaşlığımızın konkret layihələrini birlikdə müəyyənləşdirdik. Onlar çox geniş istiqamətləri əhatə edir. Bu, kənd təsərrüfatı, maşınqayırma sahəsində yeni layihələrin, birgə müəssisələrin yaradılmasıdır. Layihələr investisiya öhdəlikləri ilə əlaqədardır. Bu halda deməliyəm ki, Belarusun da, Azərbaycanın da yaxşı investisiya potensialı vardır. Əminəm ki, bu gün müəyyənləşdirdiklərimizin həyata keçirilməsi ticarət dövriyyəsinin həcmini daha da artıracaqdır. Mən Sizin o fikrinizlə razıyam ki, sürətli artıma baxmayaraq, bugünkü səviyyə dövlətlərimizin potensialına cavab vermir. Düşünürəm ki, yarım milyard

tamamilə real rəqəmdir və biz onu müvəqqəti hədd kimi müəyyən edə bilərik. Gələcəkdə isə indi dediklərimizin həyata keçirilməsi nəticəsində bu, milyardlarla ölçüləcəkdir.

Belarusun iqtisadiyyatı çox səmərəlidir. Son illər Azərbaycan iqtisadiyyatının yüksəlişi iqtisadi və sosial xarakterli bir çox məsələləri həll etməyə imkan verir. Qeyd etdiyimiz kimi, iqtisadiyyatımız rəqabət aparmır, onlar sanki bir-birini dəstəkləyirlər. Bütün bu ilkin şərtlər, möhkəm siyasi əlaqələr, iqtisadi baxımdan qarşılıqlı maraqlar, maşınqayırma sahəsində layihələrin gerçəkləşdirilməsindən konkret nəticələrin əldə edilməsi şəraitində çox böyük potensial görürük. Bu imkanlardan istifadə etməmək və münasibətlərimizi irəlilətməmək yolverilməz olardı. Əminəm ki, bunun üçün bütün imkanlarımız vardır. Biz gələcəkdə də bütün məsələlər üzrə səmərəli qarşılıqlı fəaliyyət göstərəcək, müəyyənləşdirdiklərimizi operativ həll etmək üçün daim əlaqə saxlayacağıq.

Bir daha qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Sizi bir daha görməyimə çox şadam. Bizi möhkəm dostluq münasibətləri bağlayır və əminəm ki, dövlətlərimiz arasında münasibətlərdə onlar da mühüm rol oynayır. Şadam ki, nümayəndə heyətlərimizin üzvləri arasında da dostluğa və qarşılıqlı anlaşmaya əsaslanan möhkəm münasibətlər vardır. Bunlar münasibətlərimizin irəliləməsi üçün həmin zəruri fonu yaradır. Bir daha qonaqpərvərliyə görə təşəkkür edir və fəal əməkdaşlığımızın davam edəcəyinə ümid bəsləyirəm.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*12 noyabr 2009-cu il*

*Noyabrın 12-də geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra Azərbaycan–Belarus sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və Belarus prezidenti Aleksandr Lukaşenko Birgə Bəyannaməni imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında gənclər siyasəti sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Belarusun Təhsil naziri Aleksandr Radkov imzaladılar.*

*«Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Belarus Respublikasının Təhsil Nazirliyi arasında 2010–2011-ci illərdə təhsil sahəsində əməkdaşlıq üzrə sazişin həyata keçirilməsi barədə Protokol»u Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Belarusun Təhsil naziri Aleksandr Radkov imzaladılar. «Azərbaycan Dövlət Sərhəd Xidməti və Belarus Respublikası Dövlət Sərhəd Komitəsi arasında əməkdaşlığa dair Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Belarusun Xarici İşlər naziri Sergey Martınov imzaladılar. «Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi və Belarus Respublikasının Ədliyyə Nazirliyi arasında arxiv işi sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Belarusun Xarici İşlər naziri Sergey Martınov imzaladılar.*

*«Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi və Belarus Respublikasının Dövlət Təhlükəsizlik Ko-*

*mitəsi arasında məxfi informasiyanın mühafizəsinin təmin edilməsində qarşılıqlı əlaqələrə dair Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Belarus Dövlət Təhlükəsizlik Komitəsinin sədri Vadim Zaytsev imzaladılar.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ BELARUS DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ PROFESSORU ADININ VERİLMƏSİ MƏRASİMİ

*12 noyabr 2009-cu il*

*Belarusda rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrin 12-də Belarus Dövlət Universitetində olmuşdur.*

*Salona toplaşanlar – universitetin professor-müəllim heyəti və tələbələri Azərbaycan prezidentini sürəkli alqışlarla qarşıladılar.*

*Belarus Dövlət Universitetinin rektoru Sergey Ablameyko Elmi Şuranın iclasını açdı.*

**Sergey Ablameyko:** İcazə verin, Belarus Dövlət Universitetinin müəllimləri, əməkdaşları və tələbələri adından Azərbaycan Respublikasının Prezidenti, siyasi elmlər doktoru, professor İlham Heydər oğlu Əliyevi universitetimizdə salamlayım. Bu gün mənə Azərbaycan Respublikasının Prezidentinə, qonaqlarımıza belə bir məlumatı çatdırmaq şərəfi qismət olmuşdur ki, Belarus Dövlət Universitetinin Elmi Şurasının bu ilin 30 oktyabr tarixli Qərarı ilə Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə Belarus Dövlət Universitetinin Fəxri professoru adı verilmişdir.

İcazə verin, İlham Heydər oğlu Əliyevin qısa tərcümeyi-halını oxuyum.

*Rektor dövlətimizin başçısının tərcümeyi-halını oxudu.*

*Sonra Belarus ilə Azərbaycan arasında münasibətlərin inkişafına, tarix və siyasi elmlərə töhfəsinə görə prezident İlham Əliyevə Belarus Dövlət Universitetinin Fəxri professoru adı verilməsi münasibətilə tədbir keçirildi.*

*Universitetin rektoru Sergey Ablameyko Azərbaycan prezidenti İlham Əliyevə Belarus Dövlət Universitetinin fəxri professoru diplomunu, mantiyasını və digər nişanlarını təqdim etdi.*

*Milli geyimli qızlar Azərbaycan dövlətinin başçısına gül dəstələri təqdim etdilər.*

* * *

*Prezident İlham Əliyev universitetin professor-müəllim heyəti və tələbələri qarşısında mühazirə ilə çıxış etdi.*

**İ l h a m  Ə l i y e v:** Əziz dostlar! İlk növbədə, fəaliyyətimə verilən yüksək qiymətə, mənə BDU-nun Fəxri professoru adı verilməsinə görə Belarus Dövlət Universitetinin rəhbərliyinə təşəkkürümü bildirmək istəyirəm. Bu mənim üçün böyük şərəfdir. Ölkələrimiz arasında ikitərəfli əlaqələri möhkəmləndirmək üçün gələcəkdə də fəal işləməyi özümə borc bilirəm.

Son bir neçə ildə Belarus ilə Azərbaycan arasında münasibətlər çox sürətlə inkişaf etmiş, qarşılıqlı iqtisadi fəaliyyətdə böyük uğurlar qazanılmış, ölkələrimizi bir-birinə daha da yaxınlaşdıran çoxlu müştərək layihələr həyata keçirilmişdir. Üç il əvvəl sizin ölkənizə ilk rəsmi səfərimi böyük səmimiyyətlə xatırlayıram. Həmin səfər vaxtı, habelə 2007-ci ildə Belarus prezidenti Aleksandr Qriqoryeviç Lukaşenkonun Azərbaycana səfəri dövründə əldə etdiyimiz razılaşmalar uğurla həyata keçirilir. Biz nəzərdə tutduqlarımızın hamısını yerinə yetirmişik. Bu gün, sizin ölkəyə mənim ikinci rəsmi səfərimin gedişində biz bir tərəfdən, görülmüş işləri təhlil etdik, ən başlıcası isə, münasibətlərimizin gələcək inkişaf yollarını müəyyənləşdirdik.

Üç ildə Azərbaycan prezidentinin Belarusa ikinci dəfə rəsmi səfər etməsi faktının özü bizim münasibətlərin səviyyəsinə, xarakterinə, onların dinamizminə və intensivliyinə dəlalət edir. Təbii ki, bunlar ölkələrimiz arasında bütün sahələrdə fəal qarşılıqlı əlaqələr fonunda baş verir. Çox fəal

siyasi dialoq aparılır. Həm rəsmi səfərlər, həm də müxtəlif beynəlxalq forumlar çərçivəsində yüksək səviyyədə müntəzəm görüşlər keçirilir. Hökumətlərarası komissiya ölkələrimiz arasında fəal iş aparır. Bu komissiya çərçivəsində iqtisadi əməkdaşlığın möhkəmləndirilməsinə dair mühüm məsələlər həll edilir. Humanitar sahədə əməkdaşlıq çox intensiv inkişaf edir. Bu gün biz həm Belarusda, həm də Azərbaycanda təhsil məsələlərinə böyük diqqət yetirildiyini nəzərə alaraq, bu sahədə münasibətlərin daha da inkişaf etdirilməsi imkanlarını müzakirə etmişik.

İkitərəfli münasibətlərimizdə çox geniş spektrli məsələləri əhatə edirik və ən başlıcası, bütün qərarları operativ həyata keçiririk. Bu əməkdaşlığın əyani nümunələrindən biri kimi, Gəncədə traktor zavodunu – Belarus ilə Azərbaycan arasında müştərək istehsalat yaradılmasını tez-tez misal çəkirik. Bu layihə barədə qərar qəbul edilməsi ilə onun həyata keçirilməsi cəmi bir neçə ay çəkmişdir. İki ildən çoxdur ki, zavod uğurla fəaliyyət göstərir, gözəl məhsul istehsal edir, Azərbaycan fermerlərini zəruri kənd təsərrüfatı texnikası ilə təmin edir. Biz artıq başqa ölkələrin bazarlarına birlikdə çıxmaq barədə də fikirləşirik.

Bu misal ölkələrimiz arasında iqtisadi münasibətlərin nə qədər əhəmiyyətli olmasını və ikincisi, hər iki ölkədə qərarın qəbul edilməsi ilə onun icrası arasında dəqiq əlaqə olmasını göstərir. Çox vaxt belə də olur ki, yaxşı qərarlar qəbul edilir, lakin onların icrası ya illər boyu yubadılır, ya da ümumiyyətlə, yerinə yetirilməmiş qalır. Bizə gəldikdə isə, nəzərdə tutduqlarımızın hamısını həyata keçirmişik.

Bu gün biz artıq mövcud olan bazada, habelə fəaliyyətimizin digər sahələrində, iqtisadiyyat sahəsində yeni layihələrdən danışırıq. Kənd təsərrüfatı, turizm, sənaye istehsalı, nəqliyyat, energetika ilə bağlı məsələlər bu gün ətraflı müzakirə olunmuş, nümayəndə heyətlərimizin üzvlərinə müvafiq tapşırıqlar verilmişdir. Ümidvaram ki, Belarus prezidentinin Azərbaycana növbəti səfərinədək əldə edilmiş

razılaşmalar çərçivəsində yeni nəticələrimiz olacaqdır. Başqa sözlə, münasibətlərimizin necə inkişaf etməsindən çox razıyam. Münasibətlərimiz, həmçinin regional münasibətlərin inkişafına da kömək edir. Biz bir-birimizə çox yaxın yerləşməsək də, Belarusun öz regionunda və Azərbaycanın Cənubi Qafqaz və Xəzər regionunda fəal rolu həm siyasi sabitliyin, həm də iqtisadi sahədə qarşılıqlı fəaliyyətin mühüm amilidir.

Azərbaycanda tələbələrimizin dünyanın aparıcı ali məktəblərində təhsil almalarına dair Dövlət Proqramı həyata keçirilir. Bu məqsədlər üçün Dövlət fondundan vəsait ayrılır və beləliklə, ölkəmizin bir neçə min gənc vətəndaşı keyfiyyətli təhsil almaq imkanı qazanır. Bu, peşəkar kadrlar hazırlığı istiqamətində mühüm addımlardan biridir, lakin təbii ki, biz ölkəmizdə təhsilin səviyyəsinin ehtiyaclarımıza, Azərbaycanın inkişaf edən iqtisadiyyatının ehtiyaclarına, həmçinin dünya standartlarına uyğun olmasına çalışmalıyıq. Bu baxımdan, əlbəttə, ölkələrimiz arasında bu sahədə ikitərəfli münasibətlərin mühüm əhəmiyyəti vardır. Müəllimlik fəaliyyəti ilə bağlı olduğum üçün – ömrümün çox hissəsi ali məktəblə bağlı olmuşdur – mən ali məktəbin problemlərini, habelə hər bir ölkənin inkişafı üçün təhsilin əhəmiyyətini yaxşı bilirəm. Bu gün keyfiyyətli təhsil olmadan heç bir ölkənin uğurlu inkişafı mümkün deyildir. Çünki vərdişlər, peşəkarlıq olmadan, bu gün həyatda öz yerini tapmaq çətindir. Buna görə də dövlət yaxşı şərait yaratmağa, gənclər isə təhsilə məsuliyyətlə yanaşmağa çalışmalıdırlar.

Biz Azərbaycanda bu məsələyə çox böyük diqqət yetiririk. Azərbaycanda təhsil üçün xərclər ilk yerlərdən birini tutur. Təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün də tədbirlər görülür, onun maddi-texniki bazası təkmilləşdirilir. Son beş ildə Azərbaycanda ən müasir standartlara uyğun 1800 yeni məktəb tikilmiş və kompyuterləşdirilmişdir. İnternet şəbəkəsinə qoşulması üçün fəal iş aparılır. Artıq virtual təhsilin yeni formaları tətbiq edilməyə başlanmışdır. Başqa

sözlə desək, fikrimcə, ölkələrimiz arasında bu istiqamətdə müzakirələr aparmağa, təcrübə mübadiləsinə və gələcək qarşılıqlı fəaliyyətimizin yollarının müəyyən edilməsinə ehtiyac vardır.

Əlbəttə, bu barədə danışarkən ölkələrimizi bir-birinə bağlayan bütün başqa əməkdaşlıq sahələrini də yaddan çıxarmaq olmaz. Əməkdaşlıq olduqca çoxşaxəlidir və qeyd etməliyəm ki, biz nisbətən qısa müddətdə çox şeyə nail ola bilmişik. 2006-cı ilə qədər bizim Belarusda, Belarusun isə Azərbaycanda səfirliyi yox idi. 2006-cı il bizim münasibətlərin inkişafında bir növ dönüş ili oldu və biz qısa müddətdə dinamik inkişafın şahidi olduq. Bu gün Belarus prezidenti ilə görüşdə də qeyd etdik ki, iqtisadi böhrana baxmayaraq, ölkələrimiz arasında əmtəə dövriyyəsi artır. Bu çox nadir hallardan biridir: 2009-cu ildə ikitərəfli ticarətdə əmtəə dövriyyəsi azalmır, əksinə, artır. Bu, yaxşı potensial olduğunu göstərir.

Ümumiyyətlə, ölkəmiz haqqında danışarkən qeyd etməliyəm ki, son illərdə Azərbaycan böyük yol keçmişdir – modernləşmə yolu, inkişaf yolu, bu gün ölkəmizin gələcəyə inamla baxmasına imkan vermiş yol. Biz özümüzü təmin etmək iqtidarında olan ölkəyik. Son illərdə iqtisadi inkişaf bir sıra sosial problemləri həll etməyə imkan vermişdir. Qeyd etməliyəm ki, 2004–2008-ci illərdə Azərbaycanda iqtisadi artım göstəricisi dünyada bəlkə də ən yüksək göstərici olmuşdur. Ölkəmizin iqtisadiyyatı 2,6 dəfə, sənaye istehsalı 2,5 dəfə artmışdır. İşsizliyə, demək olar ki, son qoyulmuşdur. Özəl sektor çox güclü inkişaf etmişdir və bu gün bizim iqtisadiyyatda özəl sektorun payı təxminən 85 faizə bərabərdir. Sosial infrastruktur, təhsil, səhiyyə üçün olduqca çox vəsait və sərmayə ayrılmışdır. Azərbaycan Ordusunun müdafiə qabiliyyətini möhkəmlətmək üçün olduqca çox iş görülmüşdür. Başqa sözlə desək, güclü iqtisadi artım iqtisadiyyatı şaxələndirməyə və çox səmərəli sosial siyasət həyata keçirməyə, habelə Azərbaycanın

iqtisadi təhlükəsizliyini və iqtisadi müstəqilliyini tamamilə təmin etməyə imkan vermişdir.

Təbii ki, iqtisadi müstəqillik dövlətin milli mənafelərə əsaslanan müstəqil kurs, siyasət yeritməsinə imkan yaradan təməldir. Əlbəttə, iqtisadi nailiyyətlər regional əhəmiyyətli məsələləri həll etməyə imkan verir. Azərbaycan bir çox regional iqtisadi layihələrdə sərmayədar kimi iştirak edir. Artıq ölkəmizdən kənarda sərmayələr yatırırıq və bu gün müxtəlif sahələrə – nəqliyyat, energetika sahələrinə birgə sərmayələrin yatırılması imkanlarını müzakirə etmişik. Beləliklə, son illər görülən böyük işlər hətta böhran şəraitində 2009-cu il üçün nəzərdə tutulmuş bütün planları həyata keçirməyə imkan verir.

Əlbəttə, böhran hamıya təsir etmişdir. Buna baxmayaraq, Azərbaycanda bu il iqtisadiyyatın artımı təmin edilmişdir. 2009-cu ilin ilk on ayının yekunlarına görə, ümumi daxili məhsul 8,4 faiz, sənaye istehsalı 7,3 faiz artmışdır. Əlbəttə, əvvəlki illərin artım sürəti ilə müqayisədə bu, xeyli azdır. Lakin böhran şəraitində yaşamağımızı nəzərə alsaq, zənnimcə bu, dünya miqyasında ən yüksək göstəricilərdən biridir.

Biz iqtisadi islahatları, iqtisadiyyatımızın liberallaşmasına kömək edən islahatları fəal həyata keçiririk. Sahibkarlığa kreditlərin müxtəlif növləri ilə, biznesin yaradılması prosedurlarının, müxtəlif icazələrin alınması prosedurlarının sadələşdirilməsi ilə yardım edilir. Azərbaycan iqtisadiyyatı artıq rəqabət qabiliyyətlidir və bu reytinqə görə, biz region ölkələri arasında ön mövqelərdəyik. Ölkəmizin inkişafında neft-qaz amili mühüm rol oynamışdır. Azərbaycan XIX əsrdə dünyada ilk dəfə neftin sənaye üsulu ilə, habelə dünyada ilk dəfə dəniz yataqlarında hasil edildiyi ölkədir. Bir neçə gün əvvəl biz əlamətdar yubileyi – dənizdə, məşhur Neft Daşlarında neft hasilatına başlanmasının 60 illiyini qeyd etdik. Bu, dünyada dəniz yataqlarından çıxarılmış ilk neft idi. Ölkəmizin müstəqilliyinin ilk illərində vəziyyət çox çətin olsa da, iqtisadi, siyasi və hərbi sahələrdə total böhran mü-

şahidə edilsə də – vətəndaş müharibəsi gedirdi, ərazilərimiz Ermənistan tərəfindən işğal olunurdu – keçən əsrin 90-cı illərinin ortalarından başlayaraq həyata keçirilən fəal neft diplomatiyası və siyasəti, demək olar ki, bütün məsələləri, özümüzün enerji təhlükəsizliyimizin, habelə qonşularımızın və tərəfdaşlarımızın enerji təhlükəsizliyinin təmin edilməsi məsələlərini həll etməyə imkan verdi.

Bu gün ən müasir nəqliyyat infrastrukturumuz, ən müasir neft və qaz kəmərləri şəbəkəmiz, ən müasir neft platformalarımız, neft terminallarımız vardır. «Azəri», «Çıraq», «Günəşli» yataqları ölkəmizin, habelə regionun ehtiyaclarını tam təmin edən dünyada ən böyük yataqlardır. Bu il Azərbaycanda neft hasilatının həcmi təxminən 50 milyon ton, qaz hasilatının həcmi 25 milyard kubmetr olacaqdır. Bu isə əhəmiyyətli iqtisadi resursdur.

Təbii ki, biz nəql marşrutlarının şaxələndirilməsinin tərəfdarıyıq və praktiki olaraq bu məsələni təmin etmişik. Bu gün neft və qaz ehtiyatlarımızı bütün istiqamətlərə nəql edən yeddi neft və qaz kəmərimiz vardır. Başqa sözlə desək, biz hər hansı bir bazardan, yaxud hər hansı bir tranzit ölkədən asılı deyilik. Təbii ki, bizim tranzitə ehtiyacımız vardır. Çünki dünya bazarlarına birbaşa çıxışımız yoxdur. Lakin 1990-cı və 2000-ci illərdə görülmüş işləri nəzərə alsaq, biz enerji nəqlinin tamamilə şaxələndirilməsini təmin etmişik. Bu da iqtisadiyyatı tamamilə şaxələndirməyimizə imkan vermişdir. Son dövrdə neftin qiymətinin çox kəskin şəkildə aşağı düşməsinə baxmayaraq, bu il də Azərbaycan iqtisadiyyatının artımı kifayət qədər sanballı olmuşdur.

Başqa sözlə desək, iqtisadi islahatlar, fəal sosial siyasət, dövlətçiliyin möhkəmləndirilməsi, fəal diplomatiya bizə həm sosial-iqtisadi inkişaf baxımından, həm də xarici siyasətin prioritetləri baxımından nəzərdə tutduğumuz bütün məqsədlərə nail olmağa imkan vermişdir. Təbii ki, əgər ölkədə bütün məsələlərə dair vətəndaş konsensusu, sabitlik olmasaydı, hadisələrin gedişini qabaqcadan duymaq imkanı və

bununla yanaşı, hər bir insanın istənilən sahədə öz bacarığını gerçəkləşdirməsi üçün imkan olmasaydı, bütün bunlar mümkün olmazdı.

Qarşılaşdığımız problemlərə gəldikdə isə iqtisadi və sosial problemlər dediyim kimi, uğurla həll edilir. Yaxın bir neçə ildə – 2013-cü ilə qədər biz ölkəmizdə mövcud iqtisadi və sosial problemlərin, demək olar ki, hamısını həll etmək niyyətindəyik. Tammiqyaslı regional inkişaf üçün əsas maneə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməməsidir. Bizi bu münaqişəyə zorla cəlb ediblər. Bu münaqişəni bizə hələ Sovet İttifaqının dağılması ərəfəsində zorla qəbul etdiriblər. O vaxt Dağlıq Qarabağda separatçı meyillər təəssüf ki, üstün gəlmiş və Ermənistan tərəfindən fəal hərbi yardım göstərilməklə Azərbaycana qarşı müharibə başlanmış, azərbaycanlılara qarşı etnik təmizləmə aparılmış, nəticədə bizim bir milyondan çox həmvətənimiz qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Ərazimizin təqribən 20 faizi işğal altındadır. İşğal edilmiş ərazilərdə hər şey – evlər, məktəblər, xəstəxanalar, bizim qəbiristanlıqlar, məscidlər dağıdılmışdır. Bütün tarixi abidələrimiz ya dağıdılmış, ya da oğurlanıb talan edilmişdir və bu, artıq 20 ilə yaxındır ki, davam edir. BMT-nin Təhlükəsizlik Şurasının – bu ali beynəlxalq instansiyanın erməni işğalçı qüvvələrinin bizim ərazilərdən dərhal və danışıqsız çıxarılmasını tələb edən dörd qətnamə qəbul etməsinə baxmayaraq onlar yerinə yetirilmir. Beləliklə, beynəlxalq hüququn əsas prinsipi pozulur. Ölkəmizin ərazi bütövlüyü pozulmuşdur və bu məsələni dinc yolla həll etmək üçün göstərilən bütün cəhdlər təəssüf ki, nəticəsiz qalır. Bu məsələ ilə beynəlxalq vasitəçilər qrupu məşğul olur. Onların bütün fəallığına baxmayaraq, biz nəticə görmürük. İnsanlarımız öz yurdlarından məhrum olmuşlar. Onlar ən adi insan hüquqlarının pozulması şəraitində, işğalın, torpaqlarımızın qanunsuz işğalının davam etməsi şəraitində yaşayırlar.

Biz ədalətin, qanunçuluğun bərpa edilməsinə, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinin həyata keçirilməsinə nail olmaq və dövlətimizin ərazi bütövlüyünü təmin etmək üçün diplomatik, siyasi, iqtisadi və digər tədbirlərimizi davam etdiririk. Erməni tərəfinin tez-tez istinad etdiyi xalqların öz müqəddəratını təyin etmək hüququ məsələsinə gəldikdə isə, bu hüquq vahid Azərbaycan dövləti çərçivəsində, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi çərçivəsində uğurla həyata keçirilə bilər. Başqa sözlə desək, erməni xalqı öz müqəddəratını təyin etmişdir, müstəqil erməni dövləti vardır. Əgər onlar erməni diasporunun yaşadığı yerlərin hamısında öz müqəddəratlarını təyin etmək istəsələr, onda dünyada ən azı 20 erməni dövləti olar.

Ən böyük ədalətsizlik olan, yüz minlərlə həmvətənimizi əziyyətə salan bu məsələnin həll edilməsi Cənubi Qafqaz regionunda və daha geniş mənada, bizim regionda bir çox məsələləri tənzimləməyə imkan verər. Bu məsələ tənzimlənmədən regional və ya ikitərəfli xarakterli hər hansı başqa təşəbbüslərin gerçəkləşməsi mümkün deyildir.

Mən bu mövzu üzərində ona görə bir qədər ətraflı dayandım ki, bir tərəfdən, bu məsələlər barəsində öz mövqeyimi və öz baxışımı ifadə edim, habelə bütün Qafqazda, bütün Qafqaz regionunda vəziyyətin sabitləşməsi üçün həmin məsələnin nə dərəcədə vacib olduğunu vurğulayım.

Gələcək planlarımızla əlaqədar deməliyəm ki, biz gələcəyə nikbin baxırıq. Dağlıq Qarabağ məsələsinin həll ediləcəyinə mənim zərrə qədər şübhəm yoxdur. Sadəcə olaraq bu, vaxt məsələsidir. Biz bu məsələni sülh yolu ilə həll etmək istəyirik. Biz sülhsevər dövlətik və bunun üçün mümkün olan hər şeyi edirik. Təbii ki, bununla bərabər, biz başa düşürük ki, dövlət nə qədər güclü olsa, onunla bir o qədər çox hesablaşacaqlar, ona bir o qədər çox hörmət edəcəklər və bu dövlətin öz milli mənafelərini təmin etmək üçün bir o qədər çox imkanı olacaqdır. Buna görə də biz güclü dövlət yaratmaq üçün işləmişik, zəhmət çəkmişik. Bu

məsələdə bizə heç kəs kömək etməmişdir. Nəyə nail olmuşuqsa, Azərbaycan xalqının əməyi ilə nail olmuşuq.

Bu gün bizim dinamik inkişaf edən, özü-özünü təmin etməyə qadir olan, səmərəli iqtisadi islahatlar həyata keçirən, regionda, habelə dünya miqyasında yaxşı mövqelərə malik olan, çoxlu dostları olan və gələcəyə nikbinliklə baxan dövlətimiz vardır. Biz bir ölkədə yaşamışıq. Biz hamımız, demək olar ki, eyni vaxtda müstəqil olmuşuq və hər şey bizdən, rəhbərlərin müdrikliyindən, xalqların iradəsindən və seçilmiş kursun düzgünlüyündən asılı idi. Bu gün biz Belarusun və Azərbaycanın timsalında görürük ki, hər şey düzgün edilmişdir, hər şey necə lazımdırsa elə edilmişdir. Hərçənd bəzən bunlar kimlərinsə xoşuna gəlməyə bilərdi. Bəzən biz müstəqil ölkələr kimi, hələ lap gənc olarkən müəyyən tövsiyələr, müəyyən məsləhətlər eşidirdik. Lakin həmişə onlara öz ölkəmizin milli mənafeləri baxımından, məqsədəuyğunluq baxımından yanaşırdıq. Biz heç vaxt hər hansı sərəncamlara və ya direktivlərə kor-koranə riayət etməmişik. Xalqlarımızın tarixində belə halların sayı təəssüf ki, hədsiz çox olmuşdur. Belarus ilə Azərbaycan arasında bu cür yüksək səviyyəli etimad və qarşılıqlı rəğbətin olmasının bir səbəbi də ondan ibarətdir ki, biz müstəqilliyimizi çox yüksək qiymətləndiririk və bu müstəqilliyi möhkəmlətmək üçün ikitərəfli əlaqələri inkişaf etdirməklə hər şeyi edirik.

Fürsətdən istifadə edib Belarus xalqına, ölkənizin bütün vətəndaşlarına firavanlıq, tərəqqi, Belarus Dövlət Universitetinə yeni uğurlar arzulamaq istəyirəm. İndi mənim də bu ali məktəbə aidiyyətim olduğu üçün öz tərəfimdən bizim təhsil müəssisələri arasında əlaqələrin möhkəmlənməsi, tez-tez bir-birinə qonaq getmələri, gənclərin bizim nəsildən nümunə götürərək dostluq etmələri üçün lazım olan hər şeyi etməyə çalışacağam.

Mənə verdiyiniz yüksək qiymətə görə bir daha sağ olun və sizə ən xoş arzularımı bildirirəm.

* * *

*Sonra Azərbaycan dövlətinin başçısı Belarus Dövlət Universitetinin tələbələrinin suallarına cavab vermişdir.*

**S u a l: Cənab Prezident, bu gün Belarus iqtisadiyyatı xeyli dərəcədə enerji daşıyıcılarının bir mənbədən idxalından asılıdır. Bu isə dövlətin enerji təhlükəsizliyi üçün qorxuludur. Əbəs yerə deyildir ki, Belarus dövlətinin prezidenti Lukaşenko enerji təhlükəsizliyi məsələlərini bilavasitə ölkəmizin suverenliyi və müstəqilliyi ilə bağlayırdı. Azərbaycanın nəinki onun daxili tələbatını ödəməyə, həmçinin onu xarici bazara çıxarmağa imkan verən yanacaq-energetika xammalı ehtiyatları vardır. Zəhmət olmasa deyin, Belarus Respublikası ilə Azərbaycan Respublikası arasında energetika sahəsində, hasilat, tranzit, yanacaq-energetika emalı məsələləri ilə bağlı əməkdaşlığın hansı perspektivləri vardır?**

**İ l h a m Ə l i y e v:** Biz bu gün də, əvvəllər də bu mövzunu təbii ki, müzakirə etmişik və belə rəyə gəlmişik ki, energetika sahəsində əməkdaşlığı inkişaf etdirməliyik. Sizin dediyiniz kimi, tələbat da, təklif də vardır. Başlıca vəzifə əməkdaşlığın daha səmərəli olması üçün bu iki məqamı birləşdirməkdir. Mən çıxışımda qeyd etdim ki, bizim çox geniş neft və qaz kəmərləri şəbəkəmiz vardır. Neft kəmərlərinə gəldikdə isə, neftimiz xammal şəklində üç boru kəməri ilə nəql edilir. Onlardan ikisi Qara dənizə, biri isə Aralıq dənizinə gedir. Təbii ki, biz istehlakçılarımızın əhatə dairəsinin maksimum artmasının tərəfdarıyıq. Hazırda Azərbaycan nefti həm Asiyada, həm Latın Amerikasında, həm ABŞ-da, həm də onlara yaxın regionlarda satılır. Düşünürəm ki, səmərəlilik baxımından nəqliyyat şəbəkəsi bunu məqsədəuyğun edəcəkdir. Əgər biz Aralıq dənizinə, Amerika qitəsinə neft satırıqsa, onda, təbii ki, onu Qara dənizdən, Qara dənizdəki terminallarımızdan Avropa qitəsinə də səmərəli şəkildə sata bilərik. Avropanın bir çox ölkələri bizim isteh-

lakçılarımızdır. Azərbaycan neftinin çox hissəsi Avropa İttifaqı ölkələrinə, Avropa ölkələrinə satılır.

Biz bu məsələni ətraflı müzakirə etdik və energetika nazirlərinə onun üzərində ətraflı işləmək və bu əməkdaşlığı hansı formada qurmağın mümkün olduğunu araşdırmaq barədə müvafiq tapşırıqlar verdik. Biz şaxələnmədə də maraqlıyıq. İstehlakçı bir mənbədən asılı olmaq istəmədiyi kimi, istehsalçı da bir tranzitçidən, yaxud bir yoldan asılı olmaq istəmir. Odur ki, burada əməkdaşlıq perspektivləri vardır və bu baxımdan, konkret tapşırıqlar verilmişdir. Biz nəticələri gözləyirik və düşünürəm ki, nəyə nail olduğumuz yaxın vaxtlarda bilinəcəkdir.

**S u a l: Siz və ölkəniz «Şərq tərəfdaşlığı» Proqramının həyata keçirilməsindən nə gözləyirsiniz? «Şərq tərəfdaşlığı» Proqramı çərçivəsində Azərbaycan ilə Belarus hansı sahələrdə əməkdaşlıq edə bilər?**

**İ l h a m  Ə l i y e v:** Bu, nisbətən yeni təşəbbüsdür. Lakin Avropa İttifaqı ilə bizim region arasında layihələrin həyata keçirilməsi meyilləri müəyyən müddət mövcud olmuşdur. 2006-cı ildən Azərbaycan Avropa İttifaqının Yeni Qonşuluq Proqramının iştirakçısıdır. Beləliklə, «Şərq tərəfdaşlığı» Proqramı müəyyən mənada həmin meyilin davamıdır. Biz onu alqışlayırıq. Artıq qeyd etdiyim kimi, bizim Avropa İttifaqı ölkələri ilə çox sıx iqtisadi əlaqələrimiz vardır. Onlar bizim enerji ehtiyatlarının neft sarıdan əsas istehlakçılarıdır. Qaza gəldikdə isə, biz qaz nəqlinin də şaxələndirilməsi üzərində işləyirik və bu gün öz qazımızı xarici bazarlara satırıq. Lakin təbii ki, biz qazın nəqlini genişləndirmək istəyirik, xüsusən ona görə ki, həm qonşu ölkələrdə, həm də Avropa İttifaqı ölkələrində bizim qaza tələbat vardır.

Avropa İttifaqına daxil olan bütün ölkələrlə münasibətlərimiz siyasi baxımdan çox yaxşıdır, uzunmüddətli və səmərəlidir. Əlbəttə, «Şərq tərəfdaşlığı» Proqramının üzvü olan hər bir ölkənin nəticə kimi nə əldə etmək istədiyi barədə öz təsəvvürü və öz planları vardır. Bizə gəldikdə, mən belə

deyərdim: bu, iqtisadi amillərlə bağlı deyildir, bizim iqtisadi köməyə ehtiyacımız yoxdur. Bizim ölkədə daxili siyasi vəziyyətə gəldikdə isə, deyirəm, bu vəziyyət sabitdir, ölkəmizin inkişafı məsələsində cəmiyyətdə həmrəylik vardır.

Buna görə də biz məhz insanlar arasında əlaqələrin möhkəmlənməsində daha çox maraqlıyıq. Əlbəttə, enerji amili həmişə mühüm rol oynayacaqdır və bu mənada da bizim maraqlarımız üst-üstə düşür. Çünki Avropa enerji ehtiyatlarının böyük istehlakçısıdır. Azərbaycan çox böyük neft-qaz ehtiyatlarına malikdir. Bu ehtiyatlar ən azı yaxın yüz ildə regionun enerji təhlükəsizliyini təmin edəcəkdir. Bu məlumatlar ehtiyatların təsdiqlənmiş minimal həcminə əsaslanır. Buna görə də enerji amili mühüm rol oynayacaqdır. Biz buna hazırıq və buna şadıq. Həm də istərdik ki, energetika çərçivələrindən kənarda inteqrasiya təşəbbüsləri ilə əlaqədar proseslər daha çox olsun. Buraya mədəni mübadilə, Avropa İttifaqı ölkələrinə gediş-gəlişin nisbətən asan olması, viza rejimi ilə bağlı məsələlər daxildir. Hesab edirəm ki, həmin məsələlər artıq «Şərq tərəfdaşlığı» səviyyəsində daha fəal həll edilməlidir.

«Şərq tərəfdaşlığı» çərçivəsində bizim ölkələr arasında münasibətlərə və qarşılıqlı fəaliyyətə gəldikdə isə, mən elə güman etmirəm ki, «Şərq tərəfdaşlığı» ikitərəfli əlaqələr üçün ən mühüm formatdır. Hər halda, biz «Şərq tərəfdaşlığı»nda iştirak məsələsini Azərbaycan ilə «Şərq tərəfdaşlığı»nın digər üzvləri arasında deyil, Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq imkanı hesab edirik. Bizim ikitərəfli münasibətlərimiz isə hər hansı beynəlxalq təşkilatın hər hansı çərçivələri ilə məhdudlaşmamalıdır. Mənim fikrimcə, ölkələrimiz arasında yaranmış siyasi və iqtisadi münasibətlərin səviyyəsi bu tezisin doğruluğunu sübut edir. Biz ikitərəfli planda işləməli, hər iki ölkənin mənafelərini ikilikdə təmin etməli və ölkələrimizin daha da yaxınlaşması istiqamətində çalışmalıyıq.

## «AQAT» ELM-İSTEHSALAT BİRLİYİ İLƏ TANIŞLIQ

*Minsk*

*12 noyabr 2009-cu il*

*Noyabrın 12-də Belarus Dövlət Universitetində görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyev Minsk şəhərindəki «Aqat» Elm-İstehsalat Birliyi ilə tanış olmuşdur.*

**Minskdə «Qələbə» meydanındakı abidəni ziyarət**

*Noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Minsk şəhərinin «Qələbə» meydanında azadlıq rəmzi kimi ucaldılmış abidəni ziyarət etmişdir.*

*Meydanda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyev abidənin önünə əklil qoydu. Azərbaycanın və Belarusun dövlət himnləri səsləndi.*

## AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*12 noyabr 2009-cu il*

*Noyabrın 12-də Belarus Respublikası Prezidentinin iqamətgahında prezident Aleksandr Lukaşenkonun adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi qəbul təşkil edilmişdir*

**Aleksandr Lukaşenko:** Hörmətli İlham Heydər oğlu! Əziz dostlar! Bu gün əməkdaşlığımız haqqında çox danışılmışdır. İntensiv əlaqələrimiz təkcə dövlət başçıları səviyyəsində deyil, həm də ticari-iqtisadi münasibətlərə, birgə müəssisələrin yaradılmasına, tam siyasi dəstəyə, dünyanın inkişafı gündəliyinə vahid baxışa əsaslanır. Deməli, bizim aramızda, dövlətlərimiz arasında strateji tərəfdaşlıq qurulmuşdur. Elə bir sual yoxdur ki, biz onu Azərbaycan tərəfi qarşısında qoyaq və İlham Heydər oğlunun, Azərbaycan prezidentinin dəstəyini almayaq.

*Aleksandr Lukaşenko xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan–Belarus münasibətlərinin yüksək səviyyəyə qalxması sahəsindəki xidmətlərini xatırladaraq dedi ki, görkəmli dövlət xadimi Heydər Əliyevin həyata keçirdiyi tədbirlər sayəsində ölkələrimiz arasında əməkdaşlıq daha da genişlənmişdir. Hazırda prezident İlham Əliyev əməkdaşlıq əlaqələrimizin inkişafına öz töhfəsini verir. İkitərəfli münasibətlərin səviyyəsindən danışan Belarus prezidenti ölkəsinin Azərbaycanda bir çox layihələrdə yaxından iştirak etdiyini bildirdi.* «Bu, hər iki ölkə arasında olan qarşılıqlı anlaşmanın nəticəsidir» *– deyən Belarusun dövlət başçısı bildirdi ki, dost Azərbaycan zəngin sərvətlərə malikdir və bu da ölkənin daha da güclənməsinə, xalqın rifah halının yaxşılaşmasına xidmət edir.*

**İlham Əliyev:** Hörmətli Aleksandr Qriqoryeviç!

Əziz dostlar! Bir daha gözəl Belarus torpağına dəvətə görə Aleksandr Qriqoryeviçə səmimi-qəlbdən təşəkkürümü bildirmək istəyirəm. Mənim ünvanıma, Azərbaycanın, Azərbaycan xalqının ünvanına dediyiniz xoş sözlərə görə Sizə çox minnətdaram.

1993-cü ildən, Heydər Əlirza oğlu hakimiyyətə gələn kimi tərəqqi, inkişaf başlandı. Bu gün biz əminliklə gələcəyə baxa bilərik. Mən burada üç il əvvəl olmuşam. Mən dəyişiklikləri, qayda-qanunu, yaşayış səviyyəsini görürəm. Bizi çox şey birləşdirir. Məqsəd dövlətin, ölkənin müstəqilliyinin möhkəmləndirilməsi, inkişaf etmiş, dinamik, yüksək səviyyəyə və yaşayış keyfiyyətinə malik cəmiyyət qurmaqdır.

Demək istəyirəm ki, münasibətlərimizə strateji tərəfdaşlıq kimi qiymət verməyinizlə tamamilə razıyam. Biz buna nisbətən qısa vaxtda nail olmuşuq. Bizim ikitərəfli münasibətlərimizdə bütün məsələlər hər hansı bürokratiyasız, ləngiməsiz, operativ, səmərəli və etibarlı şəraitdə həll edilir. Mən çox şadam ki, bizim aramızda belə şəxsi dostluq münasibətləri yaranmışdır. Bu, ikitərəfli münasibətlərimizin bütün spektrinə sirayət edir. Biz ticarət dövriyyəsinin artmasını, siyasi sahədə qarşılıqlı fəaliyyəti, birgə həyata keçirdiyimiz layihələrin konkret nəticələrini görürük və artıq gələcək üçün perspektiv planlar qururuq.

*Sonda prezident İlham Əliyev dost Belarus xalqına rifah, əmin-amanlıq, sabitlik və çiçəklənmə arzuladı.*

## Səfər başa çatdı

*Noyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belarus Respublikasına rəsmi səfərini başa çatdıraraq Bolqarıstana işgüzar səfərə yola düşmüşdür.*

*Hər iki ölkənin dövlət bayraqları ilə bəzədilmiş Minsk Milli Aeroportunda Azərbaycan prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Belarusun Baş naziri Sergey Sidorski və digər rəsmi şəxslər yola saldılar.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BOLQARISTANA İŞGÜZAR SƏFƏRİ

*13 noyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Bolqarıstan Respublikasına işgüzar səfərə gəlişdir.*

*Hər iki ölkənin dövlət bayraqları ilə bəzədilmiş Sofiya Beynəlxalq Hava Limanında Azərbaycan prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdür.*

*Prezident İlham Əliyevi Bolqarıstan Respublikasının yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BOLQARISTAN PREZİDENTİ GEORGİ PIRVANOVUN GÖRÜŞÜ

*Sofiya*

*13 noyabr 2009-cu il*

*Noyabrın 13-də Sofiyada Prezident Administrasiyasında Azərbaycan prezidenti İlham Əliyevin və Bolqarıstan prezidenti Georgi Pırvanovun görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu.*

*İqtisadi əlaqələrin, o cümlədən enerji sahəsində əməkdaşlığın perspektivləri müzakirə edildi. Dövlət başçıları Azərbaycan–Bolqarıstan münasibətlərinin bundan sonra da möhkəmlənəcəyinə əmin olduqlarını bildirdilər.*

*Görüşdə, həmçinin regional əməkdaşlıq və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Sofiya*

*13 noyabr 2009-cu il*

*Noyabrın 13-də Sofiyada prezidentlər İlham Əliyevin və Georgi Pırvanovun iştirakı ilə Azərbaycan–Bolqarıstan sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi və Bolqarıstan Respublikasının İqtisadiyyat, Enerji və Turizm Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum»u Azərbaycanın Sənaye və Energetika naziri Natiq Əliyev və Bolqarıstanın İqtisadiyyat, Enerji və Turizm naziri Trayço Traykov imzaladılar.*

*«Bolqarıstanın «Bulqartransqaz» Şirkəti və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında təbii qazın nəqli sahəsində qarşılıqlı Anlaşma Memorandumu»nu «Bulqartransqaz»ın icraçı direktoru İvan Drenoviçki və ARDNŞ-in vitse-prezidenti Elşad Nəsirov imzaladılar.*

## DÖVLƏT BAŞÇILARININ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI

*Sofiya*

*13 noyabr 2009-cu il*

*Noyabrın 13-də Sofiyada Prezident Administrasiyasında Azərbaycan–Bolqarıstan sənədlərinin imzalanması mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının Prezidenti Georgi Pırvanovun birgə mətbuat konfransı keçirilmişdir.*

*Dövlət başçıları əvvəlcə bəyanatlarla çıxış etdilər.*

### Bolqarıstan prezidenti Georgi Pırvanovun bəyanatı

Çox hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Mən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ilə keçirdiyim görüşdən olduqca məmnun qaldığımı bildirmək istəyirəm. Bu gün imzaladığımız iki sənəd əvvəlcə bu istiqamətdə göstərdiyimiz səylərin yekunudur. Biz bu gün buna nail olduq və münasibətlərimizə yeni keyfiyyət gətirdik. Aramızda fəal siyasi dialoq mövcuddur, iqtisadi sahədə də əməkdaşlıq meyillərini görürük. Biz beynəlxalq təşkilatlar, o cümlədən Avropa və Avroatlantika təsisatları çərçivəsində fəal şəkildə əməkdaşlıq edirik.

Bolqarıstan Şərqi Avropada həyata keçirilən cari layihələrin tanıdılmasında səylərini əsirgəməyəcək, xüsusən də Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın də-

rinləşməsində və gücləndirilməsində fəal amil olaraq qalacaqdır.

Kütləvi informasiya vasitələrinin nümayəndələri yaxşı bilirlər ki, Azərbaycan energetika sahəsində bizim yaxın tərəfdaşımızdır. Bu gün biz olduqca mühüm sənədləri imzaladıq. Bu sənədlər əsasında nəinki Bolqarıstan, o cümlədən digər Şərqi Avropa ölkələri üçün təchizatın şaxələndirilməsi ilə bağlı yeni imkanlar açılır. Sazişdə qeyd olunduğu kimi, Bolqarıstana 1 milyard kubmetr həcmində təbii qaz nəql ediləcəkdir. Bu məsələ Bolqarıstanın qazpaylayıcı sistemi Yunanıstanın qazpaylayıcı sisteminə tam birləşdiriləndən sonra baş tutacaqdır.

İndi biz çox səy göstəririk ki, Azərbaycanda hasil edilən qaz daha sonra sıxılmış formada Yunanıstan vasitəsilə Bolqarıstana da çatdırılsın. Bu layihə strateji əhəmiyyət daşıyır. Çünki bu layihənin həyata keçirilməsi bizim üçün çox vacib olan «Cənub dəhlizi»nin tam təmin edilməsinə töhfə verəcəkdir. Biz texniki əsaslandırma işlərinin olduqca qısa müddət ərzində və çevik surətdə həyata keçirilməsinin tərəfdarıyıq. Bilirik ki, bu baxımdan hər bir ölkə öz texniki əsaslandırma işlərini aparır. İndi isə istəyirik ki, bu işləri birgə aparaq.

Bu layihə digər layihələrlə müqayisədə o qədər də bahalı deyildir, böyük xərclər tələb etmir. Bu layihə həm dinamik, həm də qısa müddət ərzində həyata keçirilə bilən layihədir. Mən Azərbaycan Respublikasının Prezidentinə bu işlərdə şəxsən iştirak etdiyinə görə dərin təşəkkürümü bildirirəm. Məhz bu layihənin həyata keçirilməsində cənab Prezidentin verdiyi dəstək bizim üçün çox önəmlidir.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Çox sağ olun, hörmətli cənab Prezident!

İlk növbədə, ölkənizə səfərə dəvət etdiyinizə görə Sizə öz minnətdarlığımı bildirmək istəyirəm. Bolqarıstanda olma-

ğımdan çox məmnunam və xüsusilə bu gün apardığımız danışıqlar çox gözəl nəticələrə gətirib çıxarmışdır.

Bizim ikitərəfli münasibətlərimiz çox uğurla inkişaf edir. Bolqarıstan bizim üçün önəmli tərəfdaş və dost ölkədir. Qarşılıqlı səfərlərimizin də uğuru bir daha onu göstərir ki, biz bütün sahələrdə fəal əməkdaşlıq edirik.

Həmişə olduğu kimi, biz bu gün sizinlə ikitərəfli münasibətlərin gündəliyini müzakirə etdik və gələcək əməkdaşlıq haqqında praktiki addımları müəyyənləşdirdik. Siyasi əlaqələrin yüksək səviyyədə olması, əlbəttə ki, bütün başqa sahələrə də öz müsbət təsirini göstərir. Avropa İttifaqı ilə Azərbaycan arasındakı əməkdaşlıqda Bolqarıstanın çox önəmli rolu vardır. Azərbaycanın Avroatlantika strukturlarına inteqrasiya prosesində Bolqarıstan bizə həmişə dəstək vermişdir və buna görə Sizə çox minnətdarıq. Bu yaxınlarda Azərbaycan Avropa İttifaqının «Şərq tərəfdaşlığı» Proqramının üzvü olmuşdur. Biz ümid edirik ki, bu proqram çərçivəsində Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlıq daha da genişlənəcəkdir.

Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində əlaqələr 2006-cı ildən başlanmışdır. 2006-cı ildə Avropa İttifaqı ilə Azərbaycan arasında strateji enerji tərəfdaşlığı haqqında Memorandum imzalanmışdır. Bu gün imzalanmış sənədlər əməkdaşlığın geniş çərçivələrinə daxil ediləcəkdir. Enerji təhlükəsizliyi məsələləri son illər ərzində dünya gündəliyinin ən önəmli yerlərinə çıxmışdır. Azərbaycan öz tərəfindən enerji təhlükəsizliyi və enerji daşıyıcılarının nəqlinin şaxələndirilməsi məsələlərinin həlli işinə öz töhfəsini verir. Əminəm ki, bu gün imzalanmış sənədlər «Cənub dəhlizi»nin təşkil edilməsində öz müsbət rolunu oynayacaqdır.

İmzalanmış sənədlər ikitərəfli xarakter daşıyır. Əminəm ki, Bolqarıstan ilə Azərbaycan arasında qaz sahəsində əməkdaşlıq çox uğurlu olacaqdır. Bu əməkdaşlıq gələcəkdə genişlənəcək və başqa ölkələri həmin müsbət təşəbbüsə cəlb edəcəkdir. Azərbaycan qazının Bolqarıstana çatdırılması

nəticəsində Azərbaycan Avropa İttifaqının qaz sahəsində tərəfdaşına çevriləcəkdir. Əminəm ki, bu, Avropa İttifaqı üçün də, bizim üçün də vacibdir.

Azərbaycanın qaz ehtiyatları çox genişdir. Ən minimal hesablamalara görə təsdiq edilmiş ehtiyatlar təxminən 2 trilyon kubmetr ətrafındadır. Biz istəyirik ki, bu qazı ixrac edək, resurslarımızı əmniyyətli və şaxələndirilmiş yollarla dünya bazarlarına çatdıraq. Hazırda Azərbaycan qazı müxtəlif istiqamətlərlə regional bazarlara çıxarılır və əlbəttə, biz istəyirik ki, tərəfdaşlarımızın sayı çoxalsın. Əminəm ki, Bolqarıstan bu işlərdə, Azərbaycan qazının Avropa qitəsinə idxal edilməsində çox önəmli rolunu oynayacaqdır. İmzalanmış sənədlər əsasında yaxın zamanlarda ikitərəfli işçi qrupu yaradılacaqdır. Əminəm ki, işçi qrupunun fəaliyyəti uğurlu olacaq və konkret layihələrin həyata keçirilməsi haqqında bizə qısa müddət ərzində təkliflər veriləcəkdir.

Hörmətli cənab Prezident, məni ölkənizə dəvət etdiyinizə və göstərdiyiniz qonaqpərvərliyə görə Sizə bir daha təşəkkürümü bildirirəm.

* * *

*Sonra dövlət başçıları jurnalistlərin suallarını cavablandırdılar.*

**C e y h u n  Q u l i y e v (*Azərbaycan Televiziyası*): Mənim sualım hər iki prezidentədir. Ölkələrimiz arasında qeyri-energetika sahəsində əməkdaşlığın perspektivləri barəsində nə deyə bilərsiniz?**

**İ l h a m  Ə l i y e v:** Əlbəttə ki, bugünkü görüşdə biz gündəliyimizin bütün aspektlərini müzakirə etdik. İlk növbədə, energetika sahəsində əməkdaşlıq haqqında fikir mübadiləsi apardıq. Bununla bərabər, qeyri-energetika sektorunun inkişafı üçün əməli tədbirlərin görülməsi də çox vacibdir. Prioritet sahələr çoxdur. Onların sırasında deyə bilərəm ki, turizm, kənd təsərrüfatı, informasiya-kommunikasiya texnologiyaları sahələrində əməkdaşlıq, nəqliyyat və digər

sahələr prioritet xarakter daşıyır və bütün bu istiqamətlərdə ölkələrimiz arasında sıx əməkdaşlıq aparılır. Əminəm ki, növbəti illərdə bu əməkdaşlıq daha sürətlə inkişaf edəcəkdir. Qarşılıqlı investisiya qoyuluşu üçün həm Bolqarıstanda, həm Azərbaycanda çox müsbət sərmayə mühiti mövcuddur və bizim biznes dairələrimiz bu gözəl imkanlardan istifadə etməlidirlər.

Biz iki dost ölkəyik. Aramızda siyasi əlaqələrin yüksək səviyyədə olması, əlbəttə ki, biznes-iqtisadi sahədə də canlanma üçün yaxşı şərait yaradır. Hesab edirəm ki, energetika sahəsində əldə edilmiş razılaşmaların icrası nəticəsində qeyri-energetika sahəsində də əlaqələrin gücləndirilməsi təmin ediləcəkdir.

**G e o r g i  P ı r v a n o v:** Mən cənab Prezidentlə tam razıyam ki, bizim enerji sahəsindəki əməkdaşlığımız bütün digər sahələrə yaxşı təkan olacaqdır. Biz hesab edirik ki, iqtisadi böhran şəraitində ölkəmiz üçün yeni bazarların açılması vacibdir. Buna görə də Azərbaycan ilə qarşılıqlı ticarət dövriyyəsinin həcminin artırılması önəmlidir. Bu baxımdan cənab Prezidentin burada sadaladığı həmin sahələr əməkdaşlığımızın genişləndirilməsi üçün əsas kimi xidmət edə bilər.

Olduqca vacibdir ki, ölkələrimiz arasındakı məsafəni daha da qısaldaq və bunun üçün ölkələrimiz arasında nəqliyyat-daşıma məsələlərini, problemlərini həll etməliyik. Hesab edirəm ki, bu baxımdan ölkələrimiz arasında nəinki ticarət dövriyyəsinin artırılması vacibdir, o cümlədən biz birgə, ümumi müəssisələr yaratmaqla üçüncü ölkələrin bazarlarına çıxa bilərik. Zənnimcə, bu gün görüşümüzdə iştirak edən nazirlər indi və gələcəkdə daha da sıx təmaslar quracaqlar ki, biz birgə konkret layihələr irəli sürək və həyata keçirək.

**V e r a  A l e k s a n d r o v a *(Bolqarıstan Televiziyası)*: İcazənizlə, mən yenidən enerji sahəsinə qayıdım. Sualım hər iki prezidentədir. Bilmək istərdim, konkret olaraq Nabukko layihəsi nə vaxt həyata keçiriləcəkdir?**

**G e o r g i   P ı r v a n o v:** Mən burada konkret tarix söyləyə bilmərəm. Çünki layihə çoxtərəfli layihədir. Bu layihənin başlanması təkcə Bolqarıstan və Azərbaycandan asılı deyildir. Vacibi odur ki, biz – Bolqarıstan və Azərbaycan tərəfləri Avropa İttifaqı üçün mühüm olan bu layihənin prioritet xarakter daşıdığını bəyan etdik. Hesab edirik ki, qazın nəqli ilə bağlı ikitərəfli razılaşmalar da Nabukko layihəsinin tərkib hissəsinə çevrilə bilər və bu baxımdan yalnız ümumi işin xeyrinə olar.

**İ l h a m   Ə l i y e v:** Biz Nabukko layihəsini həmişə dəstəkləmişik və bu gün də dəstəkləyirik. Bu ilin may ayında Avropa İttifaqı tərəfindən təşkil edilmiş enerji zirvəsində Azərbaycan Nabukko layihəsinin həyata keçirilməsinə öz töhfəsini vermişdir və məlum bəyannaməni imzalamışdır.

Nabukko layihəsinin həyata keçirilməsi üçün bir neçə önəmli məsələ öz həllini tapmalıdır, resurs bazası olmalıdır. Bu da vardır.  Biz maraqlıyıq ki, öz resurslarımızı müxtəlif yollarla ixrac edək. Digər önəmli məsələ tranzit məsələsinin həll olunmasıdır. Əfsuslar olsun ki, biz bu vaxta qədər bu istiqamətdə irəliyə heç bir addım ata bilməmişik. Tranzit məsələlərinin həll olunmaması əslində Nabukko layihəsinin həyata keçirilməsində əsas maneədir. Üçüncü vacib məsələ layihənin maliyyələşdirilməsi məsələsidir. Bu istiqamətdə müəyyən addımlar atılmışdır, ilkin ödənişlər ayrılmışdır. Nabukko layihəsinin həyata keçirilməsi üçün çox böyük vəsait lazımdır. Hələ ki, o vəsaitin məbləği dəqiqləşdirilir və ən önəmlisi, mənbəyi də dəqiqləşdirilməlidir.

Digər önəmli məsələlər də öz həllini tapmalıdır. Mən sadəcə olaraq əsas üç məsələni qeyd etdim. Üç məsələnin ancaq biri hazır vəziyyətdədir – o da Azərbaycanın resurs bazasıdır. Digər məsələlər əfsuslar olsun ki, hələ müzakirə mövzusudur. Biz bu məsələyə daha geniş aspektdən yanaşırıq. Biz bu məsələyə «Cənub dəhlizi» layihəsi kimi yanaşırıq. «Cənub dəhlizi» layihəsinin içində, o cümlədən Nabukko layihəsi də yer tutur. Bundan başqa, Trans Adriatik

Kəməri (TAP) layihəsi, Türkiyə–Yunanıstan–İtaliya (TGİ) layihəsi də – onların hamısı «Cənub dəhlizi» layihəsinin içində olan layihələrdir. Bu gün imzalanmış sənədlər «Cənub dəhlizi» layihəsi adlandırdığımız böyük təşəbbüsün həyata keçirilməsində çox önəmli rol oynaya bilər. Çünki bu sənədlərdə iki tərəf iştirak edir. Bolqarıstan və Azərbaycan – iki dost ölkə, əminəm ki, imzalanmış sənədlərin yaxın zamanlarda həyata keçirilməsi üçün nə lazımdırsa onu da edəcəkdir.

## Səfər başa çatdı

*Noyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasına işgüzar səfəri başa çatmışdır.*

*Hər iki ölkənin dövlət bayraqları ilə bəzədilmiş Sofiya Beynəlxalq Aeroportunda Azərbaycan prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Bolqarıstan Respublikasının yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

* * *

*Dövlətimizin başçısı həmin gün axşam Bakıya qayıtmışdır.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB JELKO KOMŞİÇƏ

Hörmətli cənab Sədr!

Ölkənizin milli bayramı – Bosniya və Herseqovinanın yaranması günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da öz inkişafını davam etdirəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, Bosniya və Herseqovinanın dost xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 noyabr 2009-cu il*

**LİVAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MİŞEL SÜLEYMANA**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Müstəqillik günü münasibətilə Sizi və bütün Livan xalqını səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Livan münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 noyabr 2009-cu il*

**ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BAMİR TOPİYƏ**

Hörmətli cənab Prezident!

Albaniya Respublikasının milli bayramı – Bayraq günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Albaniya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Albaniya xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 noyabr 2009-cu il*

## MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ULD ƏBDÜLƏZİZƏ

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Mavritaniya münasibətləri daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 noyabr 2009-cu il*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 noyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin hazırkı vəziyyəti, «Şərq tərəfdaşlığı» Proqramı çərçivəsində əməkdaşlığın perspektivləri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və bir sıra digər regional məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## BAKIDA MƏCBURİ KÖÇKÜN AİLƏLƏRİ ÜÇÜN TİKİLMİŞ YAŞAYIŞ BİNALARI KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*17 noyabr 2009-cu il*

*Noyabrın 17-də Bakının Binəqədi rayonundakı 2 nömrəli evtikmə kombinatının ərazisində 369 məcburi köçkün ailəsi üçün inşa olunmuş doqquzmərtəbəli yaşayış binaları kompleksi istifadəyə verilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*İnşaatçılar və bu binalarda mənzil alan məcburi köçkünlər dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev mənzillərlə tanış oldu.*

*Baş nazirin müavini, Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi. Bildirildi ki, inşa olunmuş doqquzmərtəbəli 6 binada paytaxtda şəraiti dözülməz olan ictimai yerlərdə, yarımçıq tikililərdə müvəqqəti məskunlaşan və köçürülməsi zəruri olan məcburi köçkünlər yerləşdiriləcəkdir.*

*Kompleksin tikintisinə 2008-ci ildə başlanılmışdır. Binaların yerləşdiyi ümumi ərazi 3 hektar, tikintinin ümumi sahəsi isə 27 min 897 kvadratmetrdir. Ərazidə hər biri 63 mənzilli doqquzmərtəbəli beş, 54 mənzilli bir yaşayış binası və 260 şagird yeri olan məktəb binası tikilmişdir. Mənzillərin 81-i bir, 180-i iki, 90-ı üç, 18-i isə dördotaqlıdır.*

*Dövlətimizin başçısı mərasimdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Belə gözəl evlərin istifadəyə verilməsi münasibətilə mən sizi təbrik edirəm! Bu evlər gördüyünüz kimi, ən yüksək standartlara cavab verir və siz bu evlərdə rahat yaşayacaqsınız. 369 ailə bu gözəl evlərə köçürüləcəkdir. Siz uzun illər çox ağır şəraitdə yaşamısınız. İctimai binalarda, yataqxanalarda, yararsız yerlərdə uzun illər ərzində əziyyət çəkmisiniz. Ancaq bu gün sizin həyatınızda yeni mərhələ başlayır, bu gözəl evlərdə siz yaşayacaqsınız.

Ancaq bu da müvəqqəti bir yaşayış yeridir. Azərbaycan torpaqları işğalçılardan azad olunandan sonra sizin doğma torpaqlarınızda biz belə gözəl evlər tikəcəyik, şəhərləri yenidən quracağıq. İşğalçılardan azad olunacaq torpaqlarda bütün infrastruktur yenidən yaradılacaqdır. Ancaq hələ ki, bu gözəl evlərdən istifadə edin.

Bilirsiniz ki, Azərbaycan dövləti qaçqınların və məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün əlindən gələni edir. Mənə bu yaxınlarda verilən məlumata görə, məcburi köçkünlərin yaşayış səviyyəsini yaxşılaşdırmaq üçün Azərbaycan dövləti 2 milyard dollar vəsait xərcləmişdir. Bu vəsait hesabına 12 çadır şəhərciyi ləğv edilib, 81 min məcburi köçkün yeni evlərə köçürülüb, 123 məktəb tikilib, yollar, elektrik xətləri çəkilib, xəstəxanalar inşa edilibdir.

2004-cü ildə xüsusi Dövlət Proqramı qəbul edilmişdir. 2007-ci ildə proqrama əlavələr edilmişdir. Biz ən ağır şəraitdə yaşayan soydaşlarımızın problemlərini həll etdik. Azərbaycanda artıq çadır şəhərcikləri yoxdur. Biz indiki mərhələdə ictimai yerlərdə, hərbi hissələrin ərazilərində, məktəblərdə, yataqxanalarda yaşayan soydaşlarımızın həyatını yüngülləşdirəcəyik. Bu məqsədlə Azərbaycan dövlətinin kifayət qədər imkanları vardır. Bizim iqtisadiyyatımız artır.

Bilirsiniz ki, məcburi köçkünlərin sosial problemlərinin həlli üçün ilk növbədə Azərbaycan Dövlət Neft Fondunun

vəsaitlərindən istifadə olunur. Bütün bu gözəl işlər fondun vəsaiti hesabına görülür. Fond, əlbəttə ki, Azərbaycanda neft strategiyasının icrası nəticəsində formalaşıb. Əgər bu olmasaydı, bu gün belə imkanlar da olmazdı.

Bu gün iqtisadiyyat artdıqca bütün sosial məsələlər də öz həllini tapır. Ordu quruculuğu işinə böyük dəstək verilir. Ordumuz güclənir. Biz danışıqlar aparırıq, ancaq bununla bərabər, hər an torpaqlarımızı işğalçılardan hərbi yolla azad etməyə hazır olmalıyıq.

Azərbaycanın işi haqq işidir. Biz uzun illərdir ki, erməni işğalçıların etnik təmizləmə siyasətindən əziyyət çəkirik. Bu, dözülməz bir vəziyyətdir, ən böyük ədalətsizlikdir, insan hüquqlarının kobudcasına tapdanmasıdır. Dünya birliyi buna biganə qalır. Düzdür, beynəlxalq təşkilatlar lazım olan qərarları, qətnamələri qəbul edib. Ancaq onlar icra olunmur. Belə olan halda, o qətnamələrin mənası da itir. Biz çalışırıq ki, məsələni sülh yolu ilə həll edək, çünki biz müharibə istəmirik. Ancaq sülh yolu ilə də olmur. Neçə dəfə danışıqlar aparılıb. Hər il 7-8 dəfə. Müəyyən irəliləyiş vardır. Ancaq biz məsələnin köklü şəkildə həllinə nail ola bilmirik. Çünki Ermənistan tərəfi bütün beynəlxalq normalara tamamilə zidd mövqe nümayiş etdirir.

Beynəlxalq birlik də onlara öz təsir imkanlarını göstərmir. Halbuki bəzi başqa buna oxşar hallarda, dünyanın digər yerlərində bir ölkə o biri ölkənin torpaqlarını işğal etdiyi zaman məsələyə beynəlxalq qüvvələr müdaxilə edir. Nəticədə həm siyasi müdaxilə, həm hərbi müdaxilə həll olunur. Amma bizdə belə deyildir. Bunun müxtəlif səbəbləri vardır. Bu səbəbləri biz yaxşı bilirik. Əfsuslar olsun ki, erməni lobbisinin fəaliyyəti nəticəsində dünya birliyi erməni işğalına o qədər də ciddi yanaşmır. Ona görə biz bu vəziyyəti çox ciddi təhlil etməliyik və növbəti illər üçün fəaliyyət planımıza müəyyən düzəlişlər etməliyik.

Biz görürük ki, ancaq öz gücümüzə, ancaq Azərbaycan xalqının iradəsinə arxalana bilərik. Bu məqsədlə iqtisadiy-

yatımızı, ordumuzu gücləndiririk. Bu məqsədlə müasir tipli silahlar alınır.

Azərbaycanın uzun illər bundan sonrakı iqtisadi inkişafının təməli qoyulub. Dünyada iqtisadiyyat çökür. Ermənistanda iqtisadiyyat 20 faiz aşağı düşübdür. Azərbaycanda isə bu il 8 faiz artım vardır. Yəni, biz bu səyləri – həm iqtisadi, həm siyasi, həm diplomatik, həm hərbi səylərimizi davam etdirəcəyik.

Mən şübhə etmirəm ki, Azərbaycan torpaqları işğalçılardan azad olunacaqdır. Əsas məsələ hansı yolla, ya sülh yolu ilə, ya hərbi yolla. Mən bu məsələ ilə bağlı öz fikirlərimi sizə bildirmək istəyirəm. Çünki siz bu işğalçılıq siyasətindən, Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə siyasətindən əziyyət çəkən insanlarsınız, sizin hüquqlarınız tapdanıb. İndi dünyada insan hüquqları haqqında çoxlu söhbətlər gedir. Amma ən kobudcasına pozulmuş insan hüquqları sizin hüquqlarınızdır. Siz doğma yurdunuzda, doğma diyarınızda yaşaya bilmirsiniz. Nə üçün? Çünki ermənilər torpaqlarımızı zəbt ediblər. Əfsuslar olsun ki, keçən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda gedən proseslər və daxili çəkişmələr ermənilərə belə imkanları yaratdı. Bizim torpaqlarımız xarici dəstək hesabına işğal altındadır.

Bu gün Azərbaycan qüdrətli dövlətdir. Bu gün kim bizim torpaqlarımızı işğal edə bilər? Heç kim! Əgər müharibə başlanan zaman Azərbaycanın rəhbərliyində ulu öndər Heydər Əliyev olsaydı, heç vaxt Azərbaycan torpaqları işğal altına düşməzdi. Ancaq bu oldu, bu işğal baş verdi. Bunu aradan qaldırmağın ya sülh yolu vardır, ya hərbi yolu. Başqa yol yoxdur. Ancaq biz daha bu prosesi uzada bilmərik.

On beş ildir ki, atəşkəs rejimi bağlanıb. On beş il ərzində, daha doğrusu, ondan da əvvəl, 1992-ci ildə Minsk qrupu yaradılıb. Minsk qrupu fəaliyyət göstərir. Amma bu fəaliyyətin nəticəsi var? Yoxdur. Bu reallıqdır. Bizə deyirlər ki, siz dözün, danışıqlar aparın, ermənilər ilə danışın. Biz danışıqlar aparırıq və müəyyən irəliləyiş vardır. Onu da

demək istəyirəm ki, artıq danışıqlar mövzusunda bütün işğal olunmuş torpaqlardan erməni qoşunlarının çıxarılması nəzərdə tutulur. Azərbaycanlıların Dağlıq Qarabağa qaytarılması artıq danışıqlar mövzusudur. Halbuki əvvəllər bu barədə heç söhbət də getmirdi. Yəni, bu bizə ümid verir. Bu bizim danışıqlarda iştirakımıza elə bil ki, əlavə stimul verir. Biz hesab edirik ki, hələ ümid vardır. Amma bununla bərabər, görürük ki, Ermənistan tərəfi vaxtuzatma taktikasını seçib, vaxt uzadır. Gah ortaya yeni mövzular atılır, gah əvvəlcə razılaşdırılmış məsələyə yenidən baxmaq istəyir. Yəni bu nəyi göstərir? Biz indi bilirik bu taktika nədən ibarətdir. Vaxt uzatmaqdan. Vaxtı uzatmaq onlara heç nə vermir. Çünki onların əsas məqsədi torpaqlarımızda erməniləri məskunlaşdırmaqdır. Amma bunu etmək üçün onlarda canlı qüvvə yoxdur. Ermənistanın əhalisi azalıb. Bu gün orada real yaşayan insanların sayı 1 milyon 700 mindir. Getdikcə onlar təmas xəttini qoruya bilməyəcəklər. Çünki Azərbaycanın həm imkanları, gücü, həm də demoqrafik vəziyyət artır. Bizim əhalimizin sayı artıq 9 milyondur, 5-6 ildən sonra 10 milyon olacaqdır. Bu gün bizim iqtisadiyyatımız Ermənistan iqtisadiyyatından 7 dəfə böyükdür. Bir neçə ildən sonra bəlkə 13 dəfə, 15 dəfə böyük olacaqdır. Ermənistan bütün regional layihələrdən təcrid olunub. Demək olar ki, bir istisna ilə bütün qonşularla sərhədləri bağlıdır. Belə vəziyyətdə bu ölkənin yaşaması sual altındadır. O da həqiqətdir ki, Ermənistan öz hesabına yaşaya bilmir. Əgər bəzi ölkələr və bəzi maliyyə qurumları onlara bu il maliyyə yardımı göstərməsəydilər, tamamilə çökəcəkdilər.

Ölkə xarici maliyyə dəstəyi hesabına uzun illər yaşaya bilməz, xüsusilə qonşularla ciddi problemi olan ölkə. Ona görə, bax, bu amillərə – bizim iqtisadi gücümüzə, siyasi fəallığımıza, diplomatik sahədə, ordu quruculuğunda əldə edilmiş uğurlara və ümumiyyətlə, perspektivə baxanda Ermənistan ilə Azərbaycan arasında uçurum getdikcə geniş-

lənəcəkdir. Bütün bu amilləri təhlil edərkən biz hələ ki, yenə də danışıqlar yolunu seçirik.

Biz təzyiqimizi davam etdirəcəyik. Həm siyasi, həm iqtisadi, həm bütün başqa formalarda təzyiqimizi davam etdirəcəyik. Elə etməliyik ki, öz istəyimizə nail olaq. Bizim istəyimiz haqqın, ədalətin bərpasıdır. Bizim başqa ölkənin torpağında gözümüz yoxdur. Halbuki, bugünkü Ermənistan əzəli Azərbaycan torpaqlarında yaradılıbdır. İrəvan xanlığı, Zəngəzur mahalı bizim torpaqlarımızdır. Buna baxmayaraq, biz ölkələrin ərazi bütövlüyü prinsipini müdafiə edirik. Mən əminəm ki, biz istədiyimizə nail olacağıq. İstəyirəm ki, bu tez olsun. Bunu etmək üçün çalışıram və çalışacağam.

Sizi bu müvəqqəti yaşayış yerinə köçməyiniz münasibətilə bir daha ürəkdən təbrik edirəm və sizə cansağlığı arzulayıram. Arzu edirəm ki, biz hamımız bu gözəl bayramları işğaldan azad olunacaq torpaqlarda qeyd edək.

* * *

*Daha sonra dövlətimizin başçısı kompleksin ərazisində yeni inşa olunan 260 şagird yerlik Zəngilan rayon 4 nömrəli orta məktəbdə yaradılmış şəraitlə tanış oldu. Burada şagirdlərin təhsili üçün hər cür şərait yaradılmışdır.*

## FRANSA SAHİBKARLAR TƏŞKİLATININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 noyabr 2009-cu il*

*Noyabrın 18-də prezident İlham Əliyev Azərbaycanda səfərdə olan Fransa Sahibkarlar Təşkilatının (MEDEF) nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev görüş iştirakçılarına Azərbaycanda gedən iqtisadi inkişaf prosesləri barədə məlumat verdi. Dövlətimizin başçısı uzun illərdir Fransa ilə Azərbaycan arasında yaxşı iqtisadi əlaqələrin olduğunu, fransız şirkətlərinin ölkəmizdə uğurlu fəaliyyət göstərdiyini, Fransaya səfərləri zamanı bir neçə dəfə Fransa Sahibkarlar Təşkilatında görüşlər keçirdiyini xatırladaraq onların səmərəli olduğunu bildirdi. Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatının sürətlə inkişaf etdiyini, ölkəmizin iqtisadi inkişaf tempinə görə dünyada lider olduğunu da görüş iştirakçılarının diqqətinə çatdırdı.*

**İ l h a m Ə l i y e v:** İqtisadiyyatımız əvvəlki illə müqayisədə daha çox şaxələndirilib. İqtisadiyyatımızın rəqabət qabiliyyəti bizim üçün prioritetdir. Biz çox məmnunuq ki, rəqabət qabiliyyətinə görə, Dünya İqtisadi Forumunun hesabatında Azərbaycan dünyada 51-ci, MDB-də isə birinci yeri tutub. Bu bizim iqtisadi siyasətimizin və islahatlarımızın, şaxələndirilmənin və dəyişikliklərin bariz nümunəsidir. Həmçinin şəffaflıq sahəsində yüksək nailiyyətlərimiz «Doing business» hesabatında xüsusilə qeyd edilib. Bütün bunlar münbit sərmayə şəraitini yaradır.

Bu gün aparılan işlərin səviyyəsi qənaətbəxşdir. Lakin bizim gördüyümüz işlər, planlaşdırdığımız tədbirlər və sər-

mayə imkanları barədə məlumat mübadiləsi vacibdir. Gələn il üçün geniş həcmdə sərmayələrin qoyuluşu nəzərdə tutulub. Gələn il dövlət sərmayələrinin həcmi təxminən 4,5 milyard dollar olacaqdır. Burada söhbət hələ ki, dövlət sərmayələrindən gedir. Əgər biz bu rəqəmə özəl sektorun sərmayələrini də daxil etsək, zənnimcə, özəl sərmayələrin də həcmi elə o qədər olacaqdır. Hazırda ümumi daxili məhsulun həcmində özəl sektorun payı 85 faiz təşkil edir. Əvvəlcə, qeyd etdiyim kimi, biz qeyri-enerji və infrastruktur sahələrinə yatırılan sərmayələr nəticəsində iqtisadiyyatımızı şaxələndirə bilmişik.

*Prezident İlham Əliyev neftin qiymətinin aşağı düşməsinin ölkəmizin iqtisadi inkişafına ciddi təsir etmədiyini dedi.* «Azərbaycan xarici sərmayələri qoruyan ölkə imicinə malikdir» *– deyən dövlətimizin başçısı bildirdi ki, Fransa şirkətləri ölkəmizdə bir çox layihələrdə fəal iştirak edə bilər. Bu yaxınlarda təməli qoyulan məişət tullantılarının emalı zavodu buna yaxşı nümunədir. Bu zavod paytaxtda ekoloji vəziyyətin yaxşılaşmasına təsir edəcəkdir.*

*Prezident İlham Əliyev 2010-cu ilin Azərbaycanda «Ekologiya ili» elan edildiyini diqqətə çatdıraraq növbəti illərdə Fransa şirkətlərinin Azərbaycanda müxtəlif tenderlərdə iştirak edəcəyinə əminliyini ifadə etdi.*

*Azərbaycan prezidenti bildirdi ki, biz Fransa şirkətlərinin sərmayələrini alqışlayırıq. Bu, yalnız enerji sektoruna aid deyildir. Baxmayaraq ki, bu sektorda da sərmayələr məmnunluq doğurur. «Total» şirkəti olduqca perspektivli yataqlardan birində işə başlayıbdır. Yaxın zamanlarda bunun müsbət nəticələri olacaqdır. Qeyri-enerji sektorunda da sərmayələr çox cəlbedicidir. Burada söhbət kənd təsərrüfatından, informasiya texnologiyalarından gedə bilər. Biz informasiya texnologiyaları sektorunun inkişafına böyük vəsaitlər ayırırıq. Kosmik sənayeyə xüsusi diqqət yetiririk. Öz peykimizi buraxmağı planlaşdırırıq. Bu, bir neçə ildən sonra baş verəcəkdir. Beləliklə, böyük müasirləşmə proqramı həyata keçirilməkdədir.*

*Dövlətimizin başçısı Azərbaycanın qeyri-neft sektorunun inkişafında daha çox maraqlı olduğunu dedi. Bildirdi ki, bu sahədə əməkdaşlıq baxımından potensial böyükdür və Azərbaycan İnvestisiya Şirkətinin fəaliyyəti uğurludur. Prezident İlham Əliyev sonda Fransa Sahibkarlar Təşkilatı nümayəndə heyətinin Azərbaycana səfərinin səmərəli keçəcəyinə ümidvar olduğunu bildirdi.*

*Fransa Sahibkarlar Təşkilatı – MEDEF-in nümayəndə heyətinin rəhbəri xanım Paskal Janin Perez dövlətimizin başçısına ətraflı məlumata və dəyərli məsləhətlərə görə təşəkkür etdi. Bildirdi ki, MEDEF müxtəlif sahələrdə fəaliyyət göstərən Fransa şirkətlərini birləşdirir və onların fəaliyyətini beynəlxalq səviyyədə təşviq edir. Xanım Paskal Janin Perez Azərbaycan ilə əməkdaşlığın Fransa şirkətlərinin maraq dairəsində olduğunu bildirdi.*

**Paskal Janin Perez:** Ölkələrimizin işgüzar dairələri arasında artıq möhkəm münasibətlər yaranıb. Budəfəki mühüm səfərimiz çərçivəsində nümayəndə heyətimizin tərkibində təmsil olunan Fransa şirkətləri enerji, nəqliyyat, bank xidmətlərini, hüquqi ekspertiza sahələrini əhatə edir. Bu şirkətlərdən bəziləri Sizin ölkədə artıq fəaliyyət göstərir. Siz burada onları xatırlatdınız. Fransa şirkətlərinin Azərbaycan bazarında payı ildən-ilə artır. Biz Azərbaycanda 4-cü sərmayədarıq. Neft və qaz sahəsində şirkətlərimiz artıq işləyir. Lakin istəyirik ki, digər sahələrdə də mövqelərimizi gücləndirək.

*Paskal Janin Perez bu səfərin əməkdaşlığın ümumi mənzərəsini müəyyən etmək baxımından səmərəli olacağına əminliyini bildirdi.*

## «AZƏRBAYCAN TƏLƏBƏ GƏNCLƏR TƏŞKİLATLARI İTTİFAQI» İCTİMAİ BİRLİYİNİN TƏSİS QURULTAYINA

Hörmətli qurultay nümayəndələri!

Sizi Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının birinci qurultayının keçirilməsi münasibətilə təbrik edirəm, hər birinizə cansağlığı, təhsilinizdə və ictimai fəaliyyətinizdə uğurlar arzulayıram.

Xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycan gəncliyini milli inkişafın tükənməz mənbəyi hesab edir, müasir dünyada məhz gənc nəslin yaradıcı gücündən səmərəli istifadə etməyi bacaran ölkələrin strateji üstünlüyə malik olacağına və biliklərə əsaslanan iqtisadiyyatı uğurla quracağına inanırdı. Ulu öndər cəmiyyətin bu təbəqəsinin dövlət quruculuğuna yaxından cəlb edilməsi və ictimai-siyasi fəallığının təmin olunması üçün çox mühüm işlər görmüşdür. Onun təşəbbüsü ilə müvafiq nazirlik yaradılmış, dövlət gənclər siyasətinin əsas istiqamətləri müəyyənləşdirilmiş, qanun və proqramlar qəbul edilmiş, gənclərin ictimai-siyasi həyatda fəal iştirakı təmin olunmuşdur. Hazırda gənclərimiz dövlət idarəçiliyi, iqtisadiyyat, mədəniyyət, idman və başqa sahələrdə müvəffəqiyyətlə çalışır, Azərbaycanı beynəlxalq aləmdə layiqincə təmsil edirlər.

Siz gənclər müstəqil Azərbaycanda həyata göz açmış nəslə mənsub insanlar olaraq azad ölkənin azad vətəndaşları kimi böyüyüb başa çatmağınızla fəxr etməlisiniz, müstəqilliyin qazanılmasında xidmətlər göstərmiş insanların müasirləri olmaqdan qürur hissi keçirməlisiniz. Sizin qarşınızda böyük vəzifələr dayanır. Bu isə ölkəmizin qüdrətinin daha da artırılması, xalqımızın rifah halının yaxşılaşdırılması naminə

günün tələblərinə cavab verən bilik və bacarıqlara yiyələnmək tələbini irəli sürür.

Qloballaşan və sürətlə dəyişən dünyanın reallıqları ən yeni texnologiyaların sirlərini mənimsəməyi, onlardan çevik faydalanmağı olduqca aktual edir. İnformasiya cəmiyyətinin qurulması yolunda uğurlu addımlar atan Azərbaycan sizin simanızda milli mənəvi dəyərlərimizi, ana dilimizi, adət-ənənələrimizi qoruyub yaşadan və ümumbəşəri ideyaları mənimsəyərək dünyanın qabaqcıl gəncliyi ilə inteqrasiya proseslərinə töhfələr verməyə hazır olan nəslin nümayəndələrini görür. Sizin ahəngdar surətdə hərtərəfli şəxsiyyət kimi yetişməyiniz üçün ölkəmizdə hər cür şərait vardır.

Bu gün Azərbaycan qüdrətli dövlətdir. Onun iqtisadiyyatı, mədəniyyəti, təhsili dinamik inkişaf edir. Azərbaycanın gələcəyi məsuliyyətli qərarlar qəbul etməyə, milli mənafeləri qorumağa və zamanın çağırışlarına cavab verməyə qadir mütəxəssislərdən asılı olacaqdır. Biz bu kadrların hazırlanması məqsədi ilə ölkəmizdə təhsilin səviyyəsini yüksəltməklə yanaşı, gənclərin xaricdə ən vacib ixtisaslar üzrə ali təhsil almasını nəzərdə tutan Dövlət Proqramını həyata keçiririk.

Ümidvaram ki, qurultay zamanı aparacağınız müzakirələr və qəbul edəcəyiniz qərarlar bu istiqamətdə gələcək fəaliyyətinizdə sizə dəstək olacaqdır. Əminəm ki, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı ölkəmizdə vətəndaş cəmiyyətinin nüfuzlu bir qurumuna çevriləcəkdir.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 noyabr 2009-cu il*

## SUMQAYIT ELEKTRİK STANSİYASININ İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ*

*19 noyabr 2009-cu il*

*Noyabrın 19-da Sumqayıt Elektrik Stansiyasının açılışı olmuşdur.*

*Mərasimdə iştirak etmək üçün Sumqayıta gələn Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əvvəlcə ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzindəki abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.*

*Sumqayıt Elektrik Stansiyasında dövlətimizin başçısını inşaatçılar, energetiklər və şəhər ictimaiyyətinin nümayəndələri hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev üzərində* «Sumqayıt Buxar-Qaz Qurğusunun təməl daşı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qoyulmuşdur. 12 avqust 2005-ci il» *sözləri yazılmış təməl daşına baxdı.*

*«Azərenerji» ASC-nin prezidenti Etibar Pirverdiyev məlumat verdi ki, 2005-ci il avqustun 12-də təməli prezident İlham Əliyev tərəfindən qoyulmuş 525 meqavatlıq Sumqayıt Elektrik Stansiyası istismara hazırdır. Yeni stansiya şəhərin sosial-iqtisadi inkişafının perspektivi nəzərə alınmaqla 1 nömrəli Sumqayıt Elektrik Mərkəzinin ərazisində inşa edilmişdir.*

---

* Sumqayıt Elektrik Stansiyasının istifadəyə verilməsi mərasimində «Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirverdiyev, «Siemens» şirkətinin enerji məsələləri üzrə icraçı direktoru Rayner Haunşild və «Neftqazavtomat» Elmi-İstehsalat müəssisəsinin direktoru Əli Əmirov çıxış etdilər

*Stansiyanın ərazisi 22 hektardır. Sahəsi 360 kvadratmetr olan yeni inzibati binada səmərəli fəaliyyət üçün hər cür şərait yaradılmışdır.*

*Prezident İlham Əliyev inzibati binadakı muzeylə tanış oldu. Buradakı fotoguşələrdə Azərbaycan elektroenergetikasının sürətli inkişafında müstəsna əməyi olan ulu öndər Heydər Əliyevin xalqımız və Vətənimiz qarşısında xidmətlərindən, energetiklərlə görüşlərindən və müxtəlif tədbirlərdə iştirakından bəhs edən eksponatlar vardır. Bundan başqa, prezident İlham Əliyevin respublikamızın energetika potensialının möhkəmləndirilməsi və enerji təhlükəsizliyinin təmin olunması istiqamətində reallaşdırdığı ardıcıl və fundamental tədbirlər də buradakı fotoşəkillərdə dolğun əksini tapmışdır.*

*Sonra dövlətimizin başçısı avtobusla elektrik stansiyasının ərazisini gəzərək görülmüş işlərlə tanış oldu. Məlumat verildi ki, 10 min kvadratmetr sahəyə asfalt örtük döşənmişdir. Ərazidə 10 mindən çox dekorativ ağac və gül kolu əkilmiş, abadlıq işləri aparılmışdır. Qeyd olundu ki, Sumqayıt Elektrik Stansiyası müasirliyinə və ən son elmi-texniki yeniliklərin tətbiqinə görə inkişaf etmiş ölkələrdəki oxşar energetika qurğuları ilə eyni səviyyədədir. Stansiyanın güc və elektrik avadanlığı Almaniyanın «Siemens», istilik avadanlığı isə Belçikanın «CMİ» şirkətlərinə məxsusdur. Tikinti-quraşdırma işlərini əsasən yerli mütəxəssislər həyata keçirmişlər.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, turbinlərdə işlənən buxarı soyutmaq üçün Xəzər dənizindən 1200 metrlik su xətti çəkilmiş, suqəbuledici kəmər, açıq suaxıdıcı kanal və nasos stansiyası tikilmişdir. Su xəttinin çəkilişində yüksək fiziki və kimyəvi xarakteristikaya malik borular xüsusi şüşə lifli plastik materialdan hazırlanmış. Qeyd olundu ki, belə borulardan respublikamızda ilk dəfə bu stansiyada istifadə edilmişdir. Stansiyanın təbii qazla təchizatı üçün 29 kilometr uzunluğunda kəmər çəkilmiş, qazpaylayıcı stansiya tikilmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, tikinti-quraşdırma işlərini Böyük Britaniyanın «Tayko», Avstriyanın «Terpo», Türkiyənin «Erpo» və Azərbaycanın «Azenko» şirkətləri yerinə yetirmişlər. Tikintinin texniki məsləhətçisi isə Finlandiyanın «AF Enprima» şirkətidir. Stansiyada 525 meqavat güc iki qaz və bir buxar turbini vasitəsilə alınır. Buxar turbinini buxarla təmin etmək üçün hər birinin məhsuldarlığı saatda 300 ton olan iki buxar qazanı inşa olunmuşdur. Bu energetika qurğusunda ən müasir avadanlıq quraşdırıldığından 1 kilovat-saat elektrik enerjisinin istehsalı üçün 0,2 kubmetr təbii qaz və ya 235 qram şərti yanacaqdan istifadə edilir. Stansiyanın faydalı iş əmsalı 52,8 faizdir. Bu, müasir elektroenergetikada ən yüksək göstəricidir və nəticədə əvvəlki stansiyalarla müqayisədə xeyli təbii qaza qənaət olunur. Stansiyanın işləməsi üçün qazın 26 bar təzyiqdə verilməsi kifayətdir. Həmin qurğuda ildə 4 milyard kilovat-saatdan çox elektrik enerjisi istehsal etmək mümkündür. Bildirildi ki, Sumqayıt Elektrik Stansiyası şəhərin 60 illik yubileyinə mühüm töhfə olmaqla bərabər, Sumqayıt və Abşeron yarımadasının enerji təhlükəsizliyində önəmli rol oynayacaqdır.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, tikintidə çalışmış min nəfərdən çox işçinin əksəriyyətini yerli əhali təşkil etmişdir. Təxminən 250 nəfər isə stansiyada daimi işlə təmin olunacaqdır.*

*Dövlətimizin başçısı stansiyanın 220 və 110 kilovoltluq yarımstansiyaları, həmçinin idarəetmə sistemi ilə tanış oldu. Qeyd edildi ki, stansiyada istehsal olunacaq elektrik enerjisini şəbəkəyə ötürmək üçün hər birinin uzunluğu 6,5 kilometrə çatan və 300 meqavat yük daşıya bilən 220 kilovoltluq «Sənaye qovşağı» və «Yaşma» hava xətləri ilə yanaşı, 110 kilovoltluq 7 elektrik xətti də çəkilmişdir. Bu qurğu tam avtomatlaşdırılmış T-3000 sistemi vasitəsilə idarə olunacaqdır. Bu stansiyanın mükəmməlliyini «Azərenerji»nin dispetçer*

*mərkəzindən birbaşa idarə edilməsinin mümkünlüyü də təsdiq edir.*

*Prezident İlham Əliyev stansiyanın idarəetmə mərkəzindən bu energetika qurğusunu işə saldı.*

*Stansiyanın iş rejimi və avadanlığı ilə tanış olan prezident İlham Əliyev mərasimdə iştirak edən inşaatçılar, energetiklər və şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü, onları təbrik etdi:*

**İlham Əliyev:** Əziz sumqayıtlılar, əziz dostlar. Mən sizi bu gün bu gözəl hadisə münasibətilə – Sumqayıt Elektrik Stansiyasının istifadəyə verilməsi münasibətilə ürəkdən təbrik edirəm.

Bu günlərdə Sumqayıt şəhərinin 60 illik yubileyi qeyd edilir. Bu gözəl yubiley münasibətilə sizi ürəkdən təbrik edirəm.

Sumqayıt şəhəri çox uğurla inkişaf edir. Sumqayıtda gedən quruculuq, abadlıq işləri məni çox sevindirir. Bildiyiniz kimi, mən tez-tez Sumqayıta gəlirəm, vəziyyətlə tanış oluram. Şəhərin gələcək inkişafı üçün bütün lazımi tədbirlər görülür və addımlar atılır. Sumqayıt gözəlləşir, cavanlaşır, yeni yollar, parklar salınır, yeni binalar tikilir, köhnə binalar bərpa olunur. Eyni zamanda, Sumqayıtın müasir sənaye mərkəzinə çevrilməsi üçün bizim böyük planlarımız vardır.

Əslində siz bunu yaxşı bilirsiniz ki, Sumqayıt sənaye şəhəri kimi yaradılmışdır. Ancaq bu gün biz daha da qabağa baxmalıyıq. Biz Sumqayıtda ən müasir sənaye texnologiyalarını tətbiq etməliyik. Şəhərdə yaradılan yeni müəssisələr, zavodlar, fabriklər, texnoparklar Sumqayıtı ən müasir və ən qabaqcıl sənaye mərkəzinə çevirəcəkdir. Bunu etmək üçün, əlbəttə ki, elektrik gücünün yaradılması, Azərbaycanın elektrik enerjisi potensialının gücləndirilməsi çox vacib məsələdir.

Mən çox şadam ki, dörd il əvvəl burada sizinlə bərabər təməl daşını qoyduğumuz stansiya bu gün istifadəyə verilir. Bu, əslində nəhəng infrastruktur mərkəzidir. Stansiya ən qabaqcıl texnologiyalara malikdir, burada ən müasir ava-

danlıqlar quraşdırılıbdır. Əvvəlki illərdə tikilmiş Sumqayıt stansiyasının resursu artıq tükənmişdi. Əslində Sumqayıtın tələbatını ödəyə bilmirdi. Bununla bərabər, əvvəlki stansiyada şərti yanacağın sərfiyyatı 900 qram təşkil edirdi, indiki stansiyada bu, 235 qramdır. Yəni böyük bir qənaətdir, bizə imkan verəcək ki, öz enerji potensialımızı daha da səmərəli yollarla işə salaq.

Son illər ərzində Azərbaycanın enerji potensialının gücləndirilməsi işində çox böyük addımlar atılıb. 2006–2009-cu illərdə, son dörd ildə Azərbaycanda on yeni elektrik stansiyası tikilmişdir. Azərbaycanda ümumi stansiyaların sayı isə on doqquzdur. Onlardan onu son dörd il ərzində tikilibdir. Tikilmiş on stansiyanın enerji potensialı 2100 meqavatdır. Azərbaycanın ümumi enerji potensialı isə 6400 meqavatdır. Yəni biz son dörd il ərzində Azərbaycanın enerji potensialını 30–40 faiz artıra bilmişik və bu proses davam edir. Gələcəkdə yeni stansiyaların tikintisi nəzərdə tutulub. Beləliklə, biz Azərbaycanı bundan sonra uzun illər ərzində dayanıqlı enerji mənbələri ilə təmin edəcəyik. Buna böyük ehtiyac vardır. Bizim iqtisadiyyatımız artır, ölkəmizin sənaye potensialı artır. Son altı il ərzində Azərbaycan dünyada ən yüksək templərlə inkişaf edən ölkə olmuşdur. Hətta 2009-cu ildə, böhranlı ildə də bizim sənaye potensialımız artır və iqtisadiyyat artır. Hər yerdə yeni müəssisələr, yeni zavodlar, fabriklər tikilir, əhalinin sayı artır. Bütün bunlar, əlbəttə ki, yeni enerji mənbələrini tələb edir. Azərbaycan artıq öz enerji təhlükəsizliyini tam şəkildə təmin edir və bizdə ixrac üçün əlavə potensial da yaranmışdır. Bu gün Azərbaycan qonşu ölkələrə nəinki öz neftini, qazını, neft məhsullarını, eyni zamanda, elektrik enerjisini də ixrac edir. Beləliklə, biz həm əlavə mənfəət əldə edirik, həm də eyni zamanda, Azərbaycanın bu bölgədə önəmi, əhəmiyyəti böyük dərəcədə artmaqdadır.

Görülən işlər onu göstərir ki, Azərbaycan dövlətinin düşünülmüş inkişaf strategiyasının icrası enerji mənbələri

olmadan mümkün deyildir. Biz hər şeyi düşünülmüş, planlı şəkildə edirik. Biz növbəti illərdə həm ənənəvi stansiyaların tikintisi, həm də alternativ enerji mənbələrinin yaradılması işində çox ciddi çalışmalıyıq. Bu məqsədlə alternativ və bərpa olunan enerji mənbələrinin yaradılması üçün bütün lazımi tədbirlər görülür. Gələn ildən başlayaraq Azərbaycan Dövlət Neft Fondunun hesabına və dövlət büdcəsi hesabına Azərbaycanda kütləvi şəkildə alternativ və bərpa olunan enerji mənbələri yaradılacaqdır.

Biz həm xarici, həm daxili, yerli investorları bu sahəyə investisiya qoymağa dəvət edirik. Çünki bu çox gəlirli və Azərbaycan üçün çox lazımlı sahədir. Bu həm bizə böyük üstünlük verəcəkdir, həm də neftimiz, qazımız daha da böyük həcmdə ixrac ediləcəkdir, Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılmasına xidmət göstərəcəkdir, biz də bütün resurslarımızdan səmərəli istifadə edəcəyik.

Bu gün artıq Azərbaycanın su resurslarının xəritəsi hazırdır. Biz gələn ildən kiçik çaylarda kiçikhəcmli elektrik stansiyaları tikməyə başlayacağıq. Azərbaycanda ilin böyük əksəriyyətində günəşli hava şəraiti, külək müşahidə olunur. Baxmayaraq, bəzi hallarda külək bizə əziyyət verir, xüsusilə bu gün. Biz sizinlə bu küləkli havada görüşürük. Amma bununla bərabər, külək enerjisindən istifadə etmək də bizim üçün çox sərfəli olacaqdır.

Bir sözlə, Azərbaycanın enerji potensialının yeniləşməsi, yaradılması işində çox vacib addımlar atılıb. Görülən bu işlər bizi tam qane edir. Qısa müddət ərzində biz nəinki öz daxili tələbatımızı ödəyə bildik, başqa ölkələrə də elektrik enerjisini ixrac edirik.

Əvvəlki illərdə elektrik enerjisi ilə təchizat bizi qane etmirdi, bəzi yerlərdə fasilələr olurdu, ucqar rayonlarda enerji tələbatı ödənilmirdi. Ancaq bu gün biz öz tələbatımızı tam şəkildə ödəyirik. Bu, hər bir ölkənin iqtisadiyyatı üçün başlıca şərtdir. Biz buna nail ola bilmişik. Bundan sonra Azərbaycanın iqtisadiyyatı yüksək templə inkişaf etməkdə

davam edəcəkdir. Ola bilsin ki, gələcəkdə bu ərazidə yeni stansiyanın tikintisi də reallaşacaqdır. Çünki bu gün bizim enerji potensialımız tələbatdan haradasa, 1000 meqavat çoxdur. Biz bunu ixrac edirik və edəcəyik. Azərbaycanda sənaye potensialı artır, yeni müəssisələr yaradılır. Əhalimiz artır və tələbat, əlbəttə ki, artacaqdır.

Bax, bu gözəl stansiyanın tikintisi bir də onu göstərir ki, bütün planlarımız həyata keçirilir. Dörd il əvvəl Azərbaycan öz enerji potensialını tam şəkildə realizə edə bilmirdi. Bu stansiyanın tikintisinin başlanması bütün başqa sahələrə böyük təkan verdi. Bu stansiya inşa olunan zaman Azərbaycanda, ölkəmizin bütün bölgələrində müxtəlif həcmli doqquz stansiya tikilmişdi. Biz bir daha gördük ki, qəbul edilmiş bütün qərarlar icra edilir. Belə böyük, nəhəng layihələrin icrası çox gözəl göstəricidir. Bu stansiyanın tikintisi Azərbaycanın beynəlxalq şirkətlərlə əməkdaşlığının da əlamətidir. Bu əməkdaşlıq çox uğurludur. Azərbaycan xarici şirkətlər üçün həm investisiya qoyuluşu, həm iş görmək üçün cəlbedici ölkədir.

Bu stansiyanın tikintisində «Siemens» şirkətinin fəaliyyətini mən xüsusilə qeyd etmək istəyirəm. Bu şirkətin müxtəlif sahələrdə böyük təcrübəsi vardır. Bu əməkdaşlıq qarşılıqlı faydalı əməkdaşlıqdır. Əminəm ki, bu əməkdaşlıq gələcəkdə davam edəcək, başqa sahələrə öz təsirini göstərəcək və həmişə olduğu kimi, Azərbaycan xarici şirkətlər üçün, investisiya qoyuluşu üçün cəlbedici ölkə kimi qalacaqdır. Azərbaycanın artan imkanları xarici şirkətlərlə müxtəlif sahələrdə uğurlu əməkdaşlığı təmin edəcəkdir.

Mən bir daha sizi, əziz dostlar, bu gözəl hadisə münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bu stansiyanın istifadəyə verilməsi Sumqayıta və sumqayıtlılara yubiley hədiyyəsidir. Sizə yeni uğurlar, Sumqayıt şəhərinə inkişaf arzulayıram.

Sağ olun.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN YEVLAX RAYONUNA SƏFƏRİ

*19 noyabr 2009-cu il*

*Noyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İpək yolunun bir hissəsi olan Ucar–Yevlax avtomobil yolunun yenidənqurmadan sonra açılışı mərasimində iştirak etmək üçün Yevlax rayonuna gəlmişdir.*

*İnşaatçılar dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Nəqliyyat nazirinin müavini Musa Pənahov məlumat verdi ki, 52,5 kilometrlik bu yol Bakı–Ələt–Qazax–Gürcüstan dövlət sərhədi yolunun bir hissəsidir. Göyçay–Zərdab yolunun Ucar hissəsindən başlayıb Yevlaxda başa çatır. Ucar, Ağdaş və Yevlax rayonlarının ərazisindən keçən bu yolun 44 kilometri 15 metr enində olmaqla ikizolaqlı, 8,5 kilometrlik hissəsi 27,5 metr olmaqla dördzolaqlıdır. Yenidən qurulmasına 2007-ci ilin aprelində başlanılmış yolda 5 körpü tikilmişdir, onların ikisi Kür çayının üzərindədir. Yol boyunca 74 suötürücüsü quraşdırılmışdır.*

*Bu günədək «İpək yolu»nun Ələt–Hacıqabul, Hacıqabul–Kürdəmir, Gəncə–Qazax hissələri istifadəyə verilmişdir. Hazırda Kürdəmir–Ucar, Yevlax–Gəncə, Qazax–Gürcüstan sərhədi avtomobil yolunun inşası davam edir.*

*Layihənin ümumi dəyəri 69 milyon 283 min ABŞ dollarıdır.*

*Dövlət başçısı inşaatçılarla görüşdü.*

**İlham Əliyev:** Sizi bu yolun tikintisi münasibətilə təbrik edirəm. Çox keyfiyyətli yoldur, Böyük İpək yolunun bir hissəsidir və ən yüksək standartlara cavab verir. Bu yolun tikintisində iştirak etmiş bütün insanlara minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, gələcək illərdə də yol tikintisi uğurla davam edəcək və Azərbaycanda tikilən bütün

yollar ən yüksək standartlara cavab verəcəkdir. Burada həm yerli, həm xarici mütəxəssislər işləyirlər. Bu da çox gözəl əməkdaşlıq nümunəsidir.

*Prezident İlham Əliyev rəmzi açılışı bildirən qırmızı lenti kəsdi.*

*Dövlətimizin başçısı Kür çayının sağ sahilində – Yevlax şəhərində inşa olunacaq mehmanxana kompleksinin layihəsi ilə tanış oldu.*

*Yevlax Rayon İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev Yevlaxda – Kürün sahilində yaradılan bulvar kompleksi barədə məlumat verdi. 1,1 kilometr uzunluğunda, 7,5 hektar ərazidə estakadalar üzərində bulvar kompleksi inşa edilir. Tikinti işlərinə 3 aydır başlanılmışdır. Burada, həmçinin park, çimərlik, balıq ovu üçün göl yaradılacaqdır. Bulvar kompleksində ən müasir standartlara cavab verəcək 52 otaqdan ibarət beşulduzlu mehmanxana tikilir. Dövlətimizin başçısına Kürün sahilində Olimpiya İdman Kompleksinin inşa ediləcəyi haqqında da məlumat verildi.*

*Prezident İlham Əliyev inşaatçıları bir daha təbrik etdi, görülən işləri yüksək qiymətləndirdi.*

## QEYDLƏR

**1. Almaniya,** Almaniya Federativ Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min $km^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 5, 49, 114, 177.

**2. Angela Merkel** (d.1954) – Almaniya siyasətçisi, Xristian-Demokrat İttifaqı Partiyasının lideri, 2005-ci ildən Almaniyanın Federal kansleridir. – 5.

**3. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Aİ-yə 28 dövlət daxildir.

Aİ-nin yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv-dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ-nin üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. – 6, 114, 247, 251, 260, 290, 291, 298, 300, 301, 303, 309.

**4. Piter Semnebi** (d.1959) – İsveç səfiri. 2006–2011-ci illərdə Semnebi Avropa İttifaqının Cənubi Qafqaz üzrə nümayəndəsi olmuşdur. – 6, 309.

**5. Çexiya,** Ç e x i y a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 78,9 min km$^2$, əhalisi 10,5 milyon nəfərdir. İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar Palatası) parlamentdir. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. Paytaxtı Praqa şəhəridir. – 7, 88.

**6. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında yaradılmışdır. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 8, 105, 111, 140, 132, 260.

**7. İndoneziya,** İ n d o n e z i y a  R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 1 919,4 min km$^2$, əhalisi 257,5 milyon nəfərdir. İnzibati ərazisi 32 əyalətə və əyalət statusu olan 2 xüsusi inzibati əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridir. – 9.

**8. Susilo Bambanq Yudhoyono** (d.1949) – istefada olan general-leytenant. 2004–2014-cü illərdə İndoneziyanın prezidenti olmuşdur. – 9.

**9. Qazaxıstan,** Qazaxıstan Respublikası– Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 17,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. Paytaxtı Astana şəhəridir. – 10–21, 24–44.

**10. Nursultan Nazarbayev,** Nursultan Abiş oğlu (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi, 1990-cı ildə eyni zamanda, Ali Sovetin sədri, 1991-ci ildə Qazaxıstan SSR-in Prezidenti olmuşdur. 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının Prezidentidir. – 10–21, 24–44.

**11. Heydər Əliyev,** Heydər Əlirza oğlu (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının

inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Büro üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli

Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçilmişdir.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 11, 13, 20, 24, 25, 32, 146, 157, 161, 162, 173, 174, 179, 180, 182, 190, 209, 213, 214, 225, 249, 293, 319, 321.

**12. Aktau** (1964–91-ci illərdə Şevçenko) – Qazaxıstanın qərbində şəhər. Manqışlaq vilayətinin mərkəzi. Əhalisi 153,1 min nəfərdir. Xəzər dənizində port, neft-qaz hasilatı rayonunun mərkəzi. – 14.

**13. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ) – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 14, 113, 114, 214, 218, 219, 220, 297.

**14. «Kazmunayqaz»** – Qazaxıstan Respublikasının Dövlət neft və qaz şirkəti. Şirkət 2002-ci ildə Kazakoil Petrol və Doğal Qaz Taşıma şirkətlərinin birləşməsindən yaradılmışdır. – 14.

**15. Rövnəq Abdullayev,** R ö v n ə q İ b r a h i m o ğ l u (d.1965) – mühəndis. 2003-cü ildən Heydər Əliyev adına Bakı Neft Emalı zavodunun direktoru, 2005-ci ildən Azərbaycan Dövlət Neft Şirkətinin prezidentidir. – 14.

**16. İsmət Abasov,** İ s m ə t D u r s u n o ğ l u (d.1954) – iqtisadçı, iqtisad elmləri namizədi. 2008–2013-cü illərdə Azər-

baycan Respublikasının Kənd Təsərrüfatı naziri olmuşdur. Hal-hazırda Baş nazirin müavinidir. – 15, 50.

**17. Samir Şərifov,** S a m i r  R a u f  o ğ l u (d.1961) – hüquqşünas. 2006-cı ildən Azərbaycan Respublikasının Maliyyə naziridir. Eyni zamanda, Qara Dəniz Ticarət və İnkişaf Bankında Azərbaycan Respublikası üzrə təməlçi direktordur. – 15.

**18. Elmar Məmmədyarov,** E l m a r  M ə h ə r r ə m  o ğ l u (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 15, 55, 243, 277, 278.

**19. Kanat Saudabayev** (d.1946) – Qazaxıstanın dövlət xadimi, diplomat. Qazaxıstan Xarici İşlər naziri (2009–2011),. Fövqəladə və Səlahiyyətli səfir. – 15.

**20. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 17, 29.

**21. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. Yolun

tikintisinə 2007-ci ildə başlanılmışdır. Yolun uzunluğu 826 km-dir. – 17, 29.

**22. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanıb və 1945-ci il oktyabrın 24-də qüvvəyə minib. Hazırda BMT-yə 193 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT-nin Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 18, 28, 79, 193, 205, 246.

**23. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublika ərazisinin sahəsi 5,5 min km$^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 22–44, 50.

**24. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 191,8 min km$^2$, əhalisi 82,5 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtıdır. – 22–44, 150, 160, 206.

**25. Vasif Talıbov,** V a s i f Y u s i f o ğ l u (d.1960) – Azərbaycanın dövlət xadimi, 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir. – 22.

**26. Qırğızıstan,** Q ı r ğ ı z ı s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200,0 min km$^2$, əhalisi 6,0 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkek şəhəridir. – 23–44.

**27. Kurmanbek Bakiyev** (d.1949) – Qırğızıstan siyasi və dövlət xadimi, «Qırğızıstan xalq hərəkatı» blokunun lideri, 2005–2010-cu illərdə Qırğızıstan Respublikasının Prezidenti olmuşdur. Hazırda Belarusda siyasi mühacirdir. – 23–44.

**28. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 79,4 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, Ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 24–44, 49, 62, 63, 64, 65, 67, 85, 115, 149–160, 164, 186, 265.

**29. Abdullah Gül** (d.1950) – Türkiyənin dövlət və siyasi xadimi, iqtisad elmləri doktoru, professor. 1991-ci ildə TBMM-in üzvü seçilmişdir. Abdullah Gül Rəcəb Ərdoğanla Ədalət və İnkişaf Partiyasının yaradıcılarından biridir. 2007–2014-cü illərdə Türkiyə Cümhuriyyətinin Prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 24–44, 85, 142.

**30. Əcəmi Naxçıvani Əbubəkr oğlu (**XII əsrin 20-ci illəri – XII əsrin sonu) – orta əsr Azərbaycan memarlığının görkəmli nümayəndəsi, Naxçıvan memarlıq məktəbinin banisi. O, Naxçıvanda Yusif ibn Küseyir türbəsini, Möminə xatun türbəsini, Böyük Cümə məscidini və mənbələrdə «Darülmülk» adlandırılan Eldənizlər sarayını yaratmışdır. – 25.

**31. Mömünə xatın türbəsi** – Azərbaycan milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlıq incilərindən biri. 1186-cı ildə Naxçıvan şəhərinin qərb hissəsində tikilmişdir (memarı Əcəmi Əbubəkr oğlu Naxçıvani). Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəniz arvadı Möminə xatının qəbri üzərində məqbərə yaradılmasına qərar vermiş, onun tikintisini oğlu Məhəmməd Cahan Pəhləvan hicri 582-ci ilin məhərrəm ayında (aprel, 1186) başa çatdırmışdır. Elin yaddaşında «Atabəy günbəzi» adı ilə qalmışdır. Abidənin baştağında küfi xətti ilə bu sözlər yazıl-

mışdır. «Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar». Kompozisiyaya, yetkinliyə, ayrıntılarının incə, zərif işlənməsinə və memarlıq həllinə görə türbə orta əsrlər memarlıq sənətinin şah əsərlərindən sayılır. – 25.

**32. Məhəmməd Cahan Pəhləvan,** Ə b u  C ə f ə r  N ü s r ə t ə d d i n (? –1186) – Eldəgəzlər sülaləsinin hökmdarı (1174/75–1186), atabəy. Şəmsəddin Eldənizin oğlu. Pəhləvanın dövründə Eldənizlər dövləti Yaxın Şərqin ən qüdrətli dövlətlərindən birinə çevrildi. Bir sıra qonşu hökmdarlar M.C.Pəhləvanın vassallığını qəbul etməyə məcbur oldular. M.C.Pəhləvanın dövründə ölkənin iqtisadi həyatı dircəlmiş, Azərbaycan şəhərləri Yaxın Şərqin iri ticarət mərkəzlərinə çevrilmişdi. – 25.

**33. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 30, 60, 80, 152, 246, 252, 286, 287.

**34. İslam Konfransı Təşkilatı** (İKT) – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv-dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın

üzvüdür. Hazırda İslam Əməkdaşlıq Təşkilatı adlanır. – 28, 33, 70, 78–83, 266.

**35. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 28, 33, 55, 80, 251, 252.

**36. Bakı–Tbilisi –Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Türkiyə ərazisindən keçir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 29.

**37. Dağlıq Qarabağ Muxtar Vilayəti –** Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988–92-ci illərdə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853,

874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 29, 31, 36, 55, 56, 60, 61, 62, 63, 64, 65, 70, 79, 80, 93,100, 101, 127, 142, 147, 151, 152, 153, 154, 159, 160, 245, 248, 286, 287, 309, 314.

**38. Mustafa Kamal Atatürk,** Q a z i M u s t a f a K a m a l (1881–1938) –Türkiyənin dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk prezidenti (1923–1938). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «Kamalçılar hərəkatı»na – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» Fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soyadı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 32.

**39. Türkmənistan,** T ü r k m ə n i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min km$^2$, əhalisi 5,8 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabad şəhəridir. – 39, 87, 118.

**40. Zəngəzur mahalı,** Z ə n g ə z u r q ə z a s ı – XIX əsrin 2-ci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil edilmişdir. Çar Rusiyası hökumətinin 1867-ci il dekabr

tarixli Fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdi. – 40, 41.

**41. Pakistan,** P a k i s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 194 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 45.

**42. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 325,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 46, 47, 49, 55, 68, 147, 222, 289.

**43. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 47, 55, 152, 222, 248.

**44. Yuri Merzlyakov** (d.1949) – Rusiya Federasiyasının Fövqəladə və Səlahiyyətli səfiri. 2003–2010-cu illərdə ATƏT-in Minsk qrupunda Dağlıq Qarabağ məsələsinin nizamlanması üzrə həmsədrlərindən biri olmuşdur. – 47, 222.

**45. Fransa,** F r a n s a  R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 674,6 min $km^2$, əhalisi 66,7 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 47, 55, 200, 201, 222, 316–318.

**46. Rusiya,** R u s i y a  F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon $km^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 47,55,56,115,117,118,153,222.

**47. Belarus,** B e l a r u s  R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 207,6 min $km^2$, əhalisi 9,5 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minsk şəhəridir. – 49,51,223,267–294.

**48. Azərbaycan Dövlət Filarmoniyası** – Müslüm Maqomayev adına Filarmoniya 1936-cı ildə təşkil olunmuşdur Filarmoniyanın nəzdində Simfonik orkestr, Mahnı və rəqs

ansamblı, Rəqs ansamblı, Xor kapellası, Simli kvartet fəaliyyət göstərir. – 52.

**49. Mehriban Əliyeva,** M e h r i b a n   A r i f   q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 52, 72, 73, 74, 77, 121, 130, 145, 161, 162, 163, 165, 166, 171, 176, 178, 179, 178, 179, 183, 188, 194, 205, 230, 238, 239, 249, 250.

**50. Moldova,** M o l d o v a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 33,7 min km$^2$, əhalisi 3,5 milyon nəfərdir. İnzibati ərazisi 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Kişinyov şəhəridir. –54–67.

**51. Ramiz Mehdiyev,** R a m i z Ə n v ə r o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin 1-ci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azər-

baycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. – 54, 59, 72, 77, 121, 139, 304.

**52. Artur Rasizadə,** A r t u r  T a h i r  o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləmişdir. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 54, 59, 72, 77, 121, 139, 304.

**53. Hacıbala Abutalıbov,** H a c ı b a l a  İ b r a h i m  o ğ l u (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktorudur. – 54, 59, 72, 121, 139, 304.

**54. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılma-

sında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 54–67, 105, 174, 178, 192.

**55. Dmitri Medvedev** (d.1965) – Rusiyanın dövlət və siyasi xadimi, 2008–2012-ci illərdə Rusiya Federasiyasının Prezidenti, 2012-ci ilin may ayından Baş naziridir. – 56.

**56. Ukrayna,** U k r a y n a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 42,5 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 57, 187.

**57. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Respublikasının Prezidenti seçilmişdir. – 66, 154, 156.

**58. Bolqarıstan,** Bolqarıstan Respublikası – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 7,2 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 67, 114, 119, 143, 295–304.

**59. Barak Obama** (d.1961) – ABŞ-ın 44-cü prezidenti (2008–2016). 2004–2008-ci illərdə Demokratlar Partiyasından ABŞ Senatının üzvü olmuşdur. 2009-cu ildə Nobel Sülh mükafatına layiq görülmüşdür. ABŞ-da ilk afroamerikalı prezidentdir. – 68.

**60. Nobel mükafatı** – illik beynəlxalq mükafat təsis etmiş İsveç mühəndis-kimyaçı, ixtiraçı və sənayeçi Alfred Bernhard Nobelin adınadır. 1901-ci ildən verilir. Nobelin vəsiyyətinə əsasən ölümündən sonra qalan kapital Nobel fondunu təşkil etmişdir. Onlardan götürülən gəlir hər il bərabər hissəyə bölünür və Nobel mükafatı formasında fizika, kimya, fiziologiya və tibb, ədəbiyyat sahəsində ən yeni nailiyyətlər və həmçinin sülhü möhkəmləndirmək sahəsindəki fəaliyyətə görə verilir. Nobel mükafatı üzərində Alfred Nobelin təsviri və müvafiq yazı olan qızıl medal, diplom və müəyyən məbləğdə pul çekindən ibarətdir. Sülh mükafatından başqa, mükafatlar yalnız fərdi və ancaq bir dəfə verilir. Nobel mükafatı yalnız sağ olan şəxslərə verilir. – 68.

**61. Jak Roqq** (d.1942) – belçikalı ortoped-cərrah, məşhur yelkənli qayıqsürmə idmançısı. 2001–2013-cü illərdə Beynəlxalq Olimpiya Komitəsinin sədri olmuşdur. Belçika kralı II Albert tərəfindən rıtsar adlandırılmış və qraf tituluna layiq görülmüşdür. – 69.

**62. İordaniya,** İ o r d a n i y a  H a ş i m i l ə r  K r a l l ı- ğ ı – Qərbi Asiyada dövlət. Sahəsi 92,3 min km[2], əhalisi 9,5 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Əmman şəhəridır. – 72–77.

**63. Əmman –** İordaniyanın paytaxtı (1946-cı ildən) Tarixi memarlıq və arxeoloji abidələri ilə məşhurdur. Bölgənin turizm mərkəzidir. – 72–77.

**64. II Abdullah,** A b d u l l a h  b i n  H ü s e y n (d.1962) – 1999-cu ildən İordaniya kralıdır. II Abdullah kvalifikasiyalı dalğıc, paraşütist və pilotdur. – 73, 74, 75, 77.

**65. Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi** – BMT-nin əsas orqanlarından biri. BMT üzvü olan bütün dövlətlərdən ibarətdir. BMT üzvlərinə və ya BMT Təhlükəsizlik Şurasına hər cür məsələlərə və işlərə tövsiyələr vermək səlahiyyəti var.

Baş Məclisin qərarları tövsiyə xarakteri daşıyır, yəni hüquqi cəhətdən üzv-dövlətlər üçün məcburi deyil. Məclisin hər il növbəti sessiyası olur. Baş Məclisin nəzdində onun funksiyalarını həyata keçirmək üçün 7 əsas komitə var. – 79, 80, 246.

**66. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məslə-

hət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 80, 157, 160, 247.

**67. GUAM** – Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997-ci il). 2005-ci ildə isə Özbəkistan qurumu tərk etdi. – 80.

**68. İSESKO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycridir. Azərbaycan dövləti İSESKO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 81.

**69. Avstriya,** A v s t r i y a R e s p u b l i k a s ı – Mərkəzi Avropada, Dunay hövzəsində dövlət. Sahəsi 83,8 min km$^2$, əhalisi 8,66 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Vyana şəhəridır. – 86, 114, 177, 323.

**70. Haynz Fişer** (d.1938) – Avstriyanın dövlət və siyasi xadimi. Hüquqşünas, professor. 2004–2016-cı illərdə Avstriya Respublikasının Federal Prezidenti olmuşdur. – 86.

**71. Qurbanqulu Berdiməhəmmədov** (d.1957) – Türkmənistan dövlət xadimi. 2007-ci ildən Türkmənistan Respublikasının Prezidentidir. – 87.

**72. Azad Rəhimov,** A z a d A r i f o ğ l u (d.1964) – 2006-cı ildən Azərbaycan Respublikası Gənclər və İdman naziridir. –89.

**73. Fərid Mansurov,** F ə r i d S a l m a n o ğ l u (d.1982) – Yunan-Roma güləşi üzrə Əməkdar idman ustası. 2002-ci ildə dünya çempionatında ikinci yeri, 2004-cü il olimpiadasında birinci yeri tutmuşdur. 2007, 2008-ci illərdə isə dünya çempionu olmuşdur. Azərbaycan Respublikasının «Tərəqqi» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 90.

**74. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 78,4 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 95, 120, 144.

**75. Mahmud Əhmədinejad** (d.1956) – 2005–2013-cü illərdə İran İslam Respublikasının Prezidenti olmuşdur. – 95, 120, 144.

**76. Vatslav Klaus** (d.1941) –2003–2013-cü illərdə Çexiya Respublikasının Prezidenti olmuşdur. – 88.

**77. İsveçrə,** İ s v e ç r ə K o n f e d e r a s i y a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 7,1 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident, həmçinin hökumət başçısıdır.

Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 121–138.

**78. Hans-Rudolf Merts** (d.1942) – İsveçrə siyasətçisi. 2009-cu ildə İsveçrə Konfederasiyasının (1 yanvar – 31 dekabr) Prezidenti olmuşdu. – 122–129, 133–137.

**79. Beynəlxalq Valyuta Fondu** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə, məqsədi beynəlxalq valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. – 125.

**80**. **Eynşteyn Albert** (1879–1955) – dahi alman nəzəriyyəçi-fiziki, müasir fizikanın yaradıcılarından biri. Mühüm əsərləri molekulyar fizika, statistik fizika, kvant nəzəriyyəsi sahəsindədir. Eynşteyn Broun hərəkətinin nəzəriyyəsini vermiş və bu nəzəriyyə sonralar materiyanın atomistik quruluşunu təsdiq edən təcrübələr aparmağa imkan vermişdir.

Eynşteynin ən mühüm elmi nailiyyəti – nisbilik nəzəriyyəsidir. Bu ona dünya şöhrəti qazandırmışdır. Eynşteyn ümumi nisbilik nəzəriyyəsini inkişaf etdirərək vahid sahə nəzəriyyəsi yaratmağa cəhd göstərmişdir. Nobel mükafatı laureatıdır. –130.

**81. Alim Qasımov,** A l i m  H ə m z ə  o ğ l u (d.1957) – xanəndə. Azərbaycan Respublikasının Xalq artisti. Muğam sənətinin, xüsusilə də «tarab» janrının bilicilərindəndir. Alim Qasımov 1999-cu ildə Beynəlxalq İMC YUNESKO musiqi mükafatını almışdır. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. Respublika Dövlət mükafatı laureatıdır. – 133.

**82. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 137, 179, 249.

**83. Əlcəzair,** Ə l c ə z a i r  X a l q  D e m o k r a t i k  R e s p u b l i k a s ı – Şimali Afrikada dövlət. Sahəsi 23 82 min km$^2$, əhalisi 40 milyon nəfərdir. İnzibati ərazisi 48 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Xalq Məclisidir. Paytaxtı Əlcəzair şəhəridir. – 141.

**84. Əbdüləziz Buteflikay** (d.1937) – Əlcəzairin dövlət xadimi, 1999-cu ildən Əlcəzair Respublikasının Prezidentidir. –141.

**85. Əhməd Davudoğlu** (d.1959) – Türkiyənin siyasi xadimi, akademik və səfir. 2009–2014-cü illərdə Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziri, 2014–2016-cı illərdə isə Baş naziri olmuşdur. – 142.

**86. Müslüm Maqomayev,** M ü s l ü m  M ə h ə m m ə d  o ğ l u (1942–2008) – görkəmli Azərbaycan müğənnisi. Azərbaycan Respublikası və SSRİ Xalq artisti. Bəstəkar Müslüm Maqomayevin nəvəsi. Keçmiş SSRİ məkanında və bir çox xarici ölkələrdə müvəffəqiyyətlə çıxış etmişdir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 145–146, 174.

**87. Mehdi Səfəri** (d.1959) – 2001–2005-ci illərdə İranın Asiya – Sakit okean regionu və MDB üzrə İran Xarici İşlər nazirinin müavini olmuşdur. – 144.

**88. Nəbi Xəzri,** N ə b i  Ə l ə k b ə r  o ğ l u  B a b a y e v (1924–2007) – Azərbaycanın Xalq şairi, dramaturq, ictimai xadim. Əsərlərində müasirlərimizin zəngin mənəvi aləmi, təəssübkeşlik, doğma Vətən təbiətinin gözəllikləri tərənnüm edilir. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatıdır. Azərbaycan Yazıçılar Birliyinin katibi, Azərbaycan Ali Sovetinin deputatı olmuşdur. «Azərbaycan Dünyası» Beynəlxalq Əlaqələr Mərkəzinin prezidenti idi. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 145.

**89. Tunis,** T u n i s  R e s p u b l i k a s ı – Şimali Afrikada dövlət. Sahəsi 163,6 min km$^2$, əhalisi 11 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici hakimiyyət Nümayən-

dələr Palatasına (parlament) məxsusdur. Paytaxtı Tunis şəhəridir. – 148.

**90. Zeynulabidin Ben Əli** (d.1936) – Tunis hərbi və dövlət xadimi, general. 1987–2011-ci illərdə Tunis Respublikasının Prezidenti olmuşdur. – 148.

**91. Türkiyə Böyük Millət Məclisi** (TBMM) – Türkiyənin Ali qanunverici orqanı. Parlament 1920-ci il aprelin 23-də yaradılmışdır. BMM-nin ilk sədri M.K.Atatürk olmuşdur. – 149–160.

**92. Dövlət Baxçalı** (d.1948) – Türkiyənin siyasi xadimi, iqtisadçı. 1997-ci ildə Milliyyətçi Hərəkat Partiyasının sədri seçilmişdir. 1999-cu il seçkilərində qalib gələrək Demokratik Sol Partiya və Ana Vətən Partiyası ilə koalisiya hökuməti yaratmışdır. Baş nazirin müavini olmuşdur. 2007-ci ildə keçirilən seçkilərdə yenidən millət vəkili seçilmişdir. – 159.

**93. Fələstin dövləti** – BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli Qərarına əsasən B.Britaniya mandatlığı ləğv edilərək Fələstin ərazisində müstəqil ərəb və yəhudi dövlətləri yaradılmalı idi. Fələstin ərəb dövləti üçün ayrılmış ərazinin böyük hissəsi 1948–49-cu illərdə və 1967-ci ildə İsrail tərəfindən zəbt edilmişdir. 1988-ci ildə Fələstin Azadlıq Təşkilatı müstəqil Fələstin dövlətinin yaranmasını elan etdi. 1994-cü ildə isə Müvəqqəti Fələstin muxtariyyəti yaradıldı. – 185.

**94. Mahmud Abbas** (d.1935) – Fələstin siyasətçisi, Fələstin Milli Administrasiyasının sədri (Fələstin dövlətinin prezidenti) və FƏTH hərəkatının rəhbəridir. – 185.

**95. İşık Koşaner** (d.1945) – Türkiyənin hərb xadimi, ordu generalı. 2010–2011-ci illərdə Türkiyə Quru Qoşunlar Komandanı olmuşdur. – 186.

**96. Bakı Dövlət Universiteti** (BDU) – Bakı Universiteti, Bakı Darülfünunu – müsəlman Şərqində ilk Avropa tipli ali məktəb və elmi-tədqiqat müəssisəsi. Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən təsis olunmuşdur (1919). 1922–94-cü illərdə Azərbaycan Dövlət Universiteti adı ilə fəaliyyət göstərmiş, 1994-cü ildə ilkin adı qaytarılmışdır. Universitetin yaradılmasında F.Xoyskinin, M.Ə.Rəsulzadənin, N.Yusifbəylinin böyük xidmətləri olmuşdur. Universitetin ilk rektoru V.İ.Razumovski idi.

BDU-nun 16 fakültəsi, 121 kafedrası, 80 elmi-tədqiqat və tədris laboratoriyası, 2 institutu, elmi kitabxanası, 6 muzeyi, 4 elmi-tədqiqat mərkəzi, nəşriyyatı və mətbəəsi var. Universitetin əyani və qiyabi şöbələrində bakalavr pilləsində 55 ixtisas, magistr pilləsində 153 ixtisas üzrə 22500-ə yaxın, o cümlədən 12 ölkədən 400-dən artıq tələbə təhsil alır (2010/2011). Universitetdə 1300-dən artıq professor-müəllim, o cümlədən AMEA-nın 8 akademiki, 15 müxbir üzvü, 250-yədək elmlər doktoru, professor, 800-ədək elmlər namizədi, dosent fəaliyyət göstərir. – 188–194.

**97. Abel Məhərrəmov,** Abel Məmmədəli oğlu (d.1950) – kimyaçı. Azərbaycan Milli Elmlər Akademiyasının akademiki. 2010–2015-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin üzvü olmuşdur. 1999-cu ildən Bakı Dövlət Universitetinin rektorudur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 188–194.

**98. Latviya,** L a t v i y a  R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 64,5 min km$^2$, əhalisi 1,9 milyon nəfərdir. İnzibati ərazisi 26 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 195.

**99. Valdis Zatlers** (d.1955) – 2007–2011-ci illərdə Latviya Respublikasının Prezidenti olmuşdur. Peşəsi həkim travmotoloq-ortopeddir. 2011-ci ildən Reforma Partiyasının lideridir. –195.

**100. Oman,** O m a n  S u l t a n l ı ğ ı – Şərqi Ərəbistan yarımadasında dövlət. Sahəsi 309,5 min km$^2$, əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə bölünür. Dövlət başçısı sultandır. Paytaxtı Məskət şəhəridir. – 196.

**101. Qabus bin Səid** (d.1940) – 1970-ci ildən Oman sultanı. Sultan həm də ölkənin Baş naziri, Müdafiə naziri və Xarici İşlər naziri vəzifələrini icra edir. Sultan bin Səid ərəb aləmində yenilikçi və reformator kimi tanınır. – 196.

**102. Anqola,** A n q o l a  R e s p u b l i k a s ı – Cənub-Qərbi Afrikada dövlət. Sahəsi 1246,7 min km$^2$, əhalisi 22,5 milyon nəfərdir. Dövlətin və hökumətin başçısı prezidentdir. Qanunverici orqanı Milli Məclisdir. Paytaxtı Luanda şəhəridir. – 197.

**103. Duş Santuş,** J o z e  E d u a r d u (d.1942) – Anqola Respublikasının Prezidenti və MPLA-nın sədri – 1975-ci ildən nazir vəzifələrində olmuşdur. Ordu generalıdır. Azərbaycan Neft və Kimya İnstitutunda (Azərbaycan Neft Akademiyası) təhsil almışdır. – 197.

**104. Əfqanıstan,** Ə f q a n ı s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 32,5 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəharidir. – 198.

**105. Həmid Kərzai** (d.1957) – 2004–2014-cü illərdə Əfqanıstan İslam Respublikasının Prezidenti olmuşdur. 2001–2002-ci illərdə Əfqanıstanın Baş naziri olmuşdur. – 198.

**106. Beynəlxalq Telekommunikasiya İttifaqı** (BTİ) **–** elektrorabitənin xidmət və qovşaqlarının iştirakçı-dövlətlər çərçivəsində istismarını və maarifləndirməsini uzlaşdıran ümumdünya təşkilatı. BTİ beynəlxalq telekommunikasiyanın nizamlanmasına, standartlaşdırılmasına, uzlaşdırılmasına və inkişafına cavabdehdir. 1865-ci ildə yaradılmışdır. – 205, 207.

**107. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 208.

**108. II İlya** (d.1933) – Gürcüstan Pravoslav kilsəsinin yepiskopu, Patriarxı Katalikon – 208.

**109. Neft Daşları** – Abşeron yarımadasından 42 km cənub-şərqdə, açıq dənizdə polad dirəklər üzərində salınmış «neft» şəhəri. Bu ərazi oradakı daşların (təqribən 20 ədəd) bəzilərində neft-qaz nişanələrinin olması ilə əlaqədar Neft Daşları adlandırılmışdır. Neft Daşları rayonunda geoloji

kəşfiyyat işlərinə 1946-cı ildən başlanılmışdır. Çıxarılan neft həm tankerlər, həm də boru kəmərləri vasitəsilə sahilə nəql edilir. – 209–221.

**110. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 217.

**111. Xoşbəxt Yusifzadə,** X o ş b ə x t B a ğ ı o ğ l u (d.1930) – neftçi-geoloq, geologiya-minerologiya elmləri doktoru. Azərbaycan Milli Elmlər Akademiyasının akademiki. 1994–2000-ci illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, 2004-cü ildən isə birinci vitse-prezidentidir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 221.

**112. Filaret –** Minsk və Slutsk mitropoliti. Belarus üzrə Patriarx Ekzarxı. – 229.

**113. Yuri Kovalyov** (1965–1991) – rus əsilli Azərbaycan Respublikasının Milli qəhrəmanı, Qarabağ müharibəsi şəhidi. – 224.

**114. Yevgeni Karlov** (1960–1992) – rus əsilli Azərbaycan Respublikasının Milli qəhrəmanı. Qarabağ müharibəsi şəhidi. Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. – 224.

**115. Viktor Seryoqin** (1944–1991) – pilot. Azərbaycan Respublikasının Milli qəhrəmanı. Zabrat Əlahiddə Aviasiya Dəstəsinə məxsus Mİ-2 heliopterilə Qarabağ müharibəsində dinc sakinləri xilas edərkən şəhid olmuşdur. –224.

**116. Sergey Senyuşkin** (1957–1992) – Azərbaycan Hərbi Hava Qüvvələrinin yaradıcılarından biri, Azərbaycan Respublikasının Milli qəhrəmanı. Xocalı soyqırımı zamanı dinc əhalini xilas edərkən qəhrəmancasına həlak olmuşdur. – 224.

**117. Birləşmiş Ərəb Əmirlikləri** – Cənubi Asiyada dövlət. Sahəsi 83,6 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. BƏƏ-nin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı Federal Milli Şuradır ki, prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 226.

**118. Şeyx Xəlifə bin Zaid əl-Nəhəyyan** (d.1948) – 2004-cü ildən Birləşmiş Ərəb Əmirliyinin Prezidentidir. – 226.

**119. Dağıstan,** D a ğ ı s t a n R e s p u b l i k a s ı – Rusiya Federasiyasında respublika. Sahəsi 50,3 min km$^2$, əhalisi 3 milyon nəfərdir. Paytaxtı Mahaçqala şəhəridir. Dağıstan ərazisi bizim eradan əvvəl 1-ci minilliyin axırlarına qədər Qafqaz Albaniyası tərkibində olmuşdur. 1813-cü ildə Gülüstan müqaviləsinə əsasən çar Rusiyasına birləşdirilmişdir. – 227.

**120. Muxu Əliyev** (d.1940) – Rusiyanın dövlət xadimi. 1995–2006-cı illərdə Dağıstan Respublikası Milli Məclisinin sədri, 2006–2010-cu illərdə isə prezidenti olmuşdur. – 227.

**121. Çeçenistan** (İçkeriya) – Rusiya Federasiyasında respublika. Sahəsi 15,6 min $km^2$, əhalisi 1,4 milyon nəfərdir.Paytaxtı Qroznı şəhəridir.

Orta əsrlərin əvvəllərində Çeçenistanın xeyli hissəsi Alan dövlətinin tərkibində idi. XIX əsrdə Rusiya Şimali Qafqazı işğal etməyə başladı. Çeçenlər öz torpaqlarından çıxarılır, onların yerinə burada kazaklar yerləşdirilirdi. Bu da Çeçenistanda milli-azadlıq hərəkatının başlanmasına səbəb oldu. Dağlıların bu hərəkatı (1817–1864) 1859-cu ildə Şeyx Şamil təslim olduqdan sonra yatırıldı və Çeçenistan tamamilə Rusiyaya birləşdirildi. 1991–92-ci illərdə Rusiya Federasiyası tərkibində müstəqil Çeçenistan Respublikası yaradıldı. –228.

**122. Patriarx Kirill** (d.1946) – rus pravoslav kilsəsinin yepiskopu. 2009-cu ildən Moskva və bütün Rusiyanın patriarxı. – 229.

**123. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** Allahşükür Hümmət oğlu (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şərəf» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 236.

**124. Sloveniya,** Sloveniya Respublikası – Avropada dövlət. Sahəsi 20,3 min $km^2$, əhalisi 2,0 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Dövlət Şurası və Dövlət Məclisi) parlamentdir. Paytaxtı Lyublyana şəhəridir. – 238–264.

**125. Danilo Tyurk** (d.1952) – Sloveniya hüquqşünası, Beynəlxalq hüquq üzrə mütəxəssis, diplomat. 2007–2012-ci

illərdə Sloveniya Respublikasının Prezidenti olmuşdur. – 238–264.

**126. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 251,252,260.

**127. Ekmələddin İhsanoğlu** (d.1946) – Türkiyə diplomatı, tarix elmləri doktoru, professor. Ana Vətən Partiyasının üzvü. 2005-ci ildən İslam Konfransı Təşkilatının Baş katibidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 266.

**128. Sergey Sidorski** (d.1954) – Belarusun dövlət xadimi. 2003–2010-cu illərdə Belarusda Baş nazir olmuşdur. – 267.

**129. Aleksandr Lukaşenko** (d.1954) – Belarusun dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının Prezidentidir. – 268–278, 280, 289, 293–294.

**130. Georgi Pırvanov** (d.1957) – Bolqarıstan siyasi və dövlət xadimi. Tarix elmləri doktoru. 2002–2012-ci illərdə

Bolqarıstan Respublikasının Prezidenti olmuşdur. – 296–304.

**131. Elşad Nəsirov,** Elşad Mustafa oğlu (d.1960) – 1997–2003-cü illərdə ARDNŞ-in Xarici İqtisadi Əməliyyatlar İdarəsinin, 2003–2005–ci illərdə isə Marketinq və İqtisadi Əməliyyatlar İdarəsinin rəisi, 2005-ci ildən Sərmayələr və Marketinq üzrə vitse-prezidenti vəzifəsində çalışır. – 297.

**132. Nabukko** – Türkmənistan və Azərbaycan qazının Avropa Birliyi ölkələrinə, əsasən Avstriya və Almaniyaya ötürülməsi üçün 3300 km uzunluğunda magistral qaz kəmərinin reallaşmayan layihəsi. – 302,303.

**133. Jelko Komşiç** (d.1964) – Bosniya və Xorvatiya siyasətçisi. 2006–2014-cü illərdə Xorvatiya icmasından Bosniya və Herseqovinanın («ümumi dövlət rəhbəri») Rəyasət Heyətinin sədri olmuşdur. – 305.

**134. Livan,** Livan Respublikası – Qərbi Asiyada, Aralıq dənizinin şərq sahilində dövlət. Sahəsi 10,4 min $km^2$, əhalisi 4,5 milyon nəfərdir. İnzibati cəhətdən 5 mühafazaya bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Beyrut şəhəridir. – 306.

**135. Mişel Süleyman** (d.1948) – Livan siyasətçisi, hərbçi. 2008–2014-cü illərdə Livan Respublikasının Prezidenti olmuşdur. – 306.

**136. Albaniya,** Albaniya Respublikası – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 28,7 min $km^2$,

əhalisi 3 milyon nəfərdir. İnzibati cəhətdən 26 retiyə (rayona) bölünür. Dövlətin başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Tirana şəhəridir. – 307.

**137. Bamir Topi** (d.1957) – Albaniya siyasətçisi. 2007–2012-ci illərdə Albaniya Respublikasının Prezidenti olmuşdur. – 307.

**138. Mavritaniya,** Mavritaniya İslam Respublikası – Qərbi Afrikada dövlət. Sahəsi 1031 min km$^2$, əhalisi 3,89 milyon nəfərdir. İnzibati ərazisi 12 vilayətə, 1 mərkəzi muxtar əyalətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir (Senat və Milli Məclis). Paytaxtı Nuakşot şəhəridir. – 308.

**139. Sidi Məhəmməd Uld Şeyx Abdullahi** (d.1938) – Mavritaniyanın dövlət xadimi. 2007–2008-ci illərdə Mavritaniya İslam Respublikasının Prezidenti olmuşdur. – 308.

**140. Davos İqtisadi forumu,** Dünya İqtisadi forumu – İsveçrənin kurort şəhəri Davosda hər il Ümumdünya İqtisadi forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu forumda iştirak etmişdir. – 316.

## Şəxsi adlar göstəricisi

**Abasov İsmət** – 15,50
**II Abdullah** –73,74,75,77
**Abdullayev Rövnəq** – 14
**Ablameyko Sergey** – 279,280
**Abutalıbov Hacıbala** – 54,59,72,77,121,139,267,304
**Atatürk Mustafa Kamal** – 32
**Baxçalı Dövlət** – 159
**Bakiyev Kurmanbek** – 23,44
**Bartak Martin** – 7
**Ben Əli Zeynulabidin** – 148
**Berdıməhəmmədov Qurbanqulu**– 87
**Berset Alain** – 131–132
**Bin Səid Qabus** – 196
**Bölükbaşı Dəniz** – 158–160
**Bratke Robert** – 47,55,222
**Brayko Sergey** – 187
**Buterflikay Əbdüləziz** – 141
**Cahan Pəhləvan Məhəmməd** – 25
**Çeppet Aleksander** – 130
**Davudoğlu Əhməd** – 142
**Demidoviç İvan** – 51
**Dəhəbi Nader** – 76
**Duş Santuş Joze** – 197
**Eynşteyn Albert** – 130
**Eyyubov Yaqub** – 277
**Əhmədinejad Mahmud** – 95,120,144

**Əl-Maliki Riyad** – 185
**Əl-Nəhəyyan Şeyx Xəlifə** – 226
**Ələkbərov Nizami** – 162
**Əli Şahin Məhmət** – 156

**Əliyev Heydər** –11,13,20,24,25,32,146,157, 161,162,173,174,179,180,182, 190,209,213,214,225,249,293, 319,321
**Əliyev Muxu** – 227
**Əliyev Natiq** – 242,297
**Əliyev Vaqif** – 14
**Əliyeva Mehriban** – 52,72,73,74,77,121,130,145, 162,163, 165,166,171,176, 178,179,183,188,194,205, 230,238,239,249,250
**Əliyeva Zərifə xanım** – 165
**Ərdoğan Rəcəb Tayyib** – 66,154,156
**Fasye Bernar** – 48,55,222
**Filaret** *(mitropolit)* – 223
**Fişer Haynts** – 86
**Gül Abdullah** – 24–44,85,142
**Həsənov Əli** – 310
**Həsənov İlqar** – 89
**Hüseynzadə Mehdi** – 251
**İhsanoğlu Ekmələddin** – 266
**II İlya** – 208
**Jamişev Bolat** – 15
**Jeleva Rumyana** – 143
**Kadırov Ramzan** – 228

**Karlov Yevgeni** – 224
**Kasprşik Anji** – 47,55,222
**Katkovets Nadejda** – 51
**Kaydanov Tina** – 147
**Kərzai Həmid** – 198
**Kirill** (patriarx) – 229
**Klaus Vatslav** – 88
**Komşiç Jelko** – 305
**Kovalyov Yuri** – 224
**Koşaner İşık** – 186
**Kurişbayev Akilbek** – 15
**Qasımov Alim** – 133
**Qaçnik Qoran** – 242
**Qaspari Mitya** – 242,243
**Qənbərov Salman** – 133
**Qimpu Mixay** – 58
**Leuenberger Morits** – 138
**Lukaşenko Aleksandr** – 268–278,280,289,293–294
**Mahmud Abbas** – 185
**Maqomayev Müslüm** – 145–146,174
**Mansurov Fərid** – 90
**Martınov Sergey** – 277
**Matsejkova İvetta** – 48
**Medvedev Dmitri** – 56
**Mehdiyev Ramiz** – 54,59,72,77,121,139,267,304
**Merkel Angela** – 5
**Merts Hems-Rudolf** – 122–129,133–137
**Merzlyakov Yuri** – 47,222
**Məcid Tariq** – 45
**Məhərrəmov Abel** – 188–194

**Məmmədyarov Elmar** – 15,55,243,277,278
**Mərcan Murat** – 156–158
**Məşayi Rəhim** – 95
**Möminə xatın** – 25
**Mustafayev Şahin** – 243
**Naxçıvani Əcəmi** – 25
**Nalbandyan Edvard** – 55
**Nazarbayev Nursultan** – 10–21,24–44
**Nəbi Xəzri** – 145
**Nəsirov Elşad** – 297
**Nuh** (*peyğəmbər*) – 43
**Obama Barak** – 68
**Oki Masamitsu** – 164
**Okonco - İveala Nqozi** – 140
**Panin Vyaseçlav** – 174
**Paşazadə Hacı Allahşükür** – 236
**Perez Paskal** – 318
**Pənahov Musa** – 328
**Pırvanov Georgi** – 296–304
**Pirverdiyev Etibar** – 321
**Ponema Daniel** – 46
**Radkov Aleksandr** – 277
**Raniya** – 73,74,77
**Rasizadə Artur** – 54,59,72,77,121,139,267,304
**Rəhimov Azad** – 89,91
**Roqq Jak** – 69
**Saparliyev Xıdır** – 39
**Sarkisyan Serj** – 55,56,155
**Saudabayev Kanat** – 15
**Semnebi Piter** – 6,309

**Senyuşkin Sergey** – 224
**Seryoqin Viktor** – 224
**Səfəri Mehdi** – 144
**Sidorski Sergey** – 267
**Süleyman Mişel** – 306
**Şərifov Samir** – 15
**Talıbov Vasif** – 22
**Tomson Piter** – 8
**Topi Bamir** – 307
**Traykov Trayço** – 297
**Ture Hamadun** – 207
**Tyurk Danilo** – 238–264
**Tyurk Barbara** – 238,239,249,250
**Uld Əbdüləziz Məhəmməd** – 308
**Vəliyev Elmar** – 129
**Yazıci Hayati** – 265
**Yudhoyono Susilo** – 9
**Yusifzadə Xoşbəxt** – 221
**Zatlers Valdis** – 195
**Zaytsev Vadim** – 278

## Coğrafi adlar göstəricisi


**Abşeron** (*yarımada*) – 200
**Ağsu** – 161,176–184
**Aktau** – 14
**Albaniya** – 307
**Almaniya** – 5,49,114,177
**Altay** – 33
**Amerika Birləşmiş Ştatları** – 46,47,49,55,68,147,222,289
**Anqola** – 197
**Antalya** – 27,33
**Aralıq dənizi** – 289
**Asiya** – 29,33,289
**Astana** – 27
**Avrasiya** – 35,147
**Avropa** – 8,29,33,67,113,114,127,129, 147,178,202,216,232,241, 248,298
**Avstriya** – 86,114,177,323
**Bakı** – 9,11,13,27,29,36,68,69,70, 71,78,81,83,85,86,87,88,120, 141,144,145,148,160,187, 195,196,197,198,200,205, 206,225,226,228,231,245, 247,248,266,305,306,307, 308,310
**Balaxanı** – 199

**Balkan** (*yarımada)* – 245
**Belarus** – 49,51,223,267–294
**Berlin** – 241
**Bern** – 121,122–138
**Bibiheybət** – 111
**Binəqədi** – 310
**Birləşmiş Ərəb Əmirlikləri** – 226
**Bişkek** – 27,38
**Bolqarıstan** – 67,114,119,143,295–304
**Böyük Britaniya** – 323
**Bosniya və Herseqovina** – 305
**Böyük Britaniya** – 205
**Cənubi Qafqaz** – 6,34,36,205,232,282,287,309
**Çeçenistan** – 228
**Çexiya** – 7,88
**Dağıstan** – 227
**Daşkənd** – 27
**Davos** – 126
**Əfqanıstan** – 198
**Əlcəzair** – 141
**Əmman** – 72–77
**Fələstin** –185
**Finlandiya** – 323
**Fransa** – 47,55,200,201,222,316–318
**Gəncə** – 49,273
**Gürcüstan** – 118,153,208
**Helsinki** – 145
**Hövsan** – 89–94
**Xaçmaz** – 187
**Xəzər dənizi** – 16,17,29,205,282,322

**Xocalı** – 151
**İordaniya** – 72–77
**İran** – 95,120,144
**İndoneziya** – 9
**İsmayıllı** – 161–175
**İsrail** – 49
**İstanbul** – 27
**İsveçrə** – 114,121–138
**İtaliya** – 49,114
**İvanovka** – 166,171
**Kəlbəcər** – 62
**Kişinyov** – 54–67,155
**Kür çayı** – 329
**Qafqaz** – 17,35,36,230,245,287
**Qara dəniz** – 118,119,289
**Qazaxıstan** – 10–21,24–44
**Qırğızıstan** – 23–44
**Laçın** – 159
**Lahıc** – 164,166
**Latın Amerikası** – 289
**Latviya** – 49,195
**Litva** – 49,51
**Livan** – 306
**Lyublyana** – 245
**Macarıstan** – 67,114
**Mavritaniya** – 308
**Minsk** – 49,223,267–294
**Moldova** – 54–67
**Molla İsaqlı** – 166
**Moskva** – 58,229

| | |
|---|---|
| **Mərkəzi Asiya** | – 8 |
| **Naxçıvan** | – 22–44,150,160,206 |
| **Naxçıvan Muxtar Respublikası** | – 22–44,50 |
| **Oman** | – 196 |
| **Orta Asiya** | – 35 |
| **Pakistan** | – 45 |
| **Rumınıya** | – 67,114,119 |
| **Rusiya** | – 47,55,56,115,117,118, 153,222 |
| **Sabunçu** | – 199 |
| **Slovakiya** | – 48 |
| **Sloveniya** | – 238–264 |
| **Slutsk** | – 223 |
| **Sofiya** | – 296–304 |
| **Sumqayıt** | – 14,321–329 |
| **Suriya** | – 49,51 |
| **Sürix** | – 121 |
| **Şərqi Avropa** | – 298 |
| **Şimali Qafqaz** | – 232 |
| **Talıstan** | – 170 |
| **Tunis** | – 148 |
| **Türkmənistan** | – 39,87,118 |
| **Türkiyə** | – 24–44,49,62,63,64,65,66,67, 85,115,142,149–160,164, 186,265 |
| **Ukrayna** | – 57,187 |
| **Yaxın Şərq** | – 43 |
| **Yalta** | – 187 |
| **Yaponiya** | – 164 |

**Yevlax** – 328–329
**Yunanıstan** – 67
**Zəngəzur** – 40,41
**Zəngilan** – 315

# MÜNDƏRİCAT

ALMANİYA FEDERATİV RESPUBLİKASININ
FEDERAL KANSLERİ ZATİ-ALİLƏRİ
XANIM ANGELA MERKELƏ

*30 sentyabr 2009-cu il*.........................................................................5

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ
ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER
SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 sentyabr 2009-cu il*.........................................................................6

ÇEXİYA BAŞ NAZİRİNİN MÜAVİNİ, MÜDAFİƏ
NAZİRİ MARTİN BARTAKIN BAŞÇILIQ
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 oktyabr 2009-cu il*.............................................................................7

DÜNYA BANKININ AVROPA VƏ MƏRKƏZİ
ASİYA REGİONU ÜZRƏ DAVAMLI İNKİŞAF
SEKTORUNUN DİREKTORU PİTER
TOMSONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*1 oktyabr 2009-cu il*.............................................................................8

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA

*2 oktyabr 2009-cu il*.......................................................................*9*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*2 oktyabr 2009-cu il*.......................................................................*10*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN TƏKBƏTƏK GÖRÜŞÜ

*2 oktyabr 2009-cu il*.......................................................................*11*

AZƏRBAYCAN VƏ QAZAXISTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*2 oktyabr 2009-cu il*.......................................................................*12*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*2 oktyabr 2009-cu il*.......................................................................*14*

AZƏRBAYCAN VƏ QAZAXISTAN PREZİDENTLƏRİNİN MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLARI

*2 oktyabr 2009-cu il*.......................................................................*16*

QAZAXISTAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ
RƏSMİ NAHAR

*2 oktyabr 2009-cu il* ........................................................................ *19*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM
ƏLİYEVİN TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT
BAŞÇILARININ IX ZİRVƏ GÖRÜŞÜNDƏ
İŞTİRAK ETMƏK ÜÇÜN NAXÇIVANA SƏFƏRİ

*2 oktyabr 2009-cu il*........................................................................ *22*

QIRĞIZISTAN PREZİDENTİ KURMANBEK
BAKİYEV İLƏ GÖRÜŞ

*2 oktyabr 2009-cu il*........................................................................ *23*

TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARI
NAXÇIVANDA ULU ÖNDƏRİN ABİDƏSİNİ
ZİYARƏT ETMİŞLƏR

*2 oktyabr 2009-cu il*........................................................................ *24*

TÜRKDİLLİ XALQLARIN MİLLİ
MUSİQİSİNDƏN İBARƏT KONSERT

*2 oktyabr 2009-cu il*........................................................................ *26*

TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT
BAŞÇILARININ IX ZİRVƏ GÖRÜŞÜ

*3 oktyabr 2009-cu il*........................................................................ *27*

«DUZDAĞ» FİZİOTERAPİYA MƏRKƏZİ İLƏ TANIŞLIQ

*3 oktyabr 2009-cu il.......................................................................43*

TÜRKDİLLİ ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ IX ZİRVƏ GÖRÜŞÜNÜN İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*3 oktyabr 2009-cu il.......................................................................44*

PAKİSTAN SİLAHLI QÜVVƏLƏRİNİN BİRLƏŞMİŞ QƏRARGAHLAR KOMİTƏSİNİN SƏDRİ GENERAL TARİQ MƏCİDİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 oktyabr 2009-cu il.......................................................................45*

ABŞ-ın ENERGETİKA NAZİRİNİN MÜAVİNİ DANİEL PONEMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 oktyabr 2009-cu il.......................................................................46*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*5 oktyabr 2009-cu il.......................................................................47*

SLOVAKİYANIN KONSTİTUSİYA MƏHKƏMƏSİNİN SƏDRİ İVETTA MATSEJKOVANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 oktyabr 2009-cu il*........................................................................ *48*

BAKIDA «CASPİAN AGRO–2009» KƏND TƏSƏRRÜFATI VƏ ƏRZAQ MƏHSULLARININ İSTEHSALI, EMALI VƏ QABLAŞDIRILMASI BEYNƏLXALQ SƏRGİSİ İLƏ TANIŞLIQ

*6 oktyabr 2009-cu il*........................................................................ *49*

PAYTAXTIN FİLARMONİYA BAĞINDA APARILMIŞ ƏSASLI TƏMİR VƏ YENİDƏN-QURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*7 oktyabr 2009-cu il*........................................................................ *52*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN MOLDOVA RESPUBLİKASINA SƏFƏRİ

*8 oktyabr 2009-cu il*........................................................................ *54*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ SERJ SARKİSYANIN GÖRÜŞÜ

*8 oktyabr 2009-cu il*........................................................................ *55*

AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ

*9 oktyabr 2009-cu il*........................................................................ *56*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ UKRAYNA PREZİDENTİ VİKTOR YUŞŞENKONUN GÖRÜŞÜ

*9 oktyabr 2009-cu il*.................................................................57

MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASI

*9 oktyabr 2009-cu il*.................................................................58

AZƏRBAYCAN TELEVİZİYASINA MÜSAHİBƏ

*9 oktyabr 2009-cu il*.................................................................60

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BARAK OBAMAYA

*10 oktyabr 2009-cu il*...............................................................68

BEYNƏLXALQ OLİMPİYA KOMİTƏSİNİN PREZİDENTİ CƏNAB JAK ROQQEYƏ

*10 oktyabr 2009-cu il*...............................................................69

İSLAM KONFRANSI TƏŞKİLATINA ÜZV-DÖVLƏTLƏRİN MƏDƏNİYYƏT NAZİRLƏRİNİN VI KONFRANSININ İŞTİRAKÇILARINA

*12 oktyabr 2009-cu il*...............................................................70

AVROPA ƏDALƏTLİ OYUNLAR HƏRƏKATININ XV KONQRESİNİN İŞTİRAKÇILARINA!

*12 oktyabr 2009-cu il* ........................................................................ *71*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İORDANİYAYA RƏSMİ SƏFƏRİ

*12 oktyabr 2009-cu il* ........................................................................ *72*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RƏSMİ QARŞILANMA MƏRASİMİ

*12 oktyabr 2009-cu il* ........................................................................ *73*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İORDANİYA KRALI II ABDULLAHIN TƏKBƏTƏK GÖRÜŞÜ

*12 oktyabr 2009-cu il* ........................................................................ *74*

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*12 oktyabr 2009-cu il* ........................................................................ *75*

İORDANİYANIN BAŞ NAZİRİ NADER DƏHƏBİ İLƏ GÖRÜŞ

*12 oktyabr 2009-cu il* ........................................................................ *76*

AZƏRBAYCAN PREZİDENTİNİN VƏ
XANIMININ ŞƏRƏFİNƏ RƏSMİ NAHAR

*12 oktyabr 2009-cu il* ........................................................................ *77*

İSLAM KONFRANSI TƏŞKİLATININ ÜZVÜ
OLAN DÖVLƏTLƏRİN MƏDƏNİYYƏT
NAZİRLƏRİNİN VI KONFRANSININ
NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*14 oktyabr 2009-cu il*......................................................................... *78*

«ŞUŞA» TANKERİNİN İSTİSMARA
VERİLMƏSİ MƏRASİMİ

*14 oktyabr 2009-cu il*......................................................................... *84*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ

*15 oktyabr 2009-cu il*......................................................................... *85*

AVSTRİYA RESPUBLİKASININ FEDERAL
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB
HAYNTS FİŞERƏ

*15 oktyabr 2009-cu il*......................................................................... *86*

TÜRKMƏNİSTAN RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB QURBANQULU BERDIMƏHƏMMƏDOVA

*15 oktyabr 2009-cu il*......................................................................... *87*

ÇEXİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB VATSLAV KLAUSA

*15 oktyabr 2009-cu il.....................................................................88*

HÖVSAN OLİMPİYA İDMAN KOMPLEKSİNİN
AÇILIŞ MƏRASİMİ

*15 oktyabr 2009-cu il.....................................................................89*

HÖVSAN QƏSƏBƏSİNDƏ İKİNCİ DÜNYA
MÜHARİBƏSİ VETERANLARI, QARABAĞ
MÜHARİBƏSİ ƏLİLLƏRİ VƏ ŞƏHİD AİLƏLƏRİ
ÜÇÜN TİKİLMİŞ YAŞAYIŞ BİNASININ AÇILIŞI
MƏRASİMİ

*15 oktyabr 2006-cı il.....................................................................92*

İRAN PREZİDENTİNİN İCRA APARATININ
RƏHBƏRİ İSFƏNDİYAR RƏHİM MƏŞAYİNİN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*15 oktyabr 2009-cu il.....................................................................95*

AZƏRBAYCAN RESPUBLİKASININ PRE-
ZİDENTİ İLHAM ƏLİYEVİN RESPUBLİKA
NAZİRLƏR KABİNETİNİN 2009-cu İLİN
DOQQUZ AYININ SOSİAL-İQTİSADİ
İNKİŞAFININ YEKUNLARINA HƏSR
OLUNMUŞ GENİŞ İCLASI

*16 oktyabr 2009-cu il.....................................................................96*

YEKUN NİTQİ .................................................................. *103*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA

*19 oktyabr 2009-cu il* .......................................................... *120*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN İSVEÇRƏYƏ RƏSMİ SƏFƏRİ

*19 oktyabr 2009-cu il* .......................................................... *121*

RƏSMİ QARŞILANMA MƏRASİMİ

*19 oktyabr 2009-cu il* .......................................................... *122*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İSVEÇRƏ KONFEDERA-SİYASININ PREZİDENTİ HANS-RUDOLF MERTSİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*19 oktyabr 2009-cu il* .......................................................... *123*

AZƏRBAYCAN VƏ İSVEÇRƏ PREZİDENTLƏRİNİN MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI

*19 oktyabr 2009-cu il* .......................................................... *125*

BERN ŞƏHƏRİ İLƏ TANIŞLIQ

*19 oktyabr 2009-cu il* .......................................................... *130*

İSVEÇRƏ KANTONLAR ŞURASININ
SƏDRİ ALAİN BERSET İLƏ GÖRÜŞ

*19 oktyabr 2009-cu il* ........................................................ *131*

İSVEÇRƏDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏT
GÜNLƏRİNİN RƏSMİ AÇILIŞI

*19 oktyabr 2009-cu il* ........................................................ *133*

İSVEÇRƏNİN ENERJİ, NƏQLİYYAT, KOMMU-
NİKASİYA VƏ ƏTRAF MÜHİT ÜZRƏ FEDERAL
MÜŞAVİRİ MORİTS LEUENBERGER İLƏ GÖRÜŞ

*20 oktyabr 2009-cu il* ........................................................ *138*

DÜNYA BANKININ SƏRƏNCAMÇI DİREKTORU
NQOZİ OKONCO-İVEALANIN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 oktyabr 2009-cu il* ........................................................ *140*

ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİ-
KASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB
ƏBDÜLƏZİZ BUTEFLİKAYA

*22 oktyabr 2009-cu il* ........................................................ *141*

TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ ƏHMƏD
DAVUDOĞLU İLƏ GÖRÜŞ

*22 oktyabr 2009-cu il* ........................................................ *142*

BOLQARISTANIN XARİCİ İŞLƏR NAZİRİ
XANIM RUMYANA JELEVA İLƏ GÖRÜŞ

*22 oktyabr 2009-cu il*................................................................ *143*

İRANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ
MEHDİ SƏFƏRİ İLƏ GÖRÜŞ

*22 oktyabr 2009-cu il*................................................................ *144*

ZƏMANƏMİZİN GÖRKƏMLİ MUSİQİÇİSİ
MÜSLÜM MAQOMAYEVİN XATİRƏSİNİ
ANMA MƏRASİMİ

*22 oktyabr 2009-cu il*................................................................ *145*

ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ
AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ
XANIM TİNA KAYDANOV İLƏ GÖRÜŞ

*23 oktyabr 2009-cu il*................................................................ *147*

TUNİS RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ZEYNULABİDİN
BEN ƏLİYƏ

*28 oktyabr 2009-cu il*................................................................ *148*

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN
XARİCİ ƏLAQƏLƏR KOMİSSİYASININ
ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*28 oktyabr 2009-cu il*................................................................ *149*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
İSMAYILLI VƏ AĞSU RAYONLARINA SƏFƏRİ

*29 oktyabr 2009-cu il................................................................. 161*

AĞSU RAYONUNDA ULU ÖNDƏR
HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*29 oktyabr 2009-cu il................................................................. 176*

FƏLƏSTİN MUXTARİYYƏTİNİN XARİCİ
İŞLƏR NAZİRİ RİYAD ƏL-MALİKİNİN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*30 oktyabr 2009-cu il................................................................. 185*

TÜRKİYƏNİN QURU QOŞUNLARI KOMAN-
DANI İŞIK KOŞANERİN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 noyabr 2009-cu il..................................................................... 186*

YALTA ŞƏHƏRİNİN BAŞÇISI  SERGEY BRAYKO
İLƏ GÖRÜŞ

*2 noyabr 2009-cu il..................................................................... 187*

BAKI DÖVLƏT UNİVERSİTETİNİN 90 İLLİK
YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ
MƏRASİM

*2 noyabr 2009-cu il..................................................................... 188*

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB VALDİS ZATLERSƏ

*3 noyabr 2009-cu il* ........................................................................ *195*

OMAN SULTANI ƏLAHƏZRƏT QABUS BİN SƏİDƏ

*3 noyabr 2009-cu il* ........................................................................ *196*

ANQOLA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB JOZE EDUARDU
DUŞ SANTUŞA

*3 noyabr 2009-cu il* ........................................................................ *197*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB
HƏMİD KƏRZAİYƏ

*3 noyabr 2009-cu il* ........................................................................ *198*

BAKI BƏRK MƏİŞƏT TULLANTILARININ
YANDIRILMASI ZAVODUNUN
TƏMƏLQOYMA MƏRASİMİ

*3 noyabr 2009-cu il* ........................................................................ *199*

ŞAHMAT ÜZRƏ AVROPA ÇEMPİONATININ
QALİBİ OLMUŞ KİŞİLƏRDƏN İBARƏT
AZƏRBAYCAN MİLLİ KOMANDASININ
ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*3 noyabr 2009-cu il* ........................................................................ *202*

BAKIDA «BAKUTEL–2009» 15-ci YUBİLEY BEYNƏLXALQ TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SƏRGİSİNİN AÇILIŞI MƏRASİMİ

*4 noyabr 2009-cu il* ........................................................................ *205*

BEYNƏLXALQ TELEKOMMUNİKASİYA İTTİFAQININ BAŞ KATİBİ HAMADUN TUREN İLƏ GÖRÜŞ

*4 noyabr 2009-cu il* ........................................................................ *207*

GÜRCÜSTAN PATRİARX KATALİKOSU II İLYANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 noyabr 2009-cu il* ........................................................................ *208*

ƏFSANƏVİ NEFT DAŞLARININ 60 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM

*5 noyabr 2009-cu il* ........................................................................ *209*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*5 noyabr 2009-cu il* ........................................................................ *222*

MİNSK VƏ SLUTSK MİTROPOLİTİ, BELARUS ÜZRƏ PATRİARX EKZARXI FİLARETİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 noyabr 2009-cu il* .................................................................. *223*

AZƏRBAYCAN RUS İCMASININ III QURULTAYININ İŞTİRAKÇILARINA

*5 noyabr 2009-cu il* .................................................................. *224*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAİD ƏL-NƏHƏYYANA

*6 noyabr 2009-cu il* .................................................................. *226*

DAĞISTAN PREZİDENTİ MUXU ƏLİYEVİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 noyabr 2009-cu il* .................................................................. *227*

ÇEÇENİSTAN RESPUBLİKASININ PREZİDENTİ RAMZAN KADIROV İLƏ GÖRÜŞ

*6 noyabr 2009-cu il* .................................................................. *228*

MOSKVANIN VƏ BÜTÜN RUSİYANIN PATRİARXI KİRİLL İLƏ GÖRÜŞ

*6 noyabr 2009-cu il* .................................................................. *229*

«DİNLƏRARASI DİALOQ: QARŞILIQLI ANLAŞMADAN BİRGƏ ƏMƏKDAŞLIĞA DOĞRU» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANS

*7 noyabr 2009-cu il* .................................................................... *230*

BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ ZİYAFƏT

*6 noyabr 2009-cu il* .................................................................... *237*

SLOVENİYA RESPUBLİKASININ PREZİDENTİ DANİLO TYURKUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*9 noyabr 2009-cu il* .................................................................... *238*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ SLOVENİYA PREZİDENTİ DANİLO TYURKUN TƏKBƏTƏK GÖRÜŞÜ

*9 noyabr 2009-cu il* .................................................................... *239*

AZƏRBAYCAN VƏ SLOVENİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*9 noyabr 2009-cu il* .................................................................... *240*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*9 noyabr 2009-cu il* .................................................................... *242*

AZƏRBAYCAN VƏ SLOVENİYA PREZİDENT-
LƏRİNİN MƏTBUAT ÜÇÜN BƏYANATLARLA
ÇIXIŞLARI

*9 noyabr 2009-cu il* .................................................................. *244*

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*9 noyabr 2009-cu il* .................................................................. *249*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*10 noyabr 2009-cu il* ................................................................ *250*

AZƏRBAYCAN–SLOVENİYA BİZNES-FORUMU

*10 noyabr 2009-cu il* ................................................................ *255*

TÜRKİYƏNİN DÖVLƏT NAZİRİ HAYATİ YAZICI-
NIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*11 noyabr 2009-cu il* ................................................................ *265*

İSLAM KONFRANSI TƏŞKİLATININ BAŞ KATİBİ
EKMƏLƏDDİN İHSANOĞLU İLƏ GÖRÜŞ

*11 noyabr 2009-cu il* ................................................................ *266*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
BELARUSA RƏSMİ SƏFƏRİ

*11 noyabr 2009-cu il* ................................................................ *267*

RƏSMİ QARŞILANMA MƏRASİMİ

*12 noyabr 2009-cu il* ........................................................................ *268*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
VƏ BELARUS PREZİDENTİ ALEKSANDR LUKA-
ŞENKONUN TƏKBƏTƏK GÖRÜŞÜ

*12 noyabr 2009-cu il* ........................................................................ *269*

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ
GÖRÜŞÜ

*12 noyabr 2009-cu il* ........................................................................ *272*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*12 noyabr 2009-cu il* ........................................................................ *277*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ
BELARUS DÖVLƏT UNİVERSİTETİNİN FƏXRİ
PROFESSORU ADININ VERİLMƏSİ MƏRASİMİ

*11 noyabr 2009-cu il* ........................................................................ *279*

«AQAT» ELM-İSTEHSALAT BİRLİYİ İLƏ TANIŞLIQ

*12 noyabr 2009-cu il* ........................................................................ *292*

AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ
RƏSMİ QƏBUL

*12 noyabr 2009-cu il* ........................................................................ *293*

AZƏRBAYCAN RESPUBLİKASININ
PREZİDENTİ İLHAM ƏLİYEVİN
BOLQARISTANA İŞGÜZAR SƏFƏRİ

*13 noyabr 2009-cu il* .................................................................. *295*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM
ƏLİYEVİN VƏ BOLQARISTAN PREZİDENTİ
GEORGİ PIRVANOVUN GÖRÜŞÜ

*13 noyabr 2009-cu il* .................................................................. *296*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*13 noyabr 2009-cu il* .................................................................. *297*

DÖVLƏT BAŞÇILARININ MƏTBUAT
KONFRANSINDA BƏYANATLARLA
ÇIXIŞLARI

*14 noyabr 2009-cu il* .................................................................. *298*

BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT
HEYƏTİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB
JELKO KOMŞİÇƏ

*16 noyabr 2009-cu il* .................................................................. *305*

LİVAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MİŞEL SÜLEYMANA

*16 noyabr 2009-cu il* .................................................................. *306*

ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BAMİR TOPİYƏ

*16 noyabr 2009-cu il* ........................................................................ *307*

MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ULD ƏBDÜLƏZİZƏ

*16 noyabr 2009-cu il* ........................................................................ *308*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 noyabr 2009-cu il* ........................................................................ *309*

BAKIDA MƏCBURİ KÖÇKÜN AİLƏLƏRİ ÜÇÜN TİKİLMİŞ YAŞAYIŞ BİNALARI KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*17 noyabr 2009-cu il* ........................................................................ *310*

FRANSA SAHİBKARLAR TƏŞKİLATININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 noyabr 2009-cu il* ........................................................................ *316*

«AZƏRBAYCAN TƏLƏBƏ GƏNCLƏR TƏŞKİLAT-LARI İTTİFAQI» İCTİMAİ BİRLİYİNİN TƏSİS QURULTAYINA

*18 noyabr 2009-cu il* ........................................................................ *319*

SUMQAYIT ELEKTRİK STANSİYASININ
İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*19 noyabr 2009-cu il* ........................................................ *321*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
YEVLAX RAYONUNA SƏFƏRİ

*19 noyabr 2009-cu il* ........................................................ *328*

QEYDLƏR ........................................................ *330*

*Şəxsi adlar göstəricisi* ........................................................ *366*

*Coğrafi adlar göstəricisi* ........................................................ *371*

| | |
|---|---|
| **Texniki redaktor** | ***Zoya Nəcəfova*** |
| **Yığım üzrə operator** | ***İlhamə Kərimova*** |
| **Kompyuter tərtibatı** | ***Məhəbbət Orucov*** |

Cildin hazırlanmasında AzərTAc-ın
materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x108 1/32. Ofset kağızı 1.
Şərti çap vərəqi 25,0. Uçot vərəqi 25,5 Tirajı 5000.
Müqavilə qiyməti ilə.

Cildin hazırlanmasında AZƏRTAC-ın
materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x108 1/32. Ofset kağızı 1.
Şərti çap vərəqi 25,0. Uçot vərəqi 25,5 Tirajı 5000.
Müqavilə qiymәti ilә.

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan Dövlət Nəşriyyatı.
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.